**ŞƏFƏQ HÜSEYN QIZI ABDULLAYEVA**

# BÖYÜK BRİTANİYA İQTİSADİYYATI

**(Dərs vəsaiti)**

**ADU-nun Elmi Şurasının**
**35 saylı 29 mart 2024-cü il iclas**
**protokolu ilə təsdiq edilmişdir.**

**BAKI – 2025**

**Elmi redaktor:** **dosent, i.e.n. N.Ö.Hacıyev**
UNEC Biznes Məktəbinin direktoru,
İqtisadiyyat və biznesin idarə
edilməsi kafedrası

**Rəyçilər:** **professor, i.e.d. M.A.Məmmədov**
Az.MİU-nun Xidmət sahələrinin iqtisadiyyatı
və menecment kafedrasının müdiri

**dosent, i.f.d. S.E.Məhərrəmova**
Azərbaycan Dillər Universitetinin
Fəlsəfə və ictimai elmlər kafedrası

**Şəfəq Hüseyn qızı Abdullayeva. Böyük Britaniyanın iqtisadiyyatı. Dərs vəsaiti. Azərbaycan dilində. Bakı, 2024, 340 səh.**

Dərs vəsaitində Böyük Britaniyanın coğrafi mövqeyi, qısa tarixi, iqtisadiyyatının ümumi xarakteristikası və infrastrukturu, nəqliyyat və turizm sektoru, maliyyə-kredit sistemi, demoqrafiyası, əmək bazarı, sosial-iqtisadi problemləri, dünya iqtisadiyyatında yeri və mövqeyi, investisiya siyasəti, həmçinin, Azərbaycan Respublikası ilə iqtisadi əlaqələri araşdırılmışdır.

# Mündəricat

**Giriş**.........................................................................7-10

## I FƏSİL
## Böyük Britaniya iqtisadiyyatının ümumi xarakteristikası

**1.1.** Böyük Britaniya haqqında anlayış...........................11-22
**1.2.** Böyük Britaniya iqtisadiyyatı haqqında ümumi anlayış.........................................................................22-28
**1.3.** Böyük Britaniya iqtisadiyyatının inkişaf mərhələləri.....................................................................28-58
**1.4.** Böyük Britaniyanın iqtisadi rayonları.......................59-76
**1.5.** Böyük Britaniyanın ekologiyası...............................76-82

## II FƏSİL
## Böyük Britaniya iqtisadiyyatının aparıcı sahələri

**2.1.** Böyük Britaniyanın sənayesi....................................83-91
**2.2.** Böyük Britaniyanın yanacaq-energetika kompleksi...................................................................91-109
**2.3.** Böyük Britaniyanın kənd təsərrüfatı....................109-116
**2.4.** Böyük Britaniyanın nəqliyyat sistemi...................117-125
**2.5.** Böyük Britaniyanın turizm sistemi......................125-136
**2.6.** Böyük Britaniyada turizm mərkəzləri..................136-153

## III FƏSİL
## Böyük Britaniyanın maliyyə-kredit, bank sistemi

**3.1.** Böyük Britaniyanın maliyyə sistemi....................154-162
**3.2.** Böyük Britaniyanın büdcə sistemi........................162-172
**3.3.** Böyük Britaniyanın vergi sistemi..........................172-186
**3.4.** Böyük Britaniyanın bank sistemi...........................187-196
**3.5.** İngiltərə Bankının fəaliyyət istiqamətləri..............196-204
**3.6.** London Fond Birjası……………………….....….204-207
**3.7.** Böyük Britaniyanın pul-kredit sistemi..................208-216

## IV FƏSİL
## Böyük Britaniyanın sosial-iqtisadi problemləri

**4.1.** Böyük Britaniyanın demoqrafiyası.......................217-222
**4.2.** Böyük Britaniya əmək bazarının regional inkişafı……………………………………………………..222-236
**4.3.** Böyük Britaniya əmək bazarında qloballaşma və miqrantlar.................................................................236-241
**4.4.** Böyük Britaniyada işsizlik və məşğulluq səviyyəsi....................................................................242-246
**4.5.** Böyük Britaniya Hökumətinin Məşğulluq və İşsizlik Siyasəti...................................................................246-254
**4.6.** Böyük Britaniyada işə götürmə bazarının xüsusiyyətləri.............................................................254-261

# V FƏSİL
## Dünya iqtisadiyyatında Böyük Britaniyanın yeri və rolu

**5.1.** Böyük Britaniyanın dünya iqtisadiyyatında mövqeyi.........................................................................262-265
**5.2.** Böyük Britaniyanın Avropada yeri və rolu...........265-277
**5.3.** Birləşmiş Krallığın Avropa İttifaqının genişlənmə və dərinləşmə siyasətində mövqeyi............................................277-285
**5.4.** Böyük Britaniya iqtisadiyyatının innovativ yönümlülüyü.......................................................................285-301
**5.5.** Böyük Britaniyada Azad İqtisadi Zonaların fəaliyyəti.......................................................................301-306
**5.6.** Böyük Britaniyanın investisiya siyasəti...............306-315
**5.7.** Böyük Britaniyanın xarici iqtisadi əlaqələri..........315-322
**5.8.** Böyük Britaniyanın Azərbaycan Respublikası ilə iqtisadi əlaqələri.........................................................................322-330

**İstifadə edilmiş ədəbiyyat siyahısı**.........................331-340






**Ərazi** - 244,8 min kv.km
**Paytaxt** - London
**İri şəhərlər** - Birminhen, Qlazqo, Liverpul
**Əhali** - 69,2 mln. nəfər (2023-cü il)
**ÜDM** - 3,1 trln. dollar (2022-ci il)
**ÜDM-nin artım səviyyəsi** - 1,3% (2022-ci il)
**Adambaşına düşən ÜDM** - 45,1 min dollar (2022-ci il)
**Yoxsulluq səviyyəsi** - 17,5% (2022-ci il)
**İşsizlik səviyyəsi** - 3,7% (2022-ci il)
**İqtisadi fəal əhali** - 34 mln. nəfər (2022-ci il)
**İnflyasiya səviyyəsi** - 10% (2022-ci il)

**İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir.**
**Heydər Əliyev**

# GİRİŞ

Müasir dövrdə dövlətlərarası münasibətlərdə iqtisadiyyat başlıca rola malikdir. İqtisadiyyatın başlıca rola malik olması ilə əlaqədar olaraq dünya ölkələri haqqında iqtisadi biliklərin öyrənilməsi böyük əhəmiyyət kəsb edir.

Dünyada mövcud olan hər bir ölkə bu və ya digər xüsusiyyətləri özündə əks etdirməklə bir-birindən sosial-iqtisadi quruluş, inkişaf səviyyəsi, təbii ehtiyatlarla zənginlik və iqtisadi strategiyaya görə fərqlənirlər.

XX əsrdə Böyük Britaniyanın mövqelərinin zəifləməsi prosesinin xüsusiyyətləri hər şeydən əvvəl onun qüdrətli dövründə Britaniya kapitalizminin strukturunun xarakterinin kökündə dayanır. Axır son onilliklərə qədər ölkə dünyadakı uzunmüddətli sənaye və kolonial monopoliyasından miras qalmış ənənələri çətinliklə dəf edirdi. Böyük Britaniyanın dünyadakı mövqelərinin XX əsrdə evolyusiyasını (tədrici dəyişmə və inkişaf prosesi), iri biznesin müxtəlif qrupları arasında olan maraqlardakı fərqləri nəzərə almadan başa düşmək mümkün deyildir.

Uzun müddət ərzində Londonun kolonial-xammal şirkətlərinin və maliyyə müəssisələrinin güclü koalisiyasının fəaliyyəti iqtisadiyyatın inkişafına əngəlləyici təsir göstərmişdir.

Əsas diqqəti hər şeydən əvvəl kapitalın ixracına yönəldən sənaye transmilli şirkətləri gücləndikcə, sənaye dairələrində də maraqların bölüşdürülməsi baş verirdi. Onların ən nüfuzlu hissəsi öz maraqlarını daha çox milli istehsalla deyil, xarici istehsalla

uzlaşdırırdı. Hakim sinifdə qüvvələrin yerləşməsinin belə özünəməxsusluğu Böyük Britaniya iqtisadiyyatının dünyadakı dəyişən şəraitə uyğunlaşmasının səmərəliliyini aşağı salırdı.

Böyük Britaniya iqtisadiyyatının yeni şəraitə adaptasiyası prosesinin uzanması əhəmiyyətli dərəcədə sosial çevikliyin aşağı səviyyəsi, elitar elementlərin saxlanması, sosial strukturun müəyyən kastalığı ilə şərtlənmişdir. Buna onu da əlavə etmək lazımdır ki, dünyada şərait dəyişdikcə, dünyaya ağalığın demək olar ki, çox əsrlik tarixi ərzində Britaniya elitasının topladığı təcrübə iqtisadi, sosial və siyasi problemlərin həlli zamanı hər zaman və hər yerdə daha çox maneəyə çevrilirdi, nəinki üstünlüyə. Məsələn, hakim qüvvələrin ölkənin təsərrüfat imkanlarını və aparılan hərbi xarici siyasəti ağılla və öz vaxtında uzlaşdırmağı bacarmamaları, iqtisadiyyatı yeni şəraitə uyğunlaşdırmaq cəhdlərində baş verən uğursuzluqları əsasən müəyyən etmiş oldu. Bütün bu, şəraitlər bir çox cəhətdən digər inkişaf etmiş ölkələrlə müqayisədə iqtisadiyyatın daha az artımını, təsərrüfatda bütövlükdə, sənayedə isə xüsusən, ləng struktur dəyişikliklərini şərtləndirdi.

Rəqabət aparanlarla müqayisədə daha zəif artım sürətinin arxasında təsərrüfatın yenilənməsi intensivliyində, əsas fondların həcmində və əməyin fond tutumunun səviyyəsində, istehsalın səmərəliliyində və Britaniya məhsullarının xarici bazarlarda rəqabətliliyində olan mövcud geriləmə dayanırdı.

Son illərdə təsərrüfatın idarə edilməsi mexanizmi əhəmiyyətli dəyişikliklərə məruz qaldı. Hər şeydən əvvəl onun əhəmiyyətli dərəcədə qeyri-mərkəzləşməsi baş verdi. Böyük Britaniya konservatorların (köhnə fikir və qaydaların tərəfdarları) hakimiyyəti dövründə Qərbdə geniş miqyaslı özəlləşdirmənin pionerinə çevrildi. Cari onilliyin sonunda, leyboristlər (siyasi partiya) iqtisadiyyatın

idarə edilməsi üzrə bir sıra funksiyaları Şotlandiya və Uelsdə regional hakimiyyət orqanlarına ötürdülər. Həm konservatorların, həm də leyboristlərin hökumətləri dövlət sektorunun fəaliyyətində bazar əsaslarını fəal şəkildə tətbiq edirdilər.

Beləliklə, tarixin dialektikası ondan ibarətdir ki, əgər XX əsrin birinci yarısında öz miqyasına görə unikal olan imperiya əlaqələrinin ümumdünya sistemi Böyük Britaniyanın ABŞ-la yanaşı ən güclü iki kapitalist dövlətindən biri kimi rolu və statusunu təmin edirdisə, yüzilliyin ikinci yarısı şəraitində metropoliyanın həmin sistemdən həddən artıq yüksək asılılığı onun “Axilles dabanı”na (zəif və həssas yerlər “Axillesin dabanı” adlandırılır) çevirdi.

Ən son onilliklərə qədər dünya iqtisadiyyatında qüvvələr nisbəti Böyük Britaniyanın xeyrinə formalaşmamışdır. Nəticədə, XXİ əsrin əvvəlinə onun rolu əhəmiyyətli dərəcədə azalmışdır. Bütün bunlara baxmayaraq Böyük Britaniya hal-hazırda dünya iqtisadiyyatında öz sözünü deyən ölkələrdən biridir.

Dərs vəsaitində Böyük Britaniya iqtisadiyyatının mahiyyəti, yaranması və formalaşması; ölkə iqtisadiyyatının başlıca cəhətləri; maliyyə-kredit, bank sistemi; sosial-iqtisadi problemləri; dünya iqtisadiyyatındakı yeri və rolu konkret şərh olunmuşdur. Həmçinin dərs vəsaitində Böyük Britaniya Azərbaycan Respublikası ilə xarici iqtisadi əlaqələri öz əksini tapmışdır. Ümumilikdə, dərs vəsaitində Böyük Britaniya iqtisadiyyatının mövcud vəziyyəti və problemlərinə diqqət verilmişdir.

Dərs vəsaiti haqqında konstruktiv fikir və tövsiyələrini bildirəcək hörmətli oxuculara əvvəlcədən dərin minnətdarlığımı bildirirəm.

**professor, i.f.d. Şəfəq Hüseyn qızı Abdullayeva**

**Böyük Britaniyanı güclü edəcək hər şeyi var:**
**sonradan əldə edilənlər təkan vericidir.**
**Marqaret Tetçer**

# I FƏSİL
# BÖYÜK BRİTANİYA İQTİSADİYYATININ XARAKTERİSTİKASI

## 1.1. Böyük Britaniya haqqında anlayış

**Plan:**
**1. Böyük Britaniyanın coğrafi mövqeyi**
**2. Böyük Britaniyanın qısa tarixi**
**3. Böyük Britaniyanın demoqrafiyası**
**4. Böyük Britaniya iqtisadiyyatının qısa xülasəsi**

**Coğrafi mövqeyi.** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, Birləşmiş Krallıq (qısa şəkildə Böyük Britaniya və ya Britaniya kimi işlədilir) – şimal-qərbi Avropa dövlətidir. Dövlətin tərkibinə Böyük Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi və çoxsaylı kiçik adalar daxildir. Britaniya Avropaya Fransanın La-Manş kanalı ilə birləşir.

Böyük Britaniya tərkibində dörd dövlət – İngiltərə, Şotlandiya, Uels və Şimali İrlandiya olmaqla konstitusiyalı monarxiyadır. Dövlətin hazırkı monarxı III Çarlzdır. Kral dünyanın daha 17 müstəqil dövlətinin başçısı sayılır. Bunlar bir vaxtlar yer səthinin 1/4-ni zəbt etmiş Britaniya İmperiyasından qalmış ərazilərdir.

Böyük Britaniyanın sahəsi 244,8 min kv.km, sahil uzunluğu isə 17,8 min km-dir. Cənub sahili Avropa qitəsi ilə uzunluğu 50 km olan (38 km su altında olmaqla) avrotunel vasitəsilə birləşir. Bu, dünyada ən uzun sualtı tuneldir. İrlandiyanın Şimali İrlandiya Respublikası ilə 360 km-lik quru sərhədi var. Bu, Böyük Britaniyanın yeganə quru sərhədidir.

Böyük Britaniya 4 tarixi-coğrafi vilayətdən ibarətdir:

- İngiltərə (Böyük Britaniya adaları);
- Uels;
- Şotlandiya;
- Şimali İrlandiya.

Böyük Britaniya adaları, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetland adaları və bir sıra kiçik adalar Birləşmiş Krallığın tərkibinə daxildir. Uayt adası İngiltərəyə, Anqlsi adası Uelsə, Hebrid, Şetland və Orkney adaları Şotlandiyaya mənsubdur.

İngiltərə – 34 qraflığa (two-tier counties), 32 London inzibati rayonuna və 1 London şəhərinə (və ya Böyük London), 36 metropoliya-qraflığa (metropolitan county), 46 unitar rayona (unitary authoritities) bölünür. Şimali İrlandiya 26 rayon şurasından ibarətdir. Şotlandiya 32, Uels isə 22 unitar rayona bölünürlər.

Britaniyanın bir çox adaları (Böyük Britaniya, İrlandiya adasının şimal-şərq hissəsi, həmçinin kiçik ada və arxipelaqlar: Hebrid, Orkney və Şetland adaları, Anqlsi, Arran, Uayt) Atlantik okeanında yerləşir. Sahil əraziləri Şimal, İrlandiya, Kelts və Hebrid dənizləri ilə yuyulur.

**İngiltərə** Böyük Britaniyanın yarısından çox ərazisini əhatə edir (130,4 min kv.km). Bunun böyük bir hissəsi ovalıqlardan ibarətdir. Yüksəkliklər əsasən ərazinin şimal (Pennins) və şimal-

qərbində (Kamberlend) cəmlənmişdir. Ən uzun çayları Temza, Severn və Humberdir.

**Şotlandiya** Böyük Britaniyanın 78,8 min kv.km-ni əhatə edir. Bölgənin ərazisinə əsasən qərb və şimal hissələrində yerləşən 8 ada daxildir (Hebrid, Orkney, Şetland və başqa adalar).

Şotlandiya iki tamamilə müxtəlif regionlardan ibarətdir:

- şimal-qərb hissədə yerləşən Şimali-Şotlandiya dağlıq ərazi (Haylend);

- cənub-şərq hissədə yerləşən Loulend.

Haylendə demək olar ki, Şotlandiyanın bütün dağlıq ərazisini əhatə edir (Ben Nevis 1,4 min m hündürlüyü ilə Britaniya adalarının ən yüksək zirvəsi hesab olunur).

**Uels** Böyük Britaniyanın 20,8 min kv.km-ni əhatə edir. Bura əsasən dağlıq ərazidir. Əsas əhali və sənaye sahələri Kardiff, Svansea və Nyuport sahil şəhərlərində, o cümlədən Cənubi Uelsdə yerləşir. Uelsin ən yüksək dağları Snoudonda (Snoudon dağı 1,1 min m) yerləşir.

**Şimali İrlandiya** yalnız 13,9 min kv.km ərazini əhatə edir və əsasən dağlıq bölgədir. Şimali İrlandiyaın ən yüksək nöqtəsi 852 m hündürlüyü olan Sliv-Donard zirvəsi hesab olunur.

Britaniyada çox da məhsuldar olmayan podzol, qonur meşə **torpaq** növlərindən əkinçilikdə geniş istifadə olunur. Ərazinin 10%-i **meşə** ilə örtülü olsa da, onlar su qoruyucu və istirahət xarakterlidir. Ölkənin oduncağa olan tələbatının ancaq 15%-ni ödəmək mümkündür. Britaniya ərazisinin 46%-i otlaq və 25%-i isə kənd təsərrüfatı üçün istifadə edilir [19, s.114].

Böyük Britaniya bir sıra **təbii ehtiyatlarlarla** zənğindir: daş kömür, neft, təbii qaz, əhəng daşı, metal, duz, gil, gips, qurğuşun, manqan və s.

Böyük Britaniya təsərrüfatının ərazi strukturunun formalaşmasında təbii şərait - təbii ehtiyat faktoru başlıca rol oynamışdır. Xüsusilə, alçaq dağlıq sahələrin ətəklərində, Şotlandiya düzənliyi ərazisində mövcud olan 6 böyük həmçinin çoxlu sayda xırda kömür yataqlarının aşkarlanması qədim sənaye rayonlarının əmələ gəlməsinə səbəb olmuşdur. Ölkədə ümumi kömür ehtiyatı 190 milyard ton təşkil edir.

Neft ehtiyatı 7 mlrd. tondan artıq deyildir. Neft əsasən Şimal dənizi hövzəsində aşkarlanmışdır. 1975-ci ildən sənaye əhəmiyyətli Fortis, Brent, Ninian, Payper, Beril, Statford və başqa mədənlər aşkar edilmişdir.

Leman, İndefatiqeybl, Xevett yataqlarında 4 trln. kub metr qaz ehtiyatı vardır. 1960-cı ilə qədər ölkədə olan tələbat kömürdən alınan qaza əsaslanırdı.

Tərkibində dəmirin xüsusi çəkisi 28%-i olan dəmir filizi başlıca olaraq Norttempşirdədir. Ehtiyatı 6 mlrd. tondan azdır.

Gümüş, qurğüşün, qalay, mis ehtiyatı Kornuoll adasındadır.

Darem və Çeşirdə daş duz, Yorkşirdə kalium duzu, Kormuollda volfram bu və ya digər ölçüdə ehtiyatlar mövcuddur.

Qeyd etmək lazımdır ki, aşkarlanmış mineral təbii sərvətlər qədimdən istehsala malik olduqlarından onların çoxunun ehtiyatı ya tükənmiş, ya da ki, tükənmək üzrədir. Bu səbəbdən də müvafiq təsərrüfat sahələri gətirilmə xammalara əsaslanırlar.

Ölkənin çox da uzun olmayan sulu **çaylarından** Severnini (354 km), Temzanı (340 km), Merseyam, Taynanı, Uiram, Xamberi, Klaydam, eləcə də Tisi qeyd edə bilərik. Çaylardan dağlıq ərazilərdə elektrik enerjisinin alınmasında, suvarmada, nəqliyyatda istifadə olunur.

Çəkilmiş kanalların ümumi uzunluğu 350 km-dən artıq olmamaqla onlardan nəqliyyatda da istifadə edilir.

Şimali-Qərbi İngiltərə və Şimali Şotlandiya dağ **göllərinə** malikdirlər. Onların möcüzəli sahilləri ilboyu çoxlu sayda turist və idmançıların axınına səbəb olur.

Təbii şəraitin aparıcı elementi olan **iqlim** mülayim kontinental okean xarakterlidir. Bu da havanın qeyri-sabit, dumanlı, çiskinli və küləkli keçməsinə səbəb olur.

Böyük Britaniyanın qışı çox yumşaq və rütubətli olur. Temperaturun gedişi ərazinin müxtəlif yerlərində 3 - (-)18°S arasında dəyişir.

Ölkədə yay sərin keçir. Temperaturun gedişi ərazinin müxtəlif yerlərində 12-32°S arasında dəyişir. Atmosfer yağıtılarının illik gedişi də dəyişkən olmaqla ərazi üzərə 600-2000 mm-dən artığa çatır.

**Qısa tarixi anlayış.** Birləşmiş Krallığın ən qədim xalqları keltlər idi. E.ə. 55 və e.ə. 410 illəri arasında Britaniya adaları Roma İmperiyasına bağlı Britannia əyalətini təşkil edirdi. V əsrdə bölgə xristianlığın təsiri altına girdi. Eyni illərdə cermen bir xalq olan anqlo-sakslar böyük kütlə halında köç etdilər. İngilislər bu cermen irqlərinin davamını meydana gətirməkdədirlər. Şotlandlar, uelslilər və irlandiyalılar isə keltlərin davamıdır.

Britaniya İmperiyası bir vaxtlar dünyanın yeganə supergücü sayılırdı. Lakin ardıcıl dünya muharibələri və XX əsrin 2-ci yarısından imperiyada başlayan tənəzzül prosesi onun süqutuna gətirib çıxardı. Bununla belə, Britaniya müasir dünyanın əhəmiyyətli siyasi, mədəni, iqtisadi nüvə-hərbi gücü kimi qalmaqdadır.

Britaniya Birləşmiş Millətlər Təşkilatı yanında Təhlükəsizlik Şurasının daimi üzvü, Böyük Yeddilərin, həmçinin Britaniya

Millətlər Birliyinin üzv dövləti və II Dünya müharibəsini keçmiş 8 qalib ölkələrdən biridir [19, s.167].

**Dövlət quruluşu** – parlamentli monarxiyadır. Ölkədə vahid konstitutsiya yoxdur. Parlament tərəfindən qəbul edilən qanunvericilik aktları və məhkəmə presedentləri konstitutsiya maddələri əhəmiyyətini daşıyır.

Dövlətin başçısı – Kral III Çarlzdır. Dövlətin qanunverici orqanı Lordlar və İcmalar palatalarından ibarət olan parlamentdir.

**Demoqrafiya.** 2023-cü ilin məlumatına görə Böyük Britaniyanın 69,2 mln. nəfər əhalisi var. Onun 49,2%-i kişi, 50,8%-i qadındır.

Ölkədə əhali sıxlığı yüksəkdir. Hər kv.km-ə 274,5 nəfər düşür.

Ölkənin milli tərkibində ingilislər 81,5%, şotlandlar 10%, irlandlar 4% xüsusi çəkiyə malikdir.

Əhalinin 17,3%-ni 0-15 yaşarası, 66,2%-ni 15-65 yaşarası, 16,5%-ni 65 və daha çox yaşarası olanlardır.

Şəhər əhalisinin çəkisi 89%-dir.

Britaniya əhalisinin 34 mln. nəfəri iqtisadi fəal əhalidir. İqtisadi fəal əhalinin 28%-i maddi istehsalının aparıcı sahəsi hesab edilən sənayedə, 2%-i kənd təsərrüfatında, 70%-i isə xidmət sferasında çalışmaqdadır.

Əhalinin orta ömür müddəti kişilər üçün 78 il, qadınlar üçün isə 82,3 ildir.

Ölkədə savadlılıq səviyyəsi 99%-dir.

Birləşmiş Krallıqda hakim din xristianlığın müxtəlif formalarıdır. Əhalinin 71,1%-i xristian, 4,4%-i müsəlman, 21%-i ateist və digər dinlərə etiqad edənlərdir.

İngilis dili dövlət dili olmaqla dünyada 500 mln. insan bu dildə ünsiyyət saxlayır.

**İqtisadiyyat.** XIX əsrin axırlarınadək Böyük Britaniya dünya təsərrüfatında ağalıq etmişdir. Bunun başlıca səbəbi Böyük Britaniyanın kapitalizmin vətəni, sənaye çevrilişinin beşiyi olması, "dünyanın sənaye emalatxanasına" çevrilməsi ilə izah olunur.

Bununla yanaşı, olduqca iri müstəmləkələrə malik Böyük Britaniya, bu müstəmləkələrin istismar edilməsindən böyük gəlir götürürdü. Nəhayət, La-Manş və Pa-de-Kale boğazlarından keçən mühüm dəniz ticarət yollarında əlverişli coğrafi mövqeyi ölkəyə Yer kürəsinin bütün regionları ilə əlaqə yaratmağa imkan verirdi.

Böyük Britaniyanın iqtisadiyyatının sürətli inkişafına ölkə ərazisində müxtəlif faydalı qazıntı yataqlarının, xüsusilə dəmir filizi və daş kömür hövzələrinin bir-birinə yaxın yerləşməsi çox böyük təsir göstərmişdir. Belə amil metallurgiyanın güclü inkişafına şərait yaratmışdır. Metallurgiyanın inkişafı isə müstəmləkələrin ələ keçirilməsində və bu da Böyük Britaniyanın dünya okeanında hökmranlıq edilməsində mühüm rol oynayan güclü dəniz donanmasının yaradılmasına imkan vermişdir.

Keçmiş mövqeyini itirməsinə baxmayaraq Böyük Britaniya indi də dünyanın yüksək inkişaf etmiş sənayeyə malik başlıca ölkələrindən biridir. Böyük Britaniya İnkişaf Etmiş Ölkələr arasında kapital ixracatına görə yalnız ABŞ və Yaponiyadan geri qalır.

XX əsrin 80-ci illərindən başlayaraq neft hasilatının sürətlə artması onun iqtisadi strukturunun yenidən qurulmasına, iqtisadiyyatın inkişafına imkan yaratmışdır. Bununla yanaşı Böyük Britaniya, əvvəllər Britaniya imperiyasına daxil olan ölkələrin Birliyini yaratmış və ona rəhbərlik edir. Bu, keçmiş müstəmləkə

ölkələri ilə əlaqələri tənzimləyən özünəməxsus iqtisadi birlik formasıdır.

Ölkə iqtisadiyyatının mühüm sahələri aşağıdakılardır: sənaye, kənd təsərrüfatı və ÜDM-nin 75%-ni formalaşdıran xidmət sektorudur.

| Xidmət sektoru, % | Sənaye, % | Kənd təsərrüfatı, % |
|---|---|---|
| 75 | 23,8 | 1,2 |

**Cədvəl 1.1. Böyük Britaniya iqtisadiyyatının sahələri**

Böyük Britaniyanın 2022-ci il üçün bəzi makroiqtisadi göstəriciləri aşağıdakı cədvəldə göstərilmişdir.

| ÜDM (trln. dollar) | ÜDM-nin artımı, % | Adambaşına düşən ÜDM (min dollar) | İşsizlik, % | İnflyasiya, % | Yoxsullq 17,5% |
|---|---|---|---|---|---|
| 3,1 | 1,3 | 45,1 | 3,7 | 10 | 10 |

**Cədvəl 1.2. Böyük Britaniyanın 2022-ci il üçün makroiqtisadi göstəriciləri**

Böyük Britaniya **sənayesinin** strukturu digər basilica İEÖ-i xatırladır. Mürəkkəb və çoxsahəli maşınqayırma mühüm rol oynayır. Elektrotexnika, elektronika, aviakosmik sənayenin, cihazqayırma və avtomobilqayırmanın inkişafına görə London, Birmingem-Koventri rayonları; dəzgahqayırma və avtomobilqayırmaya görə Birminhem; toxuculuq maşınqayırmasına görə Mançester; gəmiqayırmaya görə Qlazqo; idxal xammala əsaslanan metallurgiyanın inkişafına görə Şeffild, Kardiff və dəniz sahili şəhərlər fərqlənir.

Kimya sənayesi Şimal dənizinin dayazlıqlarından çıxarılan neft və təbii qaza əsaslanır.

Böyük Britaniyanın intensiv inkişaf etmiş **kənd təsərrüfatında** heyvandarlıq üstünlük təşkil edir. Ölkənin şimal və qərbində günəşli günlərin məhdudluğu taxıl bitkilərinin yetişdirilməsinə imkan vermir. Rütubətli okean iqlimində otlaq və çəmənliklər mal-qaranı yaşıl otla yaxşı təmin edir. Kənd təsərrüfatı məhsullarına buğda, tərəvəz, balıq, dana, quzu və quş əti aiddir.

Böyük Britaniyanın kənd təsərrüfatı əhalinin ərzağa olan tələbatını tam təmin etmir.

Böyük Britaniya iqtisadiyyatının əsas aparıcı sahəsi **xidmət** sektorlarıdır (ÜDM-nin 75%-ni təşkil edir).

Böyük Britaniyada **nəqliyyat sistemi** yaxşı inkişaf etmişdir. Ölkədə yük (90%) və sərnişindaşımada (80%) **avtomobil** nəqliyyatının böyük rolu vardır. Britaniyada avtomobil yollarının uzunluğu 400 min km-dir. Onun 3,5 min km-i avtomagistral yollar təşkil edir.

Ölkədə **dəmir yolunun** uzunluğu 17 min km-dir.

Böyük Britaniyada 471-ə yaxın **hava limanı** fəaliyyət göstərir və bunlar vasitəsilə dünyanın 100-dən çox ölkəsinin aviaşirkətləri arasında əlaqə mövcuddur.

Britaniyanın hər birisinin yük dövriyyəsi 1 mln. tondan çox olan 36 və hər birisinin illik dövriyyəsi 10 mln. tondan artıq olan 13 **dəniz limanı** fəaliyyət göstərir. London (66 mln. ton), Liverpol, Qlazqo, Sallom Vo (40 mln. ton), Milford-Xeyven (35 mln. ton), Sautqempton (32mln. ton), İmminqem (20 mln. ton), Tyurt-Tolbot (11 mln. ton), Redkar və digər limanların adlarını çəkə bilərik.

Ölkədə **daxili su** nəqliyyatının uzunluğu 5 min km-dir. Ölkədə 200-dən çox çay limanı fəaliyyət göstərir ki, əsası London çay limanıdır.

Böyük Britaniyada neft **boru** kəmərinin uzunluğu 4 min km, neft məhsulları boru kəmərinin uzunluğu 540 km, qaz boru kəmərinin uzunluğu 13 min km, sıxılmış neft qaz boru kəmərinin uzunluğu 101 km-dir.

Böyük Britaniya iqtisadiyyatının aparıcı sahələrindən biri **turizmdir**. Turizm sektoru ölkədə ÜDM-nin 9%-ni, iş yerlərinin isə 11%-ni təşkil edir.

Ölkədə əyalətlər üzrə turist axınları aşağıdakı kimi paylanır:

- ölkənin cənub-şərqi (London) – 52%;
- qərbi (İrlandiya) – 25%;
- Uels – 12%;
- Şimali Şotlandiya – 11%.

2020-2022-ci illərdə dünyanı bürüyən pandemiya səbəbindən ölkəni ziyarət edənlərin sayı azalmışdır. 2022-ci ildə Britaniyanı 11 mln. turist ziyarət etmişdir (2019-cu ildə isə 37 mln. turist gəlmiş və 28 mlrd. funt sterlinq xərcləmişdilər).

Hesab edilir ki, 1690-cı ildə İngiltərə bankının və Kral birjasının yaradılması London **maliyyə** bazarının təşkilati bazasının təməlini qoymuşdur. Merkantilist ticari-iqtisadi və maliyyə siyasəti, habelə XVIII əsrin sənaye inqilabı iki əsr ərzində Londonu dünyanın yeganə maliyyə mərkəzinə çevirmişdir. Bu status Britaniya İmperiyasının iqtisadi qüdrətinə və funt sterlinq dünya valyuta sisteminin əsasında duran əsas pul vahidi rolunu oynadığına görə, Britaniya qızıl standartına istinad etmişdir [19, s.114].

I və II Dünya müharibələri arasındakı dövrdə Nyu-York dünyada maliyyə bazarı kimi birinci yer tutan Londonun mövqelərini xeyli zəiflətsə də, o, öz aparıcı mövqeyini saxladı və 1960-cı illərdən beynəlxalq avrovalyuta bazarına çevrildi. Londonun mövqeyinin möhkəmlənməsi istiqamətində atılan növbəti addım 1987-ci ildə

Beynəlxalq Fond Birjasının yaradılması nəticəsində qiymətli kağızlarla ticarət sahəsində cəlbedici yerə çevrilməsi oldu. XXI əsrin əvvəlində də bu rol dəyişmədən yüksək səviyyədə qalır.

**Xarici ticarət** Böyük Britaniya iqtisadiyyatı üçün çox vacib sahələrdən biridir. Çünki ölkə beynəlxalq bazarlarda müstəsna mövqe tutur. Böyük Britaniya dünya bazarının məhsul, xidmət və kapital ixracının böyük bir hissəsini təşkil edir. Hazırda dünya məhsul ixracının 6,7%-ni, idxalının 4,2%-ni təşkil edir.

| **İxrac tərəfdaşları, %** | **Əsas ixrac məhsulları** | **İdxal tərəfdaşları, %** | **Əsas idxal məhsulları** |
|---|---|---|---|
| ABŞ - 13,8<br>AFR - 11,5<br>Niderland - 7,8<br>Fransa - 7,6<br>İrlandiya - 7,5<br>Belçika - 5,3<br>İspaniya - 4,1 | maşınqayırma məhsulları, yanacaq, kimya sənayesi məhsulları, ərzaq, içki, tütün | AFR - 13<br>ABŞ - 8,7<br>Çin - 7,5<br>Niderland - 7,4<br>Fransa - 6,8<br>Norveç - 6<br>Belçika - 4,7 | maşınqayırma məhsulları, avadanlıqlar, yanacaq, ərzaq |

**Cədvəl 1.3. Böyük Britaniyanın 2022-ci il üçün əsas ticarət tərəfdaşları və ixrac-idxal məhsulları**

Böyük Britaniya Krallığı **Azərbaycan Respublikasının** müstəqilliyini 1991-ci ilin dekabr ayında tanımış və Azərbaycanın Avropada Əməkdaşlıq və Təhlükəsizlik Konfransında (hazırda Təşkilat adlanır) iştirakını dəstəkləmişdir. 1993-cu ildə Britaniyanın Azərbaycanda, 1994-cü ildə isə Azərbaycanın Böyük Britaniyada səfirliyi açılmışdır.

2022-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi 1 mlrd. dollar olmuşdur. O cümlədən, ixracın həcmi 778 mln., idxal isə 222 mln. dollar təşkil etmişdir.

Ümumilikdə Böyük Britaniyanın xarici ticarətində Azərbaycanın payı 0,1%-dır. Öz növbəsində, Azərbaycandan Böyük Britaniyaya neft tədarükü bütün ixracın 81,3%-ni təşkil edir. Bundan əlavə elektrik generatorlarının tədarükü 27,4%, məişət texnikasının isə 4,3%-dır.

Azərbaycanın xarici ticarətində Böyük Britaniyanın payı 10,4%-dır. Böyük Britaniyadan Azərbaycana əsas ixrac məhsulları texnologiya, mühəndis və neft-kimya avadanlığı, eləcə də tekstil məhsullarıdır.

Beləliklə, bunu qeyd etmək olar ki, Böyük Britaniya öz iqtisadi gücünə görə dünya siyasəti və iqtisadiyyatında söz sahiblərindən biridir. Müasir dövrün beynəlxalq münasibətlərində Britaniyanın özünəməxsus yeri və üstün mövqeyi vardır.

## 1.2. Böyük Britaniya iqtisadiyyatı haqqında anlayış

**Plan:**

**1. Böyük Britaniya bazar iqtisadiyyatına malik "köhnə" ölkə kimi**

**2. Böyük Britaniya iqtisadiyyatının özünəməxsusluğu**

**Böyük Britaniya bazar iqtisadiyyatına malik "köhnə" ölkə kimi.** Böyük Britaniya dünyanın ən inkişaf etmiş kapitalist ölkəsidir. Məhz Böyük Britaniya bazar iqtisadiyyatına malik "köhnə" ölkələrdən biridir və burada kapitalist istehsal münasibətləri təşəkkül tapmış, ilk beynəlxalq şirkətlər yaranmışdır.

Böyük Britaniya ilk dəniz və ticarət nəhəngi hesab edilmiş, bir neçə əsrlər ərzində dünyada ən iri dəniz donanmasına malik olmuşdur.

Beynəlxalq dəniz və hava yollarının kəsişməsində ada olaraq yerləşməsi ölkənin hərtərəfli xarici əlaqələrinin inkişafı üçün sərfəli şərait yaratmışdır.

Uzun müddət ərzində Böyük Britaniya kapitalın ən iri ixracatçısı, həmçinin XX əsrin ortalarına qədər dünyada ən iri müstəmləkələrə malik olmuşdur.

II Dünya müharibəsindən sonrakı dövrdə Böyük Britaniyanın iqtisadi gücü sarsıldı. Ölkə demək olar ki, özünün bütün müstəmləkələrindən məhrum oldu. ABŞ-dan maliyyə və iqtisadi asılılığı artdı.

XX əsrdə Böyük Britaniyanın mövqelərinin zəifləməsi prosesinin xüsusiyyətləri hər şeydən əvvəl onun qüdrətli dövründə Britaniya kapitalizminin strukturunun xarakterinin kökündə dayanır. Axır son onilliklərə qədər ölkə dünyadakı uzunmüddətli sənaye və kolonial monopoliyasından miras qalmış ənənələri çətinliklə dəf edirdi.

Böyük Britaniyanın dünyadakı mövqelərinin XX əsrdə evolyusiyasını (inkişaf prosesi), iri biznesin müxtəlif qrupları arasında olan maraqlardakı fərqləri nəzərə almadan başa düşmək mümkün deyildir.

Təsərrüfat inkişafının tarixin dərinliklərində qalmış xüsusiyyətlərindən biri, uzun müddət ərzində mövcud olmuş sənaye və bank kapitalı arasındakı müəyyən soyuqluqdur. Ölkənin dünya bazarındakı əvvəlki monopolist mövqeyi ona xidmət edirdi ki, sənaye iri həcmdə borc vəsaitlərinə ehtiyac hiss etmirdi.

Hal-hazırki dövrdə belə soyuqluq aradan qaldırılıbdır. Lakin bu günə qədər Böyük Britaniya digər Avropa ölkələrində yerləşən şirkətlərinin xarici mənbələrdən maliyyələşməsində daha az xüsusi çəkisi ilə fərqlənir. Uzun müddət ərzində Londonun kolonial-xammal

şirkətlərinin və maliyyə müəssisələrinin güclü koalisiyasının fəaliyyəti iqtisadiyyatın inkişafına əngəlləyici təsir göstərmişdir.

Əsas diqqəti hər şeydən əvvəl kapitalın ixracına yönəldən sənaye transmilli şirkətləri gücləndikcə, sənaye dairələrində də maraqların bölüşdürülməsi baş verirdi. Onların ən nüfuzlu hissəsi öz maraqlarını daha çox milli istehsalla deyil, xarici istehsalla uzlaşdırırdı. Hakim sinifdə qüvvələrin yerləşməsinin belə özünəməxsusluğu Böyük Britaniya iqtisadiyyatının dünyadakı dəyişən şəraitə uyğunlaşmasının səmərəliliyini aşağı salırdı.

Böyük Britaniya iqtisadiyyatının yeni şəraitə adaptasiyası prosesinin uzanması əhəmiyyətli dərəcədə sosial çevikliyin aşağı səviyyəsi, elitar elementlərin saxlanması, sosial strukturun müəyyən kastalığı ilə şərtlənmişdir. Buna onu da əlavə etmək lazımdır ki, dünyada şərait tədricən dəyişdikcə, dünyaya ağalığın demək olar əsrlik tarixi ərzində Britaniya elitasının topladığı təcrübə iqtisadi, sosial və siyasi problemlərin həlli zamanı hər zaman və hər yerdə daha çox maneəyə çevrilirdi. Məsələn, hakim qüvvələrin ölkənin təsərrüfat imkanlarını və aparılan hərbi xarici siyasəti ağılla və öz vaxtında uzlaşdırmağı bacarmamaları, iqtisadiyyatı yeni şəraitə uyğunlaşdırmaq cəhdlərində baş verən uğursuzluqları əsasən müəyyən etmiş oldu.

Bütün bu, şəraitlər bir çox cəhətdən digər inkişaf etmiş ölkələrlə müqayisədə iqtisadiyyatın daha az artımını, təsərrüfatda bütövlükdə, sənayedə isə xüsusən, ləng struktur dəyişikliklərini şərtləndirdi. Rəqabət aparanlarla müqayisədə daha zəif artım sürətinin arxasında təsərrüfatın yenilənməsi intensivliyində, əsas fondların həcmində, əməyin fond tutumunun səviyyəsində, istehsalın səmərəliliyində və Britaniya məhsullarının xarici bazarlarda rəqabətliliyində olan mövcud geriləmə dayanırdı.

Müasir dövrdə, yəni qloballaşmanın hər bir sahədə dərinləşdiyi şəraitdə baş verən tendensiyalara adekvat dövlət modelinin formalaşdırılması, dövlət tərəfindən hazırlanması və tətbiq edilməsi nəzərdə tutulan tənzimləmə mexanizmlərinin, alətlərin kəsərli olması tələb olunur. Bu istiqamətdə dövlətin milli iqtisadiyyatın balanslaşdırılmış inkişafı üzrə prioritet və strateji vəzifələrinin əsas funksiyalarına aşağıdakılar daxil edilə bilər:

- iqtisadiyyatın artım və inkişaf proseslərində bilik amilinin roluna üstünlük verilməsi və gücləndirilməsi;
- iqtisadiyyatın struktur dəyişikliklərinin aparılması və diversifikasiya proseslərinin optimallaşdırılması;
- iqtisadi artımın və iqtisadi inkişafın stimullaşdırılması mexanizmlərinin işlənib hazırlanması və reallaşdırılması;
- cəmiyyətlə mülkiyyətçilər arasında münasibətlərin diferensiallaşdırılması, müxtəlif iqtisadiyyat sahələrinin milliləşdirilməsi proseslərində tarazlıq prinsiplərinin qorunması;
- ölkə və xarici kapitalın qarşılıqlı hərəkətinin səmərəliliyinin təşkili;
- iqtisadi artımın və iqtisadi inkişafın regional yanaşmasında daha optimallaşdırılmış modelə üstünlük verilməsi və s.

Hal-hazırda Böyük Britaniya yüksək səviyyədə inkişaf etmiş sənaye ölkəsi olaraq dünya təsərrüfat sistemində mühüm yer tutur. O, ÜDM-nin həcminə görə (3,1 trln. dollar (2022-ci il)) dünyada 9-cu yerdədir.

Sənaye istehsalı həcminə görə Böyük Britaniya inkişaf etmiş iqtisadiyyata malik ölkələr arasında 5-ci sırada yerləşir.

Keyfiyyətli kənd təsərrüfatı məhsulları istehsalı səviyyəsinə görə isə dünyada ilk pillələrdədir.

Böyük Britaniya fəaliyyətdə olan iri donanmaya malikdir. Donanma sayına görə İngiltərə dünyada 3-cü yerdədir.

ÜDM-nin 4,2%-i və dünya əhalisinin 1%-i (69,2 mln.) onun payına düşür.

Əmək qabiliyyətli əhali Böyük Britaniya əhalisinin demək olar ki, yarısını (34 mln.) təşkil edir.

Xarici sərmayələrin həcminə görə Böyük Britaniya dünyada 2-ci yerdə durur.

Böyük Britaniya iqtisadiyyatının əsas cəhətləri aşağıdakılardır:

- müstəqillik;
- dünya iqtisadi sisteminə inteqrasiya;
- kifayət qədər inkişaf səviyyəsidir.

Dövlətin yeri və əhəmiyyəti yalnız onun dünya sənaye istehsalında və beynəlxalq ticarətdəki xüsusi çəkisi ilə ölçülə bilməz.

İndiki dövrdə Böyük Britaniya əvvəlki kimi nəhəng dövlətlərdən biri kimi qalır və dünyada beynəlxalq iqtisadi-siyasi münasibətlərin inkişafına ciddi təsir göstərir.

**Böyük Britaniya iqtisadiyyatının özünəməxsusluğu.** Ölkə iqtisadiyyatının inkişafında ən mühüm meylərdən biri regionların iqtisadi fəallığının artırılması, onların dünya iqtisadi proseslərinə inteqrasiyasının təşkili və ixrac potensialının formalaşdırılmasıdır. Bu sahədə sabit və davamlı dövlət siyasətinin yürüdülməsi diqqəti cəlb edir.

Böyük Britaniya iqtisadiyyatının əsas fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, ölkə AFR və Fransada olduğu kimi sosial bazar təsərrüfatı prinsipləri əsasında inkişaf etmir. Neoliberal Anqlo-Sakson inkişaf modelindən istifadə edir. Ona görə də

Britaniya modeli daha çox ABŞ modelinə yaxındır və Avropa ölkələrindən xeyli fərqlənir [2, s. 58].

Böyük Britaniya iqtisadiyyatının özünəməxsusluğu və onun dünya təsərrüfat sistemində mövqeyi cari yüzillikdə ölkənin inkişafının xüsusiyyətlərini əks etdirir.

Son illərdə təsərrüfatın idarə edilməsi mexanizmi əhəmiyyətli dəyişikliklərə məruz qalmışdır. Hər şeydən əvvəl onun əhəmiyyətli dərəcədə qeyri-mərkəzləşməsi baş vermişdir.

Böyük Britaniya konservatorların hakimiyyəti dövründə Qərbdə geniş miqyaslı özəlləşdirmənin pionerinə çevrildi. Cari onilliyin sonunda, leyboristlər iqtisadiyyatın idarə edilməsi üzrə bir sıra funksiyaları Şotlandiya və Uelsdə regional hakimiyyət orqanlarına ötürdülər. Həm konservatorların, həm də leyboristlərin hökumətləri dövlət sektorunun fəaliyyətində bazar əsaslarını fəal şəkildə tətbiq edirdilər, ictimai işlərin və xidmətlərin özəlləşdirilməsini həyata keçirirdilər, sosial problemlərin həllində isə özəl sektorun iştirakını genişləndirirdilər.

Beləliklə, tarixin dialektikası ondan ibarətdir ki, əgər XX əsrin birinci yarısında öz miqyasına görə unikal olan imperiya əlaqələrinin ümumdünya sistemi Böyük Britaniyanın ABŞ-la yanaşı ən güclü iki kapitalist dövlətindən biri kimi rolu və statusunu təmin edirdisə, yüzilliyin ikinci yarısı şəraitində metropoliyanın həmin sistemdən həddən artıq yüksək asılılığı onun “Axilles dabanı”na çevrilmişdir. Ən son onilliklərə qədər dünya iqtisadiyyatında qüvvələr nisbəti Böyük Britaniyanın xeyrinə formalaşmamışdır.

Ölkə iqtisadiyyatının inkişaf etdirilməsi üçün Böyük Britaniya beynəlxalq bazarlarda aşağıdakı məhsullar üzrə carı və potensial üstünlüklərə malikdir:

- yeyinti və yüngül sənaye məhsulları;

- kimya sənayesi məhsulları;
- metallurgiya sənayesi məhsulları;
- tikinti materialları;
- maşınlar, mexanizmlər və avadanlıqlar.

Daha sonra cari və potensial müqayisəli üstünlüyə malik olduğumuz sahələrin inkişafının təmin edilməsi nəticəsində istehsalın və ixracın sahə strukturunun təkmilləşdirilməsi, mövcud təbii-iqtisadi potensialın fəal surətdə təsərrüfat dövriyyəsinə cəlb edilməsi və elmi-texniki potensialın inkişaf etdirilməsi zəruri hesab olunmuşdur.

Qeyd etmək lazımdır ki, hazırda ölkə qarşısında duran əsas vəzifə iqtisadiyyatı şaxələndirmək, xalqının rifah halını yaxşılaşdırmaq, böyük infrastruktur layihələri icra etmək və beləliklə, uzunmüddətli inkişaf üçün daha da güclü zəmin yaratmaqdır.

## 1.3. Böyük Britaniya iqtisadiyyatının inkişaf mərhələləri

**Plan:**

**1. Böyük Britaniya iqtisadiyyatı I Dünya müharibəsi illərində**

**2. Böyük Britaniya iqtisadiyyatı kapitalizmin nisbi sabitləşməsi dövründə (1924-1929-cu illər)**

**3. Böyük Britaniya dünya iqtisadi böhranı illərində (1929-1933-cü illər)**

**4. Böyük Britaniya iqtisadiyyatı II Dünya müharibəsi illərində**

**5. Böyük Britaniya iqtisadiyyatı II Dünya müharibəsi illərindən sonrakı dövrdə**

**6. Böyük Britaniya iqtisadiyyatı 60-cı illərdə**

**7. Böyük Britaniya iqtisadiyyatı 70-ci illərdə**
**8. Böyük Britaniya iqtisadiyyatı 80-cı illərdə**
**9. Böyük Britaniya iqtisadiyyatı 90-cı illərdə**
**10. Böyük Britaniya iqtisadiyyatı müasir dövrdə**

**Böyük Britaniya iqtisadiyyatı I Dünya müharibəsi illərində.** 1914-1918-ci illəri əhatə edən I Dünya müharibəsinin başlıca iştirakçılarından biri də Antantanın əsas təşkilatçılarından olan Böyük Britaniya idi. Antanta dövlətlərinin canlı qüvvə və maddi cəhətdən üstünlüyü onların, o cümlədən, Böyük Britaniyanın müharibədə qələbəsinə səbəb oldu.

I Dünya müharibəsi ölkə iqtisadiyyatında mühüm dəyişikliklər yaratdı. Müharibədən qabaq İngiltərə iqtisadiyyatında yaranmış iqtisadi böhran təzahürləri müharibə sona çatdıqdan sonra daha qabarıq formada özünü büruzə verdi. Müharibə dövründə ingilis məhsullarının ixracı əsaslı şəkildə ixtisar edildi. İdxal isə iki dəfə artdı.

İngiltərə xarici dövlətlərdən istiqraz almağa məcbur oldu. Onun ABŞ-a borc 1919-cu ildə 850 mln. funt-sterlinqə çatdı. Əgər müharibəyə qədər ABŞ İngiltərəyə borclu idisə, müharibədən sonra İngiltərə ABŞ-a borclu oldu. Müharibə dövründə İngiltərə məcbur oldu ki, xaricə kapital qoyuluşunu 25% ixtisar etsin. Müharibə ərzində İngiltərənin daxili borcları 10 dəfə artaraq 645 mln. funt-sterlinqdən 6,5 mlrd. funt-sterlinqə çatdı [9, s.189].

İngiltərə iqtisadiyyatı müharibə dövründə qeyri-bərabər inkişaf edirdi. Ənənəvi sənaye sahələri olan kömürçıxarma, gəmiçilik, toxuculuq sənayesi bu dövrdə durğunluq keçirirdi. Yeni sənaye sahələri olan kimya, avtomobil, aviasiya, silah istehsalı isə sürətlə inkişaf edirdi.

Müharibə İngiltərədə kənd təsərrüfatı məhsulları istehsalının xeyli artımına səbəb oldu. Lakin buna baxmayaraq əhalinin kənd təsərrüfatına tələbatının ancaq 43,6%-i ölkənin öz məhsulları hesabına ödənilirdi. Bu dövrlərdə İngiltərə iqtisadiyyatında baş verən ən mühüm dəyişiklikdən biri dövlət-kapitalizm meylinin güclənməsi, inhisarçı kapitalın gücünün artması idi.

1916-cı ildə Britaniya Sənaye Federasiyası yaradıldı. Müharibənin sonunda bu Federasiya 18 min firmanı özündə birləşdirirdi. Bu Federasiya İngiltərədə kapitalizmin inkişafında mühüm mərhələ açdı.

1918-ci ilin noyabr ayının 11-də səhər saat 11-də İngiltərədə I Dünya müharibəsinin qurtardığı elan edildi.

Müharibə qurtardıqdan 1920-ci ilin ortalarına qədər keçən dövrdə ölkədə sənaye-ticarət yüksəlişi dövrü oldu. Bu dövrdə İngiltərə iqtisadiyyatı və xarici siyasətində canlanma özünü göstərdi.

1919-1920-ci illərdə çuqun istehsalı 8,1%, polad istehsalı 15,%, gəmiqayırma 25,4%, ixrac isə 38,1% artdı.

Sənaye məhsulu istehsalı müharibənin sonuna yaxın ümumilikdə artsa da, 1913-cü il səviyyəsindən 10%, ixrac 30% geri qalırdı.

Əgər 1913-cü ildə həmkarlar ittifaqları üzvlərinin 2,1%-i işsiz idisə, 1919-cu və 1920-ci illərdə 2,4%-i işsiz idi.

Sənayedə və ticarətdə canlanmanı tezliklə güclü inflyasiya əvəz etdi. 1920-ci ildə artıq infilyasiyanın səviyyəsi 225%-ə qalxdı. Əlbəttə, bu inhisarlara daha çox gəlirlərini artırmağa imkan verdi. Ölkənin zəhmətkeş kütlələrinin həyat səviyyəsi isə xeyli dərəcədə aşağı endi.

1919-1920-ci illərdə İngiltərənin kənd təsərrüfatı da sənayedən fərqlənirdi. Belə ki, 1919-cu ilin oktyabrın 21-də Lloyd

Corc (britaniyalı siyasətçi) fermerlərin maraqlarını müdafiə edən siyasət yürüdülməsini hökumətin qarşısında qoydu. Bu siyasətdə məqsəd xüsusi kənd sahibkarlarından daha çox ərzaq alınmasına nail olmaq idi.

1919-1920-ci illərin ticarət-sənaye canlanması öz ziddiyyətliliyi ilə seçilirdi.

1920-ci ilin ikinci yarısında İngiltərə iqtisadiyyatını bürüyən, müharibədən sonrakı ilk böhran ingilis burjuaziyasının ciddi sarsıntısına səbəb oldu.

1920-ci ildə başlayan dərin iqtisadi böhran dünya iqtisadi böhranı deyildi. Lakin qabaqcıl kapitalist ölkələri olan ABŞ və İngiltərə böhrandan ciddi zərər çəkdilər. Böhran uzun sürmədi. İngiltərədə böhran nəticəsində sənaye indeksi 1913-cü illə müqayisədə 100-dən 1920-ci ildə 61,5-ə düşdü.

Ölkədə daş kömür çıxarılması 1913-cü illə müqayisədə 163 mln. ton azalaraq 230 mln. tona, çuqun məhsulları istehsalı 8 mln. tondan 2,6 mln. tona, polad istehsalı 9,1 mln. tondan 3,7 milyon tona, pambıq istehsalı 10,5 min sentrə endi [9, s.193].

Böhran dövründə İngiltərənin xarici ticarət dövriyyəsi azalaraq ixrac 44,6 %-ə, idxal isə 39,8%-a endi [9, s.193].

Böhran maliyyə sahəsinə xüsusilə ağır təsir göstərdi və iflasların sayı çoxaldı.

Böhran zamanı qiymətlərdə də ciddi dəyişikliklər baş verdi. Artıq 1920-ci ilin əvvəllərində qiymətlər aşağı düşməyə başladı. Kənd təsərrüfatı məhsullarının qiyməti də aşağı düşməyə başladı.

Sənaye məhsulu istehsalı ən çox 1921-ci ilin ikinci kvartalında azaldı.

Böhrandan sonra İngiltərə iqtisadiyyatı birdən-birə yüksəliş dövrünə keçmədi. 1922-1923-cü illərdə İngiltərə iqtisadiyyatı

durğunluq dövrü keçirdi. Bu da onunla izah olunurdu ki, bu dövrdə mühərəbədən əvvəlki dövrlə müqayisədə sənaye və ticarət xeyli geridə qalırdı.

**Böyük Britaniya iqtisadiyyatı kapitalizmin nisbi sabitləşməsi dövründə (1924-1929-cu illər).** 1924-cü ilə yaxın kapitalizmin nisbi sabitləşməsi dövrü başlandı. İqtisadiyyat sahəsində kapitalizmin sabitləşməsi özünü onda göstərdi ki, müharibədən sonrakı ilk illərdə başlanmış istehsal, ticarət, maliyyə böhranından kapitalizm dünyası çıxmağı bacardı.

Ticarət və istehsal sahəsində kapitalist ölkələri 1913-cü il səviyyəsinə yaxınlaşdılar. Kapitalizmin sabitləşməsi prosesində həlledici rol ABŞ-a məxsus idi. Əgər əvvəllər dünyanın maliyyə cəhətdən istismarında İngiltərə, Fransa, Almaniya əsas rol oynayırdılarsa, müharibədən sonra dünyanın maliyyə mərkəzi ABŞ oldu. Avropada kapitalizmin sabitləşməsində ABŞ kapitalizminin köməyi müəyyən dərəcədə rol oynadı. Bu isə nəticədə ona səbəb oldu ki, ABŞ-ın Qərbi Avropaya aid problemlərin həllinə təsiri gücləndi.

Kapitalist ölkələrinin, o cümlədən İngiltərənin daxili vəziyyəti bu dövrdə bir qədər möhkəmləndi. Avropa inqilabi vəziyyətdən çıxdı.

Müharibə nəticəsində baş verən iqtisadi böhran kapitalist ölkələrinin valyutasına da təsir göstərdi. Müharibə dövründə İngiltərə məcbur oldu ki, funt-sterlinqin qızıl paritetindən imtina etsin.

1920-ci ilin əvvəllərində funt-sterlinqin kursu müharibəyə qədərki kursun 67,8%-ni təşkil edirdi. Funt-sterlinqin dəyərinin aşağı düşməsi ölkənin maliyyə dairələrinin mənafeyinə ciddi zərər vururdu. Eyni zamanda bu İngiltərənin beynəlxalq aləmdə maliyyə vəziyyətini pisləşdirir, dünyanın maliyyə cəhətdən istismarında

iştirakını azaldırdı. Funt-sterlinqin stabilləşməsi İngiltərə büdcəsinin tarazlaşması üçün də vacib idi. Bu dövrdə əhalidən alınan vergilər artırıldı.

1924-1925-ci ilin may ayında İngiltərədə əhalidən alınan gəlir vergisi 3,5 dəfə artırıldı. Həmçinin sosial xərclər üçün ayrılmış vəsait də xeyli ixtisar edildi. İlk növbədə səhiyyə, maarif, pensiyalara çəkilən xərclər nəzərə çarpacaq dərəcədə ixtisar edildi.

1925-ci ilin aprel ayında İngiltərə hökuməti funt-sterlinqin qızıl paritetini bərpa etdi ki, nəticədə bir funt-sterlinq 4,9 dollara bərabər oldu. Bu hadisə İngiltərənin maliyyə dairələrinin mənafeyinə cavab verdi. Onların xaricə kapital qoyuluşundan, istiqrazlardan, qiymətli kağızlardan əldə etdikləri gəlirlər xeyli artdı. Lakin bu siyasətin yeridilməsi nəticəsində İngiltərənin xarici ticarəti və sənayesi əvvəlkinə nisbətən daha ciddi problemlərlə qarşılaşmalı oldu [9, s.197].

1925-ci ildə keçirilən maliyyə islahatı dünya bazarında ingilis məhsullarının qiymətinin 12% artmasına səbəb oldu ki, bu da onun satılmasını çətinləşdirirdi. İngiltərənin məşhur burjua iqtisadçısı Keyns bununla əlaqədar yazırdı ki, əgər 1924-cü ilin iyununda Braziliyaya İngiltərə kömürünü ABŞ kömüründən 45 sent ucuz satmaq mümkün idisə, artıq 1925-ci ilin ABŞ kömürü ingilis kömüründən 63 sent ucuz idi.

Eyni vəziyyəti Cənubi Amerikanın bütün ölkələrinə, Kanadaya da aid etmək olardı. İngiltərə maliyyəsinin sabitləşməsi möhkəm deyildir və müvəqqəti xarakter daşıyırdı.

1929-cu ildə əgər İngiltərənin dövlət xərcləri müharibədən əvvəlki dövrə nisbətən 320% artmışdırsa, milli gəlir isə cəmi 80% artmışdır. Maliyyə vəziyyətinin qeyri-sabitliyini təsdiqləyən faktlardan biri də dövlət xərclərinin əsas hissəsinin bu dövrdə

silahlanmaya sərf edilməsi idi. Polis aparatında işləyənlərin sayı artırılmışdır. Həmçinin dövlət borcları üzrə faizlər də getdikcə yüksəlmişdir.

1913-cü illə müqayisədə İngiltərənin hərbi xərcləri 1929-cu ildə 2 dəfə artaraq 77 mln.-dan 166 mln.-a çatmışdır. Dövlət borclarının ödənilməsi bu dövrdə 15 dəfə artaraq 24,5 mln. funt-sterlinqdən 369 mln. funt-sterlinqə çatmışdır. Bu fakt həmin dövrdə İngiltərənin maliyyə vəziyyətinin sabit olmadığını göstərirdi [21, s.145].

Kapitalizmin nisbi sabitləşməsi dövründə İngiltərə iqtisadiyyatı üçün xarakterik olan cəhətlərdən biri istehsalın və kapitalın mərkəzləşməsi, təmərküzləşməsi iri inhisar birliklərinin təşkili idi. Başqa ölkələrin iri inhisar birlikləri ilə rəqabətə davam gətirmək üçün İngiltərə burjuaziyası köhnə trestləri, kartelləri, konsernləri böyüdür, yeniləşdirir, yenilərini təşkil edirdi. Həmçinin çalışırdı ki, beynəlxalq bazarda ingilis məhsullarının rəqabət qabiliyyətini artırsın, müvəffəqiyyətlə rəqabət mübarizəsi aparmağı bacarsın.

1926-cı ildə İngiltərədə dörd konserni birləşdirən iri inhisar birliyi təşkil edildi ki, bu da "İmperiya kimya tresti" adlandı. Bu trest əvvəl öz əməliyyatlarına 42 mln. funt-sterlinqlə başladı. Bu qüdrətli trest İngiltərənin ancaq kimya məhsulları istehsalına deyil, həmçinin digər məhsullar istehsal edən onlarla şirkətlərin fəaliyyətini də öz nəzarəti altına aldı. Kimyadan başqa bu trest İngiltərənin mis və nikelinin istehsalına da nəzarət edirdi. Həmçinin elektrik, polad və hərbi sənayeni də lazım olan materiallarla təchiz etməkdə bu şirkət xüsusi rola malik idi.

Kimya tresti kömür kombinatları ilə sıx əlaqə saxlayırdı. Bu trestin fəaliyyəti İngiltərənin sərhədlərindən çox kənara çıxırdı.

Kanada, Cənubi Afrika və Avstraliyada o əməliyyat aparırdı, ABŞ-da motor, kimya məhsulları və süni ipək üzrə iri müəssisələr ona məxsus idi. Bu trest Almaniyanın kimya sənayesi ilə sıx əlaqə saxlayırdı.

Trest Yuqoslaviya, Çili, Malayziya və Çində güclü təsirə malik idi. Sabitləşmə illərində ərzaq məhsullarının istehsalı və satışı üzrə "Unilever" inhisarı meydana çıxdı ki, o, özündə 400 konsern birləşdirərək və Yer kürəsinin bütün nöqtələrində, demək olar ki, öz təsirlərini yaymağı bacarmışdır. "Unilever" şirkətinin fəaliyyətinə ingilislərdən leverlər, hollandlardan yurqener və vandenberqlər, almanlardan şixtlər nəzarət edirdi. Həmçinin bu dövrdə Mərkəzi İngiltərənin kömür sənayeçilərini birləşdirən "Dörd qraflığın sxemi" birliyi təşkil edilmişdir [21, s.147].

Eyni zamanda buna oxşar İrlandiya və Cənubi Uelsdə də birliklər təşkil edildi.

İngiltərə metallurgiya sənayesinin mərkəzləşməsi nəticəsində dəmir və poladın 70%-nin 20 iri firmanın əlində mərkəzləşməsinə nail oldu.

1929-cu ildə "Alşed İron Finderk" şirkəti təşkil edildi ki, bu da tikinti sənayesi üçün metal istehsalı ilə məşğul olurdu. Həmçinin toxuculuq, kibrit, spirtli içkilər sənayesi üzrə də iri inhisar birlikləri yarandı. Bu isə İngiltərədə avtomobil sənayesi üzrə mərkəzləşmiş firmaların sayının azalmasına səbəb oldu. Belə ki, əgər 1920-ci ildə ölkədə 90 avtomobil firması fəaliyyət göstərirdisə, 1929-cu ildə bunların sayı 41-ə endi. Bununla belə avtomobil sənayesi məhsullarının sayı bu dövrdə bir neçə dəfə artdı. İqtisadiyyatda gedən bu mərkəzləşmə İngiltərə zəhmətkeşlərinin həyat səviyyəsinə də öz təsirini göstərməyə bilməzdi. Belə ki, bu dövrdə zəhmətkeşlərin həyat səviyyəsi xeyli aşağı düşdü. Digər tərəfdən bu

dövrdə kapital qüvvələrinin iqtisadi və siyasi cəhətdən mərkəzləşməsi dövlətin diqqətini daha çox özünə cəlb etdiyinə görə, zəhmətkeşlərin iqtisadi və siyasi hüquqları üzərinə hücumlar da genişləndirildi.

Xarici ticarət də müharibədən əvvəlki səviyyədən yuxarı qalxa bilmədi. Sənayenin əsas sahələri, məsələn, daş kömür, metallurgiya, gəmiqayırma, toxuculuq, hətta 1929-cu ildə də müharibədən əvvəlki səviyyəyə çatmamışdır. Sənayedə müharibədən əvvəlki səviyyəyə çatmaq ancaq yeni sənaye sahələrinin maşınqayırmanın, elektromaşınqayırmanın, kimyanın, avtomobil və aviasiya sənayesinin inkişafı hesabına mümkün olmuşdur.

İngiltərə iqtisadiyyatı inkişaf tempinə görə sabitləşmə illərində başqa kapitalist ölkələrinin iqtisadiyyatından xeyli geridə qalmışdır. Dünya iqtisadiyyatında onun payı xeyli azalmışdır. Əgər 1911-ci ildən 1913-cü ilə qədər İngiltərənin ixracı dünya ixracının 15,2%-ni təşkil edirdisə, 1920-1928-ci ildə bu rəqəm 12,5%-ə düşmüşdür [21, s.145].

1913-cü illə müqayisədə 1926-cı ildə İngiltərədə kömür çıxarılması 17% azalmış, dünyada isə kömür çıxarılması 6% artmışdır. Həmçinin bu dövrdə İngiltərədə çuqun əridilməsi 55% aşağı düşmüş, dünyada isə 12% artmışdır. Toxuculuq məhsulları üzrə payı da 39%-dən 34%-ə enmişdir.

İngiltərə istehsal aparatı kapitalizmin nisbi sabitləşməsi illərində bütün gücü ilə işləməyi bacarmadı. Daş kömür, gəmiqayırma, maşınqayırma sənayelərinin gücü ilə işləyə bilməməsi kütləvi işsizlər ordusunun yaranmasına səbəb olurdu. 1929-cu ildə işsizlərin sayı ölkə əhalisinin 10%-ni təşkil edirdi.

Kapitalizmin nisbi sabitləşməsi illərində istehsalda işləyən fəhlələrin sayı azalmağa, qeyri-istehsal sahələrində işləyənlərin sayı

isə artmağa başladı. 1923-1930-cu illər arasındakı dövrdə kömür sənayesində işləyən fəhlələrin sayı 30,8%, toxuculuq sənayesində işləyən fəhlələrin sayı 24,9%, qara metallurgiyada isə 21,2% azaldı. Bu dövrdə ticarətdə işləyənlərin sayı 40%, mehmanxanalarda işləyənlərin sayı 36% artdı [21, s.145].

Böyük Britaniya iqtisadiyyatı 1929-cu ilə qədər 1913-cü il səviyyəsini keçə bilmədi, ona isə çox çətinliklə çata bildi.

**Böyük Britaniya dünya iqtisadi böhranı illərində (1929-1933-cü illər).** 1929-cu ilin oktyabr ayında ABŞ-da başlanan iqtisadi böhran öz miqyasına görə XX əsrin ən böyük böhranı kimi tarixə daxil oldu. 1929-1933-cü illərin iqtisadi böhranı kapitalizmin bütün tarixi boyu ən dərin böhran kimi səciyyələndirilə bilər. Demək olar ki, dörd il ərzində kapitalist ölkələrinin iqtisadiyyatı tam təşkil edilə bilməyəcək durğun bir vəziyyətdə qalmış oldu.

İqtisadi böhran illərində İngiltərənin sənaye məhsulları böhrandan əvvəlki 1929-cu illə müqayisədə 82,5% aşağı düşdü. 1933-cü ildə isə 1929-cu ildəkinin 93%-ni təşkil edirdi. Lakin həmin dövr sənaye məhsulları ABŞ-da 52%, Almaniyada 60%, Fransada isə 74%-ə qədər aşağı düşmüşdür [21, s.149].

Sənaye məhsullarının digər kapitalist ölkələri ilə müqayisədə nisbətən az aşağı düşməsi faktı belə bir həqiqəti sübut edirdi ki, İngiltərə kapitalizmin sabitləşdiyi dövrdə yuxarıda adı çəkilən ölkələr kimi "çiçəklənmə" keçirməmişdir.

İqtisadi böhran İngiltərənin əsas və ənənəvi sənaye sahələrini daha çox sarsıtdı. Daş kömür istehsalı hiss ediləcək səviyyədə aşağı düşdü. Əgər İngiltərə 1929-cu ildə 258 mln. ton daş kömür istehsal edilirdisə, 1933-cü ildə bu rəqəm 208 mln. tona, çuqun istehsalı isə 7,6 mln. tondan 3,6 mln. tona düşdü. Böhran çuqun əridilməsi

sahəsində isə İngiltərəni 70 il arxaya atdı. Polad əridilməsi həmçinin 9,6 mln. tondan 5,2 mln. tona endi.

Böhran kənd təsərrüfatını da əhatə etdi. 1930-1932-ci illərdə kənd təsərrüfatı məhsullarının qiyməti 34% aşağı endi ki, bu da ölkənin kənd təsərrüfatına ciddi çətinliklər yaratdı. İngilis fermerlər belə bir çətin dövrdə dövlətdən heç bir yardım ala bilmədilər. Ona görə də dünya bazarındakı rəqabətdə İngiltərənin kənd təsərrüfatı məhsulları əlverişsiz vəziyyətə düşdü. Yeni Zelandiyanın yağı İngiltərə bazarlarında ölkə ərazisində istehsal edilən yağlardan daha ucuz qiymətə satılmağa başladı. Belə bir vəziyyət ölkədə Fransa ununun satışı üçün də xarakterik idi.

Əgər İngiltərədə 1929-cu ildə gəmilərin ümumi tonnajı 1522 min ton idisə, 1933-cü ildə cəmi 133 min ton idi. İngiltərənin ticarət gəmiçiliyi də xeyli aşağı endi. 1929-cu ildən 1934-cü ilə qədər İngiltərənin dünya dəniz ticarətində tonnajı 2,43 mln. ton ixtisar edilmiş oldu.

İngiltərənin dəniz ticarətində vəziyyəti xüsusilə kəskin idi. Belə ki, 1920-cu ildə İngiltərənin ixracı 729,3 mln. ton funт sterlinq təşkil edirdisə, 1932-ci ildə bu rəqəm 365 mln. funt sterlinq idi.

Böhran, dünyada 50 mln.-dan daha çox insanın işsiz qalmasına səbəb olmuşdur. Dünyada ümumi istehsalın həcmi 42%, dünya ticarətinin həcmi isə 65% azalmışdır.

Sənaye, kənd təsərrüfatı və ticarət sahəsindəki böhran İngiltərədə işsizlər ordusunun sayının artmasına səbəb oldu. Əgər 1930-cu ildə işsizlər bütün fəhlələrin 16,8%-ni təşkil edirdisə, 1931-ci ildə bu rəqəm 23,1%, 1932-ci ildə isə 23,5% təşkil edirdi. Bu dövrdə İngiltərədə hər dörd fəhlədən biri işsiz idi. Xüsusilə İngiltərənin ənənəvi sənaye sahələri olan daş kömür, gəmiçilik və metallurgiyada işsizlik daha yüksək həddə çatmışdır. Kömür

sənayesinin mərkəzi olan Uelsdə, toxuculuğun mərkəzi olan Lankaşirdə, əsas gəmiçilik rayonu olan Klaydda vəziyyət daha da ağır idi. Bu rayonlar "durğunluq" rayonları hesab edilirdi.

1934-cü ildə artıq Böyük Britaniyada sənaye məhsulunun həcmi 1929-cu il səviyyəsinə çatdı. Keçən illərdə olduğu kimi, indi də ingilis təsərrüfatının ayrı-ayrı sahələrinin inkişafı eyni səviyyədə deyildi. Ölkə sənayesində baş verən bəzi canlanmanın başlıca səbəblərindən biri də hərbi sənaye sahələrinin sürətlə inkişaf etməsi idi. Proteksionizm də ingilis sənayesinin canlanmasına kömək etmişdi.

1937-ci ilin ortalarında Böyük Britaniyada başlamış yeni iqtisadi böhran nəticəsində 1938-ci ildə sənaye məhsulunun indeksi aşağı düşmüş, 1937-ci ilə nisbətən 115,7 təşkil etmişdir. Lakin böhran uzun sürə bilmədi. Çünki II Dünya müharibəsinin başlanması buna mane oldu.

**Böyük Britaniya iqtisadiyyatı II Dünya müharibəsi dövründə.** II Dünya müharibəsinin başlanması İngiltərə iqtisadiyyatının müharibə şəraitinə uyğun şəkildə qurulmasını tələb edirdi. Lakin İngilis inhisarları yenə çalışırdılar ki, nəinki öz əvvəlki gəlirlərini itirməsinlər, hətta daha çox qazansınlar.

Müharibənin başlanması digər ölkələrdə olduğu kimi İngiltərədə də müxtəlif qanun və qərarların 1939-cu ilin avqust ayından başlayaraq verilməsinə səbəb oldu. Bu qanunlardan biri 1939-cu ilin avqustunda verilmiş fövqəladə səlahiyyətlər haqqında akt idi. Bu akt ictimai təhlükəsizliyi, ölkənin müdafiəsini, ictimai asayişi təmin etməyi, müharibəni səmərəli aparmağı nəzərdə tuturdu.

Bu dövrdə əmək şəraiti kəskin şəraitdə pisləşdi. Hərbi sənaye ilə məşğul olan müəssisələrdə iş günü 12 saata çatdırıldı. Eyni zamanda iş həftəsi də uzadıldı. Yeddi günlük və 72 saatlıq iş həftəsi

tətbiq edildi. Lakin bütün bunlara baxmayaraq fəhlələrin məhsuldarlığı müharibədən əvvəlkindən də daha az idi. Çünki onları bu ağır iş hədsiz zəiflədirdi.

1940-cı ildə iş günü 12 saat və daha artıq oldu. İş həftəsi isə 72 saata və 7 günə çatdırıldı. İstirahətsiz işləmək fəhlə sinfinin qüvvəsini zəiflətdi. Ona görə də daha az məhsul istehsal olundu. Bunun qarşısını almaq üçün hökumət bu işə qarışmalı oldu. Rəsmi hökumət orqanı – sənaye fəhlələrinin sağlamlıq problemini öyrənən büro təşkil edildi. İş gününün uzadılması və əməyin insentifikasiya edilməsi fəhlələr arasında bədbəxt hadisələrin də sayını çoxaltmışdır.

1940-cı ilin birinci yarısından hərbi xərclər sürətlə artmağa başladı. Bu işsizliyin artmasına səbəb olurdu. 1939-cu ilin sentyabrında işsizlərin sayı 1,3 mln. nəfər idisə, 1940-cı ilin birinci yarısında onların sayı 1,5 mln.-a çatdı.

Topdansatış qiymətlər 1938-ci ildə 100 götürsək, 1939-cu ildə bu 101,4 idisə, 1940-cı ildə 134,6, 1941-ci ildə 150,3 oldu [21, s.145].

Bütün İngiltərənin iqtisadiyyatının müharibə üçün səfərbərliyə alınması inhisarçıların maraqlarına təsir etdi. İnhisarlar hökumətin sifarişlərini yerinə yetirməyə başladılar. İngilis inhisarçıları bütün güclərini ona sərf edirdilər ki, müharibədən maksimum qazanc əldə etsinlər.

İngiltərə fəhlə sinfi müharibənin ilk ilində müharibə ərəfəsində olduğundan daha pis yaşayırdılar. Əmək şəraiti kəskin pisləşdi.

Əgər 1938-ci ildə 179 min adam istehsalatda bədbəxt hadisə ilə qarşılaşmış və ondan 944 adam ölmüşdüsə, 1941-ci ildə 269 min adam bədbəxt hadisə ilə qarşılaşmış və 1646 adam ölmüşdür. Fəhlə

sinfi belə şəraitdə işləməsinə baxmayaraq onların əmək haqqı müharibə ərəfəsində olduğuna nisbətən aşağı idi.

İngiltərə iqtisadçısı Nikolson hesablamışdır ki, xalis əmək haqqı 1938-ci ilə nisbətən 1940-cı ildə 4%, 1941-ci ildə isə 11% aşağı düşmüşdür. İnhisarçılar ingilis fəhlə sinfinin vətənpərvərlik hisslərindən istifadə edərək öz gəlirlərini artırdılar və fəhlə sinfinin real əmək haqqına hücuma keçdilər. Rəsmi məlumata görə inhisarçıların gəlirləri 1938-ci ildəki 1368 min funt sterlinqlə müqayisədə 1941-ci ildə 2190 min funt sterlinq oldu [21, s.147].

1942-ci ildə ölkənin iqtisadiyyatı müharibənin gedişinə uyğun qurulmağa başladı. Artıq o dövrdə ölkədə 31 aviasiya zavodu fəaliyyət göstərirdi. Maşınqayırma zavodları hərbi zavodlara çevrildi. İngiltərə ilə eyni zamanda bütün Britaniya İmperiyasına daxil olan dövlətlər də müharibə vəziyyətində idi. Onların zəngin ehtiyatları İngiltərənin apardığı müharibə üçün sərf olunurdu.

Müharibə dövründə İngiltərənin istehsal qüdrəti xeyli dərəcədə artdı. Bir milyard funt kapital sənayeyə, başlıca olaraq isə hərbi sənayeyə qoyuldu. Fəaliyyətdə olan müəssisələrin bir çoxunda yeni sexlər təşkil edildi. Bu tədbirlər ən çox maşınqayırma sənayesində həyata keçirildi. Demək olar ki, bütün kapital qoyuluşunun 70%-i maşıınqayırma, aviasiya, gəmiqayırma, silah istehsalı, elektrotexnika sənayesinə qoyuldu. Həmçinin sənaye sahələrinin mərkəzləş məsi sahəsində də mühüm işlər görüldü.

Mülki sənaye sahələri hərbi sənaye üzrə mərkəzləşdi. Toxuculuq, kağız, ayaqqabı, şüşə sənayesi, fotoaparatura, oyuncaq, parfümeriya, idman ləvazimatı, zərgərlik məmulatı sənayelərinin də mərkəzləş məsi üzə çıxdı. Bu isə o sahədəki işçilərin bir çoxunun hərbi sənayeyə cəlb edilməsinə imkan verdi.

İngiltərədə silah istehsalı ən yüksək səviyyəsinə 1943-cü ildə çatdı. Müharibə dövründə İngiltərədə 131 min təyyarə, 264 min aviamotor, 25 min tank, 300 mindən çox pulemyot, 160 mln. artileriya qurğusu, 8,3 mlrd. patron, 1 mln.-a yaxın avtobomba istehsal edilmişdir.

İngiltərə sənayesi müharibə illərində son dərəcə qeyri-bərabər inkişaf edirdi. Mexanikləşmənin rolunun son dərəcə artması maşınqayırma sənayesinin inkişafına diqqət yetirilməsinə gətirib çıxartdı. Xüsusi poladların buraxılışı artdı. Yüngül metallar, kimyəvi məhsullar daha çox istehsal edilməyə başladı. Elektrik enerjisinə tələbat gücləndi. Eyni zamanda bu enerjinin əsas hissəsi sənayeyə sərf olunmağa başladı. Maşınqayırma sənayesində ən çox dəzgaqayırma, aviasiya sənayesinə, gəmiqayırma, nəqliyyat vasitələri istehsalına diqqət verildi. Elektrosənaye və rabitə vasitələri istehsalı daha çox artdı.

Müharibə illərində İngiltərədə 15 min aviasiya sənayesi müəssisəsi vardı. Burada 2 mln. fəhlə və qulluqçu çalışırdı. Gəmiqayırma sənayesinin işi müharibədən əvvəlki illə müqayisədə 60-70% artdı.

1939-cu ilə 1945-ci il arasında kimya sənayesinin inkişafı daha da sürətləndi. Bu sahədə işləyən fəhlələrin sayı 286 mindən 550 min adama çatdı. Elektrik enerjisi istehsalı 1939-cu ildəki 27733 mln. kilovatt saatdan 1944-cü ildə 39649 mln. kilovatt saata çatdı.

İngiltərə metallurgiyası öz məhsullarını II Dünya müharibəsi dövründə artırmadı. 1944-cü ildə çuqun istehsalı 6737 min ton idi ki, bu da 1937-ci il səviyyəsindən xeyli aşağı idi. 1937-ci ildə İngiltərənin çuqun istehsalı 8493 ton idi. Polad istehsalı da xeyli ixtisar edildi. Məsələn: əgər 1939-cu ildə 13,2 mln. ton polad istehsal

edilirdisə, 1945-ci ildə 11,8 mln. ton polad istehsal edilirdi. Buna səbəb çuqun və lomun çatışmaması idi [21, s.149].

Müharibə İngiltərədə dövlət-inhisarçı kapitalizmin inkişafını irəlilətdi. Müharibə dövründə dövlət aparatının İngiltərə inhisarçılarından asılılığı gücləndi. İnhisarçıların hakimiyyəti həm iqtisadi cəhətdən, həm də ölkənin siyasi həyatında əhəmiyyətli dərəcədə gücləndi. Bu isə nəticədə istehsalın və kapitalın təmərküzləşməsini və mərkəzləşməsini artırdı.

II Dünya müharibəsi köklü sürətdə əmək bazarında da dəyişikliklərə səbəb oldu. Ordu və hərbi sənaye daha çox adam tələb edirdi. İngiltərədə fəhlə sinfi işçi qüvvəsi problemi vaxtı ilə işdən azad edilmiş işsizlər, əvvəllər işləməmiş adamlar, ən əsas isə qadınlar hesabına həll edilirdi. İş günü, iş vaxtı uzadılırdı. Milyondan artıq işsiz sənayedə işə cəlb edildi və ya silahlı qüvvələrə çağırıldı.

Əgər 1939-cu ildə rəsmi məlumata görə İngiltərədə 1270 min işsiz var idisə, 1944-cü ildə bu rəqəm ixtisar olunaraq 54 min oldu. İşsizlik ancaq o sahələrə qalırdı ki, onlarda xammalla təminat yox səviyyədə idi.

İngiltərə hökumətinin məlumatına görə, ordu və sənayedə iş üçün səfərbərliyə alınanların sayı 1939-cu illə müqayisədə 3,5 mln. adam artmışdır.

İngiltərə iqtisadiyyatının yenidən qurulması kənd təsərrüfatına da şamil edilirdi. Kənd təsərrüfatının geri qalması İngiltərə kapitalizminin keyfiyyətinin parlaq nümayişi idi. Koloniya və dominionlardan alınan ucuz ərzaq və xammal ingilis hakim dairələrinin kənd təsərrüfatının inkişafı üçün bütün mümkün imkanlardan istifadə etməkdən uzaqlaşdırmışdır. Bunun nəticəsi idi ki, İngiltərə xalqı, əsasən xaricdən gətirilmiş ərzaqlardan istifadə edirdi.

II Dünya müharibəsi zamanı xaricdən ərzaq gətirilməsinin çətinləşməsi, nəqliyyat çətinlikləri, həmçinin bir çox ölkələrin düşmənlər tərəfindən tutulması hökuməti məcbur etdi ki, ölkə daxilində kənd təsərrüfatının inkişafı üçün lazımi tədbirlər görsün. Bu məqsədlə fermerlərə subsidiyalar verildi. Mühüm kənd təsərrüfatı məhsullarına satınalma qiymətləri qoyuldu.

İşçi qüvvəsinin kənd təsərrüfatına cəlb edilməsi və mexanikləş mənin güclənməsi üçün tədbirlər görüldü. Bütün bunlar əkin sahələrinin ümumi sahələrinin xeyli artmasına səbəb oldu.

1939-cu ildə əkin sahəsi 11870 min akr idisə, 1945-ci ildə o 17866 min akra çatdı. Taxıl bitkilərinin məhsul yığımı çoxaldıldı. 1939-cu ildə əgər 1642 min ton taxıl yığılırdısa, 1945-ci ildə 2174 min tona, arpa istehsalı 880 tondan 2096 tona, darı isə 1783-dən 2862 tona, kartofun yığımı isə 4364 min tondan 8702 min tona çatdı.

Əgər müharibəyə qədər ölkə ərazisində əldə olunan ərzaq məhsulları ölkə əhalisinin tələbatının 30%-ni ödəyirdisə, artıq 1943-cü ildə o ölkə əhalisinin tələbatının 40%-ni ödəməyə başladı.

Beləliklə, İngiltərənin ərzaq vəziyyəti bütün müharibə ərzində ABŞ-dakı Lendliz qanunu əsasında Britaniya imperiyasından böyük miqdarda yeyinti məhsulları gətirilməsinə baxmayaraq, yenə də gərgin olaraq qalmaqda idi. İngiltərənin fəhlə sinfi bütün müharibə ərzində uzadılmış iş həftəsi şəraitində işləməli oldu.

İş həftəsi rəsmi məlumatlara görə 72 saata çatırdı. Demək olar, fəhlələr bazar günü də işləyirdi.

İllik və əlavə məzuniyyətlər təxirə salınmışdır. Bütün müharibə ərzində istehsalat səriştəsi olmayan yeni işçilərin istehsalata gəlişi bədbəxt hadisələrin də müharibə ərzində külli miqdarda baş verməsinə gətirib çıxarmışdır.

1938-1945-ci illərdə bədbəxt hadisələrin sayı 78% artmışdır. Ümumiyyətlə müharibənin ilk illəri ərzində yarım milyona qədər adam belə hadisələrin qurbanı oldu ki, onların da əksəriyyəti qadınlar və gənclər idi.

Kərpic, kirəmit, toxuculuq, şüşə, dəri, tikiş, yeyinti sənayesində əmək haqqı aşağı idi və onlar minimum əmək haqqının 80-90%-ni alırdı. Kənd təsərrüfatı fəhlələri isə minimum əmək haqqının cəmi 80%-ni alırdı. Bu qayda ilə fəhlələrin bir hissəsi bütün müharibə ərzində onun iş qabiliyyətini bərpa etmək üçün lazım olan əmək haqqını ala bilmədi.

**Böyük Britaniya iqtisadiyyatı II Dünya müharibəsindən sonrakı dövrdə.** II Dünya müharibəsində İngiltərəyə dəyən zərər SSRİ və Fransa ilə müqayisədə xeyli az idi. Hava bombardımanı İngiltərənin sənaye mərkəzlərinə böyük ziyan vursa da, onun sənaye potensialını o qədər də azaltmadı.

II Dünya müharibəsi İngilis imperializminin iqtisadi və siyasi mövqeyinin daha da zəifləməsi ilə nəticələndi. İngiltərə müharibəyə 25,2 mlrd. funt sterlinq xərc çəkdi. Onun dövlət borcları 1939-cu ildəki 7247,3 mln. funt sterlinqdən 1945-ci ildə 21 473,1 mln. funt sterlinqə çatdı.

İngiltərənin hərbi itkisi 3000 mln. funt sterlinqə bərabər idi. Bundan başqa, İngiltərə müharibə dövründə ona Şimali Amerikadan göndərilmiş 1000 mln. funt sterlinqdən artıq qiyməti olan hərbi materialların da xərcini ödəməli idi. Onun digər dövlətlərə də 30 mlrd. funt sterlinq borcu vardı [20, s.167].

Müharibə nəticəsində İngiltərənin sənaye məhsullarının ümumi həcmi 1937-ci il səviyyəsinin cəmi 90%-ni təşkil edirdi. İxrac 69%-ə qədər azaldı.

O, Cənubi Amerika, Kanada, Uzaq və Yaxın Şərqdə, Avropa və Cənub-Şərqi Asiyada öz mövqelərini ABŞ-a verməli oldu. Bütün bunlar isə büdcə kəsirinin müharibə ərzində 40 mlrd. funt sterlinq olmasına səbəb oldu.

Müharibə nəticəsində bir sıra ölkələrin kapitalizm sistemindən qopub-ayrılması başlıca kapitalist dövlətlərinin, xüsusilə İngiltərənin dünya resurslarından istifadə imkanını azaltdı. Dünya bazarında İngiltərənin öz məhsullarını artırmaq imkanları çətinləşdi.

1948-ci ilin iyul ayında Marşal Planının İngiltərəyə tətbiqi ilə əlaqədar ingilis-amerikan sazişi bağlandı.

1949-cu ilin sentyabrın 18-də İngiltərə hökuməti funt sterlinqin 30,5% devolvasiyası haqqında qərar qəbul etdi. Qərarın verilməsində məqsəd qızıl və valyuta ehtiyatlarının axınının qarşısını almaq, ingilis məhsullarının ixrac üçün imkanlarını yaxşılaşdırmaq, həmçinin ABŞ-ın təzyiqinə qarşı davam gətirməyi bacarmaq idi. Funtun dəyəri 4,03 dollardan 2,8 dollara düşdü.

Bu hadisədən sonra Fransa, Hollandiya, Kanada, Danimarka, İsveç, Hindistan, Misir, Avstraliya, Norveç, Yeni Zelandiya, İrlandiya, Cənubi Afrika İttifaqı, İspaniya və s. dövlətlər də öz valyutalarını devalvasiya etdilər. Funt-sterlinqin devalvasiyası onun beynəlxalq valyuta kimi mövqeyini zəiflətdi və onu daha çox dollardan asılı etdi. ABŞ bu yolla kapital ixracı imkanlarını genişləndirdi. İngiltərədə dolların alıcıları çoxaldı, ABŞ-da funt-sterlinqin alıcıları isə azaldı.

1951-ci ildə İngiltərədə qızıl və dollar ehtiyatları 550 mln. funt sterlinq aşağı düşmüşdü ki, bu da ölkənin dərin maliyyə böhranı keçirdiyini sübut edən fakt idi.

Müharibədən sonrakı dövrdə də İngiltərə “kapitalizminin sağlamlaşması”ndan söhbət gedə bilməzdi. Belə ki, İngiltərədə 1948-

51-ci illərdə elektrotexniki sənaye cəmi 30% kimya sənayesi 33% gücü ilə işləyirdi. Müəssisələrin heç biri tam gücü ilə işləmirdi. İngilis iqtisadiyyatının bu dövrdə xarakterik cəhətlərindən biri də ölkənin milli gəlirində rantyenin payının (renta gəlirindən faydalanan insana rantye deyilir) artması idi.

Müharibədən sonrakı dövrdə kapital və istehsalın mərkəzləşməsi prosesi davam etməkdə idi. İngiltərədə kapitalın mərkəzləşməsini 1951-ci ildə 1929-cu illə müqayisədə bankların 22% ixtisar edilməsində görmək olardı. Xüsusilə "Böyük beşlik" adı altında birləşən Müdlend, Barkleys, Lyoyds, Vestminster və Neyşnl əyalət bankının gücü daha da artdı. Bu proses istehsal sahəsini də əhatə etdi. 1000 nəfərdən çox fəhləsi olan müəssisələrin sayı 1949-cu ildə 1935-ci ildə müqayisədə 21,4%-dən 30,2%-ə qalxdı. Xüsusilə metallurgiya, maşınqayırma, kimya sənayesində istehsalın mərkəzləşməsi daha da artdı [20, s.167].

İngiltərə kapitalizminin iqtisadi və siyasi münasibətlərdə II Dünya müharibəsindən zəif çıxması hakim dairələri ölkənin iqtisadi, siyasi və müstəmləkəçi mövqeyini möhkəmləndirmək üçün bir sıra iri islahatlar aparmağa da məcbur etdi. Belə mühüm islahatlardan biri İngiltərə bankının və bir sıra sənaye sahələrinin milliləşdirilməsi oldu. İngiltərə Bankı, kömür sənayesi, elektrostansiyalar, qaz sənayesi, daxili nəqliyyat, poladəritmə zavodlarının bir hissəsi, mülki aviasiya, teleqraf rabitəsi və radio rabitəsi milliləşdirildi.

Milliləşdirmənin əsas səbəblərindən biri bu sahələrin zərərlə işləməsi idi. Milliləşdirmə Amerika kapitalının İngiltərə sənayesinə müdaxiləsində əlavə çətinliklər yaradırdı. Əsas səbəblərdən biri də bu yolla İngiltərədə sinfi mübarizəni zəiflətmək idi.

1945-i ilin sonundan bankların milliləşməsi nəticəsində bankın səhm sahibləri 58 mln. funt sterlinq həcmində ildə 3% gəlirlə dövlət istiqrazı formasında kompensasiya almış oldular.

1946-cı ildə kömür sənayesinin milliləşdirilməsi nəticəsində həmin müəssisələrin sahibləri 400 mln. funt sterlinq dəyərində ildə 3,5% gəlirlə istiqraz şəklində kompensasiya aldılar.

1947-ci ildə elektrik şirkətlərinin milliləşdirilməsi nəticəsində orta birja səhmlərinin dəyəri həcmində onlara kompensasiya ödənilmişdir. Qaz sənayesi və nəqliyyatın milliləşdirilməsi zamanı verilən kompensasiya da bu prinsip əsasında olmuşdur. Milliləşdirilmiş müəssisələrin sahibləri birlikdə götürüldükdə 2,5 mlrd. funt sterlinq dəyərində kompensasiya istiqrazı almışdılar. Milliləşdirilmiş müəssisələrin milli idarəsinin 87 üzvündən 43-ü iri kapitalist, 9-u hökumət məmuru, 4-ü yüksək rütbəli hərbiçi, 9-u yüksəktəminatlı mütəxəssis və inzibatçı, 7-si həmkarlar ittifaqlarının rəhbərlərindən idi.

Müharibədən sonra da ABŞ çalışırdı ki, müharibə dövründə əldə etdiyi özünün ticarət mövqeyini bütün gücü ilə əlində saxlasın. Bu mübarizədə İngiltərə müəyyən qədər müharibədən əvvəlki səviyyəyə çata bildi. 1951-ci ildə İngiltərə parlamentinin qəbul etdiyi qanuna əsasən 1951-ci ildə demokratik ölkələrlə məhsul mübadiləsi 1937-ci illə müqayisədə 6 dəfə azaldıldı.

II Dünya müharibəsindən sonra beynəlxalq şəraitdə baş verən dəyişikliklər nəticəsində dünya siyasətində Uzaq Şərq və Cənub-Şərqi Asiyanın rolu artdı. İngiltərənin bu regionda nüfuzu I Dünya müharibəsindən sonra düşməyə başladı.

Böyük Britaniyada iqtisadi artım dinamikası 50-ci illərdə xeyli yaxşılaşdı. 1937-ci illə müqayisədə 50-ci illərin əvvəllərində iqtisadi göstəricilər 1/3 qədər artdı. Artım elektroenergetika,

maşınqayırma, kimya sənayesində daha çox hiss edilirdi. Kömür və toxuculuq sənayesində isə artım müşahidə edilmirdi. Bütövlükdə, 50-ci illərin əvvəllərində Böyük Britaniyada topdansatış milli məhsulun illik artımı 2,7%, sənaye məhsulları üzrə isə 3,3% olmuşdur.

İşsizlik xeyli azaldı. Əgər 1953-cü ildə 0,5 mln. adam işsiz idisə, 1955-ci ildə bu rəqəm 298 min idi.

1957-ci ildə Britaniya hökumətinin fəaliyyətində iki mühüm vəzifə dururdu. Bunlardan biri sosial büdcə proqramının geniş kompleksini saxlamaq, digəri isə xəzinəni tamamlamaq və bank faizlərinin səviyyəsini yüksəltmək məqsədi ilə dövlət qiymətli kağızlarının dəyərini kəskin surətdə artırmaq idi. Lakin sonrakı ilyarım – iki ildə iqtisadi konyuktura əhəmiyyətli dərəcədə pisləşdi. Tələbat məhsullarının qiymətinin artması inflyasiyaya səbəb oldu.

Müharibədən sonrakı inkişafın müəyyən müvəffəqiyyətləri olmasına baxmayaraq Böyük Britaniya sənayesi əhəmiyyətli dərəcədə ABŞ, Almaniya, Yaponiya sənayesindən ixtisaslaşma, texnoloji baza, məhsulların dəyəri baxımından geri qalırdı.

Britaniya iqtisadiyyatının əvvəlki liderləri öz mövqelərini əhəmiyyətli dərəcədə itirmişdilər. Onlar indi müstəmləkələrdən məhsulları müftə deyil, pulla almalı olmuşdular. İdxalın getdikcə artması büdcə defisitinə və inflyasiyaya səbəb olurdu.

**Böyük Britaniya iqtisadiyyatı 60-cı illərdə**. 60-cı illərin əvvəllərində iqtisadi artımı gücləndirmək və inflyasiyanın artmasının qarşısını almaq üçün hökumətin təsərrüfat fəallığını məhdudlaşdırması məsləhət görülürdü. Maliyyə sistemini sağlamlaşdırmaq üçün sənayedə kapitalhəcmli istehsalı ixtisar etmək və xammal gətirilməsi tələbini azaltmaq lazım gəlirdi. İdxalın azaldılması balansın çəkisinin bərpasına və inflyasiyanın azalmasına

kömək edirdi. Sahibkar fəallığını stimullaşdırmaq və iqtisadi artımı sürətləndirmək vacib idi.

İngiltərə bankının hesab norması yenidən yüksəldi. Gömrük və digər dövlət yığımları artırıldı. Kredit məhdudlaşdırıldı, büdcənin məxaric hissəsi ixtisar edildi. Bununla paralel olaraq iqtisadiyyatın dövlət tənzimləməsinin mexanizmini yaratmaq sahəsində addımlar atıldı. Bu ona görə lazım idi ki, konyukturanı səmərəli şəkildə lazım gəldikdə "istiləşmə"dən "qızdırılma"ya və əksinə keçirmək mümkün olsun.

Britaniya hökumətinin "Dayan-get" taktikası iri istehsalçıların maliyyə və vergi cəhətdən müdafiəsini təşkil edir, dünya bazarında ölkənin rəqabət qabiliyyətini qoruyurdu. Bu vəzifənin həllinin həm də siyasi aspektdən mühüm əhəmiyyəti vardır.

1965-ci ildə beşillik "Milli iqtisadi plan" işlənib hazırlandı və o, qanun qüvvəsinə mindi. İstehsalda artım hər il 4-5% nəzərdə tutulurdu. Ən çox diqqət işsizliyi aşağı səviyyəyə endirməyə verilirdi. Sahibkarları istehsalın texnoloji bazasını modernləşdirməyə həvəsləndirmək xətti götürüldü. Məşğulluğa görə ayrıca seçmə vergi müəyyən edildi. Əlverişli investisiya iqlimini saxlamaq xətti yeridildi.

XX əsrin 60-cı illərinin sonunda maliyyə sabitliyinin yenidən pozulması təhlükəsi yarandı. Fəal büdcə siyasəti xroniki büdcə kəsirinin əsas səbəbi oldu. Avropa ölkələrindən o dövrdə ancaq İsveç büdcənin müsbət saldosunu sabit saxlayırdı. Vilson hökuməti bu dövrdə inflyasiya meylini müxtəlif tədbirlərlə birləşdirməyə çalışaraq onu funt-sterlinqin kursunun düşməsinə yaxın buraxmamağa çalışırdı.

1966-cı ilin ikinci yarısı ərzində tədbirlər paketi reallaşdı. İcarə haqqı, avtomobillərin qiyməti (40%) və spirtli içkilərə, neft və

benzinə, rabitə xidmətinə (bütövlükdə 10%) qoyulan dolayı vergilər artırıldı. Milliləşdirilmiş sənaye müəssisələrinə qoyulan investisiyalar kəsildi, beynəlxalq valyuta sövdələşmələri şərtləşdirildi, Britaniya Millətlər Birliyi ölkələrinə çəkilən mülki və hərbi xərclər ixtisar edildi.

1967-ci ildə İngiltərə banklarında "qiymətli kredit" siyasəti həyata keçirildi. Əmək haqqı və qiymətlərin artımının əlavə məhdudlaşdırılması başlandı. Bir çox büdcə xərcləri ixtisar edildi, xaricdən pulla alınan məhsullar, kapitalın xaricə axını məhdudlaşdırıldı. Hökumət bu siyasətlə ilk növbədə ölkənin mədaxil və məxaric balansını yaxşılaşdırmağa nail olmağa çalışırdı. Buna isə ilk növbədə ixracı fəallaşdırmaq hesabına nail olmaq istəyirdi. Burada Böyük Britaniyanın Avropanın Birliyinin ümumi bazarına daxil olmasının da mühüm əhəmiyyəti olurdu.

Elmtutumlu sahələrin inkişafı üçün hökumət kral mükafatı sistemini genişləndirdi. İşçilərin ixtisaslaşmasını yüksəltmək və menecerliyin yeni formalarını yaratmaq üçün kadrların hazırlığı üzrə şuralar təsis edildi. Yol nəqliyyatı, mehmanxana xidməti, mülki aviasiya, benzindoldurma biznesi sahələrində belə şuralar daha tez fəaliyyətə başladılar. Hökumət gəlirə görə nisbətən aşağı vergini saxladı.

Hökumətin maliyyə və siyasi dəstəyi ilk növbədə iri Britaniya şirkətləri oldu ki, o, dünya bazarında rəqabət qabiliyyətini qoruyub saxlaya bilsin. Milliləşdirilmiş müəssisələrə dövlət kapital qoyuluşunu genişləndirdi.

1967-ci ildə dövlət iri metallurgiya inhisarı olan "Britiş Still Korporeyşn"ın əsasını qoydu. Bu inhisar bütün poladtökmə sənayesinin milliləşdirilməsini həyata keçirməli idi. Hökumət

gələcəkdə bank və sənaye kapitalının müəyyən hissəsinin də mərkəzləşdirilməsini müdafiə etməyi nəzərdə tuturdu.

1969-cu ildə Qərbi Avropada fəaliyyət göstərən 20 iri xüsusi şirkətin 8-i Britaniyaya məxsus idi. Görülən tədbirlər müəyyən müsbət nəticələr verdi. Belə ki, 1970-1971-ci illərdə Britaniya büdcəsi uzun illərdən bəri ilk dəfə olaraq müsbət saldoya malik oldu.

1968-ci ildə hətta Baş Nazir ölkədə iqtisadi möcüzə baş verəcəyi haqqında pafosla danışdı. Lakin bu həddindən artıq şişirdilmiş bir proqnoz idi. Böyük Britaniya əvvəlki kimi yenə də qabaqcıl Qərb ölkələrindən daxili məhsul istehsalının illik artımına görə geridə qalırdı.

**Böyük Britaniya iqtisadiyyatı 70-ci illərdə**. E.Hitin “yeni mühafizəkar” hökuməti “Mühafizəkarlar” partiyası müxalifətdə olan dövrdə öz ideoloji doktrinasında və təşkilati quruluşunda köklü modernləşdirmə apardı. Bu istiqamətdə birinci addım partiya liderinin seçilməsi prosedurasının parlament fraksiyası deputatları ilə qəti əlaqələndirilməsi oldu.

İlk dəfə belə seçkilər 1965-ci ildə təşkil edilmişdir. Əsas mübarizə Edvard Hit, Recinald Modlinq və Enoko Pauell arasında gedirdi.

Onların fikrincə, iqtisadiyyatı idarə etmək də cəmiyyəti idarə etmək qədər çətindir. “Yeni mühafizəkarlar” iqtisadi proseslərə inzibati rəhbərliyi azaltmağı, mərkəzləşdirilmiş planlaşdırmadan əl çəkməyi tələb edirdilər. İrəli sürdükləri dövlətin iqtisadi siyasəti sistemini onlar “səmərəli kordinasiya” adlandırırdılar.

“Vahid millət” qrupu belə hesab edirdi ki, gəlirlər sahəsindəki məhdudiyyətləri aradan qaldırmaq, gəlirə görə mütərəqqi vergi siyasətindən imtina etmək lazımdır. Biznes aləmində vergi yükünü aşağı salmaq Milli sərvət toplamağın və kapital artımının

stimullaşdırılmasının əsas vasitələrindən biridir. Milli iqtisadiyyatın dinamik inkişafında kiçik kapitalın rolu xüsusi qeyd edilirdi.

"Kollektiv tələbat" sistemindən imtina edən "Vahid millət" qrupunun nəzəriyyəçiləri dövlətin sosial siyasət sistemində düzəlişlər etməyi lazım bilirdilər. Onlar "kollektiv cənnətdən ünvanlı sosial siyasətə keçməyi" zəruri sayırdılar. Sosial aləmdə fərdi məşğuliyyətlə xüsusi təşəbbüs prinsipini möhkəmlətmək yolu ilə millətin ruhunu yüksəltmək, cəmiyyətin və şəxsiyyətin azadlığını təmin etmək mümkün hesab edilirdi.

Geniş miqyasda özəlləşdirilmə həyata keçirilməsə də, lakin dövlət şirkətləri və müəssisələrinin səhmlər paketinin qismən satışı oldu. Eyni zamanda xüsusi bölməyə dövlətin müdaxiləsi xeyli azaldı.

1970-ci ildə sənayenin yenidən təşkili korporasiyası və bir neçə iqtisadi inkişaf pralnlarını işləyib hazırlayan hökumət müəssisələri ləğv edildi.

Hit hökumətinin iqtisadiyyatı liberallaşdırmaq siyasətində, vergiqoyma sistemində islahatlar üzrə tədbirlər müəyyən edildi. Birbaşa vergilər azaldıldı və iqtisadiyyatın "real bölməsini" stimullaşdırmaq adı altında dolayı vergilər artırıldı. Sənaye istehsalı sahəsinə kapital qoyuluşunun rentabelliyini yüksəltmək xətti yeridildi. Gəlir vergisinin hər funt-sterlinqindən 6 pens aşağı salındı. 10 mln.-a qədər insan ümumilikdə gəlir vergisindən azad edildi.

İri şirkətlərdən gəlirə görə vergi tədricən azadılmağa başladı. İlk başlanğıc kapital qoyuluşları üçün vergidə güzəştlər artırıldı. Hit hökuməti əmək münasibətləri sahəsində də dövlət nəzarətinin səviyyəsini əhəmiyyətli dərəcədə aşağı saldı. Vilson hökumətinin keçirdiyi məşğulluğa görə seçmə vergilər tamamilə ləğv edildi. Hökumət geniş miqyasda işsizliklə mübarizə proqramından imtina

etdi. Hit hökumətinin gördüyü tədbirlər sahibkarların fəallığını və istehsalın həcminin artımını stimullaşdırdı.

1973-cü ildə istehsal 7% artdı. Lakin eyni zamanda, dövlət borcları da artdı. 70-ci illərin əvvəllərində beynəlxalq valyuta sistemində baş verən əsaslı yenidənqurmalar da Britaniya iqtisadiyyatına mənfi təsir göstərdi [21, s.149].

1972-ci ilin iyunundan sonra funt-sterlinqin "sərbəst üzməsi" siyasətinin həyata keçirilməsi onun kursunu sürətlə aşağı saldı. 1972-ci ilin noyabrında Hit hökuməti "antiinflyasiya siyasətinin" yeni mərhələsinin başlandığını və öz iqtisadi strategiyasında mahiyyət dəyişiklikləri edəcəyini elan etdi. Hökumət qiymət və gəlirləri məcburi tənzimləmə praktikasına qayıtmağa məcbur oldu. Hökumət həmçinin sənaye istehsalını fəal tənzimləmək siyasətinə qayıtdı. Milli mənafe üçün vacib olan xüsusi müəssisələrə subsidiyaların verilməsi bərpa edildi. Bu "Xromex utole"nun müdafiəsi siyasəti adlandı.

Kənd təsərrüfatı istehsalına da dotasiya ilə kömək edildi. Hökumətin fəallığı sənaye istehsalı artımının müsbət dinamikasını saxlamağa imkan verdi. Lakin dünya bazarında Böyük Britaniyanın mövqeyi pisləşməkdə davam edirdi.

Dünya ixracında onun payı 1973-cü ildə 6,6%-ə qədər aşağı düşdü. Belə bir şəraitdə "Böyük Britaniya"nın AİB-nə daxil olması üçün yenidən cəhd etməsinin prinsipial əhəmiyyəti vardı.

1973-cü ilin yanvarın 1-də Böyük Britaniya, Danimarka və İrlandiya AİB-nin tam hüquqlu üzvü oldular. Böyük Britaniya AİB-ə daxil olmaq üçün bu təşkilatın tələbi ilə beynəlxalq müraciətlər üçün ehtiyat valyutası keyfiyyətində funt-sterlinqdən istifadə edəcəyindən imtina etdi və AİB-in büdcəsinə üzvlük haqqını artırmağa təminat verdi. Bu halda isə Böyük Britaniyanın AİB-ə daxil olması

başlanğıcda onun büdcə balansının yaxşılaşdırılmasına deyil, pisləşməsinə səbəb oldu.

1973-cü ilin sonunda Britaniya iqtisadiyyatı "neft şoku" ilə, yəni daha ciddi problemlərdən biri ilə də qarşılaşmalı oldu. 1973-cü ilin oktyabr ayında OPEK neftin qiymətini 3 dollardan 11,7 dollara qaldırılması haqqında qərar qəbul etdi. Bu qərar Qərb ölkələrinin iqtisadiyyatını qlobal energetika böhranı həddində qoydu. Sənaye istehsalının qabaqcıl sahələri ənənəvi olaraq enerji əsaslanan texnologiya ilə mənbələnirdilər.

"Neft şoku" böyük itkilərə, istehsalın azalmasına, investisiya ixtisarına səbəb oldu, həm də istehsalın bütün texnoloji bazasını yenidən istiqamətləndirməyin vacibliyini göstərdi. Bu proses illərlə uzanırdı. Sənaye iqtisadi modeli struktur böhranın əsas səbəbi idi.

"Neft şoku" müharibədən sonra ilk dəfə olaraq insanları istehsalı yenidənqurma böhranı ilə üzləşdirdi. Çünki Böyük Britaniya özünün neftə olan tələbatının 2/3 hissəsini Orta Şərq regionundan idxal edirdi. Belə bir şəraitdə ölkədə fövqəladə vəziyyət elan edildi. Üç günlük iş həftəsinə keçirildi

1975-ci ildə Şimal dənizində neft yataqlarının kəşf edilməsi və 1979-cu ildə neft hasil edilməsi ölkənin gələcək inkişafının stimullarından biri oldu.

Böyük Britaniya Marqaret Tetçerin "yeni mühafizəkarlar" hökuməti dövründə (1979-1990-cı illər) 70-ci illərin sonlarında dünyanın qabaqcıl ölkələrinin əksəriyyətində sağların hakimiyyətə gəlməsi İngiltərədə də öz əksini tapdı.

1979-cu ilin may ayının 4-də keçirilən parlament seçkilərində nümayəndələr palatasından olan 650 yerdən 390-nı mühafizəkarlar tutdu. Seçicilərin 13 mln.-dan çoxu mühafizəkarlara, 11 mln.-dan bir qədər çoxu isə leyboristlərə səs verdilər.

1959-cu ildən İngiltərə parlamentinin üzvü, 1975-ci ildə mühafizəkarlar partiyasının lideri, əvvəlki hökumətin dövründə təhsil naziri işləmiş və hələ o dövrdə sosial xərclərin azadılması təklifi ilə parlamentdə məsələ qaldırmış Marqaret Tetçer baş nazir kürsündə əyləşdi.

Tetçer hökuməti iqtisadi və sosial sahədə fövqəladə çətinliklərlə üzləşməli oldu. "Neft şoku" ağır nəticələr verdi. 1979-cu ildə İranda şah rejiminin devrilməsi və İran-İraq müharibəsinin başlanması ilə OPEK ölkələri dünya bazarında neftin qiymətini iki dəfə qaldırdılar.

**Böyük Britaniya iqtisadiyyatı 80-cı illərdə.** 1980-ci ildə Avropa ölkələrini yeni böhran dalğası bürüdü ki, bu özünü İngiltərədə daha ağır göstərdi. Böyük Britaniya hətta 1929-1933-cü illərdə də belə bir böhranla üzləşməmişdir.

Ölkədə ümumi sənaye məhsulu istehsalı 12%, emal sənayesi 16%, yüngül sənaye 27%-ə qədər aşağı düşdü. İnflyasiya və işsizlik artdı. 1980-1981-ci illərdə işsizlərin sayı 1,5 mln.-dan 3,3 mln.-a çatdı [20, s. 175].

Buna baxmayaraq Tetçer hökuməti iqtisadiyyatın struktur islahatından əl çəkmədi. Hökumət ilk növbədə inflyasiyanın sürətini aşağı salmaq siyasəti yeritdi və "Qiymətli kredit" siyasətinə keçirildi. İri gəlirdən tutulan vergilər 3,5 mlrd. funt-sterlinq ixtisar edildi, büdcəyə gələn dolayı vergilərin çəkisi 1979-cu ildəki 34%-dən 1981-ci ildə 39%-ə qalxdı.

Tetçer öz daxili siyasətini "yeni mühafizəkar inqilab" adlandırdı. Dövlət kommunal və yol təsərrüfatı, mədəniyyət, maarifə çəkilən dövlət xərclərinin böyük miqyasda ixtisarına başladı.

1980-1981-ci illərdə onlara büdcədən çəkilən xərclər 4 mlrd. funt sterlinq azadıldı. Eyni vaxtda dövlət aparatının tərkibinin və onların saxlanılması xərclərinin azaldılması başlandı.

1982-ci ilə qədər hökumətin tərkibindəki bütün sahə nazirlikləri ləğv edildi. Tetçerin apardığı siyasət artıq 1982-ci ildə öz nəticələrini verdi. Tetçer inflyasiyaya qarşı mübarizəni özünün ən şərəfli vəzifəsi hesab edirdi.

M.Tetçer bu xətti tutmuşdu ki, İngiltərə güclü ordu və donanmaya malik olmalı, özünün nüvə silahını təkmilləşdirməlidir. Tetçer hökuməti milliləşdirilmiş iqtisadiyyat şöbələrinin sistematik özəlləşdirilməsi xəttini yeritməyə başladı. Hökumət milliləşdirilmiş müəssisələrin ziyanla işlədiyini əsaslandıraraq onları özəlləşdirməyə başladı.

Neft, kimya, aviasiya, gəmiqayırma, nəqliyyat və digər sənaye sahələrinin xüsusi mülkiyyətə çevrilməsi prosesində dövlət müəssisələrinin 2/3 hissəsi iştirak etdi. 21 dövlət şirkəti özəlləşdirildi.

1984-1987-ci illərdə sənaye, nəqliyyat, kommersiya strukturlarının 1/3-i özəlləşdirildi. Daxili məhsul istehsalında dövlət bölməsinin payı 10%-dan 6,5%-ə endi.

Tetçer hökuməti milliləşdirilmiş dövlət müəssisələrinə dövlət yardımını kəskin surətdə azaltdı. Dövlət bölməsinin ixtisarı nəticəsində bu sahəyə kapital qoyuluşu 50%-dən 25%-ə endi. İqtisadi proseslərin liberallaşdırılması xətti yeridildi. Bələdiyyə idarələrinin bir milyondan artıq mənzili satıldı.

80-ci illərin sonunda Böyük Britaniya səhm sahiblərinin sayına görə ABŞ-dan sonra dünyada ikinci yeri tuturdu. Mülkiyyətçilər cəmiyyətinin formalaşması mənzil təsərrüfatı, tibbi xidmət, təhsil islahatları ilə yanaşı gedirdi. Bu isə “ümumi rifah

dövləti"nin demontajı demək idi. Fərdi ev tikintisi genişləndi, bu sahədə kreditlər ayrıldı, tikinti şirkətlərini vergi güzəştləri edildi.

Tetçer hökumətinin səmərəli fəaliyyətinin nəticəsi olaraq Britaniya iqtisadiyyatının inkişafının bütün göstəriciləri yaxşılaşmağa başladı. İstehsalın orta inkişaf sürəti 80-ci illərdə hər il 3-4% oldu. Xaricə kapital qoyuluşu artdı. İşsizlik 1987-ci ildəki 9,8%-dən 1989-cu ildə 6,8%-ə düşdü.

80-ci illərin ikinci yarısında əhalinin gəliri ildə 5% artmışdır. Bu dövrdə artıq 64% ingilis ailəsinin özünün şəxsi evi, 70%-dən çoxunun avtomobili var idi.

**Böyük Britaniya iqtisadiyyatı 90-cı illərdə**: 1990-cı illərin sonunda da Böyük Britaniya iqtisadi artım sürətini saxlayırdı. Birinci yeri xidmət sahəsi tuturdu. Hökumətin yeritdiyi iqtisadi siyasət İngiltərə məhsullarının dünya bazarında rəqabət qabiliyyətini yüksək səviyyədə saxlayırdı.

1999-cu ildə hökumət əmək bazarının inkişafı ilə əlaqədar xüsusi proqram qəbul etdi. Bundan başqa gənclər üçün iş yerlərinin açılması və onların işlə təmin edilməsinə təminat verən xüsusi proqram qəbul edildi. Bu proqramı həyata keçirmək üçün büdcədən 5,7 mlrd. dollar vəsait ayrılırdı.

1990-cı illərin sonunda Böyük Britaniya investisiya fəallığını fövqəladə yüksək səviyyədə saxlayırdı. Britaniya iqtisadiyyatı xarici biznesə kapital qoyuluşu üçün əlverişli bazar oldu.

Bu dövrdə Böyük Britaniyada 13 min xarici şirkət fəaliyyət göstərirdi. Leyboristlər imtiyazları ixtisar etmək hesabına vergiləri genişləndirmək siyasəti yetirməyə başladılar.

Bleer hökuməti ümumi gəlir vergisini 20%-ə, şəxsi gəlir vergisini isə 10%-ə qədər azaltdı. Beləliklə, Böyük Britaniya inkişaf etmiş ölkələr içərisində birbaşa vergilərin ən aşağı səviyyədə olduğu

ölkələrdən biri oldu. Hökumətin maliyyə siyasəti büdcə kəsirini tədricən azaltmağa doğru yönəldilmişdir. 1999-cu ildə ölkədə inflyasiyanın səviyyəsi cəmi 3,4% təşkil edirdi [20, s.175].

1998-ci ildə Böyük Britaniya ixraca görə dünyada beşinci yeri, idxala görə isə üçüncü yeri tuturdu. Əsas makroiqtisadi göstəricilərə görə İngiltərə iqtisadiyyatı Almaniya və Fransanın sosialist bazar təsərrüfatını ötüb keçmişdir. Hökumət sosial siyasətə də diqqət ayırmışıdır.

1998-ci ildə hökumət sosial proqram qəbul etdi. Təhsil, texniki-peşə təlimi, səhiyyəyə, gənclər üçün yeni iş yerləri açılmasına xeyli vəsait ayrıldı. Telefon əlaqəsinin və nəqliyyat sisteminin də modernləşdirilməsi sürətləndirildi.

**Böyük Britaniya iqtisadiyyatı müasir dövrdə.** Hazırda İngiltərə dünyanın və Avropanın aparıcı dövlətlərindən biridir. Avropada fəaliyyət göstərən 500 inhisarın, demək olar ki, yarısı Böyük Britaniyaya məxsusdur. Böyük Britaniya Millətlər Birliyi vaxtı ilə İngiltərənin müstəmləkəsi olmuş və hazırda müstəqil olan 49 dövləti birləşdirir. Bu dövlətlərin hamısında dövlətin başçısı İngiltərə kraliçasıdır. Böyük Britaniya ABŞ-la birlikdə dünya siyasətinin liderlərindəndir.

## 1.4. Böyük Britaniyanın iqtisadi rayonları

**Plan:**

**1. Böyük Britaniyanın iqtisadi rayonları haqqında qısa anlayış**

**2. Cənubi İngiltərənin rayonları; Cənubi-Şərq, Şərqi İngiltərə və Cənubi-Qərb**

**3. Mərkəzi İngiltərənin rayonları; Qərbi Midlen və Şərqi Midlend**

**4. Şimali İngiltərənin rayonları; Şimali-Qərb (Lankaşir), Hambersayd ilə birlikdə Yorkşir və Şimal**

**5. Milli ucqar ərazilər; Uels, Şotlandiya və Şimali İrlandiya**

**Böyük Britaniyanın iqtisadi rayonları haqqında qısa anlayış.** Böyük Britaniyanın müasir iqtisadi rayonlarının formalaşması XVII əsrin sonunda sənaye inqilabı zamanı başlamışdır. Sənaye rayonları əsasən kömür hövzələrinin yaxınlığında formalaşmışdır.

XIX əsrin 2-ci yarısında kömür, metal və müxtəlif maşın istehsalı üçün sənaye sahələri Böyük Britaniyanın mərkəzi və şimal hissələrində yerləşirdi. Kapitalist istehsal üsulunun bütün sahələri və əraziləri əhatə etdiyi yüksək sənayeləşmiş ölkə olan Böyük Britaniyada kapitalist münasibətlərinin inkişafında regionlar arasında kəskin ziddiyyətlər yoxdur. Lakin iqtisadi rayonların qeyri-bərabər inkişafı onların bəzilərinin depressiv rayonlara, digərlərinin isə proqressiv (qabaqcıl) rayonlara çevrilməsinə səbəb oldu.

Rayonların inkişaf səviyyələrinin uyğunlaşdırılmasını ardıcıl həyata keçirən və müxtəlif dövrlərdə əhəmiyyətli dəyişikliklərə məruz qalan regional hökumət siyasəti mövcuddur. Müxtəlif dövrlərdə baş vermiş mühüm dəyişikliklər miqyasda və ərazi ölçülərində dəyişikliklər, depressiv rayonlara maliyyə yardımı, böyük aqlomerasiyalarda tətbiq edilən məhdudiyyətlərdir.

1979-cu ildən konservatorlar hökumətinin hakimiyyətə gəlməsi ilə 1980-ci illərdə regionda həyata keçirilən regional siyasət köklü şəkildə yenidən işlənmişdir. Dövlətin iqtisadiyyata müdaxiləsi

dayandırıldı, subsidiyalar və digər maliyyə yardımları, habelə maliyyə yardımı alan ərazilərin sayı azaldıldı.

Britaniyanın rayonlarının müasir bölgüsü 1974-cü ildə qəbul edilmiş planlı iqtisadi rayonlar şəbəkəsinə əsasən aşağıdakı iqtisadi rayonlar qrupundan ibarətdir:

**1. Cənubi İngiltərənin rayonları;** Cənubi-Şərq, Şərqi İngiltərə və Cənubi-Qərb;

**2. Mərkəzi İngiltərənin rayonları;** Qərbi Midlend və Şərqi Midlend;

**3. Şimali İngiltərənin rayonları;** Şimali-Qərb (Lankaşir), Hambersayd ilə birlikdə Yorkşir və Şimal;

**4. Milli ucqar ərazilər;** Uels, Şotlandiya və Şimali İrlandiya.

**Cənubi İngiltərənin rayonları**

**Cənubi-Şərq.** İngiltərənin bütün tarixiboyu Cənub-Şərq bölgəsi ən mühüm rayonu olub. Hazırda rayonda ölkə əhalisinin 30%-i, ÜDM-nin 40%-i və ölkəyə yönəldilən investisiyaların ümumi həcminin 60%-i cəmləşib. Cənub-Şərq bölgəsinin çoxfunksiyalı strukturunda müxtəlif xidmətlər üstünlük təşkil edir.

London nəinki Cənub-Şərq bölgəsinin, hətta ölkənin əsas şəhəridir. Eramızın I əsrində Roma istilaları zamanı Temza çayının kəsişməsi üzərində qurulan London XII əsrin sonunda İngiltərənin əsas siyasi və ticarət mərkəzi kimi özünü təsdiqlədi. Bu gün o, beynəlxalq əhəmiyyətli çoxsaylı funksiyaları yerinə yetirir.

London dünyanın beynəlxalq biznes və ticarət mərkəzidir. Avropanın əsas iqtisadi şəhəri olan London ölkə sənayesinin cəmi 20%-ni təşkil edir. Londonun xidmət sənayesi və biznes mərkəzi kimi uğuru bir çox amillərlə bağlıdır:

**1.** Londonun ölkənin paytaxtı olması;

**2.** Əlverişli coğrafi mövqeyi;

**3.** Dünya ölkələri ilə yaxın əlaqələri;

**4.** Ölkənin mühüm qanunu əsasında beynəlxalq biznesdən daha çox istifadə olunması;

**5.** Çox sənayeli infrastrukturun olması;

**6.** Aşağı vergilər, xüsusilə xaricilər üçün;

**7.** Yaxşı nəqliyyat-coğrafi mövqeyi, xüsusilə aviasiyada;

**8.** Hökumət tərəfindən kiçik müdaxilələrlə müntəzəmləşdirilmiş iqtisadiyyat [15, s. 78].

Ölkə iqtisadiyyatında dominant mövqe tutan London Böyük Britaniyanın inkişafında xüsusi rol oynayır. Londonun sürətli inkişafı II Dünya müharibəsindən sonrakı ilk illərdə onun mərkəzləşməsinə səbəb oldu. O dövrdə Londonun əhalisi 8,3 mln. nəfər idi (1951-ci il məlumatlarına görə).

Mərkəzləşdirmə siyasəti əhali və sənaye sahələrinin onun yaşıl zolağından kənara çıxarılmasına əsaslanırdı. Bu məqsədlə mərkəzləşdirmənin 1-ci mərhələsində Londonun ətrafında yeni şəhərlərin salınmasına, sonrakı mərhələdə isə bir sıra kiçik qədim şəhərlərin genişləndirilməsinə başlanıldı. Bundan əlavə, Londonun “kontr-maqnat”larının inkişafına xüsusi diqqət yetirilirdi. “Kontr-maqnat”lara Brayton, Oksford, Readinq, Sautend, Sauthempton, Portsmouth və Milford-Keynes şəhərləri daxil edilirdi.

London bu gün də dünyanın ən məşhur maliyyə mərkəzi rolunu qoruyub saxlaya bilib (Nyu-Yorkdan sonra 2-ci yerdədir). Lakin 1987-ci il maliyyə böhranından sonra bu sahədə məşğulluq xeyli azalmışdır. London şəhərində çoxsaylı xarici qurumlar (dünyanın 150 ölkəsindən 300-ə yaxın bank və 200 sığorta şirkəti) formalaşmışdır.

Qeyd edək ki, dünya üzrə həyata keçirilən sığorta əməliyyatlarının əksəriyyəti bu qurumlar vasitəsilə həyata

keçirildiyindən onlar avrovalyuta şəklində beynəlxalq kreditlərin verilməsi ilə məşğul olan əsas mərkəzlərdən biri hesab olunur. Məhz bu qurumlarda bütün dünyada qızılın qiyməti müəyyən edilir.

London şəhərinin sayəsində Cənub-Şərq bölgəsi ölkənin ən böyük sənaye sahəsinə çevrildi. Amma bütün bunlara əlavə olaraq qeyd etmək lazımdır ki, 90-cı illərinin əvvəllərində mövcud olan böhran nəticəsində sənaye sahələrində məşğulluğun səviyyəsi aşağı düşmüşdür. Bu da ölkədə işsizlik səviyyəsinə təsir etmişdir.

Londonun sənaye sahələri çoxsahəli strukturu əhatə etmək xüsusiyyətlərinə görə fərqlənirlər. Bu sahələr qədim olsa da, ölkə iqtisadiyyatında mühüm əhəmiyyət daşıyır.

Yeni sənaye sahələrinin əsas yeri (ofis) və tədqiqat mərkəzləri Londonda cəmləşmişdir.

Yüksək texnologiya sahələri gözəl təbiətin əhatəsində yerləşən kiçik və yeni sahələrə də yayılmışdır. Onlar həmçinin London-Bristol avtomagistralına (Slau, Redinq və eləcə də Oksford şəhərləri üçün) birləşmiş zolaqlar üçün də xarakterikdir. Buradan bir qədər aralıda atom sənayesi üzrə fəaliyyət göstərən elmi-tədqiqat mərkəzləri (Amerşam, Haruell və Oldermaston) mövcuddur. Şəhərin gələcək inkişafı London ilə La-Manş tuneli arasındakı zolağın yenidən inşa olunmasına, eləcə də London limanının köhnə doklarının (gəmi təmir olunan yer) üzərində yaradılmış müasir ofisləri və infrastrukturları olan Doklenddən geniş şəkildə istifadəyə əsaslanmışdır.

**Şərqi İngiltərə.** Şərqi İngiltərə Böyük Britaniyanın əsas kənd təsərrüfatı bölgəsi hesab olunur. Rayonun cənub və şərq şəhərləri əsasən kurort yerləri kimi fəaliyyət göstərir. Sauthempton və Portsmut şəhərlərində gəmi təmiri sektoru da inkişaf etdirilmişdir. Folidə böyük neft emalı zavodu fəaliyyət göstərir.

Şərqi İngiltərə məşğulluq və iqtisadi fəallıq baxımından ən inkişaf edən regiondur. Bu bölgədə ən aşağı işsizlik səviyyəsi mövcuddur. Bu region yaxın vaxtlara qədər kənd təsərrüfatı rayonu olmuşdur. Hazırda rayon yem bitkiləri (buğda və arpa), şəkər çuğunduru, intensiv heyvandarlıq məhsullarının istehsal bazası hesab olunur.

Bundan əlavə Uoş körfəzi yaxınlığında yerləşən Fenlend şəhərinin polderlərində (sahili dənizdən damba ilə ayıran alçaq hissə) yüksək məhsuldarlıqlı tərəvəzçilik və meyvəçilik inkişaf etmişdir.

Paytaxta yaxınlıq, yüksək keyfiyyətli kommunikasiya sistemi, gözəl təbiət və Kembric Universitetinin bazasında böyük "Elm və Texnologiya Parkı"nın (100 min nəfərlik park) yaradılması yüksək texnologiyası ilə seçilən kiçik şirkətlərin yaradılmasına təkan verir.

Şərqi İngiltərə xüsusi olaraq idarəetmə sistemləri, telekommunikasiya avadanlıqları, aerokosmik, elmi avadanlıq, bioloji texnologiya və xidmət sənayesi üçün kompüter saxlama sistemlərinin istehsalına görə xüsusilə seçilir. Burada maliyyə və biznes xidmətlərinin əlavə sahələri də genişlənib.

Rayonun inkişafında ən mühüm məqam Böyük Londonun "kontr-maqnatlarından" biri olan Pitersborodur (əhalisi 150 min nəfər).

Noric inzibati mərkəzi ayaqqabı, maşınqayırma və yeyinti sənayesi sahələri, turistlərin marağına səbəb olan orta əsr qəsri və tikililəri ilə seçilir.

Qreyt-Yarmut balıqtutma və kurortu ilə məşhurluq qazanmışdır.

Şimal dənizi sahilində turistləri cəlb edən kiçik şəhərcikləri də var.

**Cənubi-Qərb.** İngiltərənin Cənub-Qərb hissəsi demoqrafik və iqtisadi göstəricilərinə görə sürətlə inkişaf edən bölgə hesab olunur. Lakin bu amil onun iqtisadi sahədə mövqeyini düzgün qiymətləndirməyə imkan vermir. Ərazinin sənaye inkişafı onun Londona yaxın ərazidə yerləşməsi isə əlaqələndirilir. Məhz bu amil London-Bristol marşrutu boyunca yüksək texnologiyaların inkişafını şərtləndirir. Onların bəziləri burada paytaxt regionunun qeyri-mərkəzləşdirilməsi prosesində yerləşdirilmiş, bəziləri isə Severnsaydın aerokosmik və digər müdafiə sənayesi əsasında inkişaf etmişdir [15, s.78].

Ölkədə yük dövriyyəsinə görə üçüncü yeri tutmuş Bristol şəhəri rayonun paytaxtıdır. 350 min əhalisi olan Bristol aerokosmik, əlvan metallurgiya və poliqrafiya sənaye sahələrinin mərkəzidir. Qədim dövrlərdə şəhərin limanlarında yerləşən anbarlara tütün, qənd və s. tədarük edilərkən burada böyük qida sənayesi formalaşmışdır. Bristol şəhəri təkcə öz regionunun deyil, həm də Cənubi Uels şəhərlərinin aparıcı maliyyə mərkəzi kimi çıxış edir. Burada Londonun maliyyə şirkətlərinin daha böyük ofisləri fəaliyyət göstərir.

Regionun inkişafının başqa bir hissəsi kurortlar və kiçik dairəvi, abadlaşdırılmış və şəhər əraziləri ilə əlaqəli olan cənub sahilidir. Burada ölkənin zəngin təqaüdçüləri məskunlaşıb. Regionda xidmət sahələri də genişləndirilib. Buradakı dəniz bazaları (Davenport, Plymouth Docks və əvvəllər Portland, şimal-qərb sahili boyunca yerləşən şəhərlər) əraziyə ayrılan maliyyənin azalması səbəbindən bağlanıb (yalnız Heaven's Frost istifadədir).

Buradakı mülayim hava şəraiti cavan mal-qaranın ilboyu yaşıl otlaqlarda otarılmasına və ölkədə ən ucuz süd məhsulunun istehsalına şərait yaradır.

**Mərkəzi İngiltərənin rayonları**

**Qərbi Midlend.** Qərbi Midlend - ölkənin mərkəzi hissəsində kommunikasiya xətlərinin yolayrıcında yerləşmişdir. O, digər rayonlardan daha çox onda uzun müddət hakim və mərkəzi şəhərdən ibarət olan Qərbi Midlend konurbasiyasından (2,5 mln. nəfər), Birmingemin mərkəzində (1 mln. nəfər) təşkil olunmuş emal sənayesindən və Vulverhemptonun avtomobil, dəzgahqayırma və metal emalı sənayesindən asılıdır. Avtomobilqayırma və elektronika sahəsi həm də Koventri şəhərində də (292 min nəfərlik əhalisi olan şəhər) cəmlənmişdir. Rayonun şimal hissəsində isə müxtəlif keramika və məşhur farforlu – fayans məmulatlarının iri istehsalat sahəsi yerləşmişdir.

Qərbi Midlend rayonu Cənubi-Qərb ilə müqayisədə ölkənin qabaqcıl rayonlarından biri olmuşdur. O, hal-hazırda da ölkə "sənayesinin qəlbi" hesab olunur. Lakin bütün bunlara baxmayaraq rayon 80-ci illərdə maşınqayırma sahəsində baş verən struktur böhranını çox ağır keçmişdir. Burada işsizliyin səviyyəsi artmış, ÜDM-nın əhalinin hər bir nəfəri üçün olan orta həcmi və digər göstəricilər böhran keçirən rayonların göstəricilərinə nisbətən daha aşağı olmuşdur. Həmçinin bunlarla əlaqədar olaraq Qərbi Midlend rayonuna mühüm əhəmiyyət kəsb edən dövlət subsidiyaları ayrılmışdır.

Hal-hazırkı dövrdə onun vəziyyəti yaxşılığa doğru dəyişməkdə davam edir. Bura xarici kapitalın axını güclənməkdədir (məsələn, Yaponiya dövləti rayonda avtomobilyığma zavodu inşa etdirmiş və Telford şəhərində yeni elektronika sahəsi inkişaf etmişdir).

Amma yenə də bütün bunlara baxmayaraq bu rayonun emaledici sənaye sahəsində məşğulluq 2000-ci illər ərzində 37%-ə

qədər (baxmayaraq ki, bu göstərici xidmətlər sahəsində 17%-ə qədər artmışdır) azalmışdır.

Hələ 60-70-ci illərdə Birmengem şəhərinin mərkəzi hissəsinin yenidən inşa edilməsinə başlanmışdır. O, bu sahədə həyata keçirilən bütün tədbirlərin sayəsində iri, qüdrətli, işgüzar və maliyyə mərkəzinə çevrilmişdir. Rayonun təsərrüfatının strukturlu şəkildə yenidən inşa olunması Koventri şəhərinin mühüm maliyyə mərkəzi kimi inkişaf etməsinə təkan vermişdir.

Hal-hazırda bu şəhərdə bir sıra ofis və şirkətlər yerləşib.

Qərbi Midlend rayonunun cənub hissəsi turizm sahəsində əsas yerlərdən birini tutur. Burada həmçinin Şekspirin memorial teatrı olan məşhur Stratford-on-Eyvon adlandırılan (100 min əhalisi olan şəhər) mərkəz də yerləşmişdir.

**Şərqi Midlend.** Şərqi Midlend - özünün iqtisadi göstəricilərinə görə digər rayonlar arasında orta mövqeyi tutmuşdur. Lakin bu amil yerli iqtisadiyyat sahəsində mövcud olan məkan fərqlərinin aşkar olunmasına da maneəçilik törədir.

Regionun şimal, mərkəzi və cənub hissəsində isə müxtəlif sənaye profili olan dörd mühüm mərkəz yerləşmişdir:

- Nottingem;
- Derbi;
- Lester;
- Northempton.

Dənizə çıxışa malik olan rayonun şərq hissəsi isə kənd təsərrüfatı sahəsi üzrə ixtisaslaşmışdır. Burada buğda və şəkər çuğunduru əkilir, otlaq ərazilərdə heyvandarlıq inkişaf etmişdir.

80-ci illər ərzində Britaniya kömürünün 1/3-ni emal edən daş kömür hövzəsində yaradılmış dərin şaxtaların əksər hissəsinin

fəaliyyəti 90-cı illərin əvvəllərinə yaxın dayandırılmışdır. Nəticədə burada çalışan şaxtaçıların 3/4 hissəsi işsiz qalmışdır [15, s. 81].

Burada əsas problem – yenidən profilləşdirmə və insanların işlə təmin olunmasına əsaslanmış, müasir dövrdə isə buna nail olmuşdur.

İngiltərənin digər sənaye mərkəzləri ilə müqayisədə rayonda emal sənayesi daha çox üstünlük təşkil etmişdir. Burada xidmətlər sahəsi daha az inkişaf etmişdir. Məsələn, Derbi şəhəri əsas etibarı ilə iri aviaraket-kosmik (xüsusilə də “Rolls-Roys” adlı aviamühərriki istehsal edən sahələr) sənaye üzrə, digər mərkəzlər isə yüngül sənaye və maşınqayırma sənayesinin müxtəlif sahələri üzrə ixtisaslaşmışdır.

Şərqi Midlend şəhərində toxuculuq və tikiş sahəsinin 1/4 hissəsi cəmləşmişdir. Bu sahənin əsas mərkəzləri isə Nottingem və Lester şəhərləridirlər. Nottingem şəhərini hal-hazırda “dəb şəhəri” adlandırırlar. O, həm də rayonun əsas maliyyə mərkəzidir.

Northempton, onu əhatə edən kiçik şəhərlər və eləcə də Lester ölkənin ayaqqabı sənayesinin böyük bir hissəsini təşkil edir. Bu şəhərlərdən hər biri ayaqqabı istehsalının müxtəlif növləri üzrə ixtisaslaşmışdır.

### Şimali İngiltərənin rayonları

**Şimali-Qərb (Lankaşir).** Şimali-Qərb (Lankaşir) – ölkənin Böyük London şəhərindən sonra əhalinin ən sıx şəkildə məskunlaşdığı və kiçik sahəyə malik olan (İrlandiya çayının sahilyanı ərazisi və Pennin adlı qərb yamacları ilə məhdudlaşdırılmış sahə) rayonlarından biridir. Bu rayon ölkənin digər rayonlarından sənaye müəssisələrin mövcudluğu ilə seçilir. Şəhər maşın istehsalı sahəsinin toxuculuq sənayesinə daxil olması ilə müşayiət olunan sənaye inqilabının özülünü qoymuşdur.

Bu rayon I Dünya müharibəsinin sona çatmasından sonra 30-cu illər ərzində kəskinləşməyə başlayan və bir sıra cəhətlərə görə xarakterik olan struktur böhranına cəlb olunmuşdur.

Əhalinin adambaşına düşən gəlirə görə bu rayon bir sıra depressiv rayonlardan irəlidə idi. 80-ci illər ərzində baş verən böhran da rayona daha güclü təsir göstərmişdir.

Uzun illər ərzində rayonun əsas ixtisaslaşma sahəsi pambıq-parça sənayesi olmuşdur. Lakin pambıq-parça sənaye sahəsinin tənəzzülə uğraması və eləcə də maşınqayırma sahəsinin inkişaf etdirilməsi ilə əlaqədar olaraq (burada əvvəlcədən fəaliyyət göstərən toxuculuq maşınlarının, elektronexnikanın, avto və aviatikinti istehsalat sahəsinin istisna olunması şərti ilə) rayonun profili maşınqayırma-toxuculuq sahəsinə çevrilmişdir.

Maşınların istehsalat olunması həcminə görə rayon - Cənubi-Şərq və Qərbi Midlenddən sonra üçüncü yeri tutmuşdur.

Bundan başqa burada toxuculuq sahəsi ilə əlaqədar olan kimya sənayesi də inkişaf etmişdir. Rayonda fəaliyyət göstərən əsas müəssisələr iki iri konurbasiyalarda (bir-birinin yaxınlığında yerləşən və iqtisadi cəhətdən sıx əlaqədə olan müstəqil şəhərlər qrupu) cəmləşmişdirlər:

**1.** Böyük Mançester (əhalinin sayı 2,4 mln. nəfər olan şəhər);

**2.** Mersi çayının estuarisində, onun yaxınlığında yerləşən Liverpul limanının ətrafındakı Mersisayd (əhalisinin sayı 1,4 mln. nəfər olan şəhər).

Ölkənin əsas yüklərinin daşınması üçün yaradılmış - Mançester və Liverpul şəhərləri rayonun paytaxt şəhəri həmçinin maliyyə mərkəzi hesab olunmuşdur. Rayonun əsas problemləri də (köhnə və dağılmış şəhər məhəllələrinin yenidən inşa olunması, kifayət qədər inkişaf etməmiş infrastrukturların inkişaf etdirilməsi,

limanların avadanlıqlarla təchiz olunması və eləcə də yeni sahibkarlıq zonalarının yaradılması üzrə olan problemlər) məhz bu şəhərlərdə cəmlənmişdir.

Mançester Böyük Britaniyanın əsl mədəniyyət paytaxtı kimi şöhrət qazanıb. Şəhər nəinki ölkə daxilində, həmçinin dünyada özünə məxsusluğu ilə tanınır. Ali təhsil almaq üçün isə bu şəhərdəki universitetlər yüksək keyfiyyətli təhsil verməklə dünyanın ən yaxşı reytinqlilər ali təhsil ocaqları sırasındadırlar. Şəhərdə beynəlxalq hava limanı, mükəmməl nəqliyyat sistemi, əyləncə, iş imkanlarının çox olması Mançesteri xarici tələbələri özünə cəlb edən ən məşhur İngiltərə şəhərlərindən biri edir.

Mançesterdə neft emalı, neft-kimya, kimya sənayesi, əlvan və qara metallurgiya sahələri, Sprinfild, Kapenherst və Raysli şəhərlərində isə atom sənaye sahələrinin mərkəzləri yerləşmişdir.

Mersisayd şəhərinin şimal hissəsində yerləşən sənaye şəhərlərinin hüdudlarından kənarda iri oranjereya təsərrüfatı, rayonun cənub hissəsində isə (Çeşir ovalığında) süd istehsalı ilə məşğul olan təsərrüfat sahəsi yaradılmışdır.

Məşhur turist şəhəri hesab edilən və orta əsrlər dövrünün iri ticarət mərkəzi kimi simasını qoruyub saxlamağa müvəffəq olmaqla yanaşı, "faxverk" tikilişi ilə restavrasiya olunmuş Çester şəhəri də həmçinin bu rayonda yerləşmişdir.

**Hambersayd ilə birlikdə Yorkşir.** Hambersayd ilə birlikdə Yorkşir – yeni texnologiya sahələrinin cüzi şəkildə inkişaf etdirilməsi ilə xarakterizə olunan ümumbritaniya əhəmiyyətli ağır və yüngül sənaye sahələrinin uzlaşdırılması üzrə ixtisaslaşdırılan ən qədim sənaye rayonlarından biridir. Bu qədim rayon Lankaşir rayonu kimi toxuculuq sənayesinin inkişafı ilə nəzərə çarpsa da, əsasən yun parçaların istehsalı sahəsi üzrə ixtisaslaşmışdır.

Məlum olduğu kimi bu sahələrə daxili bazarda tələbat hər zaman yüksək olmuş və bu sahə heç bir zaman güclü tənəzzülə uğramamışdır. O əsas etibarı ilə Lids (əhalisinin sayı 674 min nəfər) və Bredford şəhərinin (əhalisinin sayı 449 min nəfər) yaxınlığında yaranmış Qərbi Yorkşir (əhalisinin sayı 2 mln. nəfər) konurbasiyasında cəmlənmişdir.

Lids şəhəri - müxtəlif maşınqayırma, poliqrafiya və digər sahələrin inkişaf etdiyi bu rayonun paytaxt şəhəridir. Bu şəhər nəinki Yorkşir ilə Hambersaydda, həm də Şimalda da qabaqcıl maliyyə və ticarət mərkəzlərindən biri hesab olunur. Bununla əlaqədar olaraq Lidsi - Mançester şəhəri ilə birlikdə bütün Şimali İngiltərənin qabaqcıl maliyyə mərkəzi adlandırırlar.

Ölkənin cənub hissəsində, Yorkşir daş kömür hövzəsinin mərkəzi hissəsində Şeffild (əhalisinin sayı 500 min nəfər) və Raterhem şəhərləri (əhalisinin sayı 250 min nəfər) ilə birlikdə yüksək keyfiyyətli polad ilə prokatın, eləcə də hərbi texnikanın əsas istehsalçısı olan Cənubi-Yorkşir konurbasiyası (əhalisinin sayı 1,2 mln. nəfər) formalaşmışdır [15, s.82].

Britaniyanın qara metallurgiya sahəsində yaşanılan tənəzzül bir sıra iri zavodların bağlanmasına gətirib çıxartmışdır. 60-70-ci illər ərzində ölkədə ən iri daş kömür istehsalı ilə məşğul olan Yorkşir hövzəsinə xüsusi diqqət ayrılmışdır. Bundan başqa burada mövcud olan şaxtalar yenidən inşa olunmuş və yeni şaxtalar (Yorkdan cənubda yerləşən Selbi şəhərinin yaxınlığında) da tikilmişdir.

Burada hasil olunan kömür Trent çayı boyunca düzülən iri elektrik stansiyalarına göndərilmişdir. Hal-hazırda kömür istehsalı sahəsində kükürd istehsalına dair bir sıra məlumatlara malik olan işçilər çalışırlar. Digər işçilər isə Şimal dənizinin yataqlarından çıxarılan qaz hasilatı sahəsində işləyirlər.

80-ci illərdə böhranın baş verməsi nəticəsində daş kömür sənayesi sahəsi digər rayonlarda formalaşmış sənaye sahələrinə nisbətən daha cüzi zərərə uğramışdır. Bütün bunlara baxmayaraq, yaranan böhranlı vəziyyətdən sonrakı illər ərzində kömürün hasilatı əhəmiyyətli şəkildə ixtisara məruz qalmış və dərin şaxtaların böyük bir hissəsinin fəaliyyəti isə tamamilə (1954-cü ildən 80-ci illərə qədər 9-a yaxın dərin şaxta bağlanılmış, onlardan 5-i isə Selbi şəhərində yerləşmişdir) dayandırılmışdır. Bütün bunlarla əlaqədar olaraq qara metallurgiya sahəsində olduğu kimi bu sahədə də işsizlik artmışdır.

Hal-hazırda Hamber çayının estuarisinda (estuari çayın töküldüyü yerdə dəniz səviyyəsinin qalxması) yerləşən Hambersayd rayonunda (əhalisinin sayı 845 min nəfər) daha sabit artım qeydə alınmışdır. Burada - Avropa ilə əlaqə yaradan Kinqston-Apon-Hall liman-şəhəri (əhalisinin sayı 250 min nəfər) yerləşmişdir. O kimya, yeyinti və digər sənaye sahələrinə malikdir. Onun universitetinin bazasında “Elmi park” yaradılmışdır. Bu növ parkların digər universitetlərin nəzdində yaradılması perspektivləri də mövcuddur. Yeni texnologiyaların bu bazalara cəlb olunması və emaledici sənaye sahələrinin rəqabət aparma qabiliyyətinə malik olan bazalarının yaradılması üçün bu növ parkların fəaliyyət göstərməsi daha vacibdir.

Ölkənin digər yeni “Elmi parkı” olan və Kinqston limanını yük daşıma göstəricisi üzrə ötüb keçmiş İmminqem limanı isə nefti və təbii qazı neft-kimya kompleksinin genişləndirilməsi üçün nəzərdə tutulmuş Şimal dənizinin yataqlarından hasil etmişdir. Bu şəhərdə qara metallurgiya sahəsi Frodingem yatağının yerli dəmir filizinin hasilatı ilə məşğul olan ərazilərində geniş şəkildə inkişaf etsə də, hal-hazırda bu yataqda dəmir filizinin hasilatı dayandırılmışdır.

Rayonun şərq hissəsi və Hambersayd şəhərinin cənub istiqamətinə doğru olan ərazisi isə dənli bitkilərin (buğda və arpa), kartofun, şəkər çuğundurunun və eləcə də tərəvəz bitkilərinin yetişdirildiyi kəndlər ilə əhatə olunmuşdur. Qərbi Yorkşir konurbasiyasına daxil olan şəhərlərin ətrafında südçülük, dağlıq ərazilərdə yerləşən və kasıbçılıq şəraitində fəaliyyət göstərən kiçik fermalarda isə qoyunçuluq inkişaf etmişdir.

**Şimal.** Şimal – ölkənin depressiv əraziləri kateqoriyasına daxil olmuş rayonlarından biridir. Hal-hazırda ərazinin böyük bir hissəsi bu statusu qoruyub saxlamışdır. Bu rayon hər zaman digər depressiv rayonlar kimi (Şimali İrlandiya rayonları istisna olunmaq şərti ilə) bir-biri ilə sıx şəkildə əlaqədə olan qədim sənaye sahələrindən asılı olmuşdur.

Rayon qədim zamanlarda kömür istehsalı və hasilatı, eləcə də poladla gəmilərin istehsalı ilə məşğul olan ən iri rayonlardan (ölkədə bu sahə üzrə 2-ci yeri tutmuşdur) biri olmuşdur. Bu sahələrdə sonradan müşahidə olunmağa başlayan tənəzzül prosesi fəlakətli şəkildə nəzərə çarpan işsizliyə və əhalinin ərazini tərk etməsinə şərait yaratmışdır.

Burada həyata keçirilən regional siyasət yeni şirkətlərin digər rayon və dövlətlərdən cəlb olunması ilə əlaqədar olaraq mövcud olan sənaye sahələrinin diversifikasiya (kapitalın və investisiyanın kapital riskini azaltmaq üçün müxtəlif obyektlər arasında paylanması) olunmasına təkan verdi. Hal-hazırda Böyük Britaniyaya cəlb olunan xarici investisiyaların 10%-i rayonun payına (hal-hazırda çoxsaylı yapon şirkətləri fəaliyyət göstərirlər) düşür.

90-cı illər ərzində burada sonuncu dərin şaxtalar və tərsanələrin əksəriyyəti bağlanıldı. Fəaliyyət göstərən sənaye sahələrinin istehsalat gücü kəskin şəkildə ixtisar olunmağa başladı.

1994-cü ildə fəaliyyət göstərən emaledici sənaye sahələrinin ölkə üzrə payı orta göstəricidən yalnız bir qədər aşağı düşməyə, köhnə sahələrdə isə yalnız 3%-ə qədər işçi çalışmağa başladı. Burada yalnız xidmət sahələri genişləndirildi və hal-hazırki dövrdə də bu sektor yaxşı inkişaf edib.

Faydalı qazıntıların cəmləndiyi əsas yataqlar və demək olar ki, ən vacib şəhərlər - rayonun dəniz sahili boyunca uzanan şimali – şərq hissəsində, eləcə də Tayn, Uay və Tis çaylarının estuarilərində (estuari dənizə tərəf geniş açılmış qıfabənzər çay mənsəbi) yerləşir. Burada inkişafı kömür hasilatı və kömür ticarəti ilə əlaqədar olan Nyukasl rayonu ilə (əhalisinin sayı 263 min nəfər) Tayn və Uay konurbasiyaları da mövcuddur [15, s. 82].

Hal-hazırda Nyukasl şəhəri ağır maşınqayırma, elektrotexnika və elektronika sahələri üzrə ixtisaslaşmışdır. Bu şəhər İngiltərənin lokomotivqayırma sahəsinin vətəni (C.Stefonson özünün ilk paravozunu məhz burada inşa etmişdir) hesab olunur. Nyukasl həm də maliyyə-ticarət mərkəzi olsa da, onun maliyyə və ticarət xidməti sahələrinin əksər funksiyaları Lids şəhəri tərəfindən yerinə yetirilməkdədir.

Konurbasiyanın daha bir iri mərkəzi – Sanderlend şəhərində (əhalisinin sayı 286 min nəfər) yerləşmişdir. Bu şəhərdə əvvəllər iri gəmiqayırma sahələri cəmlənmişdir. Hal-hazırda onların böyük bir hissəsi fəaliyyət göstərmir. İndiki dövrdə burada Yaponiyanın yeni “Nissan” avtomobil zavodu tikilmişdir.

Tissayd konnurbasiyası (konnurbasiyanın əsas şəhəri Midlsbro şəhəridir) - qara metal istehsalı ilə məşğul olan ən vacib istehsalçılardan biridir. Burada Qərbi Avropada ən iri neft-emalı, neft-kimya müəssisələrindən biri hesab edilən və yerli xammal

həmçinin xaricdən gətirilən neft məhsullarına əsaslanmış kompleks (Uilton, Billingem və Tisport şəhərləri) yerləşmişdir.

Rayonun qərb hissəsində yerləşən və İrland dənizinin sahilinə çıxan Kembri - çox əsrarəngiz şəhərlərdən biri hesab olunur. Göl və dağlarla əhatə olunmuş ərazi gənclərin turizm sahəsinin ən sevimli yerlərindən biridir. Buradan əldə olunan gəlir qoyun və iri buynuzlu mal-qara saxlayan sakinlərin büdcəsini tamamlayır.

Ərazidə yerləşən Kolder çayının sahilində ölkənin ilk AES-i olan Kolder-Holl və atom sənayesinin mərkəzi olan Uinskeyl inşa edilmişdir. Sahildə digər kiçik sənaye şəhərləri də mövcuddur. Onlardan ən mühümü Barrou-in-Ferness (əhalinin sayı 72 min nəfər) şəhəridir. Sualtı qayıqların inşa olunması ilə məşğul olan zavod da məhz bu ərazidə yerləşmişdir.

**Milli ucqar ərazilər**

**Uels.** Uels metallurgiya rayonu kimi tanınır. Paytaxtı və əsas sənaye şəhəri Kardifdir.

Qara metallurgiyanın Port-Tolbot kimi poladəritmə mərkəzi vardır. Nyuport, Suonsi ətrafında əlvan metallurgiya müəssisələri yaradılmışdır. Milford-Xeyvenddə, Pembrukedə neft-kimya, Kardif limanında metallurgiya və maşınqayırma sahələri hələ qədimdən fəaliyyət göstərir.

Ərazinin 19%-i əkinçilik, 10%-i çəmənlik, 3%-i otlaq, 31%-i meşə sahələridir. Ekstensiv xarakterli kənd təsərrüfatında ətli-yunlun qoyunçuluq, çay dərələrində isə əkinçilik sahəsi xarakterdir.

Rayonda iki beynəlxalq hava limanı və şəhərlərarası dəmir yolu fəaliyyət göstərir.

**Şotlandiya.** Şotlandiyanın 32% ərazisində ümumi əhalinin 10%-i yaşayır. Sənaye məhsulunun 10%-ə qədəri rayonun payına

düşür. Klayd-says aqlomerasiyası Qlazqo ilə birlikdə əhalinin 50%-nə malikdir.

VI əsrin ortalarında qurulan Qlazqo orta əsrlərdə Şotlandiyanın ən əhəmiyyətli dini və təhsil mərkəzlərindən biri hesab edilirdi. XVIII əsrin sənaye inqilabı Qlazqonu Böyük Britaniyada ən böyük sənaye mərkəzlərindən (xüsusilə gəmiqayırma sahəsində) birinə çevirdi. Növbəti əsrdə şəhərin çiçəklənən iqtisadiyyatı Qlazqonu İmperiyanın ikinci şəhəri etdi.

Kömür hasilatı metallurgiya, ağır maşınqayırma, ölkədə mövcud SES-lərin 80%-i, neft kimyası vardır. Qrendjmut, Edinburq, Aberdin kimi bir sıra sənaye mərkəzləri fəaliyyət göstərir. Çoxsahəli kənd təsərrüfatında südçülük maldarlığı, yem bitkiləri əkini, dağlıq sahələrdə zərif yunlu qoyunçuluq inkişaf etmişdir.

Şotlandiyada beş əsas beynəlxalq hava limanı (Qlazqo, Edinburq, Aberdin, İnverness, Prestvik) yerləşir.

Çoxlu sayda parklar, xiyabanlar, saray və qədim kilsələr bu rayona xüsusi gözəllik verir. Qlazqo tarixi abidələri və heyrətamiz memarlıq inciləri ilə Avropanın mədəniyyət paytaxtı titulunu daşıyır. Bu səbəbdən ilbəil rayona gələn turistləri sayı artır.

**Şimali İrlandiya.** Şimali İrlandiya ölkənin bir o qədər də inkişaf edən rayonu kimi tanınmır. Ölkənin 6% sahəsini, 3% əhalisini özündə birləşdirməklə illik sənaye məhsulunun-1,5%-ni istehsal edir.

Rayon Böyük Britaniyaya 1921-ci ildə birləşdirilmişdir. Böyük Britaniyada Olster problemi (XX əsrin 60-cı illərin sonunda Şimali İrlandiyada baş verən konfliktə verilən ad) ən kəskin məsələlərdən biri kimi hələ də qalmaqdadır.

Əsas sənaye sahələri əhalisi 350 min nəfərdən artıq olan Belfasda cəmlənmişdir. Bunlar gəmiqayırmadan, toxumadan, avtomobilqayırmadan, cihazqayırmadan və sintetik liflərin

istehsalından ibarətdir. Burada bir çox konserv zavodları fəaliyyət göstərir [15, s. 82].

Rayonda əhalinin əksər hissəsi kənd təsərrüfatı ilə məşğuldur. Qoyunçuluq, tərəvəzçilik, yem bitkilərinin becərilməsi, iribuynuzlulardan cavan heyvanların ət alınması üçün bəslənilməsi xarakterdir.

Böyük Britaniyanın iqtisadi rayonları ölkə iqtisadiyyatının ümumi inkişafında mühüm rol oynayır. Onların inkişafı birbaşa ölkə iqtisadiyyatına təsir göstərir. Böyük Britaniyanın şəhər və rayonlarının davamlı, tarazlı inkişafının təmin olunması məqsədilə həyata keçirilən iqtisadi islahatların nəticəsində şəhər, qəsəbə və kəndlərin siması köklü şəkildə dəyişmiş, regionların iqtisadi potensialı artmış, infrastruktur təminatı, biznes həmçinin investisiya mühiti yaxşılaşmış, əhalinin rifah halı yüksəlmişdir.

## 1.5. Böyük Britaniyanın ekologiyası

**Plan:**
**1. Böyük Britaniyada ekologiyanın müasir vəziyyəti**
**2. Böyük Britaniyada ekologiya ilə bağlı görülən tədbirlər**
**3. Böyük Britaniyada ətraf mühitin mühafizəsi problemi**

**Böyük Britaniyada ekologiyanın müasir vəziyyət.** Son onilliklər ərzində Böyük Britaniyada ətraf mühitin vəziyyəti həm şəhər, həm də kənd yerlərində əhəmiyyətli dərəcədə pisləşib. XX əsrin əvvəllərində ölkədə təbii sərvətlərindən kortəbii istifadə, ekoloji vəziyyət nəzərə alınmayaraq çirkli sənaye sahələrinin yerləşdirilməsi və onların təmizləyici qurğularla təhciz edilməməsi nəticəsində ətraf

mühitə antropogen təsir güclənmiş, bəzi ərazilərdə texnogen landşaftlar yaranmışdır.

İnsanların çirklənmədən, canlı təbiətdən, təbii ehtiyatlardan istifadədən və qida təhlükəsizliyindən narahat olduğu belə sıx məskunlaşmış və kiçik bir ölkədə bu, təəccüblü deyil. Lakin britaniyalıların əksəriyyəti ətraf mühitin vəziyyətindən narahat olduqlarını bildirsələr də, hamı onu çirkləndirməməyə çalışmır. Problemlə bağlı ictimaiyyətin məlumatlandırılması 1980-ci illərin ortalarında “Yaşıllar” hərəkatına dəstəyin kəskin artması ilə üst-üstə düşdü. Buna görə də bir çox siyasi partiyalar “Yaşıllar”ı öz gündəliyinə daxil etmək məcburiyyətində qaldılar.

Hökumət də öz növbəsində ətraf mühitə yol verilən tullantıların səviyyəsini məhdudlaşdıran və onu yeni təhlükələrdən qoruyan qanunlar qəbul etdi. Avropa İttifaqı rəsmiləri də məsələyə ciddi yanaşaraq, Aİ-yə üzv ölkələr üçün daha sərt standartlar müəyyən ediblər.

Kənd təsərrüfatı sahələrində istifadə edilən zəhərli kimyəvi maddələrin normadan artıq tədbiq edilməsi nəticəsində torpaqlar çirklənməyə məruz qalmışdır. Bütün bu tədbirlər nəticəsində torpaqların, su hövzələrinin, atmosferin, bitki və heyvanat aləminin və ümumiyyətlə, landşaft komplekslərinin mühafizəsi respublikamızın əsas ekoloji probleminə çevrilmişdir.

Böyük Britaniyada çirklənmiş hava onun sakinlərinin, xüsusən də astmatiklərin sağlamlığı üçün ciddi təhlükədir. Sənaye hava emissiyaları 1950-ci və 1960-cı illərin təmiz hava qanunları ilə qadağan edilsə də, pis hava keyfiyyəti ölkənin əksər hissəsində hiss edilə bilər. Avtomobillərin, avtobusların və yük maşınlarının işlənmiş qazları yeni işlənmiş qaz təmizləyicilərinin tətbiqinə baxmayaraq, şəhərlərdə ekologiyanı ciddi şəkildə pozur. İctimai

nəqliyyat sisteminin yavaş-yavaş tənəzzülü daha çox insanı şəxsi avtomobillərdən istifadə etməyə məcbur edir, avtomobillərin və yolların sayının artması isə istər-istəməz daha acınacaqlı nəticələrə gətirib çıxarır [98].

Fransa ilə İngiltərə arasındakı tunel nisbətən yaxşı planlaşdırılmış, səs izolyasiyası və tikintinin ətraf mühitə o qədər də böyük ziyan vurmamasına baxmayaraq, təbiəti qoruyanlara mənfi təsir göstərir.

Dənizin və sahilyanı ərazilərin çirklənməsi əsasən tullantılarını birbaşa dənizə atan şirkətlər, həmçinin Şimal dənizində neft-qaz qazma qurğularının istismarı ilə əlaqədardır. İndiyədək dənizdə tullantıların və çirklənmənin səviyyəsi Avropa İttifaqının müəyyən etdiyi maksimum həddi keçib.

Ölkədə ekoloji problemlər daha çox sənaye və kənd təsərrüfatının inkişaf etdiyi rayonlar üçün xarakterikdir.

Lakin iqtisadi və sosial-iqtisadi problemlərin çoxluğu ekoloji problemlərin həllini çətinləşdirir, dövlətin ekoloji problemlərin həllinə yönəltdiyi vəsaitlər kifayət etmir. Bunu nəzərə alaraq ətraf mühitin sağlamlığına nail olmaq üçün məqsədli maliyyələşdirmədən də istifadə edilməlidir.

Böyük Britaniyada ekoloji vəziyyətin sağlamlaşdırılması, ekoloji təhlükəzsizliyin təmin edilməsi üçün, ilk növbədə, atmosferin mühafizəsinə diqqət yetirmək lazımdır. Ölkənin atmosfer hava hövzəsinin vəziyyəti gərgin olaraq qalmaqdadır.

Son vaxtlar tikinti sənayesinin aktivləşməsi ilə əlaqədar ekoloji vəziyyət daha da gərginləşmişdir. Bu baxımdan, atmosfer havasının vəziyyəti daha ağırdır.

Ölkənin hava hövzəsini mühafizə etmək üçün, ilk növbədə, mövcud çirkləndirici sənaye sahələrini yenidən qurmaq, müasir

texnoloji qurğular, təmizləyicilər tədbiq etməklə, atmosferə atılan çirkləndirici maddələrin ümumi miqdarının azaldılmasına və zərəsizləşdirilməsinə nail olmaq lazımdır.

Ölkədə ən çox çirklənən sahələrdən biri çaylardı. Sənaye tullantıları sistematik olaraq çaylara atılır, zəhərli kənd təsərrüfatı gübrələri və pestisidlər birbaşa torpaqdan ora daxil olur. Bu da öz növbəsində insanları içməli suyun keyfiyyəti, hökuməti isə kommunal şirkətlər tərəfindən verilən suyun keyfiyyətinə nəzarət etmək barədə düşünməyə vadar edir. Çoxlu çirklənmiş çaylar, göllər və su anbarları təmizlənir, Şimal dənizində bütün ekoloji standartlara əməl olunmasına daha ciddi nəzarət edilir.

Enerji resurslarının istifadəsi, o cümlədən yanacaq növlərinin (neft, qaz, kömür) istifadəsi və kömürdən qaza keçidlə bağlı ərazilərin zədələnməsi ilə əlaqəli problemlər də mövcuddur. Adaların sakinlərinin nüvə qurğularını bəyənməməsi, radioaktiv maddələrin sızması, nüvə tullantılarının emalı və utilizasiyası təhlükəsi səbəbindən nüvə enerjisindən istifadə qəfil dayandırıldı. Nüvə enerjisindən dinc məqsədlər üçün istifadənin təhlükəli və ya təhlükəsiz olması hələ də müzakirə olunur.

Kənd təsərrüfatının vəziyyəti, xüsusən də tərəvəz və dənli bitkilərin becərilməsi zamanı istifadə olunan pestisidlərin miqdarı, heyvanların hormonal qidalanması və intensiv şumlama üsullarının ətraf mühitə təsiri insanları çox narahat edir.

**Böyük Britaniyada ekologiya ilə bağlı görülən tədbirlər.** Böyük Britaniya açıq şəkildə heç vaxt transsərhəd çirklənmədən əziyyət çəkməyib. Ölkədə cənub-qərb küləyi üstünlük təşkil edir, həmçinin ölkə ərazisindən beynəlxalq çaylar axmır. Adanın mövqeyi onu çirklənmə probleminə az həssas edir və eyni zamanda digər ölkələrdən asılılığını azaldır.

Hüquqi baxımdan, Böyük Britaniya əvvəlcə ətraf mühitin mühafizəsi sahəsində qanunvericilik hazırlamışdır. Ölkə ekoloji siyasətin formalaşdırılması və həyata keçirilməsi prosesində məsləhətləşmələrə üstünlük verir. Ekoloji tədbirlərin tətbiqində təklif olunur ki, şirkətlər öz fəaliyyətlərini planlaşdırarkən ekoloji göstəriciləri nəzərə alsınlar. Hətta çox zaman müəyyən sənaye sahələrinə əvvəlcədən xəbərdarlıq edilir.

1989-cu ilin noyabr ayında Britaniyanın "Yerin Dostları" təşkilatı ətraf mühitin qorunması haqqında Xartiya nəşr etdi. Xartiya ekoloji siyasətin 6 əsas məqsədi və onların həlli üçün 9 mexanizm daxil olmaqla 15 bənddən ibarət plandır. Xartiyada ikinci dərəcəli resurslardan istifadə və enerji təchizatı probleminin siyasi həlli yolları təklif edilmişdir [95].

1990-cı il yanvar ayının 15-də İcmalar Palatasında Ətraf Mühitin Mühafizəsi haqqında qanun qəbul edildi. Qanunda çirklənmə ilə mübarizənin kompleks yanaşması nəzərdə tutulur. Qanun layihəsinin əsas müddəaları aşağıdakılardır:

**1)** havanın, suyun və torpağın çirklənməsinə səbəb olan istehsal proseslərinin həyata keçirilməsi üçün Ətraf Mühitin Çirklənməsinə Nəzarət Müfəttişliyindən ödənişli icazə almaq öhdəliyi;

**2)** tullantıların idarə olunması üçün məsuliyyəti istehsalçı və tərəflərinə həvalə etmək, onların emalı və çıxarılması ilə məşğul olmaq;

**3)** radioaktiv tullantıların, təhlükəli maddələrin saxlanması və utilizasiyası;

4) tullantıların və materialların dənizə atılmasının qarşısının alınması.

1974-cü ildə ölkədə Çirklənməyə Nəzarət Aktı qəbul edilmişdir. Böyük Britaniyanın ərazi sularına tullantıların qeyri-qanuni axıdılması üçün maksimum cərimə 2 mindən 50 min funt sterlinqə qədər təşkil edir.

1988-ci ildə Böyük Britaniyada təbiəti qorumaq, bu sahədə ictimaiyyətə təsir etmək siyasətin əsas mövzusuna çevrilmişdir. Aparıcı partiya və aparıcı qəzetlər təbiətin mühafizəsinə dair rubrikalar yaratmış, tez-tez bununla bağlı nəşrlər edilmişdir.

Britaniyalıların 85%-i inflyasiya ilə mübarizə əvəzinə təbiəti qorumağa üstünlük verir, 27%-i isə üzvi qida üçün daha çox pul ödəməyə hazırdır.

1990-cı ilin "Ağ Kitab"ında Ətraf Mühitin Mühafizəsi ilə bağlı İngiltərə hökuməti öz mövqeyini ifadə etmişdir. "Ətraf Mühitin Mühafizəsi haqqında" Qanunun konsepsiyasına uyğun olaraq keyfiyyət standartlarının hazırlanması üzrə yeni ekspert-məsləhət komitəsinin formalaşdırılması elan edilmişdir.

**Böyük Britaniyada ətraf mühitin mühafizəsi problemi.** Ətraf mühitin mühafizəsi böyük əhəmiyyət kəsb edən beynəlxalq məsələdir və Böyük Britaniya buna böyük diqqət yetirir. Britaniyada dövlət tərəfindən qorunan təxminən 500 min bina və memarlıq və tarixi maraq doğuran 7 min qapalı ərazi var. Hökumət milli irsin qorunması üçün könüllülərin işini təşviq edir.

1960-cı ildən bəri atmosferə tüstünün ümumi emissiyası 85% azalmışdır. Böyük Britaniyada əksər yanacaqdoldurma məntəqələri qurğuşunsuz benzin satır. Hökumət ozon təbəqəsini məhv edən qazların buraxılmasına nəzarət edir. Onlar həmçinin qlobal istiləşməyə və dəniz səviyyəsinin qalxmasına səbəb olan istixana effektinə də təsir göstərir.

Britaniya iqlim dəyişikliyi elminin öyrənilməsinin vacibliyini vurğulayır. Yaşıl zolaqlar torpaqların şəhər inkişafından azad qalmalı olduğu ərazilərdir. Dövlət onların qorunmasına böyük önəm verir. Milli parklar İngiltərə və Uelsin ümumi ərazisinin 9%-ni təşkil edir.

Şotlandiyada Çay Təmizləmə Cəmiyyəti suyun çirklənməsinə nəzarət edir. Böyük Britaniya istixana qazı emissiyalarının azaldılmasına sadiqdir. Kioto Protokolu üzrə öhdəliklərə əsasən, ölkə artıq 1990-cı illə müqayisədə emissiyaları 12,5% azaldıb və 2025-ci ildə bu rəqəmi 20%-ə çatdırmağı planlaşdırır.

2025-ci ilə qədər məişət tullantılarının 33%-nin təkrar emal ediləcəyi və ya gübrə kimi istifadə ediləcəyi planlaşdırılır. 1999-2022-ci illər ərzində məişət tullantılarının emalı 8,8%-dən 10,3%-ə yüksəlmişdir.

Böyük Britaniya ətraf mühitin mühafizəsi üzrə beynəlxalq müqavilələri ratifikasiya edib: havanın çirklənməsi (azot oksidləri, kükürd oksidləri, üzvi birləşmələr) Antarktidanın təbii mühitinin mühafizəsi haqqında Antarktidanın dəniz ehtiyatlarının qorunması haqqında, Bioloji müxtəliflik üzrə Antarktika Müqaviləsi, BMT İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası, Səhralaşmaya dair Kioto Protokolu, təhlükəli tullantılar, Balinaların mühafizəsi üzrə nüvə silahı sınaqlarının qadağan edilməsi haqqında Dəniz Konvensiyası və s.

Sonda bunu qeyd etmək olar ki, Böyük Britaniya indiki və gələcək nəsillər üçün ətraf mühitin qayğısına həddən çox qalır.

# II FƏSİL
# BÖYÜK BRİTANİYA İQTİSADİYYATININ ƏSAS SAHƏLƏRİ

## 2.1. Böyük Britaniyanın sənayesi

**Plan:**
**1. Böyük Britaniya iqtisadiyyatında sənayenin rolu**
**2. Böyük Britaniyanın yanacaq-energetika sənayesi**
**3. Böyük Britaniyanın metallurgiya sənayesi**
**4. Böyük Britaniyanın maşınqayırma sənayesi**
**5. Böyük Britaniyanın kimya sənayesi**
**6. Böyük Britaniyanın tikinti sənayesi**
**7. Böyük Britaniyanın yüngül sənayesi**

**Böyük Britaniya iqtisadiyyatında sənayenin rolu**. Sənaye - ölkə iqtisadiyyatının inkişaf etmiş sahələrindən biridir. Əsasən yanacaq-energetika, kimya, maşınqayırma, metallurgiya, tikinti, yüngül və digər sənaye sektorlarını özündə birləşdirən bu vacib sahə ötən əsrin ortalarından inkişaf etməyə başlamışdır.

Sənaye bu gün əksər ölkələrdə iqtisadi siyasətin başlıca istiqamətlərindəndir. Dünya ölkələrinin ÜDM-də sənaye xüsusi çəkiyə malikdir. Bu sahəyə irihəcmli investisiyalar yatırılır, texnoloji yeniliklər daha çox sənaye sektorunda tətbiq olunur, ticarətdə sənaye məhsullarının idxal və ixracı üstünlük təşkil edir. Burada diqqəti cəlb edən məqamlardan biri də inkişaf etməkdə olan ölkələrin dünya sənaye istehsalında payının artmasıdır. Belə ki, bu ölkələrin dünya sənaye istehsalında payı 2000-ci illə müqayisədə 2 dəfə artaraq 40%-ə çatmışdır. Bundan başqa, yüksək əlavə dəyər yaradan iş və

xidmətlərin inkişaf etməkdə olan ölkələrə köçürülməsi, istehlakın coğrafi strukturunda bu ölkələrin payının artması tendensiyası müşahidə olunur.

Dünyanın əksər ölkələrində olduğu kimi, Böyük Britaniyada da sənayeləşmə iqtisadi siyasətin prioritetlərindəndir və bu sahədə ölkə zəngin ənənələrə malikdir. Təsərrüfatın ümumi xarakteristikasına diqqət yetirdikdə aydın olur ki, ölkədə maddi və qeyri-maddi istehsal sahələri bu və ya digər səviyyədə inkişaf etmişdir. Yanacaq-energetika, metallurgiya, maşınqayırma, kimya, tikinti, yeyinti sənaye sahələri ilə yanaşı kənd təsərrüfatı, nəqliyyat, xidmət sahələri ölkədə məhsuldar qüvvələrin sürətli inkişafı və düzgün yerləşdirilməsində aparıcı rol oynamışdır.

Sənayenin ÜDM-nin istehsalında 23,8% (2022-ci il) xüsusi çəkisi vardır. İqtisadi fəal əhalinin də 35%-i bu sahədə çalışır. Həmçinin əsas fondların 55,2%-i və əsas kapitala yönəldilən investisiyaların 46,1%-i sənayedə gerçəkləşir.

Ölkə iqtisadiyyatının dayanıqlığı və davamlılığının təmin olunması üçün iqtisadiyyat sahələrində əhəmiyyətli kəmiyyət və keyfiyyət dəyişikliklərinin aparılması zəruridir. Müasir şəraitdə Böyük Britaniyada sənaye siyasətinin aşağıdakı istiqamətlər üzrə həyata keçirilməsi məqsədəuyğun hesab edilir:

- siyasət çox uzun müddətə deyil, nisbətən orta müddətə yönəldilməlidir;
- sənayenin inkişafında emal sənayesinin inkişafı ön planda olmalı, xüsusilə özəl biznesin inkişafı yönümlü olmalıdır;
- infrastrukturun inkişafına yönəldilməlidir;
- investisiyalari stimullaşdıran olmalıdır;
- iqtisadiyyatın rəqabətqabiliyyətini artırmalıdır;

- iqtisadiyyatı dünya iqtisadiyyatına qovuşduran, inteqrasiya etməsinə təkan verən olmalıdır [13, s.367].

Böyük Britaniyada sənayenin demək olar ki, bütün sahələri yüksək səviyyədə inkişaf etmişdir.

**Böyük Britaniyanın metallurgiya sənayesi.** Metallurgiya Böyük Britaniyanın qədim sənaye komplekslərindən hesab edilir. Yerli dəmir filizi ehtiyatları tükəndiyindən 80% xammalı Kanada, Braziliya və İsveçdən almağa məcbur olur. Ona görə də başlıca metallurgiya zavodları sahil zonalarında: Skantropda (Hambera yaxınlığında), Cənubi Uelsdə (Port-Tolbort və Llanueri), Tissaydda (Lakenbi-Redkar), Şotlandiyada (Ravenskreyq), Şeffılddə yerləşdirilmişdir.

Bu günkü gündə Britaniya çuqun və polad istehsalına görə dünyada 9-cu yeri tutur. Qara metallurgiya müəssisələrində ildə 18 mln. tondan çox polad əridilir.

Əlvan metallurgiyanın sahil zonalarında yerləşməsinə səbəb gətirilmə xammalların mövcudluğudur. Ona görə də Temza, Cənubi Uels və Lankaşirdə əlvan metal əridən müəssisələr fəaliyyət göstərir. Digər tərəfdən, Şotlandiyada yerləşən SES-lərin və Linmut AES-i yaxınlığında da alüminium zavodları mövcuddur.

Deyilənlərlə yanaşı təkrar əlvan metallurgiya müəssisələri iri maşınqayırma mərkəzlərində - Qərbi Midlend, Böyük London və Lankaşirdə yaradılmışdır.

Hazırda metallurgiya sənayesinin güclü inkişafı üçün ölkədə bütün imkanlar mövcuddur:

- siyasi sabitlik və təhlükəsizlik;
- əlverişli maliyyə - iqtisadi şərait (vergi siyasəti, biznes - investisiya mühiti);
- mineral-xammal bazası;

- metala tələbatı olan sənaye və tikinti sahələri;
- səriştəli kadr və əmək ehtiyatları;
- yeni istehsal sahələrinin yaradılması imkanları və s.

**Böyük Britaniyanın maşınqayırma sənayesi.** Britaniya sənayesinin aparicı sahələrindən biri də maşinqayırmadır. Ümumi sənaye məhsulunun 42%-ni, ixrac məhsullarinin isə 45%-dən çoxunu verir. İstehsal səviyyəsində isə ABŞ, Yaponiya, AFR və Fransadan geri qalır. Struktur müxtəlifliyində isə Avropada AFR-i irəli buraxır.

Böyük Britaniyada maşınqayırma sənayesi yüksək ixtisaslı kadrlarla təmin olunmuşdur. Məhsul istehsalının digərlərinə nisbətən yüksəkliyinə və işçi qüvvəsinin çoxluğuna görə ümumi maşınqayırma (yol texnikası, energetika avadanlıqları - turbogeneratorlar, buxar qazanları, AES-lər üçün müxtəlif qurğular, kənd təsərrüfatı texnikası, tibb ləvazimatı) qabaqcıl yer tutur.

Britaniya traktorları dünyada şöhrətə malikdr. Son illər dəzgahqayırma, kimya üçün avadanlıqlar xüsusi inkişaf sürəti almışdır.

Ölkədə hər il 3 mln. ədəd avtomobil buraxılır. “Rolls-Royce”, “British Leyland” adlı yerli şirkətləri fəaliyyət göstərir. Aparıcı zavodlar Böyük London (Luton), Birmingem, Koventri, Derbi, Birestol, Liverpul, Oksford aqlomerasiyalarında yaradılmışdır. “Rover”, “Ford”, “Jaguar”, “Vauxhall”, “Talbot”, “Honda”, “Nissan” və “Toyota” xarici avtomobil şirkətlərinin filialları da məhsul istehsalı ilə məşğuldurlar [13, s. 368].

İldə dünya bazarına 600 mindən artıq avtomobil ixrac olunur. 1965-ci ilə qədər Böyük Britaniya maşınqayırma sahəsi üzrə dünyada liderlik etmişdir.

Son illər şelf zonasında neft və qaz yataqlarının işlənməsi üçün yeni **gəmi** növləri düzəldilmişdir. Yanacaq gəmilərinin 50%-

dən çoxu Klaydsaydda düzəldilir. Ölkədə 100-dən artıq gəmi nəqliyyatda istifadə olunur. Bundan başqa, Berkenhed, Barrau, Portsmut, Plimut, Belfast kimi gəmiqayırma mərkəzləri vardır.

XX əsrin 90-cı illərində Böyük Britaniya elm tutumlu maşınqayırmaya xüsusi fikir vermişdir. Buraya **elektron** sənayesi daxildir ki, o da dünya sənaye məhsulunda 9%-ə qədər xüsusi çəki ilə tanınır.

Ölkə ərazisində yüzdən çox elektrik avadanlıqları istehsal edən müəssisələr fəaliyyət göstərir. Onların 11%-i dövlət, 89%-i qeyri-dövlət mülkiyyətindədir. Elektrik avadanlıqları istehsal edən bütün müəssisələrin 2022-ci ildə 58%-i kiçik, 42%-i isə orta və iri müəssisələrdir

Böyük Britaniya elektron sənayesinə, habelə elmi-tədqiqat işlərinin aparılmasına ayrılan xərclərə görə (35%) Avropada 1-ci yeri tutur. "International Computers Limited" ("ICL") şirkətinə malik EHM-lərin (Elektron Hesablama Maşınları) buraxılışını buna misal göstərə bilərik.

Rabitə və xidmət sferasında kompüterləşmə prosesi ən yüksək səviyyədə həyata keçirilməkdədir. Böyük Britaniya müxtəlif məqsədlər üçün istifadə olunan yarımkeçirici cihazlar buraxmaqda Avropa ölkələri içərisində AFR-dən sonrakı yeri tutur.

**Aerokosmik** sənaye sahəsində də Böyük Britaniya özünəməxsus yer tutur. Hərbi-sənaye kompleksinin inkişafına dünyada 20 şirkət xidmət edirsə, onun üçü ingilislərə məxsusdur (ABŞ-da 10, Fransada 5, AFR-də 1). "British Aerospace", "General Electric" və "Rolls-Royce" şirkətləri buna misal ola bilər.

Bu şirkətlər aviasiya mühərrikləri, təyyarələr, aviaraket texnikaları buraxılması üzrə ixtisaslaşmışlar. Elektron sənayesi məhsulları istehsalı Böyük London üçün xarakterdirsə,

aviaraketqayırma sənayesi Bristal, London, Derbi şəhərlərində cəmlənmişdir.

**Böyük Britaniyanın kimya sənayesi.** Çox dinamik inkişaf edən təsərrüfatlardan biri də kimya sənayesidir. Onun xammalının çox vaxtlar neft emalı sahəsinin məhsulları təşkil etməkdədir. Göstərilən sənaye sahəsinin verdiyi məhsulun illik miqdarına görə ölkə Avropada AFR və Fransadan sonrakı 3-cü yeri tutur. Onun aparıcı məhsulları əsasən üzvi sintezə aiddir.

Böyük Britaniyada kimya sənayesinin illik məhsulunun 50%-ni verən "İmperial Chemical İndustries" şirkəti dünya kimya şirkətləri arasında 6-cı yeri tutur. Sintetik liflər, plastik kütlələr, yerli boyalar, formaseptik məmulatlar (dünya ixracatında 12% xüsusi çəkisi var) istehsalı ilə bərabər, kimyanın qədim sahəsi sayılan əsas kimyada - mineral gübrə, soda, turşu, xlor istehsalına da xüsusi fikir verilir.

Neft emalı əsasında **neft-kimya** Şotlandiya, Qreyndjmut və İmminqemdə məhsul verməkdədir.

İldə 12 mln. ton gübrə (dünyada ən çox gübrə istehsalçısı Çin, Rusiya və ABŞ-dır), 3,6 mln. ton plastik kütlə, 0,14 mln. ton sintetik kauçuk istehsal olunur.

**Böyük Britaniyanın tikinti sənayesi.** Böyük Britaniyada tikinti sənayesi milli iqtisadiyyatın mühüm sahələrindən biridir. Tikinti sektoru əhalinin məşğulluğunun təmin edilməsində də öncül mövqedədir. Belə ki, 2022-ci ildə iqtisadiyyatda məşğul olanların 2%-i həmin sektorun payına düşmüşdür.

Son 20 ildə tikinti sektorunun maddi-texniki bazası əsaslı şəkildə yeniləşmiş, tikinti fəaliyyət ilə məşğul olan müəssisələrin və fərdi sahibkarların sayı yüksələn xətlə artmışdır. Hazırda iqtisadi fəaliyyət növləri üzrə qeydə alınmış bütün təsərrüfat subyektlərinin

11%-i, fərdi sahibkarların təxminən 3%-i tikinti sektorunun payına düşür [13, s. 367].

**Böyük Britaniyanın yüngül sənayesi.** Böyük Britaniyanın qədim və ənənəvi sahələrindən biri olan yüngül sənaye ölkənin xarici iqtisadi əlaqələrinin inkişafı baxımından mühüm potensiala malikdir. Ölkənin yüngül sənaye müəssisələri əsasən pambıq, yun və gön-dəri xammalı məhsullarının emalına əsaslanır. Yüngül sənayedə istehsal edilən məhsullardan geyim kimi istifadə etməkdən başqa mebel, aviasiya, avtomobil, yeyinti, kənd təsərrüfatı, nəqliyyat, səhiyyə və s. sahələrdə istifadə edilir.

2022-ci ildə bütün yüngül sənaye müəssisələrinin 32%-i mebel, 30%-i toxuculuq, 17%-i geyim, 13%-i ağac məmulatları, hər biri 8% olmaqla dəri məmulatları və ayaqqabıların istehsalı, eləcə də kağız və karton istehsalı sferasında cəmləşmişlər.

Yüngül sənaye müəssisələrinin işçilərinin sayına görə bölgüsünə nəzər yetirərkən aydın olur ki, 2022-ci ildə bütün müəssisələrin 75%-i-kiçik, 25%-i orta və iri müəssisələr təşkil etmişdir.

**Emal** sahəsinin strukturunda ən çox inkişaf edən növlər kimyadan, neft emalından, elektron sahəsindən, optik ləvazimatlardan, rezin-texniki məhsullardan və plastik kütlələrdən ibarətdir.

Yüngül sənayenin inkişaf edən sahələrindən biri **toxuculuqdur**. Pambıq parça, sintetik liflər sahələri bu qəbildəndir. Pambıq parça toxunması üçün xammal ABŞ, Niderland, Sudan və Braziliyadan idxal olunur. Yun parçanın toxunması üçün isə xam yun məhsulu Avstraliya, Yeni Zelandiya və CAR-dan gətirilir.

Böyük Britaniya illik yun tədarükünü 65 min tona çatdırmaqla dünyada 7-ci yeri tutur. Son illərdə ölkədə 200 mln.

metrdən çox pambıq, 190 mln. kv.m yun, xeyli miqdarda sintetik parçalar toxunmuşdur. Pambıq parça Lankaşirdə, yun parça Yorkşirdə, trikotaj Şərqi Midlenddə, kətan parça Şimali İrlandiyada toxunmaqdadır.

İngilis yun parçası və hazır tikili paltarları dünya şöhrəti qazanmışdır. Haqlı olaraq Qlazqonu ölkənin "xalça" paytaxtı adlandırırlar. Toxunmuş parçaların çoxu Avropa İttifaqı ölkələrinə ixrac olunur.

Böyük Britaniyada **aqrar** (qida, içki və tütün) sənaye istehsal edilən məhsulların həcminə görə emal sənayesi sahələri arasında 1-ci yeri tutur. 2022-ci ildə qida, tütün məhsullarının və içkinin istehsalı 2015-ci illə müqayisədə 2,5 dəfə artmışdır.

Şəkər, yumurta, tərəvəz və meyvə konservləri, marqarin, un, çörək və çörək məhsulları, ət və ət məhsulları ilə özünütəminetmə səviyyəsi 90%-dən yüksəkdir.

Konserv sənayesi müəssisələrində meyvə-tərəvəz, o cümlədən meyvə və balıq məhsulları emal edilir. Xammal bazalarına yaxın olan meyvə-tərəvəz konservi müəssisələri demək olar ki, ölkənin bütün şəhərlərində mövcuddur.

Hazırda ölkə ərazisində 150-dən çox alkoqollu içki pivə və istehsal edən müəssisə fəaliyyət göstərir ("Jaguaro", "Johnnie Walker", "Captain Morgan", "Guinness", "Smirnoff", "Baileys", "White Horse" və s. tanınmış dünya brendləridir).

Yeyinti sənayesinin mühüm sahələrinə aid olan ətin emalı Uels, Şotlandiya və Şimali İngiltərədə yerləşən ət kombinatlarında aparılır. Hər il qoyun əti istehsalı ölkəyə 2,1 mlrd. dollar gəlir gətirir.

Sənayenin çörəkbişirmə sexləri ölkənin daxili tələbatını ödənilməsinə xidmət edir. Hazırda çörəkbişirmə üzrə şəhərlərlə yanaşı kənd və qəsəbələrdə də kiçik müəssisələr (mini dəyirmanlar

və çörəkbişirmə sexləri) yaradılır, onların şəbəkəsi getdikcə genişləndirilir. Müasir texnologiyalara əsaslanan aqrar-emal müəssisələri şəbəkəsinin formalaşması nəticəsində, ölkədə emal məhsullarının istehsalı üzrə dinamik artım təmin edilmişdir.

Böyük Britaniyanın yeyinti sənayesinin inkişaf etdirilməsi ilə bağlı bir sıra üstünlüklər vardır:

**1.** Yeyinti sənayesinin tarixi ənənələri;

**2.** Yeyinti sənayesinin istehsalı üçün zəngin xammal bazası;

**3.** Bir sıra istehsal müəssisələrinin ölkənin bir çox şəhərlərində yerləşdirilməsi imkanı və ərazi ehtiyatı;

**4.** Potensial ixrac bazarlarına yaxınlıq;

**5.** Nəqliyyat daşımaları baxımından əlverişli iqtisadi-coğrafi mövqe və s. [13, s. 367].

**Ağac emalına** görə Böyük Britaniya xüsusi yer tutur. Onun taxta-şalban idxalı ildə 14 mln. kub metrdən çox təşkil edir ki, bu da dünya ağac idxalının 25%-dən çoxunu təşkil edir. Taxta idxalına görə İngiltərə dünyada 1-ci yerdədir.

Britaniya mebel istehsalına görə dünya ölkələri arasında liderlik edir. Mebel sənayesinin ən iri müəssisələri London, Liverpul, Mançester və Bristolda yerləşir. Həmçinin, Liverpul, Mançester, Birminhem, Bristolda ağac emalı müəssisələri, mebel fabrikləri, tara, tikinti üçün taxta, çərçivə, qapı, pəncərə, parket və s. istehsal edən müəssisələr fəaliyyət göstərir.

Böyük Britaniya sənayesinin istehsal amilləri ilə təmin olunma sahəsində dövlət siyasətinin əsas istiqamətlərinə aşağıdakılar aiddir:

- kadrların hazırlanması sahəsində tədbirlərin həyata keçirilməsi;

- mütərəqqi texnologiyaların cəlb olunması və onların yerli şəraitə uyğunlaşdırılmasının dəstəklənməsi;
- ölkədə innovasiya fəaliyyətinin stimullaşdırılması;
- emal sənayesi məhsullarının satış bazarları haqqında informasiyanın toplanması və emalının dəstəklənməsi;
- nəqliyyatın, kommunikasiyanın və digər infrastrukturanın inkişaf etdirilməsi.

## 2.2. Böyük Britaniyanın yanacaq-energetika kompleksi

**Plan:**

**1. Böyük Britaniyanın yanacaq-energetika sənayesinin mahiyyəti**
**2. Böyük Britaniyanın neft və qaz sənayesi**
**3. Böyük Britaniyanın kömür sənayesi**
**4. Böyük Britaniyanın ənənəvi olmayan enerji mənbələri**

**Böyük Britaniyanın yanacaq-energetika kompleksinin mahiyyəti**. Elektrik enerjisi demək olar ki, bütün ölkələrdə istehsal edilir. Lakin onun 70%-i İEÖ-lərin (İnkişaf Etmiş Ölkələr) payına düşür. Elektrik enerjisinin istehsalına görə ABŞ, adambaşı istehsalına görə isə Norveç dünyada birinci yeri tutur.

Dünya elektrik enerjisi istehsalında ənənəvi yanacaq növlərindən istifadə edən (kömür, qaz, yanar şist, mazut) istilik elektrik stansiyaları (İES) başlıca yer tutur (65-67%). Elə bu stansiyalar da energetikanın coğrafi mənzərəsini müəyyən edir.

Böyük Britaniyanın iqtisadi inkişafında yanacaq-energetika xüsusi yer tutur. Onun 62%-ni neft və qaz, 30%-ni kömür, 8%-ni hidro və atom enerjisi təşkil edir.

Böyük Britaniyanın yanacaq-energetika sənaye kompleksi (YES) neft və qazın hasilatı, istilik və su elektrik stansiyaları ilə təmsil olunur. Strateji əhəmiyyətə malik YES kompleksi yanacaq və elektroenergetika sənaye sahələrinə bölünür. Yanacaq sənayesi müxtəlif yanacaq növlərinin (neft, təbii qaz, daş kömür, qonur kömür, torf, yanar şist və s.) hasilatı, emalı və istehlakçıya çatdırılmasını əhatə edir. İl ərzində istehsal olunan enerjinin istehlak olunan enerjiyə nisbətinə yanacaq-energetika balansı deyilir.

| **İllər** | **Enerji sektoru** | **Sənaye** | | | | **Nəqliyyat** | **Digər sahələr** | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | **Çuqun və polad sənayesi** | **Kimya və neft-kimya sənayesi** | **Maşınqayırma sənayəsi** | **Sənayenin digər sahələri** | | **Məişət istehlakçıları** | **Kommersiya müəssisələri** | **Kənd və meşə təsərrüfatı** |
| **1990** | 9984 | 9071 | 18193 | 20897 | 52481 | 5283 | 93793 | 70870 | 3844 |
| **2019** | 6630 | 2443 | 14964 | 12529 | 61796 | 5456 | 103825 | 90156 | 420 |

**Cədvəl 2.1. Elektrik enerjisi istehlakının əsas meylləri (1990-cı və 2019-cu illər), mln. kVt/saat**

Hazırda Böyük Britaniyanın yanacaq-energetika balansında (YEB) əsas rol neftə və qaza məxsusdur. Yanacaq növləri istilikvermə qabiliyyətinə görə fərqlənir. Onları müqayisə etmək üçün şərti yanacaq vahidi kimi istilikvermə qabiliyyəti 7 min kkal olan 1 kq daş kömür qəbul olunmuşdur. Eyni miqdarda neft və qazın istilik əmsalı 1,5 (10500 kkal), torfun istilik əmsalı (3400 kkal), şistdə 0,3 və s.-dir.

Böyük gücə malik olan İES-lər London, Hay-Marihem, Torp-Març və Taksford yaxınlığında (Hottinqemşirdə) istehlakın ödənilməsinə xidmət edirlər.

**Böyük Britaniyanın neft və qaz sənayesi.** Neft və qaz sektoru qədim sənaye sahəsidir. Neft hasilatı onunla birbaşa bağlı olan sahələrin (neft-kimya, neft maşınqayırması) yaranmasına səbəb olmuşdur.

XX əsrin 80-cı illərinə qədər **neft** sənayesi gətirilmə xammal əsasında inkişaf etməkdə idi. Bu illərdə ölkənin neft hasilatı 150 min tondan (Derbişir qraflığında) çox olmamışdır. Lakin 1975-ci ildən Şimal dənizi ərazisindən neft hasilatının baş verməsi ölkəni dünyada neft dövləti kimi tanıtdırmağa səbəb olmuşdur.

Hal-hazırda ölkənin neft ehtiyatı 2 mlrd. barel təşkil edir. Günlük neft hasilatı isə 137 mln. tondur. "Britiş Petroleum" və "Shell" ölkənin aparıcı neft şirkətlərindəndir. Hər il Fransa, İtaliyaya, Niderland, AFR və ABŞ-a 85 mln. tondan artıq neft ixrac edir.

Britaniyada neft emalı müəssisələrinin çoxu texnoloji cəhətdən Şimal dənizinin yüngül neftini emal etmək üzrə ixtisaslaşmadığından hər il 50 mln.-dan çox xarici ölkələrdən xam neft almalı olur. Bu, əsasən Yaxın Şərq ölkələri hesabına həyata keçirilir. İldə 100 mln. ton neft emal edə bilən Milford-Haeven, Pembruq, Stenlou, Tisport, Shell-Haeven, Sayttempton, Qreyndjmut, İmminqem və Salom-Vo kimi NEZ-ləri (neft emali zavodları) (onların sayı 25-dən çoxdur) fəaliyyət göstərir [13, s. 374].

Hasil olunmuş və gətirilmə neft emal müəssisələrinə uzunluğu 2,5 min km-dən artıq olan neft kəmərləri vasitəsilə çatdırılır.

Sərfəli, ekoloji cəhətdən təmiz və ucuz yanacaq növü olan təbii **qaz** sənayeni, elektrik stansiyalarını yanacaqla, kimya sənayesini xammalla təmin edir və məişətdə geniş istifadə olunur.

XIX əsrin başlanğıcından 1960-cı ilin ortalarına qədər olan dövrdə qaz yanacağı kömürdən alınma hesabına ödənilirdisə, 1967-ci ildən şelf zonasından bu yanacaq növünü hasil etmək mümkün olmuşdur. Bu əsasdan da Böyük Britaniya son illər yerli mənbələr hesabına yanar qaz hasilatını 110 mlrd. kub metrə çatdırmışdır. Bu da Rusiya Federasiyası, ABŞ, Kanadadan sonrakı 4-cü yer deməkdir. Lakin tələbat tam ödənilmədiyindən hər il Norveçdən boru kəməri ilə 3 mlrd. kub metr yanar qaz London-Lankaşir magistral qaz boru xəttinə əlavə olunur.

Britaniyanın hal-hazırdakı qaz ehtiyatı 36,8 trln. kub metr təşkil edir. Lakin ölkənin qaza olan tələbatı isə 84,9 trln. kub metrdir.

Yanacaq energetika kompleksinin aparıcı sahələrindən biri də, başqa təsərrüfat sahələrindən fərqli olaraq hasil olunmuş məhsulun sonrakı məqsədlərdə istifadə üçün yığılıb anbarlarda saxlanıla bilməsi mümkün olmayan elektroenergetikadır. Onun SES, AES, İES və alternativ mənbələri mövcuddur.

**Böyük Britaniyanın kömür sənayesi.** Böyük Britaniyanın mədən sənayesinin əsas sahəsi **kömür** hasilatıdır. Ölkədə 300 ildən çoxdur ki, kömür hasil edilir. 1919-cu ilə qədər ingilis kömürü dünya bazarında hökmranlıq edirdi. O dövrdə ildə 300 mln. tona qədər hasil olunurdu. O vaxtdan bəri onun istehsalı durmadan azalır və indi ildə 90 mln. tondan çox deyildir. Bununla belə, kömür hələ də ölkədə aparıcı yanacaq növlərindən biri olaraq qalır. O, Böyük Britaniyada istehlak edilən enerjinin təxminən 30%-ni təmin edir (neftdən sonra 2-ci yerdədir). Ən böyük kömür hövzəsi Yorkşirdir (ildə 25-28 mln. ton). Ondan sonra Nortamberlənd-Durham və Nortuestern gəlir.

Son illər ölkədə neftin və qazın artımı kömürə olan tələbatı xeyli sıxışdırmışdır. Şaxtaların çoxu bağlanmış, hasilat öz maksimum həddinə 1913-cü ildə 300 mln. tona çatmışdırsa, hal-hazırda bu 50 mln. tona qədərdir. Çıxarılan yerli kömür baha başa gəldiyindən (550 m dərinlikdə yerləşir) ildə 15-20 mln. tona qədər kömür idxal etməli olur.

Elektrik enerjisinin istehsalında **atom energetikası** getdikcə böyük rol oynayır. İndi dünyada elektrik enerjisi istehsalının 18%-ə qədəri atom elektrik stansiyalarının (AES) payına düşür. Ən güclü AES-lər ABŞ, Fransa, Yaponiya, AFR və Rusiyadadır.

AES-lər enerji xammalı az, lakin enerjiyə tələbatın çox olduğu ərazilərdə tikilir. AES-lərin üstünlüyü ondan ibarətdir ki, onların enerji mənbəyi olan uran və toriomun təbii ehtiyatları, üzvi yanacağın ehtiyatından xeyli çoxdur. AES-lərin nöqsan cəhətləri tikintisi üçün yüksək xərclərin tələb olunması, su hövzələrini xeyli çirkləndirməsi və tam təhlükəsizliyin təmin edilməsi ilə əlaqədar çətinliklərdir.

Böyük Britaniya kapitalist dünyasında 1956-cı ildə ilk AES (Kolder-Holl) quraşdıran dövlət hesab edilir. Eyni zamanda, sonrakı illərdə AES-lər Hanterston (Ayrşir qraflığın), Berkli (Qlosterşir) və Dandjiessdə (Kend qraflığında) tikilmişdir. AES-lərdən adambaşına düşən illik elektrik enerjisinin miqdarına görə ABŞ, Fransa, AFR və Kanadadan geri qalır.

AES-lərin 13 mln. kvt-dan artıq gücü və 36 bloku vardır. İllik elektrik enerjisinin 28%-ə qədəri (95 mlrd. kvt saat) AES-lərdən alınır.

| **Reaktorun adı** | **Reaktorun növü** | **Yerləşmə məkanı** | **Quraşdırılma güc-netto, MVt** | **Quraşdırılma güc-bruto MVt** | **Tikintinin başlanması** | **Şəbəkəyə ilk dəfə qoşulma** | **İstismar (COD)** | **İstismardan çıxarılması** |
|---|---|---|---|---|---|---|---|---|
| BERKELEY-1 | GCR | RIVER SEVERN | 138 | 166 | 01/01/1957 | 06/12/1962 | 06/12/1962 | 03/31/1989 |
| BERKELEY-2 | GCR | RIVER SEVERN | 138 | 166 | 01/01/1957 | 06/24/1962 | 10/20/1962 | 10/26/1988 |
| BRADWELL-1 | GCR | BLACKWATER ESTUARY | 123 | 146 | 01/01/1957 | 07/01/1962 | 07/01/1962 | 03/31/2002 |
| BRADWELL-2 | GCR | BLACKWATER ESTUARY | 123 | 146 | 1/1/1957 | 07/06/1962 | 11/12/1962 | 03/30/2002 |
| CALDER HALL 1 | GCR | SEASCALE | 49 | 60 | 08/01/1953 | 08/27/1956 | 10/01/1956 | 03/31/2003 |
| CALDER HALL-2 | GCR | SEASCALE | 49 | 60 | 08/01/1953 | 02/01/1957 | 02/01/1957 | 03/31/2003 |
| CALDER HALL-3 | GCR | SEASCALE | 49 | 60 | 08/01/1955 | 03/01/1958 | 05/01/1958 | 03/31/2003 |
| CALDER HALL-4 | GCR | SEASCALE | 49 | 60 | 08/01/1955 | 04/01/1959 | 04/01/1959 | 03/31/2003 |
| CHAPELCROSS-1 | GCR | ANNAN | 49 | 60 | 10/01/1955 | 02/01/1959 | 03/01/1959 | 06/29/2004 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| CHAPELCROSS-2 | GCR | ANNAN | 48 | 60 | 10/01/1955 | 07/01/1959 | 08/01/1959 | 06/29/2004 |
| CHAPELCROSS-3 | GCR | ANNAN | 48 | 60 | 10/01/1955 | 11/01/1959 | 12/01/1959 | 06/29/2004 |
| CHAPELCROSS-4 | GCR | ANNAN | 48 | 60 | 10/01/1955 | 01/01/1960 | 03/01/1960 | 06/29/2004 |
| DOUNREAY DFR | FBR | DOUNREAY CAITHNESS | 11 | 15 | 03/01/1955 | 10/01/1962 | 10/01/1962 | 03/01/1977 |
| DOUNREAY PFR | FBR | DOUNREAY | 234 | 250 | 01/01/1966 | 01/10/1975 | 07/01/1976 | 03/31/1994 |
| DUNGENESS A-1 | GCR | ROMNEY MARSH | 225 | 230 | 07/01/1960 | 09/21/1965 | 10/28/1965 | 12/31/2006 |
| DUNGENESS A-2 | GCR | ROMNEY MARSH | 225 | 230 | 7/1/1960 | 11/1/1965 | 12/30/1965 | 12/31/2006 |
| DUNGENESS B-1 | GCR | Romney Marsh | 545 | 615 | 10/1/1965 | 4/3/1983 | 4/1/1985 | -- |
| DUNGENESS B-2 | GCR | Romney Marsh | 545 | 615 | 10/1/1965 | 12/29/1985 | 4/1/1989 | -- |
| HARTLEPOOL A-1 | GCR | HARTLEPOOL | 590 | 655 | 10/1/1968 | 8/1/1983 | 4/1/1989 | -- |
| HARTLEPOOL A-2 | GCR | HARTLEPOOL | 595 | 655 | 10/1/1968 | 10/31/1984 | 4/1/1989 | -- |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| HEYSHAM A-1 | GCR | HEYSHAM | 485 | 625 | 12/1/1970 | 7/9/1983 | 4/1/1989 | -- |
| HEYSHAM A-2 | GCR | HEYSHAM | 575 | 625 | 12/1/1970 | 10/11/1984 | 4/1/1989 | -- |
| HEYSHAM B-1 | GCR | HEYSHAM | 620 | 680 | 8/1/1980 | 7/12/1988 | 4/1/1989 | -- |
| HEYSHAM B-2 | GCR | HEYSHAM | 620 | 680 | 8/1/1980 | 11/11/1988 | 4/1/1989 | -- |
| HINKLEY POINT A-1 | GCR | HINKLEY POINT | 235 | 267 | 11/1/1957 | 2/16/1965 | 3/30/1965 | 5/23/2000 |
| HINKLEY POINT A-2 | GCR | HINKLEY POINT | 235 | 267 | 11/1/1957 | 3/19/1965 | 5/5/1965 | 5/23/2000 |
| HINKLEY POINT B-1 | GCR | HINKLEY | 485 | 655 | 9/1/1967 | 10/30/1976 | 10/2/1978 | -- |
| HINKLEY POINT B-2 | GCR | HINKLEY | 480 | 655 | 9/1/1967 | 2/5/1976 | 9/27/1976 | -- |
| HINKLEY POINT C-1 | PWR | Bridgwater | 1630 | 1720 | 12/11/2018 | -- | -- | -- |
| HINKLEY POINT C-2 | PWR | Bridgwater | 1630 | 1720 | 12/12/2019 | -- | -- | -- |
| HUNTERSTON A-1 | GCR | HUNTERSTON | 150 | 173 | 10/1/1957 | 2/5/1964 | 2/5/1964 | 30.3.1990 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| HUNTERSTON A-2 | GCR | HUNTERSTON | 150 | 173 | 10/1/1957 | 6/1/1964 | 7/1/1964 | 31.12.1989 |
| HUNTERSTON B-1 | GCR | HUNTERSTON | 490 | 644 | 11/1/1967 | 2/6/1976 | 2/6/1976 | -- |
| HUNTERSTON B-2 | GCR | HUNTERSTON | 495 | 644 | 11/1/1967 | 3/31/1977 | 3/31/1977 | -- |
| OLDBURY A-1 | GCR | OLDBURY ON SEVERN | 217 | 230 | 5/1/1962 | 11/7/1967 | 12/31/1967 | 2/29/2012 |
| OLDBURY A-2 | GCR | OLDBURY ON SEVERN | 217 | 230 | 5/1/1962 | 4/6/1968 | 9/30/1968 | 6/30/2011 |
| SIZEWELL A-1 | GCR | SIZEWELL | 210 | 245 | 4/1/1961 | 1/21/1966 | 3/25/1966 | 31.12.2006 |
| SIZEWELL A-2 | GCR | SIZEWELL | 210 | 245 | 4/1/1961 | 4/9/1966 | 9/15/1966 | 31.12.2006 |
| SIZEWELL B | PWR | Leiston | 1198 | 1250 | 7/18/1988 | 2/14/1995 | 9/22/1995 | -- |
| TORNESS-1 | GCR | DUNBAR | 595 | 682 | 8/1/1980 | 5/25/1988 | 5/25/1988 | -- |
| TORNESS-2 | GCR | DUNBAR | 605 | | 682 | 2/3/1989 | 2/3/1989 | -- |
| TRAWSFYNYD D-1 | GCR | MERIONETHSHIRE | 195 | 235 | 7/1/1959 | 1/14/1965 | 3/24/1965 | 2/6/1991 |
| TRA | GCR | MERI | 195 | 235 | 7/1/1 | 2/2/1 | 3/24/ | 2/4/1 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| WSFY NYD D-2 | | ONET HSHIR E | | | 959 | 965 | 1965 | 991 |
| WIND SCAL E AGR | GCR | WIND SCALE | 24 | 36 | 11/1/ 1958 | 02/01 /1963 | 03/1/ 1963 | 04/0 3/19 81 |
| WINF RITH | SGH WR | DORC HESTE R | 92 | 100 | 05/01 /1963 | 12/1/ 1967 | 01/1/ 1968 | 9/11/ 1990 |
| WYL FA-1 | GCR | ANGL ESEY | 490 | 530 | 01.09 .1963 | 24.01 .1971 | 01.11 .1971 | 30.1 2.20 15 |
| | | ANGL ESEY | 490 | 540 | 01.09 .1963 | 21.07 .1971 | 03.01 .1972 | 25.0 4.20 12 |
| WYL FA-2 | GCR | | | | | | | |

**Cədvəl 2.2. Böyük Britaniyada atom energetika sənayesi 1953-cü ildən 2021-dək**

Böyük Britaniyada 15 atom reaktoru quraşdırılmış 8 AES fəaliyyət göstərir.

| № | AES-ləri adı | Reaktorların sayı | Quraşdırılma güc-netto, MVt | Quraşdırılma güc-brutto, MVt |
|---|---|---|---|---|
| **1.** | Dungeness B | **2** | 1090 | 1230 |
| **2.** | Hartlepool A | **2** | 1185 | 1310 |
| **3.** | Heysham A | **2** | 1060 | 1250 |
| **4.** | Heysham B | **2** | 1240 | 1360 |
| **5.** | Hinkley Point | **2** | 965 | 1310 |
| **6.** | Hunterston | **2** | 985 | 1288 |
| **7.** | Sizewell B | **1** | 1198 | 1250 |
| **8.** | Torness | **2** | 1200 | 1364 |
| **-** | **Böyük Britaniya** | **15** | **8923** | **10362** |

**Cədvəl 2.3. 1 yanvar 2021-ci il tarixinə kimi Böyük Britaniyada fəaliyyət göstərən atom elektrik stansiyaları**

**Böyük Britaniyanın ənənəvi olmayan enerji mənbələri.** Bu mənbələrin əsasını günəş, külək, geotermal, qabarma-çəkilmə enerji mənbələri təşkil edir. Hazırda dünya yanacaq-energetika balansında ənənəvi olmayan enerji mənbələrinin sayı 1-2%-dən artıq deyil. Ekoloji cəhətdən təmiz olan bu enerji mənbələri tükənməyən ehtiyatlar qrupuna aiddir.

2022-ci ildə Britaniyada **bərpa olunan** enerjinin gücü 52,418 MVt təşkil etmişdir.

Elektrik enerjisi istehsalında su elektrik stansiyaları (**SES**) da mühüm rol oynayır (20%). Lakin hal-hazırda, planetimizin hidroenerji potensialının cəmi 17%-i istifadə edilir. Hidroenergetikadan istifadəyə görə ABŞ və Rusiya başlıca yer tutur. SES-lər Avropanın Skandinaviya və Alp bölgələrində, Kanada, Çin və Cənubi Amerikanın bir sıra ölkələrində mühüm rol oynayır. SES-lərdə istehsal edilən elektrik enerjisi ucuz başa gəlir [13, s. 367].

Hidroenerji stansiyalarının başlıca üstünlüyü bərpa olunan hidroenerji resurslarından istifadə etməsi və İES-lərdən fərqli olaraq, havanı və su hövzələrini çirkləndirməməsidir. SES-lərin mənfi cəhəti isə tikilməsinin baha başa gəlməsi və geniş ərazilərin su altında qalmasıdır.

Böyük Britaniyada SES-in tikintisi kompleks xarakter daşımaqla elektrik enerjisi istehsalı, irriqasiya (suvarma), nəqliyyat, su təchizatı, balıqçılıq problemlərinin həllində mühüm rol oynayır. SES-lərin tikintisi gec və baha başa gəlir, geniş əraziləri su basır. Lakin bərpa olunan axar sulardan istifadə edilir və ekoloji cəhətdən təmizdir.

SES-lər güclü hidroenerji ehtiyatlarına malik ölkədə çayların üzərində tikilmişdir. SES-lər çox da böyük olmamaqla Şotlandiya və Şimali İrlandiya ərazisində fəaliyyət göstərməklə 2%-ə qədər elektrik enerjisi verə bilirlər.

2022-ci ildə hidroenergetikadan əldə edilən gücün həcmi 4795 MVt idi.

Ölkədə **alternativ** enerji mənbələrindən - külək və qabarma elektrik stansiyaları da fəaliyyət göstərir. Böyük Britaniya göstərilən mənbələr hesabına hər il 350 mlrd. kvt. saat elektrik enerjisi hasil edərək dünya ölkələri arasında 9-cu yerdədir.

| **Şirkətlər** | **Elektrik stansiyalarının adı** | **Əsas yanacaq** | **Növü** | **Güc (MVt)** | **Kommersiya sahəsinə giriş, il** | **Məkan Scotland, Wales, Northern İreland or English region** |
|---|---|---|---|---|---|---|
| Drax Power | Drax - biomass units | Biomass (wood pellets, sunflower/oat husk pellets) | Conventional Steam | 2,640 | 2013 | Yorkshire and Humber |
| RWE Npower | Pembroke | Natural gas | CCGT | 2,199 | 2012 | Wales |
| Uniper UK | Ratcliffe | Coal | Conventional Steam | 2,021 | 1967 | East Midlands |
| EDF Energy | Cottam | Coal | Conventional Steam | 2,000 | 1969 | East Midlands |
| EDF | West | Coal | Conv | 2,00 | 1969 | East Midlands |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Energy | Burton | | entional Steam | 0 | | |
| SSE | Fiddler's Ferry | Coal | Conventional Steam | 1,961 | 1971 | North West |
| Engie Power | Dinorwig | Pumped Storage | Pumped Storage | 1,800 | 1984 | Wales |
| RWE Npower | Staythorpe C | Natural gas | CCGT | 1,772 | 2010 | East Midlands |
| RWE Npower | Aberthaw B | Coal | Conventional Steam | 1,559 | 1971 | Wales |
| Uniper UK | Grain CHP | Natural gas | CCGT | 1,517 | 2011 | South East |
| RWE Npower | Didcot B | Natural gas | CCGT | 1,450 | 1998 | South East |
| Uniper UK | Connahs Quay | Sour gas | CCGT | 1,380 | 1996 | Wales |
| EPUKi | South Humber Bank | Natural gas | CCGT | 1,365 | 1997 | Yorkshire and Humber |
| EDF Energy | West Burton CCGT | Natural gas | CCGT | 1,332 | 2013 | East Midlands |
| Drax Power | Drax — coal units | Coal | Conventional Steam | 1,320 | 1974 | Yorkshire and Humber |
| Vitol | VPI | Natural | CCG | 1,25 | 2004 | Yorkshire and |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | Immingham | gas | T | 2 | | Humber |
| Seabank Power | Seabank | Natural gas | CCGT | 1,234 | 2000 | South West |
| Energy Capital Partners | Saltend | Natural gas | CCGT | 1,200 | 2000 | Yorkshire and Humber |
| SSE | Peterhead | Natural gas | CCGT | 1,180 | 1980 | Scotland |

**Cədvəl 2.4. Böyük Britaniyada ən böyük (1000 MVt və yuxarı) istilik və su elektrik stansiyaları (2022-ci il )**

**Külək enerjisi** - küləyi meydana gətirən hava axınının sahib olduğu hərəkət (kinetik) enerjisidir. Alternativ enerji (bərpa olunan) mənbələrindən biri hesab olunur. Bu enerjinin bir hissəsi faydalı olan mexaniki və ya elektrik enerjisinə çevrilə bilər. Külək qurğularının inşasına ənənəvi elektrik stansiyalarının qurulmasına nisbətən daha az vaxt sərf olunur. Bundan başqa, külək, əslində, istənilən ölkənin malik olduğu daimi təbii enerji mənbəyidir. Külək enerjisindən istifadə olunması energetikanın daha tez inkişaf edən sahələrindən biridir.

Böyük Britaniya külək enerjisi baxımından dünyanın ən sərfəli yerlərindən biridir. 2022-ci ildə Britaniyada küləkdən əldə edilən enerjinin gücü 28 537 MVt təşkil etmişdir.

2022-ci ildə Böyük Britaniyada dünyanın ən böyük dəniz külək stansiyası işə salınmışdır. Şimal dənizindəki "Hornsea 2" layihəsi tam gücü ilə işləməyə başlamışdır. Elektrik stansiyası Yorkşirin Şərqi Ridinq qraflığının sahilindən 90 km şərqdə yerləşir. Qeyd edilir ki, o, təxminən 1,3 mln. evi enerji ilə təmin edə bilər. Bu,

2 mln.-dan çox insanın yaşadığı Mançester kimi şəhər üçün kifayət edəcəkdir.

Həmçinin 2026-cı ildə Şimal dənizində 6 mln. evi elektrik enerjisi ilə təmin edə biləcək "Dogger Bank" stansiyasının işə salınması planlaşdırılır.

Külək stansiyaları Böyük Britaniyada bərpa olunan elektrik enerjisinin ən böyük mənbəyidir və investisiya üçün ən cəlbedici sənaye sahələrindən biridir. Sahil ərazilərdə yerləşən dəniz külək stansiyaları əhəmiyyətli artımın şahidi olmuş və bərpa olunan enerjinin əhəmiyyətli mənbələrinə çevrilmişdir.

**Günəş** enerjisi Böyük Britaniyanın enerji qarışığında daha kiçik, lakin artan rol oynayır. Günəş işığını birbaşa elektrik enerjisinə çevirən günəş fotovoltaik (PV) qurğuları yaşayış və ticarət damlarında, eləcə də daha böyük günəş fermalarında tapmaq olar.

2022-ci ildə günəşdən əldə edilən enerjinin gücü 14,412 MVt təşkil edirdi.

**Bioenerjidən** çox qədim zamanlardan istifadə olunur. Biokütlə fotosintez nəticəsində özü enerji mənbəyinə çevrilir. Adətən bu, istilik enerjisi olur. Ancaq biokütlədən, elektrik enerjisi və duru yanacaq istehsal etmək mümkündür. Biokütlənin ən geniş yayılan növü kağız tullantıları və ağac kəpəyidir. İl ərzində dünyada 130 mlrd. ton quru yanacaq (bu, il ərzində 660 min kVt. saat enerjiyə ekvivalentdir) istifadə olunur.

Dünyada il ərzində bioenerji tələbatı 15000 kVt. saatdır. Dünya əhalisinin yarısı biokütlədən istifadə edərək enerji istehsal edir.

2022-ci ildə Böyük Britaniyanın bioenerjidən əldə edilən gücün həcmi 7251 MVt təşkil etmişdir.

**Bioqaz** bioloji kütlənin anaerob qıcqırması nəticəsində yaranan, metan qazının ayrılması ilə müşayiət olunan qazdır. Anaerob qıcqırma havasız şəraitdə baş verən qıcqırma prosesidir. İstənilən kənd təsərrüfatında il ərzində kifayət qədər peyin, bitki qalıqları, müxtəlif bitki və heyvan mənşəli üzvi tullantılar yığılır. Adətən onlar parçalandıqdan sonra üzvi gübrələr kimi istifadə olunur. Lakin bu çürümə prosesi zamanı istilik və qazın ayrılmasını çox az insan bilir.

2022-ci ildə Böyük Britaniyanın bioqazdan əldə edilən gücün həcmi 1923 MVt təşkil etmişdir.

Ölkənin elektrik enerji sistemi La-Manş boğazından keçməklə Fransanın enerji sistemi ilə əlaqələndirilmişdir. Son illər Böyük Britaniya YEK-də (Yanacaq-Energetika Kompleksi) 380 mln. tut məhsul istehsal etmişdir. İllik tələbat 330 mln. tut, ixracat isə 145 mln. tutdan az deyildir.

Ölkədə ekoloji cəhətdən təmiz günəş, külək, geotermal enerji ehtiyatlarından istifadənin perspektivləri böyükdür.

Böyük Britaniya həmçinin Fransa, Hollandiya və İrlandiya kimi qonşu ölkələrlə birləşdiricilər vasitəsi ilə enerjisini idxal edir. Bu birləşdiricilər elektrik enerjisinin mübadiləsinə imkan verir, sabit təchizatı təmin etməyə kömək edir.

Qeyd etmək vacibdir ki, Böyük Britaniyada enerji qarışığı ölkə iqlim dəyişikliyi və bərpa olunan enerji hədəfləri istiqamətində işlədiyi üçün dəyişə bilər. Hökümət istixana qazları emissiyalarını azaltmaq həmçinin iqlim dəyişikliyi ilə mübarizə aparmaq üçün aşağı karbonlu və bərpa olunan enerji mənbələrinə keçidi fəal şəkildə təşviq edir.

## 2.3. Böyük Britaniyanın kənd təsərrüfatı

**Plan:**

**2. Böyük Britaniyanın kənd təsərrüfatında aparıcı sahələr**
**3. Böyük Britaniyada ərzaq təhlükəsizliyi**

**Böyük Britaniya iqtisadiyyatında kənd təsərrüfatının payı.** Bir ölkə daxilində baş verən bütün sosial-iqtisadi, siyasi, sosial-psixoloji proseslərin əsasını istehsal təşkil edir. İstehsalın zirvəsində isə ərzaq məsələlərinin həlli durur. Əslində ölkənin təsərrüfat sistemi fəaliyyətinin mühüm, ayrılmaz hissəsini ərzaq, onun istehsalı, bölünməsi, mübadiləsi və istehlakı təşkil edir. Ərzaq problemi ölkə təsərrüfatı fəaliyyətinin həm subyekti və həm də obyekti olan insanların, işçi qüvvəsinin həyat fəaliyyəti ilə bilavasitə bağlı olan problemdir.

Dövlət səviyyəsində problemin bu şəkildə qoyulması və həll edilməsi çox vacib məsələdir. Məsələyə bu səpgidən yanaşdıqda, dövləti idarə edənlər istər-istəməz ərzaq əldə etmək haqqında fikirləşməli olurlar və mənbələr axtarırlar. Təcrübə göstərir ki, ərzağın əldə edilməsinin əsas mənbəyi kənd təsərrüfatıdır. Ola bilər, hər hansı bir dövlət ərzağı digər dövlətlərdən idxal etsin. Lakin burada söhbət ölkə tələbatının hər hansı bir seqmentinin ödənilməsindən gedə bilər. İkincisi, digər ölkədən gətirilən ərzaq məhsullarının da əsasını o ölkələrin kənd təsərrüfatı təşkil edir. Deməli, söhbət burada beynəlxalq ixtisaslaşmadan gedə bilər ki, bunun nəticəsində də bir ölkə digər ölkəyə ərzaq məhsulu ixrac edir.

Kənd təsərrüfatı ölkə əhalisini ərzaqla təmin etməkdə, məşğulluq məsələlərini həll etməkdə, xarici iqtisadi əlaqələri və xüsusən də xarici ticarəti inkişaf etdirməkdə müstəsna rol oynayır.

II Dünya müharibəsinə qədər Böyük Britaniyada maddi istehsalın 2-ci aparıcı sahəsi hesab edilən kənd təsərrüfatının inkişafına bir o qədər də diqqət yetirilmirdi. Görünür buna səbəb ingilis imperiyasının müstəmləkə xarakter daşıması olmuşdur. Böyük Britaniyada kənd təsərrüfatı son 30 ildə çox dəyişikliklər etmişdir.

Böyük Britanıyanın kənd təsərrüfatı hal-hazırda dünyada ən məhsuldar və mexanikləşdirilmiş sahələrdən biridir. Kənd təsərrüfatı ÜDM-nin 1,2%-ni təşkil edir. Kənd təsərrüfatı torpaqlarının ümumi sahəsi 58,3 mln. ha-dır (ölkənin bütün ərazisinin 76%-i).

Böyük Britaniya Avropa ölkələri arasında kənd təsərrüfatı üzrə iqtisadiyyatın bu sektorunda əhalinin 2%-dən az olan hissəsinin məşğul olması ilə seçilir. Məhsulların kommersiya intensifikasiyası və mexanikləşdirmənin yüksək səviyyəsi ilə aqrar sənaye istehsalatının həcmi bəzi mövqelər üzrə ölkədə tələbat səviyyəsini üstələmişdir. Bu sahədə olan məşğulluq səviyyəsi tədricən aşağı düşür. Kənd yerlərində insanları alternativ işlə təmin etmək məqsədilə, hökumət işçi qüvvəsini digər sahələrə keçirmək cəhdləri göstərir [1, s. 293].

Kənd təsərrüfatına münasibətdə dövlət siyasəti istehsal səviyyəsinin artırılması və aqrar sənaye kompleksində məşğul olanların həyat səviyyəsinin yüksəldilməsini nəzərdə tutur. Eyni zamanda məhsullara məntiqli qiymətləri qoruyub saxlayırlar. Buna nail olmaq üçün daxili məhsullara minimum qiymətlərin və idxala rüsumların sistemi yaradılmışdır.

Aqrar münasibətlərin əsas fiquru torpağı icarəyə götürən və muzdlu işçi qüvvəsindən istifadə edən iri fermerlərdir. Hektar hesabı ilə məhsul əldə edilməsinə görə Böyük Britaniya dünyada Yaponiya, İsveçrə, Niderland, Belçika və AFR-dən sonrakı 6-cı yeri tutur. Lakin hər bir fermer ildə 95 nəfərin istehlakını ödəyəcək miqdarda

məhsul tədarük etdiyindən Britaniya dünyada ancaq Yaponiyadan geri qalır. Britaniyada hər birisinin orta hesabla 70 ha torpaq sahəsi olan 244 min fermer təsərrüfatı fəaliyyət göstərir. Belə hal ölkəni Avropada ən qabaqcıl yer tutmağa sövq edirsə, dünyada ABŞ və Kanadadan geri qoyur.

Xarici rəqabət kapital qoyuluşunun artırılmasına və maşınlardan (kotan, toxumsəpən, taxıldöyən, dənsovuran maşınlardan), mineral gübrələrdən, yaxşılaşdırılmış toxumlardan və cins mal-qaradan istifadə etməyi tətbiq edərək istehsalı intensivləşdirməyə məcbur etmişdir. Nəticədə, XIX əsrin ortalarında İngiltərədə dənli bitkilərin məhsuldarlığı 2 dəfə, heyvandarlığın məhsuldarlığı isə 2,5 dəfə Fransadan artıq olmuşdur.

Son onilliklərdə Böyük Britaniyanın kənd təsərrüfatının inkişafında elmi-texniki səviyyə və aqrar sənaye kompleksinin məhsuldarlığı xeyli artmışdır.

Böyük Britaniyada bir çox kənd təsərrüfatı tipləri mövcuddur. Ölkənin müxtəlif regionlarında kənd təsərrüfatının müxtəlif tipləri inkişaf etmişdir. Bu relyefin, iqlimin (xüsusilə də yağıntıların və temperaturların), torpaq tipinin və bazara yaxınlıq dərəcəsinin təsiri ilə əlaqəlidir. Məsələn, İngiltərənin cənubunda və Şotlandiyanın ovalıqlarında taxıl, kartof, şəkər çuğunduru, İngiltərənin şərqində isə buğda, arpa və tərəvəzlər becərilir.

Şərqi və Cənub-Şərqi İngiltərə əsas əkinçilik rayonlarıdır.

**Böyük Britaniyanın kənd təsərrüfatında aparıcı sahələr.** Bitkiçilikdə demək olar ki, əkinlərin 60%-ni çoxillik otlar, 28%-dən artıq dənli bitkilər, 12% texniki (raps, şəkər çuğunduru, kətan) və yemlik bitkilər (kartof daxil olmaqla), həmçinin bostan və giləmeyvə kolluqları təşkil edir.

Əkinçilikdə **dənli bitkilər** xüsusi yer tutur. Dənli bitkilərin ümumi yığımı 20,8-22,4 mln. ton təşkil edir, o cümlədən, 13,1-15,7 mln. tonu buğdanın payına düşür.

Bitkiçilikdə taxılçılıq aparıcı sahədir. Taxılçılıq üçün ayrılmış sahənin 60%-ni buğda və 37%-ni arpa əkinləri təşkil edir. Hər ha-dan 73 sentner məhsul götürülməsində Böyük Britaniya yalnız ABŞ, RF, Türkiyə və Pakistanla müqayisə edilə bilər. Onun illik məhsul tədarükü 16-20 mln. ton arasında dəyişilir (dünyada 5-ci yerdədir). Ümumiyyətlə, taxılçılığın balansı aktivdir.

Yulaf, arpa və çovdar kimi digər dənli bitkilərin becərilməsi ölkədə həmçinin böyük əhəmiyyətə malikdir. Dənli bitkilərin xeyli hissəsi mal-qara üçün yemə istifadə edilir. Lakin qalan hissəsi çörəyin, yarmaların və s. istehsalında istifadə edilir. Xüsusilə heyvandarlığın yemi üçün ildə 6 mln. ton arpa, 100 min tondan çox vələmir tədarük olunur.

Dənli bitkilərdən sonra məhsulun dəyərinə görə ikinci yerdə **texniki bitkilərdir**. Bu bitkilərin arasında günəbaxan, şəkər çuğunduru və kətan kimi yağlı bitkilər fərqlənir. Texniki bitkilərdən illik məhsul toplantısı 8 mln. ton, məhsuldarlığı hektar hesabı ilə 411 sentnerə çatan şəkər çuğunduru da becərilir.

Əkinçilikdə **tərəvəzçilik** də xüsusilə seçilir. Ölkə ərazisində kartof, soğan, pomidor, xiyar, sarımsaq, badımcan və s. yetişdirilir. Məhsuldarlığı hər ha-dan 393 sentnerə çatan kartofçuluğun illik məhsulu 8 mln. tondan artıqdır.

**Bostan bitkiləri** öz xüsusiyyəti ilə seçilir. Bostan bitkiləri ölkə tələbatını ödəməsə də bir çox ərazilərdə yetişdirilir.

Böyük Britaniyada **bağçaçılığın** qədim tarixi vardır. Torpaq örtüyünün müxtəlifliyi, əlverişli iqlim şəraiti bu ərazidə tarixən müxtəlif növ meyvə ağaclarının yetişməsinə səbəb olmuşdur. Ölkə

ərazisində alma, armud, alça, gavalı, göyəm, gilas, gilənar, üzüm və digər meyvə və giləmeyvə bitkilərinə rast gəlinir.

Son illər kənd təsərrüfatı yüksək templərlə yayılır. Əsas kənd təsərrüfatı bitkiləri: buğda (Böyük Britaniyada ən geniş yayılmış əkin bitkilərindən biri), arpa, yulaf, kartof, şəkər çuğunduru, tərəvəzlər, raps, meyvələrdir.

Böyük Britaniyada ta qədimdən **heyvandarlıqla** məşğul olunmuşdur. Bu sahədə qazanılmış zəngin təcrübə, uzun illər yaranmış və möhkəmlənmiş ənənə, kəndlilərin heyvandarlığa bağlılığı və meyli hazırda sahənin sabit templə inkişafını təmin edir.

Heyvandarlığın inkişaf etdirilməsi üçün ölkə böyük potensiala malikdir. Mal-qaranın cins tərkibini yaxşılaşdırmaq üçün səmərəli tədbirlər həyata keçirilmiş, naxırların və sürülərin tamamilə təzələnməsinin əsası qoyulmuşdur. Heyvandarlıqda iribuynuzlu mal-qaranın yetişdirilməsi daha əhəmiyyətli yer tutur. Kənd təsərrüfatında özünütəminatın yüksək səviyyəsini qoruyub saxlamağa çalışırlar.

Kənd təsərrüfatı məhsulları istehsalında heyvandarlığının payı 80%-dən artıqdır. Ölkə təbii şəraitinə müvafiq olan rayonlarda saxlanılan iribuynuzlular 13 mln. başdan az deyildir. Burada südlük, ətlik-südlük istiqamətində ixtisaslaşma aparılır. Bununla yanaşı ət və yun alınması istiqamətində saxlanılan xırdabuynuzluların sayı 43 mln. başı keçmişdir [1, s. 293].

İngiltərənin şimal-qərbində, Uels və Şotlandiyada fermerlər **iribuynuzlu** mal-qaranın və qoyunların yetişdirilməsilə məşğuldur.

Böyük Britaniya ət tədarükünə görə (40 mln. tona yaxın) dünyada 11-ci yeri tutaraq ildə adambaşına 66 kq. məhsul əldə edə bilir. Eyni zamanda Britaniya mal əti ixrac edir. İldə hər nəfərə düşən

südün kəmiyyət göstəricisi 235 kq-dan cox olmaqla ümumi illik məhsulu 14 mln. tondan az olmur.

Dağlıq rayonlarda **qoyunçuluq** inkişaf etmişdir. Düzənliklərdə kənd təsərrüfatı bitkiləri becərilir və rütubətli isti bölgələrdə süd və qoyun əti istehsal edilir.

Qoyunlar qışı təpələrdə keçirə bilirlər. İngiltərənin cənub-qərbi otlarla zəngindir və qoyunların yemlənməsi üçün yararlıdır.

Texniki bitkilər becərilən bölgələrdə, iri sahələr ətrafında sayı 8,0 mln. başdan artıq olan **donuzçuluq** təsərrüfatları mövcuddur.

Britaniyada **quşçuluq** yüksək səviyyədə inkişaf etmişdir və quş ətinə olan tələbatın 92%-i ödənilir. Quşçuluq təsərrüfatları demək olar ki, ölkənin bütün bölgələrində inkişaf etmişdir.

Böyük Britaniya dünyanın **balıqçılıq** təsərrüfatı inkişaf edən ölkələrindən biridr. Əsas balıqçılıq sənayesi Şotlandiyanın şimal-şərqində, Şimal dənizinin və Şimali Atlantik okeanının zəngin balıqçılıq sahələrinin yaxınlığında yerləşir. Treska, skumbriya, siyənək, kambala, sardina və s. balıqlar ovlanır. Balıqçılıq sənayesinin məhsulları dünyanın 50-dən çox ölkəsinə ixrac edilir.

Mütəxəssislərin hesablamalarına görə, Böyük Britaniya bu gün məhsulların tam tozlanması üçün lazım olan arı ailələrinin yalnız 25%-nə malikdir. Bu, Qərbi Avropa üçün antirekorddur. Britaniya **arıçılığı** bu gün ölkə əhalisinin istehlak etdiyi balın 10%-dən azını istehsal edir (ildə 3-5 min ton). İngiltərədə bal istehlakı son illərdə durmadan artıb və 2022-ci ildə ildə 52 min tona çatıb. Bu miqdarda balın 90%-dən çoxu 30 ölkədən idxal edilib. Eyni zamanda, Böyük Britaniya Yaponiyanı (bu balı 33,8 min ton idxal etmiş) ötərək dünyada Çin balının əsas alıcısına çevrilib [58].

Böyük Britaniyada kənd təsərrüfat məhsulları istehlakın 80%-ni ödədiyindən xüsusi ilə Avropa ölkələrindən bu və ya digər məhsulları almaq üçün ölkəyə xam məhsullar idxal olunur.

Lakin yerli ehtiyatlar hesabına ölkənin təmin edilməsi durmadan artır. Tam özünütəminat süd kimi məhsullara, yüksək təminat yumurta, quş əti, buğda, yulaf, arpa, kartof kimi məhsullar üzrə nail olunmuşdur. Meyvə, yağ, şəkər, pendirin müxtəlif növləri isə idxal edilir.

Beləliklə, bir sıra vacib ərzaq məhsullarını digər ölkələrdən idxal etmək lazım olur. Böyük Britaniya ölkədə istehlak edilən kərə yağının 4/5 hissəsini, şəkərin 2/3 hissəsini, buğdanın və donuz ətinin yarısını, mal və dana ətinin 1/4 hissəsini idxal edir.

**Böyük Britaniyada ərzaq təhlükəsizliyi.** Böyük Britaniyada ərzaq təhlükəsizliyi əhalinin təhlükəsiz və yetərincə məhsullarla təmin olunduğu və normal həyatın qorunub saxlandığı miqdarda mövcuddur. O, kənd təsərrüfatının inkişaf ölçüsüdur. Ərzaq təhlükəsizliyindən başqa ərzaq məhsulların keyfiyyəti məsələsi meydana gəlir.

Böyük Britaniyada demək olar ki, bütün məhsullar ekoloji və sosial standartlar istehsalına zəmanət verən keyfiyyət sxemi üzrə istehsal edilir. Fermerlər təbii əkinçilik kimi ekoloji təmiz metodlardan istifadə etmək məcburiyyətindədir. Təbii kənd təsərrüfatında ətraf mühitə və insan sağlamlığına zərər gətirə biləcək süni kimyəvi maddələrdən istifadə edilmir. Böyük Britaniyanın ekoloji təmiz ərzaq məhsulları istehsalı sahəsində çox böyük potensial imkanları mövcuddur.

Hər il Böyük Britaniya 22 mlrd. dollarlıq yeyinti və kənd təsərrüfatı məhsulları ixrac edir. İdxalatda isə bu 38 mlrd. dollardan artıqdır (2022-ci il).

Ərzaq təhlükəsizliyi ölkənin milli-iqtisadi təhlükəsizlik sisteminin ən mühüm tərkib hissəsi kimi dəyərləndirilir və aşağıdakı şərtlər daxilində təmin edilmiş hesab edilir:

- Kütləvi istehlak üzrə qida məhsullarının 85%-dən çoxu yerli aqrar sektor tərəfindən istehsal edilirsə;
- İstehlak olunan qida məhsulları ekoloji cəhətdən təmizdirsə;
- Qida məhsullarının qiymətinin əhalinin əsas kütləsi üçün əl çatandırsa;
- Qida məhsulunun kaloriliyi və qidalılıq dəyəri insan orqanizminin tələbatını orta sutka qida rasionuna adekvatlığı təmin edilirsə;
- Fövqəladə hallar baş verən zaman əhalinin davamlı şəkildə qida məhsullarına olan tələbatının ödənilməsi üçün strateji ərzaq ehtiyatı mövcuddursa [1, s. 294].

Kənd təsərrüfatı bir qayda olaraq, torpağın becərilməsinin elmi və ya biznesi, kənd təsərrüfatı bitkilərinin becərilməsi və mal-qaranın yetişdirilməsi kimi müəyyən edilir. Böyük Britaniyada sahəsi təxminən 57 ha olan 300 minə qədər aktiv təsərrüfat mövcuddur. Bu göstərici Avropada orta həcmi 20 ha olan təsərrüfatlardan xeyli çoxdur. Lakin Şotlandiyada fermaların sahələri 100 ha-dan artıqdır. Uels və Şimali İrlandiyada 40 ha təşkil edir.

## 2.4. Böyük Britaniyanın nəqliyyat sistemi

**Plan:**

**1. Böyük Britaniya iqtisadiyyatında nəqliyyat sisteminin rolu**

**2. Böyük Britaniyanın avtomobil nəqliyyatının yük və sərnişin daşımada rolu**

**3. Böyük Britaniyanın dəniz nəqliyyatının yük və sərnişin daşımada rolu**

**4. Böyük Britaniyanın dəmir yolu nəqliyyatının yük və sərnişin daşımada rolu**

**5. Böyük Britaniyanın hava nəqliyyatının yük və sərnişin daşımada rolu**

**6. Böyük Britaniyanın nəqliyyat sistemində ictimai nəqliyyatın rolu**

**Böyük Britaniya iqtisadiyyatında nəqliyyat sisteminin rolu.** Hər bir müstəqil dövlətin milli iqtisadiyyatının ən aparıcı infrastruktur sahələrindən biri də nəqliyyat kompleksidir. Ümumiyyətlə, nəqliyyat sistemi istər ölkənin iqtisadi təhlükəsizliyinin etibarlı təminatının yaradılmasında, istərsə də ölkənin ÜDM-nin formalaşmasında böyük əhəmiyyəti vardır. Dünya Bankının qiymətləndirmələrinə əsasən nəqliyyat kompleksi dünya üzrə ÜDM-nin 3-5%-ni formalaşdırır ki, bunun da orta hesabla, 2-2,5%-ni dövlət investisiyaları təşkil edir. O cümlədən, dəmir yolu, avtomobil, dəniz, hava nəqliyyat növlərini əhatə edən nəqliyyat sistemi dünya iqtisadiyyatında mövcud iş yerlərinin 5-8%-ni formalaşdırır. Bundan başqa, beynəlxalq nəqliyyat əlaqələri və bir çox ölkələrin valyuta daxil olmalarında da əsas mənbələrdən birini təşkil edir.

Nəqliyyat maddi istehsalın xüsusi bir sahəsidir. Kənd təsərrüfatı və sənayedən fərqli olaraq, istehsal prosesində yeni bir məhsul yaratmır, xüsusiyyət (fiziki, kimyəvi) və keyfiyyətini dəyişmir. Nəqliyyat infrastrukturunun inkişafı qlobal iqtisadiyyatda, o cümlədən turizmdə böyük rol oynayır.

Böyük Britaniya iqtisadiyyatının əsas tərkib hissəsini təşkil edən sahələrdən biri də nəqliyyat sistemidir. Nəqliyyat sisteminin inkişafı istər iqtisadiyyatın təşkili prosesində və sosial sahənin inkişafında, istərsə də "ictimai sifariş" sistemini formalaşdıran cəmiyyət üçün səmərəli fəaliyyət göstərməkdədir. Bu sistem müştərilərin tələb və təklifinə cavab verən bir proses olaraq təşkil olunmalıdır. Bu baxımdan nəqliyyatı iqtisadiyyatın yüksəldilməsində fəaliyyət göstərən bir sistem olaraq tək dəyərləndirmək olmaz. İnsanların həyat fəaliyyətini yüksəldən sahələrarası sistem kimi fəaliyyət göstərən bu sistem yük və sərnişin daşımada, eyni zamanda təsərrüfatın idarə olunmasında iştirak edir.

Hazırda Böyük Britaniya həyatının bütün sahələri ilə yanaşı, yol təsərrüfatının sistemli və hərtərəfli inkişafına xüsusi diqqət göstərilir. Bunun nəticəsidir ki, bu gün ölkənin yol təsərrüfatında yeniləşmə və müasirləşmə getdikcə dərinləşir, dövlətin güc və qüdrətinin artırılmasına, xalqın rifahının yüksəldilməsinə xidmət edən quruculuq proqramları uğurla reallaşdırılır.

Son 30 il ərzində  Böyük Britaniyada nəzərdə tutulan bütün infrastruktur layihələri, sosial proqramlar yüksək səviyyədə reallaşdırılıb, o cümlədən sosial infrastrukturun mühüm sahələrindən sayılan yol təsərrüfatının yenidən qurulması, yeni yolların salınması, mövcud yolların isə əsaslı şəkildə təmiri ilə bağlı layihələr uğurla davam etdirilib. Paytaxt London və regionlarda çoxsaylı yol ötürücüləri, körpülər, tunellər, yeraltı və yerüstü piyada keçidləri inşa olunub.

Ölkədə nəqliyyat sistemi çox yaxşı inkişaf etmişdir. Böyük Britaniya qitə ilə iki dəmir yolu bərə (Dover-Dunkirk və Harviç-Ostend), bir kanal və çox sayda dəniz avtomobili və sərnişin bərə -

Danimarka və s. ilə bağlanır. Sərnişinləri bərə ilə cəlb etmək üçün rüsumsuz ticarət açıqdır.

2022-ci ildə nəqliyyat sektorunun ÜDM-də payı 7,8% olmuşdur. İqtisadi fəal əhalinin 6,3%-i bu sahədə çalışır [82].

Böyük Britaniyada dövlətin nəqliyyat siyasətinin əsas prioritetləri aşağıdakılardır:

- rayonlararası və iri yaşayış qəsəbələrini, kəndləri birləşdirən yolların müasirləşdirilməsi;
- nəqliyyat vasitələrinin texniki və ekoloji tələblər baxımından beynəlxalq standartlara uyğun təyin olunması;
- nəqliyyatın dayanıqlı inkişafının maddi-texniki bazasının gücləndirilməsi;
- nəqliyyat xidmətlərinin keyfiyyətinin artırılması;
- sərnişin və yük daşıma xidmətlərində nəqliyyat xərclərinin azaldılması yolu ilə ölkədə yüksək sosial-iqtisadi inkişafın təmin olunması və s.

**Böyük Britaniyanın avtomobil nəqliyyatının yük və sərnişin daşımada rolu.** Nəqliyyat sistemində avtomobil nəqliyyatı ən böyük rol oynayır. Parklarında 25 mln.-dan artıq avtomobili birləşdirən avtomobil nəqliyyatı daxili yük (87%) və sərnişindaşımada (91%) aparıcı yer tutur. Ölkə ailəsinin 68%-nın avtomobili olduğu qeydə alınmışdır. Ailənin 23%-nın 2-3 avtomobili vardır.

Ölkədə avtomobil yollarının ümumi uzunluğu 400 min km-dir. Bundan 3,5 min km beynəlxalq əhəmiyyət kəsb edən magistral yollardır. Ölkədə avtomobil nəqliyyatının rolu və əhəmiyyəti gündən-günə artmaqdadır.

Böyük Britaniya bir ada dövləti olduğundan, bütün xarici ticarət dəniz və hava nəqliyyatı ilə əlaqələndirilir.

**Böyük Britaniyanın dəniz nəqliyyatının yük və sərnişin daşımada rolu.** Beynəlxalq iqtisadi əlaqələri dəniz nəqliyyatının iştirakı olmadan təsəvvür etmək mümkün deyildir. Dəniz nəqliyyatı vahid nəqliyyat sistemində digər nəqliyyat növləri ilə müqayisədə ən ucuz nəqliyyat növüdür. Dəniz ticarəti imkanlarından faydalanmaq üçün bir sıra dünya ölkələrində liman qovşağının yaradılmasına investisiya qoyulur.

Böyük Britaniyanın coğrafi mövqeyi - adalarda yerləşməsi, iqtisadiyyatının xarici əlaqələrdən və Britaniya imperiyasının müstəmləkə siyasətindən asılılığı onu hələ çox qədimdən dünyanın böyük dəniz dövləti kimi tanıtdırmışdır. Bu liderlik II Dünya müharibəsinə qədər davam etsə də, sonralar ABŞ bu sahədə onu 2-ci yerə sıxışdırmışdır.

Hal-hazırda Britaniya xarici ticarətinin 98%-i, kabotajın 25%-i dəniz nəqliyyatı ilə həyata keçirir. Gəmi tərsanələrində 1000-dən artıq tanker refrijerator; taxta-şalban, filiz və sərnişin daşıyan gəmi vardır. Dəniz donanması (flot) üçün xarakter cəhət odur ki, yük daşıyan gəmilər sərnişin daşıyanlardan çoxluq təşkil edir.

Böyük Britaniya və ölkə xaricində liman əməliyyatları ilə yanaşı, gəmilərin müasirliyi və yükgötürmə qabiliyyətinin yüksək olması vacib məsələlərdən biridir.

Britaniyanın hər birisinin yük dövriyyəsi 1 mln. tondan çox olan 36 və hər birisinin illik dövriyyəsi 10 mln. tondan artıq olan 13 limanı fəaliyyət göstərir. London (66 mln. ton), Liverpol, Qlazqo, Sallom Vo (40 mln. ton), Milford-Heyven (35 mln. ton), Sautqempton (32mln. ton), İmminqem (20 mln. ton), Tyurt-Tolbot (11 mln. ton), Redkar və digər limanların adlarını çəkə bilərik [73].

Ölkə çoxsaylı çaylara, gəmiçilik kanallarına malik olsa da, onların rolu bir o qədər hiss edilmir. Çox vaxtı onlar rekreasiya məqsədlərində yaralanırlar.

**Böyük Britaniyanın dəmir yolu nəqliyyatının yük və sərnişin daşımada rolu.** Ölkənin nəqliyyat sisteminin inkişaf etmiş mühüm sahələrdən biri də dəmir yollarıdır. Dəmir yolu nəqliyyatı İngiltərədə hələ 1825-ci ildə Mançestrlə-Liverpul arasında ilk dəmir yolu xətti çəkiləndən inkişaf etməyə başlamışdır. Müasir Britaniyada dəmir yolları get-gedə azalaraq (1970-cı illərdə 21 min km idi) 17 min km-ə (2022-ci ildə) enmişdir.

Dəmir yolları şəbəkəsinin sıxlığı hər 1000 kv.km-də-68 km-dir. Onun 31%-i elektrikləşdirilmişdir.

Ümumiyyətlə ölkənin coğrafı mövqeyi bir növ dəmir yollarının inkişafına və yerləşməsinə öz təsirini göstərməyə bilmir. Britaniya bir növ Avropa ölkələrindən təcrid olunmuşdur. Bu çatışmazlığı aradan qaldırmaq məqsədilə hələ XIX əsrin başlanğıcında fransız mühəndisi Alber Matyonun layihəsinə əsasən La-Manşın ən ensiz yeri olan Pa-de-Kale ilə Duvr arasında sualtı tunelin çəkilməsi fikri irəli sürülmüşdür. Nəhayət 1987-ci ildə, həmin layihələrin həyata keçirilməsi haqqında ingilis-fransız razılaşmasına nail olunmuşdur.

“Əsrin tikintisi”nin reallaşmasında aşağıdakı xronoloji ardıcıllıq mövcuddur:

- 1987-ci ildə tikintiyə başlanılmışdır;
- 1991-ci ilin iyun ayında avrotunelin çəkilişi başa çatmışdır;
- 1994-cü ilin may ayında İngiltərənin Kraliçası II Yelizaveta və Fransa prezidenti Fransua Mitteranın iştirakı ilə təntənəli açılış olmuşdur;

- 1994-cü ilin noyabr ayında London-Paris arasında qatarlarının kommersiya hərəkəti həyata keçirilmişdir [8, s. 96].

Texniki layihəyə əsasən Pa-de-Kale ilə Duvr arasında suyun 40 m dərinliyindən keçməklə 3 paralel xətt çəkilmişdir. Hər 250 metrdən göstərilən xətlər bir-biri ilə eninə qalereyalarla birləşdirilmişdir. 37 km su altından keçən avrotunelin uzunluğu 50 km-ə çatır.

Baxmayaraq ki, tunel çox baha başa gəlmişdir, o özünü doğrultmuşdur. Bu vaxta qədər həmin xətlə 22 mln.-dan artıq sərnişin daşınmışdır. Nəticədə, London-Paris arasındakı məsafə 3 saata qət olunursa, bunun 20 dəqiqəsi ancaq tuneldən keçmə vaxtıdır. Beləliklə, Pa-de-Kale Duvr arası avrotunel Britaniyanı qonşu Avropa dövlətləri ilə birbaşa əlaqələndirməyə, iqtisadi inkişafa səbəb olmuşdur.

Son illər dəmir yolu nəqliyyatı sisteminin beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi, ölkənin dəmir yolları şəbəkəsinin genişləndirilməsi, müasirləşdirilməsi və yenilənməsi istiqamətində intensiv işlər aparılıbdır.

Deyilənlərlə yanaşı yeraltı keçidlər, Folkstond, Koledə, Londonda, Parisdə beynəlxalq terminallar da tikilib istifadəyə verilmişdir.

**Böyük Britaniyanın hava nəqliyyatının yük və sərnişin daşımada rolu.** Nəqliyyat sisteminin mühüm sahələrindən biri də hava nəqliyyatıdır. Ölkə ada olduğundan hava nəqliyyatının rolu böyükdür. Beynəlxalq daşımalarda aviasiya nəqliyyatından geniş istifadə olunur.

Keçmişdə hava ilə müqayisədə daha çox sərnişin dəniz yolu ilə gəlirdi. Ancaq XX əsrin 60-cı illərinin əvvəllərindən etibarən hava sərnişinlərinin sayı sürətlə artmağa başladı və indi ölkəyə dəniz

yolu ilə gələnlərin sayını dəfələrlə üstələyir. Ümumilikdə ölkədə 471-ə yaxın hava limanı fəaliyyət göstərir.

Londonun Hitrou hava limanı dünya əhəmiyyəti kəsb edən limandır. Hava nəqliyyatı ilə ildə 100 mln-dan artıq sərnişin daşınır. Hava limanında 90-dan çox aviaşirkət fəaliyyət göstərir, o cümlədən Azərbaycan Hava Yolları.

Demək olar ki, bütün nəqliyyat “British Airways” tərəfindən həyata keçirilir. Ölkənin 5 əsas hava limanları London bölgəsində yerləşən “Heathrow”, “Gatwick”, “Manchester”, “Luton” və “Glasgow”dur. Bu hava limanları sərnişin və hava daşımalarının 75%-ni təşkil edir.

Britaniyada **daxili su** nəqliyyatının uzunluğu 5 min km-dir. Ölkədə 200-dən çox çay limanı fəaliyyət göstərir ki, əsası London çay limanıdır.

Britaniyada **boru kəməri** nəqliyyatı cavan nəqliyyat növlərindən biridir. Neftin istər ölkə daxilində, istərsə də xaricə səmərəli yollarla daşınması boru kəməri nəqliyyatının bütün illərdə inkişaf etdirilməsini tələb edir.

Ölkədə ayrı-ayrı sahələrin boru kəmərlərinin uzunluğu aşağıdakı kimidir:

**1.** Neft boru kəmərinin uzunluğu 4 min km;

**2.** Neft məhsulları boru kəmərinin uzunluğu 540 km;

**3.** Qaz kəmərinin uzunluğu 13 min km;

**4.** Sıxılmış neft qaz boru kəmərinin uzunluğu 101 km-dir.

İstehlakın ödənilməsində boru nəqliyyatı əvəzsiz əhəmiyyət kəsb edir. Ölkə neft kəmərlərinin səviyyəsinə görə qonşu ölkələrdən əhəmiyyətli dərəcədə fərqlənir.

**Böyük Britaniyanın nəqliyyat sistemində ictimai nəqliyyatın rolu.** Son illərdə Britaniyanın iri şəhərlərində, əsas da

paytaxt Londonda sürətli iqtisadi inkişaf, əhalinin sayının artması, işgüzar fəallığının genişlənməsi, müxtəlif təyinatlı binaların və obyektlərin tikintisinin vüsət alması nəqliyyat sisteminin fəaliyyətinə öz təsirini göstərmişdir. Belə ki, ölkədə ictimai nəqliyyat yüksək səviyyədə inkişaf etmişdir. Britaniya bir çox ictimai nəqliyyatlardan (metro, avtobus, taksi) ilk istifadəyə görə seçilir.

Ölkədə 270 stansiya və 11 xətti olan **metropoliten** fəaliyyət göstərir. İlk metro (1883-cü ildə) İngiltərədə fəaliyyət göstərib və yerli sakinlər bu faktla fəxr edirlər. Metrodan istifadə dəyəri nəinki alınan səyahət sayına/keçidin etibarlılığına (1 gün, həftə, ay və s.), həm də həftənin gününə, səyahət vaxtına görə də fərqlənir [87].

Ölkədə bir çox fərqli **taksi** növü fəaliyyət göstərir. Xidmətlərin qiyməti avtomobilin sinfi, ətrafı, xüsusi təlim və imtahan verən sürücülərin peşəkarlığından asılı olaraq fərqlənir. İngiltərənin istənilən şəhərində həm avtomobil sahibi, həm də mikroavtobuslar taksi xidmətləri üçün lisenziya ala bilərlər.

**Avtobuslar** İngiltərədə istər şəhər daxilində, istərsə də şəhərlər arasında və ya digər dövlətlər arasında olduqca məşhurdur. Xidmətin keyfiyyəti Avropa səviyyəsindədir, qiymətləri isə ucuz adlandırmaq olmaz.

Ölkədə şəhər avtobusları müxtəlif marşrutlarla fəaliyyət göstərir. Bu avtobusların əsas marşrutu şəhər ətrafıdır. Eyni zamanda həmin avtobuslar komfortlu və bir qədər baha olması ilə seçilir. Onlar özəl şirkətlərin inhisarındadır və öz rənglərinə görə hansı şirkətə mənsub olunması bilinir.

Sonda bunu qeyd edə bilərik ki, Böyük Britaniyada nəqliyyatın yüksək inkişafı iqtisadi bütövlüyün, mal və xidməti proseslərin idarə olunmasının, iqtisadi fəaliyyətdə mübadilə prosesinin sərbəstliyinin və rəqabətin inkişafının təminatçısıdır.

**Əgər siz Londondan yorulmusunuzsa, deməli, yaşamaqdandan yorulmusunuz!**
**Samuel Conson**

## 2.5. Böyük Britaniyanın turizm sistemi

**Plan:**
**1. Böyük Britaniya iqtisadiyyatında turizmin payı**
**2. Böyük Britaniyada turizmin növü**
**3. Böyük Britaniyada turizmin inkişaf dinamikası və turist axınlarının istiqaməti**

**Böyük Britaniya iqtisadiyyatında turizmin payı.** Bir vaxtlar dünyanın az qala yarısına hökm edən, Hindistandan Şimali Amerikaya, Kanadadan Avstraliyayadək söz sahibi olan Böyük Britaniya imperiyasından qalan bugünkü metropoliya Avropanın şimal-qərbində, Britaniya adalarında yerləşən İngiltərə, Şotlandiya, Şimali İrlandiya və Uels adlı dörd tarixi vilayəti özündə birləşdirən bir dövlətdir.

Kapitalizm cəmiyyəti beynəlxalq turizmin inkişafı üçün zəruri olan iqtisadi, siyasi və ictimai şəraitin formalaşmasında böyük rol oynamışdır. İngiltərə burjua inqilabının qələbə çaldığı və kapitalizmin inkişaf etməyə başladığı ilk ölkələrdən biridir. Məhz bu ölkələrdə ilk turist təşkilatları yaranmış, fəaliyyətini əvvəlcə ölkə daxilində qurmuş, sonralar beynəlxalq səhnəyə çıxmışlar. 570 nəfərdən ibarət Leysterdən Lofboroya gedən ilk turist qrupunu 1841-ci ildə Tomas Kuk təşkil etmişdir. Londonda 1-ci Beynəlxalq sənaye sərgisi keçirilmiş, ora təkcə Yorkşirdən 165 min tamaşaçı göndərilmişdir.

1856-cı ildə Tomas Kuk xaricə səyahətlər təşkil etməyə başlayır. İlk qrup Fransaya, Parisdə fəaliyyətə başlamış Beynəlxalq sərgiyə gedənlərdən təşkil edilmişdir. XIX əsrin 70-ci illərində Avropaya gələn turistlərin böyük hissəsini ingilislər idi.

XIX əsrin 60-cı illərindən başlayaraq İngiltərə və ABŞ arasında turizm inkişaf etməyə başlayır. İngiltərədən ABŞ-a, ABŞ-dan İngiltərəyə səyahətlərin təşkilində də T.Kukun əməyi əvəzedilməz idi. 1817-ci ildə Tomas Kuk ilk dövr-aləm səyahətini həyata keçirdi. Dəmir yol və gəmiçilik şirkətləri, mehmanxana və restoran sahibləri arasında müqavilələr bağlanır, tələbat diqqətlə öyrənilir, səyahət marşrutları və yerləşdirmə proqramları tərtib olunurdu. Tomas Kukun təşəbbüsünə digər şirkətlər də qoşuldu. Böyük Britaniyanın turist sənayesinin yüksəlişi, turizmin inkişafı əhalinin sayından deyil, onun tərkibində və dincəlmək ənənələrində baş verən dəyişikliklərdən asılı idi.

Britaniyalılar II Dünya müharibəsindən sonra fəal şəkildə səyahət etməyə başladılar. 70-80-ci illərdə iqtisadi tənəzzüllə əlaqədar səyahətlərin miqdarı əhəmiyyətli dərəcədə azaldı, yalnız 80-ci illərin ortalarında səyahətlərin ümumi miqdarı 70-ci illərin səviyyəsini xeyli üstələdi. Bu müddətdə ölkədaxili turizmlə beynəlxalq turizm arasındakı nisbət olduqca dəyişildi.

1987-ci ildə daxili bazarın tutumu öz böhran həddinə çatdı. Lakin eyni zamanda həmin dövrdə britaniyalıların dənizyanı kurortlarda keçirdiyi ənənəvi iki həftəlik məzuniyyətlərinin sayı 14 % azaldı, habelə özəl özünəxidmət sahəsində istirahətin nüfuzu artdı.

Kurort bölgələrində qonaq evlərinə tələbatın aşağı düşməsi mehmanxana sahiblərini biznes-turizm üçün nəzərdə tutulmuş mehmanxanaları iş günlərində ahıllar evi və s. kimi istifadəyə verməyə vadar etdi.

XX əsrin 70-ci illərində Böyük Britaniyaya gələn turistlərin miqdarı neft böhranına baxmayaraq durmadan artır və 1979-cu ildə yüksək həddə çatır (12.5 mln nəfər). Lakin 80-ci ilin əvvəlində azaldı, 1981-ci ildə 11,4 mln. qonaq təşkil etdi. Bundan sonra bu göstərici yüksələrək 1992-ci ildə 18,1 mln. nəfər oldu. Sonrakı illərdə isə gələnlərin sayı durmadan artırdı. Bunu iqtisadiyyatda hökm sürən sabitlik, iqtisadi yüksəlişlə izah etmək olar. Xarici turizmdən gələn gəlirin də burada rolu az deyildi. 1995-ci ildə xarici qonaqların sayı 24 mln. nəfər təşkil etdi, 1997-ci ildə bu rəqəm 26 mln.-a qədər artdı [30, s. 253].

2020-2022-ci illərdə dünyanı bürüyən pandemiya səbəbindən ölkəni ziyarət edənlərin sayı azalmışdır. 2022-ci ildə ölkəni 11 mln. turist ziyarət etmişdir (2019-cu ildə 37 mln. isə turist gəlmiş və 28 mlrd. funt sterlinq xərcləmişdilər).

1998-ci ildə Böyük Britaniyada beynəlxalq turizmdən götürülən gəlir 6% artdı, yəni 1997-ci ildə götürülən 20,6 mlrd. mlrd.-lıq gəlir müqabilində 1998-ci ildə götürülən gəlir 21,3 mlrd. dollar oldu. Xarici qonaqlardan götürülən gəlirə görə İngiltərə dünyada qətiyyətlə 5-ci yerdə gedirdi.

Böyük Britaniyanın turizm gəlirləri 2024-cü ildə 79 mlrd. funt-sterlinqlə bütün zamanların ən yüksək səviyyəsinə, 2020-ci ilin iyununda isə 61 mlrd. funt-sterlinqlə rekord aşağı səviyyəyə çatıb.

Tarixin müxtəlif dövrlərində öz təbiət gözəllikləri, təbii resursları, əlverişli coğrafi mövqeyi ilə seçilən Böyük Britaniya həm ticarət, həm mədəni, nəhayət, həm də hərbi çəkişmələrin geniş meydanı olmuşdur. Tarixən Britaniyaya edilən səyahətlərin əsas məqsədi hərbi, coğrafi xüsusiyyətləri öyrənmək təşkil edirdisə də, aparılan yol qeydləri, yaxud xüsusi səyahətnamələr ölkənin tarixi,

mədəniyyətinin öyrənilməsində çox böyük elmi əhəmiyyət daşımışdır.

Britaniyada turizmin təşəkkülü, yaranması prosesi səyyahçılıq, ekskursiya işi ilə bağlı olaraq əsasən ticarət, siyasət, mədəni məqsədlərinin həyata keçirilməsi ilə əlaqədar olmuşdur.

Böyük Britaniya hər şeyi - təbiəti, tarixi və milli xüsusiyyətləri ilə möhtəşəmdir. Ölkədə daş dövründən başlamış orta əsrlərə qədər bütün tarixi zamanların abidələrinə rast gəlmək mümkündür. Burada ucqar ərazilərdəki sakitlik böyük şəhərlərin şövqlü həyatı ilə ziddiyyət təşkil edir, əhali isə əsrlər boyu qorunub saxlanmış ənənələrə əvvəlki kimi hörmət bəsləyir.

Böyük Britaniya dahi Şekspirin, əfsanəvi Robin Qudun, Liverpuldan olan dünyaca məşhur dördlüyün - "Beatles"in vətənidir.

Hazırda Böyük Britaniya turizm üzrə dünya liderləri sırasında ilk altılığa daxildir. Tarixi yerlər, tanınmış təhsil müəssisələri və əyləncələrin zənginliyi səbəbindən hər il daha çox turist səyahət etmək üçün məhz bu ölkəni seçir.

Turizmin inkişafı ölkəyə həm iqtisadi cəhətdən, həm də sosial cəhətdən müsbət təsir göstərir. İqtisadi cəhətdən müsbət təsiri onun gəlirli sahə olması və ölkəyə əlavə gəlirin cəlb olunmasında böyük rol oynamasıdır. Turizm ölkə iqtisadiyyatının vacib komponentini təşkil etməklə yanaşı, milli gəlir üçün də əhəmiyyətli mənbədir. Dövlət büdcəsini əhəmiyyətli hissəsi turizmin hesabına formalaşır.

Sosial cəhətdən isə yeni iş yerlərinin açılmasına təkan verərək işsizliyi azaldır, yeni təşkilatların yaranmasına gətirib çıxarır, sahibkarlığın inkişafına imkan yaradır, turizm regionlarındakı ev təsərrüfatlarının və əhalinin ehtiyaclarına uyğun xidmət sahələrinin yaranmasını təmin edir.

Deməli, turizm sahəsinin inkişafı iki əsas məqsədin də həyata keçməsinə təkan olur:

**1.** Əhalini yeni iş yerləri ilə təmin edilməsi;

**2.** Ölkəyə xarici valyutanın cəlb edilməsi.

Turizm sektoru ölkədə ÜDM-nin 9%, iş yerlərinin isə 11%-ni təşkil edir.

Turizmin gəlirləri dövlət gəlirlərinin, əhali və sahibkarların gəlirlərinin tərkib hissəsidir. Bu səbəblərdən də ölkədəki turizm onun iqtisadi və sosial potensialının inkişafına və idarə olunmasına təsir edir. Ölkədə turizmin inkişafı və iqtisadiyyatdakı payını artırmaq məqsədilə dövlət tərəfindən müxtəlif siyasət və proqramlar həyata keçirilir. Son dövrlərdə turizmin get-gedə artmasındakı əsas səbəblər bu sahəyə ayrılan investisiyalardır.

Ölkədə turizmin inkişafı iqtisadi inkişaf, investisiya cəlbedilməsi, regionların inkişafı sahəsində nüvə rolunu oynayır. Turizmin inkişaf etdiyi bölgələrdə təhsil, səhiyyə obyektləri tikilir, yollar salınır, bazarlar inkişaf etdirilir, yeni xidmət sahələri yaradılır. Bunların nəticəsində də dövriyyəyə cəlb olunan pulun miqdarı çoxalır, bank sisteminin inkişafı təmin edilir. Bütün bu inkişaflar ölkədə ixtisaslı kadrların yetişdirilməsinə də təkan verir. Turizmin iqtisadiyyatdakı yeri və onun əsas inkişaf istiqaməti ölkənin resurs potensialından, təşkilatı idarəetmə strukturundan asılıdır [24, s. 135].

**Böyük Britaniyada turizmin növü.** Böyük Britaniya öz coğrafi mövqeyinə görə, çoxsaylı turizm növləri üzrə potensiala malikdir. Həmin potensialın reallaşması üçün dövlətin və özəl sektorun davamlı dəstəyi vacib şərtlərdəndir.

Turizm mühiti iqtisadi inkişafla birlikdə formalaşır və böyüyür. Britaniyanın malik olduğu zəngin tarixi, mədəni və təbii resursların zənginliyi turistləri ölkəyə cəlb edir. Malik olduğu təbii

zənginliklər, zəngin milli mətbəx, mədəniyyət nümunələri ölkədə turizmin bir çox növünün inkişafı üçün şərait yaradır:

- mədəni turizm;
- sağlamlıq turizmi;
- dağ və qış turizmi;
- idman turizmi;
- işgüzar turizm;
- çimərlik turizmi;
- ekoloji turizmi;
- ov turizm;
- təhsil turizmi;
- tibbi turizm;
- aqroturizm;
- dini turizm və s.

**Mədəni turizm** - ölkənin mədəni irsini, tarixini, incəsənətini, memarlığını, əhalinin həyat tərzini, adət-ənənəsini və s. əhatə edən turizm növü kimi xarakterizə olunur. Bu növ turizm şəhərlərdə, kənd yerlərində tarixi məkanlara, mədəniyyət obyektləri sayılan qoruqlara, abidələrə, muzeylərə, teatrlara, köhnə və yeni memarlıq nümunələrinə, eləcə də milli dəyərləri əks etdirən festivallara və bayramlara ziyarəti nəzərdə tutan turizm növüdür. Turizmin bu növü Böyük Britaniyada geniş yayılmışdır.

Böyük Britaniyanın görməli yerləri sırasında muzeylər və qəsrlər də mühüm rol oynayır. Ölkəyə yolu düşən turist mütləq Viktoriya və Albert muzeyinə baş çəkir. Ölkədə 32 tarixi və təbiət abidəsi YUNESKO-nun ümumdünya irsinə daxil olubdur.

**Sağlamlıq turizm** - mənəvi və müasir müalicə obyektləri ilə tanış olmaqla yanaşı orada sağlamlığını bərpa etmək üçün müalicə və

istirahəti nəzərdə tutur. Ueston-Syuper, Çeltem sanatoriyaları, Bilt, Bakston, Harrohit kurortları hər il minlərlə turist qəbul edir.

**Dağ və qış turizmi** - Böyük Britaniyanın dağlıq ərazisində turizmdən istifadə imkanlarını özündə əks etdirir. Qlenşi, Kern-Horm, Leht, Nevis Renc, Qlenko Mauntin və s. dünya şöhrətli dağ-xizək turizm mərkəzləridir.

**İdman turizmi** - Böyük Britaniyada ən sürətlə inkişaf edən sahələrdəndir. Ölkə ərazisində yüzə yaxın Olimpiya Kompleks və Mərkəzlərin istifadəyə verilməsi, müxtəlif sahələr üzrə idman meydançalarının və təsisatların yaradılması, nüfuzlu idman yarışlarının təşkili idman turizminin inkişafına təminat yaratmışdır.

**İşgüzar turizm** - ölkədə ən geniş yayılmış turizm növlərindən biridir. Bu turizm növünün inkişafı üçün ölkə ərazisində mövcud mehmanxanaların imkanlarından istifadə edilir. Bu məqsədlə Böyük Britaniyada dünya standartlarına cavab verən otellər fəaliyyət göstərir. Ölkəyə turizm səyahətlərinin 17%-ə qədəri məhz bu turizm növünün payına düşür.

**Çimərlik turizmi** - ölkə ərazisində çimərliklərdən istifadəni özündə əks etdirir. Brayton, Nyu-Port, Torbey, Bornmut, Skarboro və s. ölkənin dünya şöhrətli çimərlik turizm potensialına məkanlarıdır.

**Ekoloji turizm** - ölkə ərazisində flora və fauna potensialları ilə tanış olmağı şərtləndirir. Böyük Britaniyada çox müxtəlif bitki çeşidinin, nadir ağac növlərinin mövcudluğu turist gəzintilərinin təşkilinə imkan yaradır. Ölkədə 131 qoruq mövcuddur. Ölkədəki botanika bağları, meşələr, göllər ekoloji turizmin inkişafında xüsusi rol oynayır. Bunların içərisində ən məşhuru və turist axını olanı Kyu Kral botanika bağıdır. Londonun cənub-qərb hissəsində Riçmond və

Kyu arasında yerləşən sahəsi 121 ha olan bağlar kompleksi, XVIII-XX əsrlərə aid tarixi park landşaftıdır.

**Ov turizmi** - ovçuluğun inkişafı ilə əlaqədar formalaşan turizm növüdür. Böyük Britaniyada meşə heyvanlarının, çöl quşlarının ovlanması, bir çox su hövzələrində balıq tutmaq imkanı bu turizm növünün mövcudluğunu şərtləşdirmişdir.

**Təhsil turizmi** – bu turizm növü də böyük yer tutmağa başlamışdır. Bütün dünyanın ən məşhur adlarına malik universitetlər və kolleclər məhz Böyük Britaniyadadır. Belə institutlardan birində təhsil almış və ən yüksək səviyyədə mükəmməl bilik bazasına malik olan gənc asanlıqla öz karyerasını qura bilir.

**Aqroturizm** - kənd təsərrüfatı baxımından fermaya baxışı şərtləndirən turizm növüdür. Kənd Turizm Assosiasiyası (Farm Stay (UK) Ltd) Böyük Britaniyada aqroturizmin inkişafına hərtərəfli metodiki yardım edir. Kənd turizmi assosiasiyalarının məlumatına görə “kənd turizmi bu gün ərazinin dayanıqlı inkişafına və iqtisadi fayda əldə edilməsinə müsbət təsir edən - ən perspektivli turizm növlərindən biridir.

Böyük Britaniyada son illər aqroturizm fəal surətdə inkişaf edir və turizmin əhəmiyyətli növlərindən biridir. Belə ki, aşağı qiymətlərlə xidmət və uşaqlarla dincələnlərə müxtəlif güzəştlər təklif olunur. Həmçinin daxili turizmin 6%-ni təşkil edir. Böyük Britaniyada kənd yerlərində sahibkarıq edənlərin 10%-i kənd turizmi xidmətləri təklif edirlər. [30, s. 253].

Turizmin bu növünün inkişaf potensialı daha yüksək qiymətləndirilir. Aqroturizmin Böyük Britaniya modelində turistlərin yerləşdirilməsində fermer evləri üstünlük təşkil edir. At sürmə, təsərrüfatdakı heyvanlara qulluq turistlərin daha çox maraq göstərdikləri fəaliyyət növləridir. Həmçinin ölkənin cənubunda tərk

edilmiş fermalar təmir olunur. Burada tam və rahat istirahət üçün zəruri olan bütün şeylər - televizor, istilik sistemi, məişət cihazları vardır, köhnə mebel qismən qorunub saxlanmışdır. İstirahətçilər tərəfindən bu fermalara böyük tələb vardır.

Böyük Britaniyada kənd turizminə dövlət dəstəyi üzrə müasir təcrübə yanaşmanın sistemliliyi ilə fərqlənir:

**1.** kənd turizminə dəstək üç səviyyədə həyata keçirilir:

**a)** federal;

**b)** torpaq;

**c)** kommunal;

**2.** sahibkarlıq layihələrinin, kənd yerlərinin və kənd təsərrüfatının, infrastrukturun inkişafının birbaşa və dolayı maliyyələşdirilməsi formalarını birləşdirir;

**3.** idarələrarası fəal qarşılıqlı təsir və bütün iştirakçılar arasında kooperasiya – dəstəkləmə fəaliyyətində aşağıdakılar iştirak edir:

**4.** Federal və torpaq səviyyələrində İqtisadiyyat və Əmək Nazirlikləri, İstehlakçının hüquqlarının müdafiəsi qurumu, Kənd təsərrüfatı, Meşə və Balıqçılıq Nazirlikləri, ayrı-ayrı proqramlar.

**Tibbi turizm** - yaşadığımız ölkənin hüdudlarından kənarda tibbi xidmət almaq, ondan bəhrələnməkdir. Böyük Britaniya dünyada tibbi turizmə sahib olan ilk ölkələrdən biridir. İngiltərə, Şotlandiya və Uels ərazilərində "National Health Service" adlı tibbi xidmət, Şimali İrlandiyada isə "Health and Social Care" tibbi xidmət mövcuddur. Böyük Britaniyada tibb çox yüksək inkişaf səviyyəsindədir. Hər il dövlət müasir tədqiqatlara və sənayenin genişləndirilməsinə maliyyə ayırır. Buna görə də ölkədə çoxlu sayda yaxşı klinikalar fəaliyyət göstərir. [31, s. 52].

**Dini turizm** - tarixi dini abidələrlə və tolerantlıq ənənələri ilə tanış olmaqdır. Böyük Britaniya həm də ziyarət mərkəzi kimi tanınır.

İngilis və Roma-Katolik kilsələrinə məxsus ziyarətgahlar (Kenterberi, Uolsin Hem, İona adaları və s.) ölkəyə zəvvarları cəlb edir.

Yuxarıda qeyd edilən turizm növlərinin təşkili müvafiq turizm sisteminin formalaşması və inkişafı ilə üzvü surətdə bağlıdır. Ölkədə turizm sisteminə təsir edən amilləri aşağıdakı kimi təsnifləşdirmək olar:

- torpaq amili;
- ekoloji mühit;
- əhalinin məşğulluğu;
- turizmdə kommersiya mənfəəti;
- əhalinin orta aylıq əmək haqqı;
- inteqrasiya olunan tələbat iqtisadiyyatın digər sahələri ilə əlaqələrin vəziyyəti;
- ölkənin təhlükəsizlik amilləri və s.

**Böyük Britaniyada turizmin inkişaf dinamikası və turist axınlarının istiqaməti.** 70-ci illərdən başlayaraq britaniyalıların xaricə səyahətlərinin sayı Britaniyaya gələn qonaqların sayını üstələyir. Britaniyalılar səyahət sevən millətdir və hər il 34 mln. turist ölkə daxilində səfərə çıxır. Britaniyanın xarici turizmində Şimali Amerikaya səyahətlər əhəmiyyətli yer tutur (43%). Bu da dollarla funt sterlinq arasında məzənnənin düşüb qalxmasından asılı olur [30, s. 254].

Yay mövsümündə britaniyalıları ən çox cəlb edən Amerikanın Mayami kurortudur. Britaniyalılar həmçinin xüsusi turlar üzrə Tailand, Sinqapur, Hindistan və Karib dənizi ölkələri kimi ekzotik ölkələrə uzaq səyahətlərə çıxırlar.

Xaricə səfər edən britaniyalıların 75%-i istirahətə, 12-13%-i başqa məqsədlərlə gedir. Son illərdə britaniyalıların xarici turlarının müddəti orta hesabla 16 gün təşkil edir.

Böyük Britaniyaya turistlər müxtəlif məqsədlərlə gəlirlər. Birinci yerdə məzuniyyətdir (43%), ondan sonra işgüzar səfərlər (21%), qohum və dostlarla görüş (21%) gəlir. İlin başqa vaxtlarında turistlərin sayı dostları və qohumları ilə görüşə gələnlərin sayəsində artır.

Qonaqların 50%-i Avropadan gəlir. Digər böyük xarici turist qrupu Şimali Amerikadan gələnlərdən formalaşır.

Böyük Britaniyada 1 gün ərzində 1,1 mln. qonağın yerləşdirilməsi üçün yer mövcuddur. Britaniyaya səfərlərin artımını nəqliyyat xərclərinin azalması, turistlərin sosial tərkibinin genişlənməsi və yeni turizm mərkəzlərinin yaradılması ilə izah etmək olar.

Bir sözlə, gözəl təbiəti, tarixi və milli xüsusiyyətləri ilə cəlbedici olan Böyük Britaniya hər zaman turistlərin maraq obyektindədir. Böyük Britaniyanın beynəlxalq turizm bazarında son dövrlərdə mövqeyinin güclənməsini bir sıra amillərlə müəyyənləşdirmək olar:

- Britaniyanın əlverişli coğrafi mövqeyə sahib olması;
- Britaniyada turistlərin diqqətini cəlb edən təbii mənzərələrlə dolu maraqlı məkanların olması;
- Ölkə ərazisinin qədimliyi, mədəni və tarixi abidələrin çoxluğu, folklorun zənginliyi;
- Britaniyada multikultural mühitin inkişaf etməsi, müxtəlif dinlər arasında tolerantlığın hökm sürməsi;
- Turizm sektorunun inkişafının prioritet hesab olunması, dövlətin diqqət və dəstəyinin mərkəzində olması;

- Dünya standartlarına cavab verən müasir tipli mehmanxanaların və digər infrastrukturların yaradılması;

- Beynəlxalq səviyyəli irimiqyaslı tədbirlərin keçirilməsi və bu sahədə təcrübənin olması və s.

Ümumiyyətlə Böyük Britaniyada turizm əlavə gəlir əldə etməklə yanaşı qeyri-neft sənaye sektorunun inkişaf etdirilməsində mühüm rol oynayır və dövlətin iqtisadi siyasətinin prioritet istiqamətlərindən biridir. Xidmət sektorunun əsası olan turizm fəaliyyətinin formalaşması, inkişafı və rəqabətə davamlılığı ölkənin gələcək sabit inkişafında, beynəlxalq inteqrasiyasında və dünya iqtisadiyyatında əsaslı mövqe tutmasında tam təminatçı olacaqdır.

Hər il 37 mln.-a yaxın turistin ziyarət etdiyi Böyük Britaniyaya son illərdə Azərbaycandan səyahət edən turistlərin sayı dayanmadan artmaqdadır. Öz tarixi və mədəni irsi ilə bu ölkə daima turistlərin diqqətini özünə cəlb etmişdir.

## 2.6. Böyük Britaniyada turizm mərkəzləri

**Plan:**

**1. Böyük Britaniyada turizm mərkəzlərinin qısa səciyyəsi**

**2. London turizm mərkəzi**

**3. Temza çayı hövzəsi turizm bölgəsi**

**4. Kent, Susseks və Hempşir qraflıqlarının, cənub sahilləri turizm bölgəsi**

**5. İngiltərənin cənub-qərb sahilləri turizm bölgəsi**

**6. Uels turizm bölgəsi**

**7. Şimali İrlandiya turizm bölgəsi**

**8. Şotlandiya turizm bölgəsi**

**9. Şərqi İngiltərə turizm bölgəsi**

**10. Şimali İngiltərə turizm bölgəsi**
**11. Midlen turizm bölgəsi**

**Böyük Britaniyada turizm mərkəzlərinin qısa səciyyəsi**. Daimi yaşayış yerindən dərketmə maraqlarının təmini, müalicə-sağlamlıq, işgüzar və digər məqsədlərlə müvəqqəti getmənin müxtəlif formalarının təşkili ilə əlaqədar olan fəaliyyət - turizm fəaliyyətidir. Hər bir ölkə ərazi, coğrafi quruluşuna görə turizm mərkəzlərinə bölünür.

Böyük Böyük Britaniyada aşağıdakı turizm mərkəzləri mövcuddur:

- London turizm mərkəzi;
- Temza çayı hövzəsi turizm bölgəsi;
- Kent, Susseks və Hempşir qraflıqlarının, cənub sahilləri turizm bölgəsi;
- İngiltərənin cənub-qərb sahilləri turizm bölgəsi;
- Uels turizm bölgəsi;
- Şimali İrlandiya turizm bölgəsi;
- Şotlandiya turizm bölgəsi;
- Şərqi İngiltərə turizm bölgəsi;
- Şimali İngiltərə turizm bölgəsi;
- Midlen turizm bölgəsi.

Əyalətlər üzrə turist axınları aşağıdakı kimi paylanır:

- ölkənin cənub-şərqi (London) - 52%;
- ölkənin qərbi (İrlandiya) - 25%;
- Uels - 12%;
- Şimali Şotlandiya - 11%.

**London turizm mərkəzi.** Xarici turistlərin əsas hissəsini biznes-turistlər təşkil edir. Onlar əsasən böyük şəhərlərə, xüsusilə **Londona** üz tuturlar.

London Böyük Britaniya Krallığının, həmçinin İngiltərənin paytaxtıdır. Əsası eramızın 43-cü ilində imperator Klavdinin rəhbərliyi ilə Roma İmperiyası qoşunlarının Britaniya adalarını ələ keçirməsindən sonra qoyulub.

Londonun payına ölkəyə gələnlərin 49%-i, mədaxilin 63%-i düşür. Hər il Londona 15 mln.-dan çox turist gəlir.

Turistlər İngiltərə krallarının tacqoyma mərasimləri keçirilən Vestminster abbatlığını, İ. Nyuton, Ç. Darvin və digər görkəmli şəxslərin dəfn olunduğu müqəddəs Pyotr qəbiristanlığını, Parlament binasını, Londonun Tauer zindanını, Bukingem sarayında təntənəli qarovul dəyişməsi mərasimini və s. ziyarət edirlər. Həmçinin şəhərdə külli miqdarda gözəl tarixi meydanlar, parklar, muzeylər, abidə və qəsrlər var [19, s. 141].

Şəhərdəki zəngli saat qülləsi "Biq-Ben" Vestminster saray kompleksinin bir hissəsidir. 13,5 tonluq 5 ədəd zəng çanağına malik saatın səsini xalq arasında "Britaniyanın səsi" adlandırırlar. "Biq Ben" Britaniyanın rəmzi sayılır. "Biq Ben"ə bəzən Müqəddəs Stefan qülləsi də deyirlər. Qüllə 1858-ci ildə tikilib, qüllədəki saat isə 11 iyul 1859-cu ildə işə salınıb. Qüllənin hündürlüyü 61 metr, saat yerdən isə 55 m hündürlükdədir. Siferblatının diametri 7 m, əqrəblərinin uzunluğu 2,7 və 4,2 m-dir.

Londonun ən çox ziyarət olunan yerlərindən biri də "Trafalqar" meydanıdır. Şəhərin mərkəzində yerləşdiyi üçün turistlərin sevimli məkanlarından və Böyük Britaniyanın, həmçinin dünyanın ən məşhur meydanlarından biridir. Meydan indiki adını 1805-ci ildə Britaniya və Fransa donanmaları arasında baş verən və

ingilislərin zəfəri ilə başa çatan Trafalqar döyüşünün şərəfinə alıb. “Trafalqar” meydanı həm də siyasi nümayişlər və ictimai toplantılar üçün istifadə edilir.

Vindzor sarayı Britaniya monarxlarının məkanıdır. İngiltərənin Berkşir qraflığının Vindzor şəhərində, Temza çayı sahilində yerləşən iqamətgah doqquz əsrdir ki, monarxiyanın simvolu olub. Onu “bütün dünyada ən romantik qəsr” adlandırırlar. Vindzor sarayında Rubens, Leonardo da Vinçi, Rafael, Mikelancelo və digər görkəmli sənətkarların gözəl əsərlərinin əsli qorunub saxlanır. Bu sarayın yaxınlığında varlı ailələr üçün (təməli 1440-cı ildə qoyulmuş) İton kolleci yerləşir.

Bukingem sarayı Britaniya monarxlarının rəsmi London iqamətgahıdır. Monarx sarayda olarkən onun damında kral bayrağı dalğalanır. Sarayın aprel-avqust aylarında hər gün 11:30-da, ilin digər aylarında isə günaşırı keçirilən qarovuldəyişmə mərasimi ən çox diqqət cəlb edən və turistlərin ən maraqla izlədiyi fəaliyyətdir.

Tauer körpüsü Temza çayının üzərində tikilib. London qalasının yaxınlığında yerləşdiyi üçün körpü qala körpüsü adlandırılıb. Körpüdə iki kanat yol salınıb. Gəmilərin keçməsi üçün körpünün alt hissəsi açılır. Bask üslubunda inşa olunmuş körpü, bu üslubda inşa olunan körpülər arasında ən məşhurudur.

Birləşmiş Krallığın ən məşhur turistik məkanlarından biri də “Merlin Entertainments London Eye” hesab olunur. Bu, 135 metr yüksəklikdə, Avropada bilinən ən yüksək fırlanan əyləncə çarxıdır. Buranı ildə 3 mln.-a yaxın turist ziyarət edir.

London həmçinin muzeyləri ilə məşhurdur. Viktoriya və Albert muzeyini ildə milyonlarla turist ziyarət edir. Muzey tətbiqi-sənət nümunələri baxımından dünyanın ən zəngin muzeyi sayılır. Burada 4 milyondan çox müxtəlif eksponat 145 zalda ziyarətçilərə

təqdim olunur. Bütün dünya ölkələrinin tarixi mədəniyyətini əks etdirən keramik əşyalar, müxtəlif kostyumlar, zinət əşyaları, çap məhsulları, mebellər, o cümlədən vaxtilə Azərbaycandan aparılmış xalça və zərgərlik nümunələri öz gözəlliyi ilə muzeyi ziyarət edənlərin sayını daha da artırır.

Turistlərin diqqətini cəlb edən yerlərdən biri Şerlok Holms muzeyidir. Bura Sir Artur Konan Doyl tərəfindən yaradılmış ədəbi personaj, əfsanəvi xəfiyyə Şerlok Holmsun Londonda ev muzeyidir. Muzeyin qonaqları məşhur xəfiyyənin və dostunun evinə baxa, məişət əşyaları ilə tanış olub, kamin önündə kresloda otura və xatirə şəkli çəkdirib, əksəriyyətinin Şerlok Holmsla əlaqəli olduğu suvenirlər əldə edə bilərlər.

Turistlərin ən çox ziyarət etdikləri yerlərdən biri Madam Tüsso muzeyidir. Muzey dünyanın ən məşhur şəxslərinin mum heykəllərindən ibarət muzeyidir. Muzeydə Britaniya kraliçası II Yelizavetanın heykəli ilə yanaşı, Arnold Şvartsenegger, Adolf Hitler, Çarli Çaplin və s. şəxslərin mum fiqurları vardır.

İngiltərə paytaxtındakı qədim Roma hamam kompleksi də turistlər üçün olduqca maraqlı məkandır. Onun yerləşdiyi küçədə dörd əsas obyekt var:

- müqəddəs bulaq;
- Roma məbədi;
- Roma hamamı;
- muzey.

Böyük Pompey otağı ilə birlikdə əsas hamam turistlərin diqqətini cəlb edən məkanlardandır. O, ildə 1 mln. ziyarətçi qəbul edir və Qərbin möcüzələrindən biri hesab olunur. Ziyarətçilər hamam və muzeyi görə bilərlər, lakin suya girmək qadağandır.

Dünyanın hər hansı ikinci bir paytaxt şəhərində bu qədər park yoxdur. Londonun qərbində, Kensinqton və Çelsi borosunda yerləşən Holland parkı turistlərin sevimli yeridir. Viktoriya dövründən qalma qəsəbə evləri, yüksək səviyyəli restoranları və alış-veriş mərkəzləri ilə məşhurdur. Holland Park ətrafında Kensinqton küçəsi, Nottinq təpəsi, Holland Park küçəsi, Vestborn, Klarendon qovşağı və Ledbərn kimi yerlər yerləşir. Holland parkı indi 10 mln. funt-sterlinq qiymətə sahib evləri ilə Londonun ən bahalı iqamət yerlərindən biridir. Bəzi ölkələrin səfirlikləri burada yerləşir. Holland parkının sahəsi təxminən 22 hektardır. Qərbi Londonun ən romantik və gözəl parkıdır.

Londonda turistlərin sevimli yerlərindən biri Vestminsterdə yerləşən Qrin-parkdır. Digər London parklarından fərqli olaraq, Qrin-parkda göl və ya tikili yoxdur. Cəmi 2 abidə var - dünya müharibələrində həlak olmuş kanadalıların şərəfinə Kanada memorialı və II Dünya müharibəsinə həsr olunmuş Britaniya HHQ bombardman komandanlığı memorialı. [19, s. 145].

Turistlərin diqqətini çəkən yerlərdən biri Sent-Ceyms parkı Londonun ən qədim parkı hesab olunur.

Yorkşir Heykəl Parkı Uest-Yorkşir qraflığında, Ueykfild şəhəri yaxınlığında yerləşən açıq hava qalereyası turistlərin ən çox ziyarət etdikləri yerlərdən biridir. Park ərazisində follilər, gözəl təbiət mənzərələri və XVIII əsrdən qalma memarlıq abidələrini görmək mümkündür. Bundan başqa burada maral parkı, buz evi və kameliya evi yerləşir.

Vestminsterdə yerləşən "Londonun yaşıl zolağı"nın başlandığı 23 hektar sahəsi olan Qal Sent-Ceyms parkı çoxlusayda turist ziyarət edir. Sent-Ceyms parkından qərbə doğru Qrin-park, Hayd-park və Kensinqton bağları uzanır. Parkın şimal hissəsində

Sent-Ceyms sarayı, qərbində Bukingem sarayı, şərqində isə Xarici İşlər Nazirliyi yerləşir.

Dünyanın ilk və ən qədim zooparkı London Zooloji Parkı turislərin ən çox ziyarət etdikləri yerdir. London Zooloji Parkı 27 aprel 1828-ci ildə açılmışdır. Hazırda 806 növdə olan heyvanlar Böyük Britaniyanın ən böyük zooparkıdır. London Zooparkı vombat, Tasmaniya şeytanı kimi növlərin saxlandığı yeganə zooparkdır. Zooparkda qorillalar Afrika quşları, kəpənəklər, balıqlar üçün ayrı-ayrı bölümlər açılmışdır.

Susseks qraflığında Roter çayı sahilində yerləşən Bodiam qəsri öz qəribəliyi ilə turistlərin diqqətini cəlb edir. Qala xüsusiyyətlərini qoruyub saxlamaqla yanaşı, həm də ətraf ərazidən çox ustalıqla ayrılmışdır.

Herefordşirdəki Qudrix kəndində yeləşən Qudrix qəsri (1101-ci il) öz gözəlliyi ilə tiristləri cəlb edir. Bu qəsr İngiltərənin ən gözəl qəsridir və İngiltərə hərb memarlığının gözəl nümunəsidir.

London dünyanın ən əhəmiyyətli biznes və maliyyə mərkəzlərindən biridir. Dünya şöhrətli brendlərin dükanları ilə bərabər sadə bazarlar da çoxsaylı turistləri özünə cəlb edir.

London ölkənin iri sənaye mərkəzidir. Həmçinin Londonun nəqliyyat sistemini həm qədim, həm də müasir hesab etmək olar. London metrosu dünyanın ən qədim metrolarındandır. 1863-cü ildə metropoliten “Railway” adı ilə fəaliyyətə başlamışdır.

Dünyanın ən inkişaf eləmiş hava nəqliyyatı Londona malikdir. Burada 5 beynəlxalq hava limanı mövcuddur. Bunlar Hitrou (1930-cu il, ən məşhuru), Qetvik (1958-ci il), Stansted (1942-ci il), Luton (16 iyul 1938-ci il) və London hava limanıdır (5 noyabr 1987-ci il).

**Temza çayı hövzəsi turizm bölgəsi.** Bu bölgənin Kotsuold-Hils yüksəkliyi turistləri daha çox cəlb edir. Morton-in-Marş, Sayren-Sester, Şipton- ander-Uiçvud, Broduey şəhərləri turistlərin ən çox ziyarət etdikləri yerlərdir.

Müalicəvi mineral suları ilə məşhur Çeltmen kurortu daima turist axınına məruz qalır. Temza çayının sahilində yerləşən Oksford turistlərin diqqətini cəlb edən yerlərdəndir. Burada XII əsrdə əsası qoyulmuş Oksford universiteti yerləşir. Burada çoxlu sayda gəzməli yerlər vardır: Tarix muzeyi, Oksford Universitetinin muzeyi, Aşmola muzeyi, Müqqədəs Mariya kilsəsi, Qapali bazar və s.

**Kent, Susseks və Hempşir qraflıqlarının, cənub sahilləri turizm bölgəsi.** Bu bölgəni “İngiltərə Rivyerası” adlandırırlar. Bura yay istirahətləri üçün əlverişlidir.

Londondan 75 km. cənubda yerləşən **Brayton** İngiltərənin kurort şəhəridir. XVIII əsrdə kurort şəhər kimi məşhur idi. O dövrdə bura əsasən ingilis zadəganları dincəlməyə gəlirdilər. Ona görə də burada dəbdəbəli mülklər, mehmanxanalar tikilməyə başlamışdır. Elə o dövrdən Brayton Britaniyanın ən dəbdə olan kurortuna çevrilmişdir.

Çimərlikləri, Brayton-Pir əyləncə parkı, Müqəddəs Petra, Müqəddəs Nikolay, Müqəddəs Varfolomey, Müqəddəs Martina kilsəsi, Britaniya krallarının keçmiş dənizkənarı iqamətgahı olan “Kral iqamətgahı” (XIX əsr) və başqaları şəhərin ən çox ziyarət edilən yeridir.

Şəhərdə həm də onlarla ticarət mərkəzi, yüzlərlə restoran və klublar fəaliyyət göstərir.

Hər il may ayında Braytonda (Britaniyada Edinburqdan sonra ikinci böyük festivaldır) incəsənət festivali keçirilir.

**Bornmut** Dorset qraflığında turistik şəhərdir. Hər tərəfdən şam meşələri ilə əhatə olunduğundan şəhər özünün təmiz və saf havası ilə məşhurdur. Şəhərə əsasən təqaüdçülər dincəlməyə gəlir.

Şəhərdə fəaliyyət göstərən müasir üslublu otel və restoranlar hər il minlərə turisti bura cəlb edir.

Şəhərdə ekoturizmlə bərabər işgüzar turizm də inkişaf etmişdir. Bornmutda tez-tez konqresslər, konfraslar keçirdilir.

Bornmutda nəqliyyat sistemi yaxşı inkişaf etmişdir. Şəhərdə dəmir yolu (1870-ci ildən) və hava limanı da fəaliyyət göstərir.

**Duvr** Kent qraflığında liman şəhərdir**.** Şəhər Pa-de-Kale boğazında dəmir yolu ilə Fransanın Dyünker şəhəri ilə birləşir. Duvrun ən görməli yeri Duvr qəsridir. Bu Böyük Britaniyada ərazisinə görə ən böyük qəsrdir.

Duvrdən qərbdə Hayt, Ray, Folkston kurortları yerləşir.

İngiltərənin cənubunda yerləşən iki turizm mərkəzi Uinçester və Kenterberi minlərlə turisti özünə cəlb edir.

**Uinçester** XI əsrə qədər İngiltərənin paytaxtı olmuşdur. Şəhərdə çox sayda tarixi və memarlıq abidələri, Uinçester qəsri, Kafedral kilsə və s. var.

**Kenterberi** cənub-şərqi İngiltərədə Kent qraflığında şəhərdir**.** Kenterberi ölkənin dini mərkəzidir. Burada ingilis kilsəsinin başçısı, Kenterberi arxiyepiskopunun iqamətgahı yerləşir. Kenterber kilsəsi, müqəddəs Avqustin abbbatlığı və müqəddəs Martina kilsəsi YUNESKO-nun irsinə daxildir.

**İngiltərənin cənub-qərb sahilləri turizm bölgəsi.** Bu bölgə daxili turizm mərkəzlərindən biri sayılır. Bura qışda İngiltərənin ən isti yeridir. Bölgənin qumlu çimərlikləri bura hər il milyonlarla turist cəlb edir. Torki, Sidmut, Yemut, Seyoniç, Laym-Ricis ölkənin məşhur kurortlarıdır.

Somerset vilayətində yerləşən **Bat** İngiltərənin ən mühüm balneoloji kurort şəhəridir. Özünün müalicəvi suları ilə məşhurdur. 1987-ci ildə şəhərin beynəlxalq mədəni əhəmiyyəti nəzərə alınıb və o, YUNESKO tərəfindən "Dünya Miras Mərkəzi" kimi seçilib. Bu hadisədən sonra buraya gələn turistlərin sayı daha da artmış və illik 3,8 mln.-a çatmışdır.

Əsası romalılar tərəfindən qoyulan şəhərin məxsusiliyi burada yerləşən valehedici arxitektura və parklardır.

Harroqit, Leminqton, Ueston-Syuper-Mer şəhərləri də balneloji kurort yerləri kimi turistləri özünə cəlb edir.

**Bedford** ölkənin Befdordshire qraflığının şəhəridir. Tipik orta əsrlər İngilis şəhəri olan Bedford mağazaları, restoran və barları, klubları, kinoteatrları, tarixi məkanları ilə digər şəhərlərdən heç də geri qalmır.

İki ildən bir keçirilən "The River" festivalında iştirak etmək, şəhərin əsas kilsələrindən olan uzun qülləli müqəddəs "St Paul kilsəsi"ni, XVII əsrlərə aid əşyaların saxlanıldığı "Estow Moot hall" muzeyini, "Cecil Higgins Art Gallery" adlı incəsənət qalereyasını, tarixi kolleksiyaların saxlanıldığı "Bedford muzeyi"ni, "Butterfly parkı"nı və s. yerləri gəzmək olar [92].

**Uels turizm bölgəsi. Uels** Böyük Britaniya adasının cənubi-qərb hissəsində yerləşir. Uels ərazisi əsasən dağlıq relyefə malikdir. Ən böyük adası olan Anqlsi adası ölkənin əsas hissəsindən Menay boğazı ayırır. Yarımadanın şimalında ucalan Snoudon dağı İngiltərə tarixi-coğrafi bölgəsinin ən yüksək zirvəsidir. Həmin zirvədən yaxşı hava şəraitində Uelsin əzəmətli, geniş mənzərələrini seyr etmək olur. Bu da bölgəyə çoxsaylı turistlərin gəlməsinə səbəb olur.

Çayların vadilərində və dağətəyi yerlərdə enli yarpaqlı meşələr zolağı uzanır. Düzənlik ərazilərdə tarla və bağlar salınmışdır.

Turizm bu regionun iqtisadiyyatının aparıcı sahəsidir. Turizmin inkişafına görə xidmət sferasında 10 mindən çox iş yeri fəaliyyət göstərir. Bu da Uelsdəki ümumi iş yerlərinin 8%-ni təşkil edir.

2022-ci ildə 1,1 mln. xarici turist gəlmişdir. Əsasən turistlər İrlandiya, ABŞ və AFR-dən gəlir.

Uelsin turistik baxımından məşhurluğunun əsas səbəblərindən biri Şimali Amerikadan olan turistlərin kökünün bu ərazidən olmasıdır və bu turistlər öz ata-baba köklərini tədqiq etməyə gəlirlər. Təxminən 1,8 mln. ABŞ vətəndaşı Uels mənşəlidir (Avraam Linkoln, Tomas Cefferson və b.).

Uelsdə turistləri ən çox cəzb edən yerlər muzeylər, qalereyalar, tarixi yerlər və gözəl təbiətidir.

Uelsdə çox saylı tarixi və memarlıq abidələri vardır.

Dolbadarn qəsri Uelsdə ən çox ziyarət olunan qəsrdir. XIII əsrdə Uels şəhzadəsi Böyük Livelin tərəfindən istehkam kimi tikilmişdir. Dolbadarn qəsri Böyük Livelinin güc və hakimiyyət simvolu olmuşdur. Hazırda qəsr "Kadyu" təşkilatına məxsusdur və turistik məkan kimi istifadə olunur.

Turistləri Karnarvon və Kayrfilli kimi tarixi qəsrlər də cəlb edir.

Sent-Feyqrns Milli Tarix Muzeyi Uelsin ən çox turist cəlb edən yerlərindən biridir. İldə təxminən 600 min turist ziyarət edir.

Uels landşaftı da turizmin inkişafına yardım edir.

Ərazidə üç milli park var:

**1.** Breton-Bikons milli parkı;

**2.** Snoudoniya milli parkı;

**3.** Pembrukşir milli parkı.

Uels müalicəvi mineral mənbələrlə zəngindir. Llandrindod-Uels və Llanurtid-Uels daha məşhurdur.

Uelsin dəniz sahili kurortları Suonsi, Tenbi, Tauni, Aberistuit daima turistlərin diqqətini cəlb edir.

Uelsin paytaxtı **Kardif** şəhəridir. Kardif zəngin tarixi-memarlıq abidələri ilə məşhurdur. Orta əsrlərə aid tikililər (qala, qəsr, kilsə və s.) turistləri cəlb edir. Şəhərdə istirahət və əyləncə üçün çoxsaylı parklar təşkil olunub. Təbiət qoynunda yeyib-içmək üçün yerlər təchiz olunub, idman oyunları keçirmək üçün şərait yaradılıb.

Şəhərdə fəaliyyət göstərən heykəltaraşlıq və incəsənətə aid Milli Muzey, Rəssamlıq Muzeyi, Arxeologiya Muzeyi turistlərin çox toplaşdığı yerlərdən biridir. Kardifdəki rəsm qalereyası, teatr binası, yaraşıqlı inzibati binalar turistlərin marağına səbəb olur.

Suonsi Uelsin ikinci böyük şəhəridir. Sent-Deyvids isə Böyük Britaniyanın ən kiçik şəhəridir.

**Şimali İrlandiya turizm bölgəsi. Şimali İrlandiya** turizm bölgəsi dağlıq, ovalıq və sahilyanı ərazilərdən ibarətdir. Ərazi bol sulu çay və gölləri ilə zəngindir. Bu da bölgədə turizmin bir çox növlərinin (ekoturizm, idman, agroturizm, alpinism və s.) inkişaf etməsinə səbəb olur.

Şimali İrlandiya Krallığın ən mənzərəli yeridir. Şimali İrlandiya sakit kənd həyatında dincəlmək, dolğun təbiət mənzərələrindən zövq almaq istəyən turistlərin yeridir. Bundan əlavə Şimali İrlandiya ingilis dilinin yüksək səviyyədə tədrisi ilə məşhurdur və Avropanın ən iri tələbə mərkəzi kimi tanınır.

Turistlərin ən çox ziyarət etdikləri mərkəzlər - Şimali İrlandiyanın paytaxtı Belfast və qədim Londonderri şəhərləridir.

**Belfast** şəhər abı-havasından çıxmaq və həddindən artıq gözəlliyin təbii şəraitində istədiyi rahatlığı tapmaq üçün mükəmməl

bir mənzərəli "mini" turizm şəhəridir. Şəhər təbiət gözəllikləri həvəskarlarına istirahət və dinclik, ilin hər mövsümündə idmanla məşğul olmaq imkanı təklif edir. Həmçinin, zəngin tarixi-memarlıq abidələrinə malik olması turistlərin marağına səbəb olur.

Bu gün Belfast sənaye mərkəzi, eləcə də incəsənət, ali təhsil, hüquq və biznes mərkəzi olaraq qalır. Şəhərdə çox sayda muzey fəaliyyət göstərir. Bu muzeylərin nadir, diqqətəlayiq eksponatları ilə tanışlıq turistlərdə böyük maraq doğurur. Bunlardan ən əhəmiyyətlisi Tarixi Muzeyi, İncəsənət Muzeyi, Xalçaçılıq Muzeyidir. Bu muzeylər geniş kolleksiyaya malik olmaqla, əcnəbi turistlər üçün olduqca cəlbedicidir.

**Londonderri** tarixi-memarlıq abidələri və təbiəti ilə özünə çox saylı turistləri cəlb edir. Şəhərin memarlıq abidələri içərisində kilsə və hökumət sarayını qeyd etmək olar. Şəhərdə fəaliyyət göstərən bir sıra muzeylər də (Tarix Muzeyi, Arxeologiya Muzeyi, İncəsənət Muzeyi və s.) turistlər tərəfindən çox ziyarət olunur.

Şəhər ətrafı ərazilərdə kənd tipli restoranlar fəaliyyət göstərir. Burada çox ləziz yeli mətbəx və İngiltərəni dünyada tanıdan şərabları verilir.

"Nəhənglərin yolu" Şimali İrlandiyanın ən çox turist cəlb edən məkanıdır. Şimali İrlandiyanın şimal-şərqində, Buşmils şəhərindən 3 km. şimalda yerləşir. Əsrlər əvvəl baş verən vulkan püskürməsi nəticəsində burada 40 minə qədər bazalt sütunu formalaşıb. Həmin sütunlar dənizə doğru sanki bir yol açaraq həqiqətdə mövcud olmuş nəhənglərin ayaq basdığı pillələri xatırladır. Ərazisinin keçdiyi yol və Kozvey-Kost sahili 1986-cı ildə YUNESKO-nun Ümumdünya İrs siyahısına daxil edilmiş, 1987-ci ildə isə Şimali İrlandiyanın ətraf mühit departamentinin milli qoruğu elan olunmuşdur. O, dünyanın möcüzələrindən biri kimi sayılır [96].

Bölgənin cənub-qərbində Kule qəsri, Enniskillen qəsr-muzeyi turistlərin diqqətini cəlb edir.

Bu bölgə Portras, Ballikasl, Banqor, Nyukasl kimi kurortları ilə turistlər arasında məşhurluq qazanmışdır.

Həmçinin Şimali İrlandiya festivalları ilə Avropada məşhurdur. Məsələn, "Balmoral şou" bölgənin ən böyük kənd təsərrüfatı tədbiri olmaqla, hər il 120 min insanın ölkəyə gəlməsinə səbəb olur.

Şimali İrlandiya müstəqil İrlandiyada turizmin inkişafına əhəmiyyətli yardım edib, indi də edir. Son dövrlərdə İrlandiyanın Şimal və Cənub hissələri arasında olan qarşıdurma və silahlı münaqişə turizm sahəsinin də qarşılıqlı əməkdaşlıqla əvəzlənərək hər iki tərəfə fayda gətirir.

**Şotlandiya turizm bölgəsi. Şotlandiya** özünün qalaları və dağlıq peyzajı ilə tamamilə başqa ölkə təəssüratını yaradır. Şotlandiyada 787 ada vardır və hamısında da əhali məskunlaşıb. Şotlandiyanın iqlimi digər əyalətlərdən fərqlənir. Demək olar ki, Skandinaviya ölkələrinin iqlimini xatırladır.

Şotlandiya iki tamamilə müxtəlif regionlardan ibarətdir:

- şimal-qərb hissədə yerləşən Şimali-Şotlandiya dağlıq ərazi Haylənds;

- cənub-şərq hissədə yerləşən Loulənds.

Məşhur Haylənds vilayəti – ölkənin şimal-qərbində dağlar dənizlərlə, çəmənlər, meşələrlə əvəz olunan təkrarolunmaz təbii landşaftdır. Haylənds demək olar ki Şotlandiyanın bütün dağlıq ərazisini əhatə edir (Ben Nevis 1343 m. hündürlüyü ilə Britaniya adalarının ən yüksək zirvəsi hesab olunur) [93].

Loulənds də öz ecazkar təbiəti ilə turistləri cəlb edir.

Ərazinin gözəl təbiətini İsveçrə təbiətinə oxşadırlar. Bu da turist axınını gücləndirir.

Burada çoxlu turizm mərkəzləri var. Edinburq, Qlazqo, Aberdin, Pert kimi şəhərlər öz qədim tarixi, memarlıq abidələri, təbiətinin gözəlliyi ilə turistləri cəlb edir.

Paytaxt **Edinburq** öz ecazkar gözəlliyi ilə turistləri daima valeh edir. Şəhərdə çöxlu sayda teatr və muzeylər fəaliyyət göstərir.

Edinburq yaxınlığında yerləşən “Deep Sea World” akvarium əyləncə mərkəzi qonaqlar üçün su əyləncələrini təklif edir. Bura dünyada yeganə akvariumdur ki, köpəkbalıqları ilə birgə üzmək olar. Həmçinin dünyanın ən böyük sualtı tuneli (112 m) vasitəsilə maraqlı səyahət etmək olar.

Tarixi memarlıq abidəsi Edinburq Qalası daima turistlərin diqqətini çəkir. Edinburq qalası Şotlandiyada ən məşhur ödənişli turist məkanı sayılır. Qalaya 2022-ci ildə 1,1 mln. ziyarətçi gəlmişdir.

Mons Meg XV əsrdə düzəldilmiş dünyanın ən böyük toplarından biridir. Top Burqund hersoqunun göstərişi ilə 1449-cu ildə düzəldilmiş və 1454-cü ildə Şotlandiya kralı II Ceymsə hədiyyə edilmişdir. Bura gələn ziyarətçilərin sayı ilbəil artır.

Xarici turistlərin əksəriyyəti Şotlandiyanın ən böyük liman şəhəri Qlazqoya gəlirlər. Burada turistlər üçün görməli yerlər çoxdur. Riversayd Muzeyi Qlazqoda ən çox ziyarət olunan muzeydir. Riversayd Muzeyi 2013-cü ildə 41 iştirakçı muzey arasında “Avropada ilin muzeyi” müsabiqəsinin əsas mükafatını almışdır.

Kelvinqrov İncəsənət Qalereyası və Muzeyi Qlazqoda turistlərin diqqətini çəkən yerlərdəndir.

Qlazqonun qərbi hissəsində Kelvin çayının üstündə yerləşən Kelvinqrov parkı turistlərin sevimli yeridir. Park zəngin flora və

faunaya malikdir. Kelvinqrov parkı böyük bir təpənin konturu ətrafında yerləşir. Parkda orkestr üçün bendstend, bouls və kroket meydançaları, skeytpark, müxtəlif heykəl və abidələr var. Lord Provost Robert Styuartın (1851-1854) xatirəsinə tikilmiş Styuart Xatirə Fəvvarəsi parkda ən böyük abidədir. 1872-ci ildə Ceyms Sellars tərəfindən tikilən fəvvarə, qranit, qumdaşı, mərmər və tuncdan inşa olunmuşdur. Parkda həmdə fizik Lord Kelvin, yazıçı Tomas Karlayl, Fredrik Roberts və kimyaçı Cozef Listerin heykəlləri, Kameronians və Haylend Piyada qoşunlarına aid abidələr, İncəsənət Muzey və Qaleriyası yerləşir [94].

Şotlandiyanın ən çox turist qəbul edən digər şəhəri **Aberdin** şəhəridir. Bu şəhər tarixi və memarlıq abidələri ilə məşhurdur. Dannottar qalası (V əsr) Aberdin şəhərindən 24 km cənubda yerləşən tarixi memarlıq abidəsidir.

**Damfis** şəhərində görkəmli Şotlandiya şairi Robert Bentli yaşamış və dəfn edilmişdir.

Şotlandiyada turistlərin diqqətini çəkən yerlərdən biri Lox-Duyx fyordunda yerləşən Eylean-Donan qəsridir. Qəsr öz funda balı ilə məşhurdur.

Staff adasındakı Fingal mağarası Şotlanlandiyanın turistlər tərəfindən ziyarət olunan yerlərindən biridir. Mağara dünyaya XVIII əsrdə məlum oldu. Mağara həm Şotlandiya Milli qoruğunun ərazisində yerləşir və həm də Şotlandiya Milli Fonduna daxildir. Mağaraya ancaq qayıq ilə daxildə hərəkət etmək mümkündür. Mağaraya aprel-sentyabr ayları arasında turist marşurutları təşkil olunur.

Göldəki suyun həcminə görə Şotlandiyanın ən böyük gölü Loh-Nessdir**.** Şirin sulu olan bu göl su həcminə görə ölkədə

birincidir. Gölün kənarında Urkxart qəsəbəsi və qəsri yerləşir. Gölün ətrafındakı heyranedici mənzərələr istənilən turisti heyran qoya bilər.

Şotlandiya çimərlikləri dünyanın ən gözəl çimərliklərindən biri hesab edilir. Qərb sahilin çimərlikləri öz ağ qumları və billur kimi şəfaf suları ilə hər il milyonlarla turistləri bura cəlb edir.

Şotlandiyanın dənizkənarı kurortları arasında Er, Oban, Montros, Dornoh, Bürt, Ayley, Skay adaları seçilir.

Atkiv dincəlməyi sevən turistlər dağ-xizək kurort yerlərinə üstünlük verirlər. Bu cəhətdən ən çox Şotlandiyanın Qlenko, Nevis, Lext şəhərləri inkişaf edib. Bu şəhərlərə yay aylarında daturist axını olur.

Şotlandiyanın adət və ənənələri özünəməxsusluğu ilə seçilir. Burada keçirilən festivallar, milli bayramlar turistləri cəlb edir.

**Şərqi İngiltərə turizm bölgəsi.** Londondan 80 km şimalda yerləşən Kembric məşhur Kembric universitetinin yerləşdiyi şəhərdir. Bu bölgənin əsas turistik şəhəridir. Şəhər rəngli həyatı, yaşıllıqları, çayları, körpüləri, tarixi məkanları, muzey və qalereyaları ilə bütün turistləri heyran edir. Hər il bura on minlərlə turist gəlir.

Burada yerləşən bir çox məşhur universitet və kollecləri, kilsə və qəsrləri, Kembric İncəsənət Qalereyasını, orta əsrlərə aid tarixi Eli kəndini, Kembric texnologiya muzeyini ziyarət edə bilər, Cam çayında kanyonla gəzərək şəhərin bütün mənzərələrini daha yaxından görmək olar.

**Uayt adası** La-Manş boğazında, İngiltərənin cənub sahillərində yerləşir. Paytaxti və böyük şəhəri Nyuportdur. Ada yumşaq qişi və isti yayı olan dəniz iqliminə malikdir. Uayt adası iri turistik mərkəzdir.

**Cersi və Gernsi kurort adaları. Cersi** La-Manşda bir ada, Böyük Britaniyanın taxt-tac mülküdür. Yumşaq dəniz iqliminə malik bu adalar istirahət üçün çox münasib yerdir.

**Şimali İngiltərə turizm bölgəsi.** İngiltərənin şimal bölgəsi dağlıq ərazidir. Morkan, Sautport, Briqlinqton, Skarboro, Bakston, Harrogit kurortları bu bölgədə yerləşir.

**Liverpul** Şimali İngiltərədə iri sənaye şəhəridir. Mersisayd qraflığının mərkəzi, Mersi çayının sağ sahilindədir. Mühüm nəqliyyat qovşağıdır. Şəhər 2008-ci ildə mədəniyyət paytaxtı seçilmişdir [97].

Şəhər çoxsaylı tarixi-memarlıq abidələri, muzeyləri ilə turistləri cəlb edir.

Son illər Liverpul ölkənin məhz turizm və mədəniyyət mərkəzi kimi daha sürətlə inkişaf edir.

**Mançestr** İngiltərənin Londondan sonra ikinci ən böyük şəhəridir.

Dünyaca məşhur Mançestr universiteti, Mançestr United futbol klubu, Old Trafford Stadionu şəhərin ən görməli yerləridir.

Milli Futbol Muzeyi İngiltərənin Mançester şəhərindəki Urbis binasında yerləşən və futbolla bağlı müxtəlif kolleksiyaların saxlanıldığı muzeydir. Elm və Sənaye muzeyi, Tarix muzeyi, Mançestr İncəsənət qalereyası şəhərdə turistlərin ən çox ziyarət etdikləri yerlərdir.

Şəhər gözəl parkları ilə məşhurdur. Fog Lane parkı, Quiness parkı və s. şəhərin gəzməli yerləri sırasında gəlir.

**Leyk Distrikt** şimal-qərbi İngiltərədə yerləşən milli parkdır. Bura özünün füsunkar və valehedici təbiəti ilə zəngin gölləri, meşələri və dağları ilə məşhurdur. Park il ərzində 15 mln.-dan çox turist qəbul edir. Burada hər il 600-dən çox tədbir təşkil olunur.

Leyk Distriktdəki Uindermir İngiltərədə yerləşən ən böyük təbii göldür və sahilində Uindermir, Embsay və Bouness kimi turist şəhərləri yerləşir.

**Monserrat** Böyük Britaniyanın Karib dənizindəki bir adadır. Bir zamanların çox məşhur kurort zonası olub. Lakin 1989-cu ildə "Hyuqo" qasırğası buranın 90%-ni dağıdıb. Buna baxmayaraq əla vəziyyətdə olan çimərliklər hələ də az da olsa turistin diqqətini cəlb edir.

**Midlen turizm bölgəsi.** Bu bölgənin əsas şəhəri Stratford-on-Eyvon şəhəridir. Vilyam Şekspirin yaşadığı evı və məzarı burada yerləşir. Hər il minlərlə turist buranı ziyarət edir. Ölkənin qədim Vuster, Uorik, Keniuert şəhərləri, Leminqton balneoloji kurortuna hər il çox sayda turist gəlir.

Yuxarıda qeyd etdiyimiz məkanlardan savayı Şotlandiyanın yüzlərlə görməli, gəzməli yerləri vardır və turistlər bu yerləri sevə-sevə ziyarət edirlər.

# III FƏSİL
# BÖYÜK BRİTANIYANIN MALİYƏ-KREDİT VƏ BANK SİSTEMİ

## 3.1. Böyük Britaniyanın maliyyə sistemi

**Plan:**

**1. Böyük Britaniya iqtisadiyyatında maliyyə sisteminin rolu**

**2. Böyük Britaniyanın maliyyə qrupları**

**3. Böyük Britaniyada büdcədənkənar fondlar**

**4. Böyük Britaniyanın qeyri-bank institutları**

**Böyük Britaniya iqtisadiyyatında maliyyə sisteminin rolu.** Maliyyə sistemi dövriyyədəki pul miqdarını və onun həcmini müəyyən müddətə müəyyənləşdirmək, müxtəlif funksional, əsas vəsaitlərdə vəsaitlərin istifadəsini cəlb etmək və idarə etmək prosesidir. Maliyyə mərkəzi bankların, dövlətin kredit və büdcə siyasətinin köməyi ilə "yaradılan" ümumi pul vəsaitləri fondudur. Maliyyə müxtəlif fondlara - dövlət büdcəsinə, fərdi kommersiya layihələri fonduna, bank sektoruna və s. köçürülür. Maliyyə pul və pul ilə əlaqəli bu və digər proseslərin idarə edilməsidir.

Böyük Britaniyanın maliyyə sistemi dörd ənənəvi hissədən ibarətdir:

**1.** Dövlət büdcəsi;

**2.** Yerli büdcələr;

**3.** Xüsusi büdcədənkənar fondlar;

**4.** Dövlət müəssisələrinin maliyyələri.

Böyük Britaniyanın maliyyə sisteminə aşağıdakılar daxildir:

- milli sığorta fondu;
- dövlət müəssisələrinin pensiya fondları;
- bərabərləşdirici valyuta fondu;
- ixrac kreditlərinin zəmanət fondları.

Maliyyə sisteminin əsas hissələrindən biri xüsusi fondlardır. Onların sayı 80-dir. Aparıcı yer milli sığorta fonduna məxsusdur. Milli sığorta fondu əhalinin, dövlət müəssisələrinin ödəmələri, hökumətin dotasiyaları hesabına yaranır. Birləşmiş vəsaitlər təqaüdlərin, işsizliyə və xəstəliyə görə yardımların ödənilməsinə gedir.

Bu fondlar müəssisələrin vəsaitləri, dotasiyaları hesabına yaradılır və xərcləri özlərinin funksional təyinatlarına müvafiq şəkildə həyata keçirirlər.

Böyük Britaniyada maliyyənin idarə edilməsi sahəsində onun əsas vəzifələri aşağıdakılardan ibarətdir:

- Böyük Britaniyada dövlətin vahid maliyyə, büdcə və vergi siyasətinin istiqamətlərinə dair təkliflərin hazırlanması və bu siyasətin həyata keçirilməsi;
- Dövlət büdcəsi layihəsinin hazırlanması və icrasının təşkili;
- Dövlət maliyyəsinin sabitliyinin təmin edilməsi və maliyyə bazarının inkişafı üçün zəruri tədbirlərin həyata keçirilməsi;
- Maliyyə resurslarının sosial-iqtisadi inkişafın üstün istiqamətlərində təmərküzləşməsi;
- Böyük Britaniyanın iqtisadiyyatına xarici kreditlərin cəlb edilməsi, onların xərclənməsi və hərəkəti üzrə uçotun aparılması və ödənilməsi mənbələrinə dair təkliflərin hazırlanması;
- Büdcə sisteminin planlaşdırılması metodlarının, büdcə-vergi proqnozlaşdırılmasının, maliyyələşdirmə mexanizminin, uçot və hesabat qaydalarının təkmilləşdirilməsi;

- Büdcə vəsaitinin, o cümlədən məqsədli büdcə fondlarının, büdcə təşkilatlarının büdcədənkənar vəsaitlərinin, habelə dövlət zəmanəti ilə alınan daxili və xarici kreditlərin xərclənməsi üzərində maliyyə nəzarətinin həyata keçirilməsi;
- Dövlət büdcəsi vəsaitlərinin idarə edilməsinin, o cümlədən bölgüsünün səmərəliliyinin təmin edilməsi.

Dünya maliyyə böhranı Böyük Britaniyanın iqtisadi siyasətini dövlətin rolunun gücləndirilməsi istiqamətinə dəyişdi. Bu dəyişiklik Böyük Britaniya iqtisadiyyatının inkişaf konsepsiyasına uyğun gəlir: ölkədə nə iqtisadiyyatın liberallaşması, nə də dövlətin rolunun artırılması tərəfə tendensiya izlənilmir. Burada, dövlətin fəal iştirakı dövrü liberallaşmanın növbəti mərhələsi ilə əvəz olunur və əksinə.

Müharibədən sonrakı dövrdə milliləşdirmənin iki mərhələsi (1945-1951-ci illər, 1955-ci illərin sonu-1979-cu illər) ardıcıl olaraq liberalizmin iki mərhələsi (1951-1950-ci illərin sonu, 1979-2007-ci illər) ilə əvəzlənmişdir [84].

2008-ci ildən başlayaraq, Böyük Britaniya yenidən dövlətin rolunun güclənməsinin növbəti sayca üçüncü dövrünə qədəm qoymuşdur. Böhran dövründə Böyük Britaniya hökumətinin iqtisadi siyasətinə, ilk növbədə, ölkə iqtisadiyyatı üçün prioritet sayılan maliyyə sektoruna tam miqyaslı kömək daxil olmuşdur.

Böyük Britaniyanın maliyyə bloku aşağıdakı tədbirlərin məcmusundan ibarətdir:

**1.** İngiltərə Bankının baza uçot dərəcələrinin tədricən azaldılması və nəticədə ölkədə məcmu tələbatın artırılması üçün kreditlərin ucuzlaşması;

**2.** Ölkədə pul likvidliyinin artırılması, deməli, son nəticədə həm bank sektorunda, həm də istehsalda fəallığın stimullaşdırılması

üçün İngiltərə Bankı tərəfindən bank sektorunun geniş miqyaslı kreditləşməsi;

**3.** İngiltərə banklarının portfelində xeyli sayda problemli və qaytarılmayan kreditlərin olması səbəbindən ölkədə kreditlərin dövlət sığortalanması sisteminin tətbiqi. Bununla, hökumət faktiki olaraq əksər hallarda kredit vasitələrinin geri qaytarılmaması riskini öz üzərinə götürdü. Bununla da Britaniya bank sisteminə inamı qaytardı. Həmçinin məcmu tələbə, həm də təklifə təsir göstərərək bankları kreditlərin verilməsinə stimullaşdırdı;

**4.** Bir sıra iri İngiltərə banklarının milliləşdirilməsi. Bu, ilk növbədə milli bank sisteminin dağılmasının qarşısını aldı. Həmçinin iri maliyyə resurslarını cəmləşdirərək Böyük Britaniya bank sistemini möhkəmləndirməyə imkan verdi. Milliləşdirilmiş bankların 2010-cu ilin əvvəlindən başlayaraq birləşdirilməsi və qismən özəlləşdirilməsi Britaniya bank bazarında rəqabətin yaradılması məqsədini daşıyır.

**Böyük Britaniyanın maliyyə qrupları.** Böyük Britaniyada iqtisadiyyatın əksər hissəsinə - sənaye, ticarət, kredit sisteminə və s. nəzarət edən bir neçə iri maliyyə qruplarını ayırmaq olar. Böyük Britaniyanın ən iri maliyyə qrupları öz imkanlarına görə ABŞ-ın ən iri maliyyə qruplarına yaxınlaşır, bəzi sahələrdə hətta onları üstələyirlər.

Böyük Britaniya maliyyə kapitalının xüsusiyyəti onun geniş beynəlxalq əlaqələrə malik olmasındadır. Belə ki, “Morgan, Grenfell & Co.” bankir evi “Morgan” Amerika maliyyə qrupu ilə əlaqəlidir. Rotşildlər-Oppenqeymerlər, ingilis-holland şirkətləri “Royal Datç Şell” və “Unilever” qrupları beynəlxalq xarakter daşıyırlar.

Hal-hazırda Britaniya bankları XX əsrin bir çox onillikləri ərzində maliyyə bazarları və kapital bazarlarında onlara məxsus olmuş əvvəlki rola malik deyillər.

London Nyu-Yorkdan sonra dünyanın ikinci maliyyə mərkəzidir. O, pul bazarının Avropada ən səmərəli infrastrukturuna malik olaraq, beynəlxalq pul və kapital bazarlarında olan dövriyyələrinin həcminə görə dünyada liderlik mövqelərini qoruyub saxlayır.

London, burada fəaliyyət göstərən xarici bankların sayına görə birinci yeri tutur. Burada əməliyyatların həcminə görə dünyada üçüncü olan (Nyu-York və Tokiodan sonra) fond birjası yerləşir. Londonun kapital bazarına xarici səhmlərlə dünya ticarətinin 60%-i düşür.

Rəsmi olaraq 1801-ci ildə əsası qoyulsa da, onun tarixçəsi 1570-ci ildən başlayır. Kral maliyyə məsləhətçisi Tomas Qreşem Kral birjasını öz hesabına tikdirmişdir. II Dünya müharibəsi zamanı birjanın binasına alman raketi düşdüyündən əməliyyatlar bir müddət binanın zirzəmisində aparılmışdır.

FTSE (Financial Times Stock Exchange) 100 İndex London Fond Birjasının əsas indeksidir. Bu indeks “Financial Times” və “London Fond Birjası”nın birgə sahib olduğu müstəqil “FTSE Group” adı ilə şirkəti tərəfindən tərtib edilir.

2022-ci ildə 11,5% çəki ilə sənaye məhsulları və xidmətlər sektoru indeksdə ən böyük sektor idi. 11,3% ilə maliyyə 2-ci və 9,9% ilə səhiyyə sektoru 3-cü yerdədir. 10 ən böyük şirkət bütün indeks iştirakçılarının ümumi bazar kapitallaşmasında 41% ümumi çəkiyə malikdir [71].

London dünyanın ən iri valyuta bazarıdır. Şəhərdə valyuta əməliyyatlarının üçdə biri həyata keçirilir. London birjası vasitəsilə

sığorta əməliyyatlarının və yenidən sığortalamanın beynəlxalq əməliyyatlarının ən böyük həcmi həyata keçirilir. Burada metalın, neftin və digər strateji məhsulların dünya birja bazarının əhəmiyyətli hissəsinə nəzarət olunur. Başqa sözlə, Böyük Britaniya hələ də dünya iqtisadiyyatında xüsusi yerə malikdir. Əsas olan odur ki, Britaniya maliyyə kapitalının təsərrüfat gücü əvvəlki kimi onun milli iqtisadiyyatının potensialını xeyli üstələyir.

**Böyük Britaniyada büdcədənkənar fondlar.** Böyük Britaniyanın maliyyə sisteminin 2-ci əsas həlqəsi büdcədənkənar fondlardır. Xüsusi fondlardan dövlət xərclərinin təxminən 1/3-i maliyyələşdirilir.

Büdcədənkənar fondlar həm **sosial** və həm də **iqtisadi** xarakterli olurlar. Büdcədənkənar fondlar ciddi təyinata malikdir.

Böyük Britaniyada onların yaradılmasında başlıca məqsəd aşağıdakılardan ibarətdir :

- əhaliyə sosial xidmətin genişləndirilməsi;
- geridə qalmış infrastruktur sahələrin inkişafının stimullaşdırılması;
- iqtisadiyyatın aparıcı sahələrinin əlavə vəsaitlə təmin edilməsi və s.

Böyük Britaniyada aşağıdakı büdcədənkənar dövlət sosial fondları yaradılmışdır:

- pensiya fondu;
- sosial sığorta fondu;
- məcburi tibb sığorta fondu.

Bu fondlar dövlət mülkiyyətində olub, maliyyə sisteminin müstəqil maliyyə-kredit idarələri kimi fəaliyyət göstərirdilər.

Büdcədənkənar fondlar məqsədli təyinata (əhaliyə göstərilən sosial xidmətin maliyyələşdirilməsi) malikdir. Sosial təyinatlı

büdcədənkənar fondlarla yanaşı iqtisadi təyinatlı fondlar da yaradılır ki, onların hesabına dövlətin iqtisadi vəzifələrinin həll edilməsi tələbatı təmin edilmiş olur.

Qeyd etmək lazımdır ki, istər sosial təyinatlı və istərsə də iqtisadi təyinatlı fondlar müəyyən dövrlərdə yaradıla və ləğv edilə bilər. Bütün büdcədənkənar dövlət fondlarının gəlirləri müəssisə, idarə və təşkilatların məcburi tədiyyələri hesabına əmələ gəlir.

Milli sığorta fondu mühüm əhəmiyyət kəsb edir. O, işçilərin, sahibkarların haqlarının və dövlət dotasiyalarının hesabına təşkil olunur. Milli sığorta fondunun əsas vəsaiti (70%-ə yaxın) qocalığa görə təqaüdlərə sərf olunur. Milli sığorta fondunun digər əhəmiyyətli xərc maddələri xəstəlik və işsizlik üzrə müavinətlərdir.

**Böyük Britaniyanın qeyri-bank institutları.** Böyük Britaniyanın qeyri-bank xüsusi kredit-maliyyə institutlarına əmanət institutları, sığorta şirkətləri və pensiya fondları, investisiya trestləri, vəkalətli pay fondları, maliyyə şirkətləri, vençur maliyyələşmə şirkətləri aiddir.

**Əmanət institutlarına** öz növbəsində vəkalətli əmanət bankı, Milli əmanət bankı, tikinti cəmiyyətləri aiddir.

Vəkalətli əmanət bankları keçmişdə yerli əmanət kassalarının rolunu oynayırdılar. Sonra onlar 16 iri regional müəssisə şəklində yenidən təşkil olunmuş, 1986-cı ildə isə vahid səhmdar Vəkalətli əmanət bankında birləşmişlər.

Fəaliyyətinin miqyası və kapitalına görə bu bank yalnız "böyük dördlükdən" geri qalır və kommersiya bankının bütün əsas funksiyalarını yerinə yetirir.

Milli əmanət bankı (keçmiş poçt-əmanət bankı) əhalinin əmanətlərini sayı 20 mindən çox olan poçt şöbələrinin şəbəkəsi

vasitəsilə toplayır. 1986-cı ilin axırında milli əmanət bankındakı əmanətlərin həcmi təqribən 8 mlrd. funt sterlinq olmuşdur.

**Tikinti cəmiyyətləri** 200 ildən artıq müddət ərzində mövcuddur və onlar əhalinin əmanətlərinin böyük hissəsini toplayır. Tikinti cəmiyyətlərinin yekun aktivləri 1980-ci illərdə artmış və 130 mlrd. funt sterlinqi üstələmişdir. İri tikinti cəmiyyətləri aşağıdakılardır:

**1.** "Halifax";

**2.** "Abbey National";

**3.** "Nationwide" və başqaları.

Əmanət institutlarının vəsaitlərinin əsas mənbəyi əhalinin əmanətləridir.

**Sığorta şirkətləri və pensiya fondları** toplanmış borc kapitalını uzunmüddətli investisiyalara istiqamətləndirirlər. Maliyyə-kredit fəaliyyəti isə onların ixtisasına – sığorta işinə və şəxsi pensiya təminatına nəzərən ikinci dərəcəli hesab olunur. Onlar tərəfindən səfərbərliyə alınan vəsaitlər 20-25 il müddətinə əməliyyatlara yatırılır (əsasən səhmlərə və digər qiymətli kağızlara).

Sığorta şirkətlərinin və pensiya fondlarının hərəsinin yekun aktivləri 1968-ci ilin axırında 150-160 mlrd. funt sterlinq təşkil edirdi. "Royal", "Commercial Union" və digər ingilis sığorta inhisarları dünyanın iri sığorta inhisarlarına aid edilir.

**İnvestisiya trestləri** yalnız qiymətli kağız əməliyyatları ilə məşğul olurlar. Onlar öz səhmlərinin və istiqrazlarının emissiyası yolu ilə kapital cəlb edir və bu kapitalı digər şirkətlərin qiymətli kağızlarına yatırırlar. Daxilolmaların (depozitlərin, sığorta haqlarının və s.) müntəzəm mənbəyinə malik olmayan müəssisələrin özünəməxsus xüsusiyyəti bazar konyunkturasından güclü asılılıqdır.

Qiymətli kağızların kursları düşən zaman investisiya trestləri maliyyə çətinlikləri ilə üzləşir və itkilər verirlər [39, s. 112].

**Vəkalətli pay fondları** öz ixtisaslaşmasına görə investisiya fondlarına oxşardır. Onlar pul kapitalını toplayıb, qiymətli kağızlara yatırırlar. Lakin payçı öz payını istənilən zaman şirkətin müdirinə sata bildiyinə görə bu fondların kapitalı dəyişən kəmiyyətdir, həm də payların satışının, yoxsa alışının üstün olmasından asılıdır. Fondların aktivlərinin strukturu investisiya trestlərinin aktivləri ilə analojidir. Onların təqribən 80%-ni şəxsi şirkətlərin səhmləri təşkil edir. Bir çox vəkalətli pay fondları banklarla və sığorta şirkətləri ilə əlaqədardır.

**Maliyyə şirkətləri** borc kapitalının adi mənbələrinə əlləri çatmayan şəxsi firmaların kreditləşdirilməsində ixtisaslaşır. Ən iri maliyyə şirkətləri sənayıe, kənd təsərrüfatı üzrə ipoteka şirkətləri və başqalarıdır.

**Vençur maliyyələşmə** şirkətləri əsasən XX əsrin 80-ci illərində yaranan ixtisaslaşmış müəssisələrdir. Bu şirkətlər əsas etibarilə aparıcı sahələrdə yeni və genişlənən şirkətlərin kreditləşdirilməsi ilə və iştirakının əldə edilməsi ilə məşğul olur. Bu isə böyük risklə əlaqədardır.

Maliyyə münasibətləri sahəsində dövlətin təsərrüfat subyektləri və ev təsərrüfatları ilə qarşılqlı əlaqəsi, hər şeydən əvvəl, vergi sistemi, kredit münasibətlərinin qaydaya salınması, maliyyə bazarının tənzimlənməsi, dövlət yardım sistemi, təqaüd təminatı sistemi, işləyən əhalinin gəlirlərinin tənzimlənməsi mexanizmi və s. vasitəsilə ifadə edilir.

## 3.2. Böyük Britaniyanın büdcə sistemi

**Plan:**

**1. Böyük Britaniyanın büdcə sisteminin mahiyyəti**
**2. Böyük Britaniyada büdcə prosesi**
**3. Böyük Britaniyanın büdcə gəlirləri və xərcləri**

**Böyük Britaniyanın büdcə sisteminin mahiyyəti.** İctimai ehtiyatların bölüşdürülməsində büdcə ən vacib vasitədir. Həmçinin dövlətin sosial-iqtisadi siyasətinin "güzgü"südür. Büdcə ilə yayımlanan dövlətin iqtisadi qərarları birbaşa və ya dolayı yolla bütün iqtisadi agentlərin həyatına təsir göstərir. Daha vacib olanı isə büdcə sisteminin quruluşu və işləməsi məsələləridir. Bunlar xüsusilə son üç əsrdə bir sıra ölkələrdə (Cənub-Şərqi Asiya, Mərkəzi və Şərqi Avropa dövlətləri daxil olmaqla) dövlət hakimiyyətinin mərkəzləşdirilməməsinə cəhdlər edildiyinə görə vacibdir. Bu da büdcə quruluşunun və prinsiplərinin ciddi şəkildə dəyişdirilməsində büdcənin idarə edilməsi ilə müşayiət olunur.

Büdcə - Böyük Britaniya Krallığında müvafiq dövlət hakimiyyəti və özünüidarəetmə orqanları vasitəsilə dövlətə və yerli orqanlara məxsus vəzifə və funksiyaları yerinə yetirmək üçün lazım olan pul vəsaitinin yığılması və istifadə olunması üçün əsas maliyyə sənədidir.

Böyük Britaniya unitar dövlətdir və onun büdcə sistemi iki hissədən ibarətdir:

**1.** Konsolidasiya edilmiş fonddan (büdcənin 98%-i, hansı ki, əsasən vergilərdən formalaşır);

**2.** Milli istiqrazlar fondundan, hansıların ki, idarə olunması ayrı-ayrı aparılır.

Böyük Britaniya dövlət büdcəsinin məqsədi ölkənin iqtisadi, sosial və digər strateji proqramlarının və problemlərinin həlli, dövlətin funksiyalarının həyata keçirilməsi üçün qanunvericiliklə

müəyyən edilmiş qaydada maliyyə vəsaitinin toplanması və istifadəsini təmin etməkdir.

Böyük Britaniyada dövlət büdcəsinin məqsədli proqramlar səviyyəsində icrasının aşağıdakı xüsusiyyətləri vardır:

- **Birincisi**, bu proqramlar dövlətin iqtisadi inkişaf strategiyasına uyğun olmalıdır. Ölkədə bir qayda olaraq, orta müddətli indikativ planlar (məcburi olmayan) təsdiqlənir. Bu planlarda nəzərdə tutulmuş hədəflərə çatmaq üçün ölkənin sosial-iqtisadi hədəfləri ilə üst-üstə düşən məqsədli proqramlar qəbul edilir.

- **İkincisi**, büdcə maliyyələşdirilməsinin nəticələri orta və uzun müddətli dövr üzrə müəyyənləşdiridiyi üçün məqsədli proqramların prinsiplərinin tam mənada tətbiqi orta müddətli dövr üçün münasibdir. Buna görə də qeyd olunan büdcə metodunun tətbiqi paralel olaraq perspektiv büdcə planlaşdırılmasına keçidi şərtləndirir. Belə ki, məqsədli sosial-iqtisadi inkişaf proqramları orta müddətli büdcə proqnozları ilə əlaqəli şəkildə və onlara uyğun hazırlanır.

- **Üçüncüsü**, proqramlar çərçivəsində xərclənən vəsaitlərin səmərəliliyinin qiymətləndirilməsi məqsədilə bu xərclər üzərində ciddi maliyyə nəzarəti aparılır və hesabatlar təqdim olunur. Bu hesabatlarda xərclərin səmərəliliyini qiymətləndirmək məqsədilə xüsusi (kəmiyyət və keyfiyyət) göstəricilər sistemi öz əksini tapır.

Məqsədli proqramlar səviyyəsində dövlət büdcəsinin icrası zamanı aşağıdakı prinsiplər əsas götürülməlidir:

**1.** Maliyyə resurslarının maddələr üzrə deyil, proqramlar və ya strateji hədəflər üzrə icrasının təmin edilməsi;

**2.** Dövlət qurumlarının məqsədi və strateji prioritetlərinin proqramlara uyğunlaşdırılması;

**3.** Dövlət qurumlarının büdcə vəsaitlərindən istifadəsi üzərində nəzarət mexanizminin qurulması;

**4.** Büdcə prosesləri daha çox dövlət sektorunda olan müəssisə və təşkilatların fəaliyyəti ilə sıx bağlanır;

**5.** Büdcə layihəsi müvafiq icra hakimiyyəti orqanlarına büdcə subyektlərinin fəaliyyətinin səmərəliliyini qiymətləndirmək imkanı verən göstəricilər sistemi əsasında təqdim edilir [10, s. 321].

Böyük Britaniyanın pul tədavülünü və maliyyə vəziyyətini möhkəmləndirmək üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi zəruridir:

**1.** Büdcə mexanizminin təkmilləşdirilməsi;

**2.** İqtisadiyyatın real sektorunun inkişafının üstün maliyyələşdirilməsi;

**3.** Bank sisteminin fəaliyyətinin təkmilləşdirilməsinin təmin edilməsi;

**4.** Vergilərin tam ödənilməsinə nəzarətin gücləndirilməsi hesabına büdcənin gəlir bazasının möhkəmləndirilməsi;

**5.** Dövlət xərclərinin səmərəli və məqsədyönlü istifadəsi üzərində təsiredici maliyyə nəzarəti sisteminin yaradılması və s.

**Böyük Britaniyada büdcə prosesi.** İngiltərədə büdcə ili aprelin 1-də başlayır və martın 31-də başa çatır. Bu tarixlər təkcə mərkəzi hökumətin büdcəsi üçün yox, yerli büdcələrin əsas hissəsi, habelə əksər dövlət müəssisələrinə də aiddir.

Böyük Britaniyada da büdcə prosesi dörd mərhələdən ibarətdir. Dövlət büdcəsinin layihəsini xəzinədarlıq tərtib edir. Hər il oktyabrın 1-də o, növbəti maliyyə ilinə öz xərclərinin smetasını hazırlamaq, daxili gəlir, gömrük rüsumları və aksizlər departamentləri – gəlir smetalarını tərtib etmək üçün nazirlik və idarələrə təmin (yayma) məktubu (dövrü olaraq) göndərir. Nazirliklər

və idarələr smetaları, xərclərin müəyyən edilmiş təsnifatı üzrə hazırlayır. Onları yoxlamaq və dəqiqləşdirmək üçün xəzinədarlığa təqdim edir.

Büdcənin müzakirəsi zamanı xəzinadarlığın kansleri (maliyyə naziri) başaçatmış maliyyə ilinin, tədiyyə balansının vəziyyətinin qiymətləndirir. Ölkənin inkişaf perspektivləri, pul siyasətindən, yeni maliyyə ilində vergi siyasətindəki dəyişikliklərdən məlumat verir. Böyük Britaniyanın maliyyə naziri yeni maliyyə ilinə ölkənin büdcə layihəsini parlamentdə müzakirəyə çıxartmadan öncə, büdcəqabağı müraciət təqdim olunur.

Hökumətin bəyəndiyi büdcə layihəsi müzakirələr üçün parlamentin aşağı palatasına daxil olur (icma palatası). Büdcə layihəsi icma palatasında müzakirə ediləndən sonra yuxarı palataya (lordlar palatasına) təqdim edilir. İcmalar palatasında büdcə fəsillər üzrə səsvermə ilə təsdiq olunur. Sonda ümumi qərar qəbul olunur ki, burada da müvafiq məqsədlərə təxsisatların məbləği (bir iş üçün ayrılan pul) göstərilir.

Büdcənin lordlar palatası tərəfindən təsdiqlənməsi və Kral tərəfindən imzalanması formal xarakter daşıyır. Parlamentin təsdiq etdiyi maliyyə qanun layihəsini Kral təsdiqləyir. Kralın təsdiqi olmadan Parlamentin təsdiq etdiyi heç bir qanun layihəsi qanuna çevrilə bilməz.

Yuxarıda deyilənlərə əsasən, Böyük Britaniyada büdcəyə baxılması və təsdiq edilməsi mərhələsinin aşağıdakı xüsusiyyətləri qeyd edilməlidir:

- **birincisi**, hər il iki maliyyə qanunu qəbul edilir: ayırmalar haqqında qanun (büdcənin xərc hissəsi) və maliyyə haqqında qanun (büdcənin gəlir hissəsi);

- **ikincisi**, büdcə təklifinə İcmalar Palatasının Təxsisatlar Komitəsi (dövlət xərclərinə baxılması ilə bağlı) və Yollar və Vasitələr Komitəsi (dövlət gəlirlərinə baxılması ilə bağlı) kimi iclaslarda iştirak edən bütün İcmalar Palatasının komitəsi tərəfindən baxılır;

- **üçüncüsü**, büdcə məsələləri ilə bağlı nümayəndəlik və icra hakimiyyəti orqanları arasında səlahiyyətlərin dəqiq bölüşdürülməsi;

- **dördüncü**, parlamentin aşağı palatası - İcmalar Palatasının maliyyə qanunlarına baxılmasında üstünlük təşkil edir;

- **beşincisi**, maliyyə qanun layihələri Kral tərəfindən təsdiq edilir ki, bu da maliyyə qanun layihəsinin qanuna çevrilməsi üçün zəruri şərtdir [17, s. 67].

Büdcənin kassa icrası İngiltərənin bankına həvalə olunubdur. Büdcə ilə buraxılan vəsaitin alınması üçün xərclər tələbnaməsi baş ödəyici idarəsindən keçməlidir. Büdcənin icrası prosesinə nəzarəti xəzinədarlıq və onun struktur bölmələri həyata keçirir.

Büdcə prosesinin son mərhələsi – büdcənin icrası haqqında hesabatın tərtibi və onun təsdiq olunmaq üçün parlamentə verilməsidir.

Büdcənin təsdiqi dövlətin iqtisadi həyatında çox önəmli və həlledici mərhələdir. Büdcə hüququnun inkişafını 3 aspektdən nəzərdən keçirmək olar:

- Vergi hüququ;
- Xərc hüququ;
- Büdcənin təsdiq edilməsi hüququ.

Büdcə hüququ məsələsində ilk növbədə ali qanunvericilik orqanının vergiləri təqdiqləməsi nəzərdə keçirilir. Tarixi baxımdan vergi hüququ maliyyə-iqtisadiyyat leksikonunda 3 əsrdən çoxdur işlədilir. İngiltərədə vergiqoyma hüququ ilk dəfə 1688-ci ildə

təsdiqlənmişdir. Bu qanunvericilik aktlarına qədər vergi hüququ tamam ayrı, daha primitiv formada fəaliyyət göstərmişdir.

Vergi hüququ təsdiqlənəndən və yığılan vergilərin həcmi imkanları aşkarlandırdan sonra büdcə dərəcələrinin müəyyən edilmə və təsdiqlənmə hüququnun təşəkkül mərhələsi başlanır.

Müasir mərhələdə Böyük Britaniyada büdcə siyasətinin əsas parametrləri istehsalın səviyyəsinin aşağı düşməsinin qarşısını almaqdan və ölkədə maliyyə sabitliyini təmin etməkdən ibarətdir. Bunun üçün hər şeydən əvvəl, iqtisadi böhranın aradan qaldırılmasının əsası kimi pul tədavülünün və milli valyutanın möhkəmlənməsi üzrə təxirəsalınmaz tədbirlərin görülməsi zəruridir.

Dövlət büdcə siyasətinin qlobal məqsədləri aşağıdakılardan ibarətdir:

**1.** Makroiqtisadi sabitliyin təmin olunmasından;

**2.** Əmək məhsuldarlığının artımından;

**3.** Məşğulluğun yüksək səviyyəsindən;

**4.** Əhalinin ən az müdafiə olunmuş təbəqəsinin həyat səviyyəsinin yüksəldilməsindən;

**5.** Təhsil, səhiyyə standartlarının yüksəldilməsi;

**6.** Nəqliyyatın modernləşdirilməsi;

**7.** Cinayətkarlıq ilə mübarizənin gücləndirilməsi məqsədilə, ictimai xidmətlər sektoruna investisiya axınından;

**8.** Ətraf mühitin mühafizəsindən.

**Böyük Britaniyanın büdcə gəlirləri və xərcləri.** II Dünya müharibəsindən sonra yerli özünüidarə orqanlarının səlahiyyətinə sosial xidmətlərin, nəqliyyatın, təhsilin, mənzil-kommunal təsərrüfatın maliyyələşdirilməsi daxil idi. Sonralar onların səlahiyyətləri əhəmiyyətli şəkildə məhdudlaşdırılmışdır. Yerli hakimiyyət orqanları mənzilin tikinti və alınma hüququnu, yerli

nəqliyyat və kommunikasiya şəbəkələrinin özəlləşdirmə hüququnu itirmişlər. Maarifləndirici müəssisələrin bəzi növləri nəzarətdən çıxarılmış, bələdiyyələrin məxaric öhdəlikləri əhəmiyyətli şəkildə azalmışdır. İndiki zamanda bütün dövlət xərclərinin 36%-i yerli büdcələrdən maliyyələşir.

Böyük Britaniyanın dövlət büdcəsinin 98%-i vergilərdən formalaşır. Bu vergilərin içərisində birbaşa vergilərin əsas növlərindən biri olan gəlir vergisi mühüm yer tutur. Bu vergi növü birbaşa vergilərdən daxil olmaların 2/3 hissəsini təşkil edir. Britaniyada gəlir vergisinin minimum dərəcəsi (4 mindən 27 minədək funt sterlinq) 10%, maksimum isə (27 minədək funt sterlinqdən çox) 40% təşkil edir.

| № | Gəlirlər | Xərclər |
|---|---|---|
| 1. | Fiziki şəxslərin gəlir vergisi | Ümumi dövlət xidmətləri |
| 2. | Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | Müdafiə və milli təhlükəsizlik |
| 3. | Torpaq vergisi | Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq |
| 4. | Əmlak vergisi | Təhsil |
| 5. | Əlavə dəyər vergisi | Səhiyyə |
| 6. | Sadələşdirilmiş vergi | Sosial müdafiə və sosial təminat |
| 7. | Aksiz | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət |
| 8. | Yol vergisi | Mənzil və kommunal təsərrüfatı |
| 9. | Mədən vergisi | Kənd təsərrüfatı |
| 10. | Xarici iqtisadi fəaliyyətlə bağlı vergilər | Ətraf mühitin mühafizəsi |
| 11. | Sair daxilolmalar | İqtisadi fəaliyyət |

| | | |
|---|---|---|
| **12.** | | Əsas bölmələrə aid edilməyən xidmətlər |

**Cədvəl 3.1. Böyük Britaniyanın dövlət büdcəsinin gəlir və xərcləri**

Böyük Britaniyanın dövlət büdcəsinin təsnifatının strukturuna aşağıdakılar daxildir:

**1.** Böyük Britaniya dövlət büdcəsi gəlirlərinin təsnifatı;

**2.** Böyük Britaniya dövlət büdcəsi xərclərinin funksional təsnifatı;

**3.** Böyük Britaniya dövlət büdcəsi xərclərinin iqtisadi təsnifatı;

**4.** Böyük Britaniya dövlət büdcəsinin daxili və xarici maliyyələşdirmə mənbələrinin təsnifatı;

**5.** Böyük Britaniya dövlət və xarici borcunun növləri üzrə maliyyələşdirmənin təsnifatı;

**6.** Böyük Britaniya dövlət büdcəsi xərclərinin təşkilatlar üzrə təsnifatı.

Britaniyada büdcə xərclərinin əsas istiqamətləri sosial sahənin maliyyələşdirilməsi ilə bağlıdır. Sosial xərclər içərisində ən çox dövlət büdcəsindən vəsaitlər sosial təminata (30%-dən çox) yönəldilir. Səhiyyəyə ayrılan vəsaitlər (15-18%) sosial təminat xərclərindən sonra 2-ci yerdə durur.

Ölkə iqtisadiyyatına ayrılan xərclər də xüsusi çəki baxımından əhəmiyyətli yerdədir. İqtisadiyyat xərclərinə kapital qoyuluşu, elmi-texniki tərəqqi, iqtisadi və sosial infratruktur, təsərrüfatın ayrı-ayrı sahələrində və ölkənin regionlarında məşğulluğun təmin olunması, ixracın stimullaşdırılması üzrə xərclər daxildir.

Yerli hakimiyyət orqanlarının xərclər strukturu aşağıdakı kimidir (%-lə):

**1.** Sosial müdafiə - 32;

**2.** Təhsil - 28;

**3.** Hüquq mühafizə orqanlarının mühafizəsi - 12;

**4.** Kommunal xidmətlər - 5;

**5.** Nəqliyyat və kommunikasiyalar - 4;

**6.** Digərləri -19.

Yerli hakimiyyət orqanlarının gəlirlər strukturu aşağıdakı kimidir:

**1.** Vergilərdən daxilolmalar - 47%;

**2.** Vergi olmayan gəlirlər - 5%;

**3.** Fiziki şəxslərin maliyyə yardımları - 1%;

**4.** Hüquqi şəxslərin maliyyə yardımları - 2%;

**5.** Beynəlxalq təşkilatların və fondların maliyyə yardımları və qrantları - 6%;

**6.** Böyük Britaniyanın dövlət büdcəsindən verilən dotasiya və subvensiyalar - 17%;

**7.** Digər gəlirlər - 22% [25, s. 365].

Böyük Britaniyanın 2022-ci ildə ölkənin büdcə gəlirləri 1 trln., xərcləri isə 1,4 trln. dollar olmuşdur. Dövlət büdcəsinin gəlir və xərc hissəsinin tarazlı (mütənasib) olması hər bir ölkənin sosial-iqtisadi inkişafına birbaşa təsir göstərir. Lakin büdcə kəsiri ölkədə maliyyə hadisəsi kimi labüddür və bir sıra səbəblər nəticəsində meydana çıxır.

Onu da qeyd edək ki, 2022-ci ildə Britaniyanın büdcə kəsiri 400 mlrd. dollar olmuşdur. Onun aradan qaldırılması məqsədilə bank fəaliyyətinə görə verginin artırılması nəzərdə tutulur.

Böyük Britaniyanın büdcələrarası tarazlaşdırma sistemi çox mürəkkəb olmaqla yanaşı, ölkənin bütün tərkib hissələrində müxtəlifdir. Eyni zamanda, maliyyə köməyi bütün dövlət üçün vahid prinsiplərə əsaslanır.

Maliyyə köməyinin iki əsas növü mövcuddur:

**1.** Blok qrantlar (İngiltərədə və Uelsdə onları gəlirlərin artırılması üçün qrantlar adlandırırlar);

**2.** Xüsusi məqsədlər üçün qrantlar.

Büdcə gəlirlərinin artırılması üçün istifadə olunan qrantlar hər il ayrılır.

Mərkəzi hökumət maliyyə köməyinin məbləğini müəyyənləşdirməzdən əvvəl mərkəzi büdcənin layihəsindən və makroiqtisadi vəziyyətin proqnozundan çıxış edərək, planlaşdırılan il üçün yerli hakimiyyət orqanlarının məxaric normativlərini müəyyənləşdirir. Daha sonra maliyyə köməyinin həcmini müəyyənləşdirmək üçün məxaric normativləri əsasında hesablanmış, bələdiyyənin iştirakı ilə bağlı büdcə xərclərinin cəmindən yerli büdcələrə bərkidilmiş gəlir mənbələrindən gələn gəlirlərin cəmini çıxmaq lazımdır. Əgər mərkəzi hökumət yerli büdcənin hər hansı konkret bir maddəsinin maliyyələşdirilməsini daha üstün hesab edirsə, vəsaitlər qrant çərçivəsində ayrılır, yəni onlar yalnız şərtləşdirilmiş məqsədlər üçün sərf oluna bilir.

Böyük Britaniyada dövlət büdcədən özünün funksiyalarının həyata keçirmək üçün əsas iqtisadi alət kimi istifadə edərək, eyni zamanda iqtisadi və sosial siyasəti də həyata keçirir. Bununla da ölkənin rifah səviyyəsini yüksəldir.

## 3.3. Böyük Britaniyanın vergi sistemi

**Plan:**

**1. Böyük Britaniyanın vergi sisteminin ümumi xarakteristikası**

**2. Böyük Britaniyanın ümumdövlət vergiləri**

**3. Böyük Britaniyanın yerli vergiləri**

**4. Böyük Britaniyanın vergi islahatları**

**Böyük Britaniyanın vergi sisteminin ümumi xarakteristikası.** Vergi - dövlət və bələdiyyələrin fəaliyyətini maliyyələşdirmək üçün vergi ödəyicilərinin əmlakının özgəninkiləşdirilməsi şəklində dövlət büdcəsinə və yerli büdcələrə köçürülmüş məcburi, fərdi, əvəzsiz ödənişdir.

Böyük Britaniyanın vergi sistemi ikisəviyyəli olmaqla ümumdövlət və yerli vergilərdən ibarətdir.

Ümumdövlət vergiləri aşağıdakılardır:

- fiziki şəxslərin gəlir vergisi;
- şirkətlərin gəlir vergisi (korporativ vergi);
- kapitalın artımına vergi;
- miras vergisi;
- dolayı vergilər (əlavə dəyər vergisi, aksizlər və rüsumlar, gerb yığımları).

Ümumdövlət vergiləri bütün vergi daxilolmalarının 90%-ni təşkil edir.

Yerli vergilər əmlak vergilərindən ibarətdir və onlar vergi gəlirlərinin 10%-ni təşkil edir.

Vergilər ingilis dövlət büdcəsinin gəlirlər hissəsinin formalaşmasında əsas rol (90%-dək) oynayır.

Böyük Britaniyanın vergi qanunvericiliyinin əsasını əhali və şirkətlərin gəlir vergisinə münasibətdə 1970-ci il qanunvericilik Aktı,

əlavə dəyər vergisinə münasibətdə 1979-cu il Aktı, şirkət vergilərinə münasibətdə 1996-cı il Aktı təşkil edir.

Bunlarla yanaşı, hər il ölkənin yeni büdcə qanununa uyğun olaraq mövcud qanunvericilik aktlarına bir sıra dəyişikliklər edilir. Britaniya parlamenti qanunvericilik hakimiyyətinə malikdir və hər il vergi qanunvericiliyinə dəyişikliklər etmək səlahiyyəti vardır. Sonradan həmin dəyişikliklər ölkə hökuməti tərəfindən təsdiqlənir.

Vergi qanunvericiliyinin tətbiqi məsələlərinin tənzimlənməsi xüsusi hüququ orqana - Məxfi Şuraya, nazirliklərə və Daxili Gəlirlər İdarəsinə verilir. Bu orqanların səlahiyyətləri parlament tərəfindən dəqiq müəyyənləşdirilmişdir.

**Böyük Britaniyanın ümumdövlət vergiləri**. Əhalidən tutulan gəlir vergisi Britaniyanın daha iri ümumdövlət vergilərindən biri hesab edilir.

Britaniyanın gəlir əldə edən bütün əhalisi tərəfindən ödənilir. Lakin vergitutma rejimi vergi ödəyicisinin statusundan asılıdır. Vergi qanunvericiliyinə uyğun olaraq vergi ödəyiciləri rezidentlərə və qeyri-rezidentlərə bölünür. Böyük Britaniya rezidentinin gəlirləri onların mənbəyindən asılı olmayaraq vergiyə cəlb olunur. Qeyri-rezident isə yalnız bu ölkənin ərazisində əldə etdiyi gəlirlərindən vergini ödəməlidir.

Rezidentin statusu şəxsin Böyük Britaniyada olduğu günlərin sayından asılıdır. Aşağıdakı əsas qaydalar tətbiq edilir:

- şəxsin Böyük Britaniyada fiziki olmaması zamanı o qeyri-rezident hesab edilir;

- fiziki şəxs Böyük Britaniyada bir vergi ili ərzində 183 gündən artıq müddətdə qaldıqda o, rezident sayılır;

- şəxs Böyük Britaniyada dörd illik dövr ərzində hər il 90 gündən artıq müddətə qalarsa, bu halda da o rezident hesab edilir;

- əgər şəxsin Böyük Britaniyada yaşayış binası (yeri) varsa, onun tərəfindən Britaniyada keçirdiyi bir günə görə də, o hətta həmin yaşayış binasından (yerindən) istifadə etmədikdə belə, rezidentlik statusunu əldə edir.

İngilis vergi hüququ həmçinin, daha iki anlayışı da nəzərdə tutur:

**1.** Adi resident;

**2.** Domisil (ödəyicinin başqa yerdə yaşadığı halda verginin ödənilməli olduğu yer).

"Adi resident" termini Böyük Britaniyada daimi yaşayış yerinə malik olan, xidməti və şəxsi işi ilə bağlı xaricə qısamüddətli ezamiyyələri nəzərə almamaqla orada özünün bütün həyatını keçirən şəxsləri əhatə edir. Əgər xaricdə daimi yaşayış yerinə malik olan şəxs Böyük Britaniyaya gələrkən Böyük Britaniyada daimi qalıb yaşayacağını dəqiq bilmirsə, onda üç il müddət ərzində o adi rezident hesab edilir. Şəxsin Böyük Britaniyaya daimi yaşamaq üçün gəlməsi halında o, ilk gündən adi rezident hesab edilir.

"Domisil" şəxsin daimi yaşayış yerinin olduğu ölkədə olmasıdır. "Domisil" anlayışı vətəndaşlıq və rezidentlik anlayışlarından fərqlənir. Şəxs birdən artıq ölkənin rezidenti ola bilər. Lakin konkret zaman dövründə yalnız bir ölkədə domisil ola bilər. Böyük Britaniyada işləyən xarici vətəndaşa bu ölkədə domisil kimi baxılmır.

Fiziki şəxslərdən gəlir vergisi məcmu gəlirdən deyil, gəlirin mənbəyindən asılı olaraq şedullar üzrə tutulur. Hər bir şedul (gəlirin hissələrə bölünməsi) xüsusi qayda ilə vergiyə cəlb olunur. Gəlirlərin bu şəkildə ayrı-ayrılıqda vergiyə cəlb olunması "gəlirlərin mənbədə yaxalanması" məqsədini güdür.

Altı şedul fəaliyyət göstərir və onların da bəzilərinin daxili dərəcələr üzrə bölgüsü vardır.

Gəlir vergisinin ödənilməli olan məbləğinin müəyyən edilməsi üçün əldə olunan faktiki illik gəlirdən vergi güzəştləri çıxılır.

Hazırda ailə üzvlərinin gəlirləri ayrı-ayrılıqda vergiyə cəlb olunur. Vergitutma bazasına həmçinin, bir sıra kiçik güzəştlər də təsir edir. Bura gözdən əlillərə, tam olmayan ailələrə və ev işçisinin (qulluqçunun) köməyinə ehtiyacı olan və bu köməkdən istifadə edən şəxslərə verilən güzəştlər aid edilir.

Böyük Britaniya qeyri-rezidentlərinin bir qayda olaraq gəlir vergisi üzrə fərdi güzəştlər almaq hüququ yoxdur. Lakin aşağıdakı hallarda güzəştlər verilə bilər:

**a)** Millətlər Birliyinə daxil olan ölkələrdə, yaxud İrlandiya Respublikasında yaşayanlar və Britaniya təbəələri (bir dövlətə tabe olan, onun vətəndaşı olan əhali)

**b)** Böyük Britaniyanın, yaxud ingilis koloniyalarının dövlət xidməti aparatının qulluqçuları və köhnə qulluqçuları;

**c)** əvvəllər Böyük Britaniyanın rezidenti olmuş, lakin özünün, yaxud ailə üzvlərinin xəstəliyi səbəbindən hazırda digər ölkələrin rezidenti olan şəxslər;

**d)** həyat yoldaşı vəfat etmiş dövlət qulluqçuları;

**e)** Böyük Britaniya ilə vergi sazişi bağlanmış ölkələrin rezidentləri.

Fiziki şəxslərin aşağıdakı gəlirləri gəlir vergisinə cəlb olunmur:

- pul formasına çevrilməsi mümkün olmayan və yalnız onu alan tərəfindən istifadə edilən natura formada müavinətlər;
- milli əmanət sertifikatları üzrə faizlər;

- əlillərə verilən müavinətlər;
- tələbələrə verilən təqaüd və müavinətlər;
- işsizlik müavinəti;
- xəstəlik və analıq müavinətləri.

Gəlir vergisi məcmu illik gəlir nəzərə alınmaqla kumulyasiyalı baza əsasında hesablanır. Belə ki, öhdəliyin hesablanması zamanı bir həftədə olan aşağı əmək haqqı növbəti həftədəki yüksək əmək haqqı ilə, yaxud əksinə müqayisə edilir.

Böyük Britaniyanın vergi sisteminin xüsusiyyəti elədir ki, gəlir vergisi təkcə kumulyasiyalı əsasda hesablanmır. Digər ölkələrdə kumulyasiyalı baza verginin yığılması üçün deyil, yalnız onun hesablanması üçün xarakterikdir. Vergi həftədə qazanılmış əmək haqqı nəzərə alınmaqla hər həftə ödənilir, əgər illik gəlirin yenidən hesablanmasına zərurət olarsa, bu adətən ilin sonunda aparılır.

İngilis vergi sistemi isə əksinə, elə bir situasiyanın təmin olunmasına çalışır ki, bu zaman ilin hər bir ayrı zaman anında illik verginin müəyyən uyğun payının tutulmasına zəmanət (imkan) olsun. Belə ki, kumulyasiyalı (vərdiş) olmayan sistemdə hər həftə illik vergi güzəştinin 1/2 hissəsi çıxılır [12, s. 89].

Kumulyasiyalı sistem halında da bu baş verir. Lakin əgər həftəlik gəlir həftəlik güzəştdən az olarsa, onda izafi məbləğ ilin əvvəlki dövründə ödənilən vergi hissəsinə aid edilir. Beləliklə, verginin qaytarılması halı mümkün olur. Əgər əvvəl ödənilmiş vergi güzəştin nəzərə alınması mümkün olmayan məbləğdən az olarsa, onda istifadə edilməmiş güzəşt növbəti həftələrdə gələcək vergi hesablamaları hesabına aid edilir. Ona görə də bütün il ərzində vergi ödənişlərinin ciddi uçotunu aparmaq lazım gəlir. Əgər iş düzgün şəkildə aparılarsa, onda bu, vergi ödəyicisi tərəfindən ilin sonunda

heç bir mürəkkəb əlavə hesablamalar aparmadan müvafiq vergi payının ödənilməsinə zəmanət kimi çıxış edir.

Qeyd olunan sistemin aydın görünən üstünlükləri ilə yanaşı, çatışmazlıqları da vardır. Belə ki, hər bir vergi ödəyicisi bütün il ərzində həftəlik vergi hesablamalarının aparılmasını təmin etməlidir ki, bu da inzibati baxımdan əlavə və əməktutumlu işdir. Vergi ödəyicisinin ailə vəziyyətində vergi ili ərzində baş verən dəyişikliklər də həmçinin, müəyyən mürəkkəbliklər yarada bilər.

**Korporativ vergi** şirkətlərin əvvəllər fəaliyyətdə olan vergitutma sistemini əvəz etmişdir. Korporativ vergi rezident şirkətlərin bütün vergi ili ərzində əldə etdiyi bütün mənfəətindən tutulur.

İngilis qanunvericiliyində "şirkət" anlayışına korporativ orqanlar və korporativ olmayan assosiasiyalar (yoldaşlıqlar istisna olmaqla - onlar fiziki şəxslər kimi vergiyə cəlb olunur) aid edilir. Rezident şirkətlərə o korporativ orqanlar aid edilir ki, onlar bu ölkədə fəaliyyət göstərir və həmin fəaliyyətə bu ölkədə nəzarət olunur, yəni bu şirkətin idarəetmə orqanı bu ölkədə yerləşir. Korporativ vergi şirkətin gəlirlərindən yol verilən xərclər çıxıldıqdan sonra tutulur. Bu sistemə beş əsas əlamət xasdır:

**1)** şirkət özünün bütün mənfəətindən (həm bölüşdürülmüş, həm də bölüşdürülməmiş) eyni dərəcə üzrə korporativ vergi ödəyir;

**2)** mənbədə dividendlərdən gəlir vergisi tutulmur;

**3)** əgər şirkət dividend ödəyirsə, onda o korporativ vergi hesabına cari vergi ödənişini aparmalıdır, yəni səhmdarlar arasında bölüşdürülməli olan mənfəət məbləğinə vergi dərəcəsini tətbiq etməklə hesablanmış avans korporativ vergini ödəməlidir;

**4)** dividendlər alan Böyük Britaniya rezidentlərinə icazə verilir ki, onlar gəlir vergisini ödəyərkən cari vergi ödənişi məbləğlərini nəzərə alsınlar;

**5)** hesabat dövrünün sonunda şirkət tərəfindən ödənilən cari vergi ödənişləri korporativ verginin ödənilməsi hesabına öhdəliklərin ümumi məbləğindən çıxılır.

Böyük Britaniyada özünün filialları vasitəsilə ticarətlə məşğul olan qeyri-rezident şirkətlər aşağıdakı gəlirlər üzrə korporativ vergini ödəyirlər:

- birbaşa, yaxud dolayışəkildə bölmələr, yaxud onların adından göstərilən ticarət fəaliyyətindən gəlirlər;
- bu bölmələr tərəfindən istifadə olunan mülkiyyətdən, yaxud mülkiyyət hüquqlarından gəlirlər;
- bu bölmələr tərəfindən istifadə olunan aktivlərin kapital artımı.

Qeyri-rezident şirkətlər Böyük Britaniyada yaranan, kapital artımı vergisinə cəlb olunmayan istənilən gəlirlərdən baza dərəcə üzrə vergiyə cəlb olunurlar. Eyni zamanda, qeyri-rezident şirkətlər bölüşdürülməmiş mənfəət məbləğindən cari korporativ vergini ödəmirlər.

Korporativ verginin aşağıdakı dərəcələri tətbiq olunur:

- 300 min funt sterlinqədək olan xalis mənfəətdən - 25 %;
- 1,5 mln. funt sterlinqdən yüksək olan xalis mənfəətdən - 33%.

Əgər xalis mənfəət məbləği 300 min funt sterlinqdən 1,5 mln. funt sterlinqədək olarsa, onda 300 min funt sterlinq məbləğindən 25%, həmin məbləğdən yüksək olan mənfəət payından isə 35% dərəcə üzrə vergi tutulur.

Vergi tutulan mənfəətin azaldılması müxtəlif xərc maddələri hesabına aparılır.

Şimal dənizində neft hasilatı ilə məşğul olan şirkətlər üçün xüsusi vergi rejimi tətbiq edilir. Bu şirkətlər 75% dərəcə üzrə neft korporativ vergisini ödəyirlər. Onlar ümumi korporativ verginin ödənilməsindən azad edilmirlər. Böyük Britaniya şirkətləri, həmçinin, kapital artımı vergisinə də cəlb olunurlar.

Kapital artımı vergisi mənfəət gətirən müəyyən növlü kapital aktivlərinin təqdim edilməsi zamanı tutulur. Şəxsi avtomobillər, binalar, milli əmanət sertifikatları, istiqrazlar və s. həmin aktivlərə aid edilir. Bu verginin məqsədi spekulyativ əqdlərin kəmiyyəti və mənfəətliyini məhdudlaşdırmaqdan ibarətdir. Bu zaman gəlirlər həmin əmlakın bazar dəyəri ilə onun alış dəyəri arasındakı fərqlə müəyyən edilir.

Fiziki şəxslər bu vergini gəlir vergisinin mövcud ən yüksək dərəcəsi üzrə, şirkətlər isə korporativ verginin əsas dərəcəsi üzrə ödəyirlər. Qeyri-rezident şirkətlər bu vergini ödəmirlər.

Miras vergisi vəsiyyət edənin sağ olduğu vaxtda (əgər vəsiyyət edilən vaxtdan sonrakı 7 il ərzində vəsiyyət edən vəfat etməzsə) hədiyyə etdiyi hədiyyə növlərinin əksər hissəsindən tutulmur. Əmlakın sahibinin dəyişməsi adlanan belə əməliyyatlar vergi qanunvericiliyində vergitutmadan "potensial azad olunan" kimi təsnif olunur.

Əmlakın hədiyyə kimi verilməsi anında vergi tutulmur. Lakin əgər hədiyyəni edən şəxs sonrakı 7 il ərzində vəfat edərsə, onda bu cür hədiyyə etmə əməliyyatları vergiyə cəlb edilir. Verginin dərəcəsi dəyəri 150 min funt sterlinqdən artıq olan əmlak məbləğindən 40% dərəcə ilə tutulur.

Təqaüd və müavinətlərin ödənilməsinə xərclənən sosial sığorta ehtiyaclarına ayırmalar vacib yeri tutur. Bu ayırmalar 4 mümkün qrupdan biri üzrə tutulur.

- **Birinciyə** (əsas qrupa) muzdla işləyən şəxslər və onların işəgötürənləri aid edilir.

- **İkinci** qrupa "özü məşğul" olan şəxslər, yəni muzd münasibətli məşğulluğa aid olmayan şəxslər daxil edilir.

- **Üçüncü** qrup üzrə işləməyən, yaxud əvvəlki iki qrupa aid edilməyən vətəndaşlar tərəfindən ödənilən könüllü ayırmalar təşkil edir.

- **Dördüncü** qrupa o şəxslər aid edilir ki, onlar ikinci qrup üzrə ayırma ödəyən (özü məşğul) şəxslərə aiddirlər, lakin onların gəlirləri müəyyən edilmiş məbləğdən yüksəkdir.

Ayırmaların dərəcələri müvafiq ödəmələrin edilməsi hüququnu verir. Muzdla işləyən şəxslər və onları işə götürənlər üçün ayırmaların dərəcələri diferensiallaşdırılmışdır. Həftədə 54 funt sterlinqdən az gəlir əldə edən şəxslər ayırmaların ödənilməsindən azaddırlar.

Əgər qazanılan gəlir bu məbləğdən yüksək olarsa, onda **ilk** 54 funt sterlinq məbləğindən 2% dərəcə üzrə, həmin məbləğdən yüksək olan gəlirdən isə 9% dərəcə üzrə ayırma tutulur.

**İkinci** və **üçüncü** qruplar üçün sabit dərəcələr üzrə uyğun olaraq bir həftədə 5,4 və 5,3 funt sterlinq məbləğində ayırmalar ödənilir.

**Dördüncü** qrup üzrə ayırmalar 6,3% dərəcə üzrə tutulur.

Əlavə dəyər vergisi (ƏDV) ümumavropa vergisi hesab edilir. Lakin Avropanın hər bir ölkəsi onu bir qədər fərqli şəkildə tətbiq edir. ƏDV ölkə büdcəsinin gəlirlərində payına görə gəlir vergisindən sonra ikinci yeri tutur və təxminən onun 17%-ni formalaşdırır.

Böyük Britaniyada ƏDV ticarət dövriyyəsinin əsas hissəsindən 17,5% dərəcə üzrə tutulur. Lakin bir sıra xidmət növləri ümumiyyətlə, vergiyə cəlb olunmur. Bu xidmətlərə aiddir:

- yeyinti məhsullarının əsas növlərinin satışı (hazır yeməklərin sifarişçilərə çatdırılması (satılması) istisna olmaqla);
- kitabların satışı;
- uşaq geyimlərinin satışı.

Pərakəndə satış üçün ƏDV-nin malın qiymətinə daxil edilməklə nəzərə alınması adi praktika hesab edilir. Pərakəndə ticarət əməliyyatları aparılarkən qiymətin müəyyən edilməsi zamanı bu amil nəzərə alınmalıdır. Ümumilikdə ƏDV şirkətlər üçün böyük məsrəflər yaratmır. Ona görə ki, o əsasən fərdi şəxslərin yükü olur. Əksər şirkətlər mal və xidmət alışlarını apararkən ödənilən ƏDV-nin bir hissəsini qaytarmalı olurlar.

Lakin Böyük Britaniyada səhiyyə və sosial təminat, təhsil, dəfn, maliyyə əməliyyatları və sığorta sahələrində fəaliyyət göstərən müəssisə və təşkilatlar özlərinin məhsul və xidmətlərini satarkən ƏDV-nin əvəzləşdirilməsini, məhsul və xidmətlər alarkən isə ƏDV-nin əvəzləşdirilməsini tələb edə bilməzlər. Onlar üçün ƏDV məsrəflər kimi nəzərə alınır.

Dolayı vergilər içərisində aksizlər ikinci yeri tutur. Alkoqollu içkilər, yanacaq, tütün məmulatları və nəqliyyat vasitələri aksizli məhsullar hesab edilir. Spirtli içki və yanacağa aksizlər məhsul vahidindən (hər litrdən) sabit məbləğ şəklində tutulur. Tütün məmulatlarına isə məhsulun qiymətinə faiz əlavəsi şəklində tətbiq edilir. Aksiz yığımlarının dərəcəsi 10%-dən 30%-dək olan intervalda dəyişilir.

Gerb yığımları əqd və şəxslərdən tutulan vergi deyil, bu sənədlərə görə ödənilən vergidir. Böyük Britaniyada tətbiq olunan ən

qədim vergilərdəndir. İlk dəfə gerb yığımları 1694-cü ildə daxil edilmişdir.

Gerb yığımları şəxslər tərəfindən mülki-hüquqi əqdlərin tərtib olunması zamanı sabit qiymət, yaxud xidmətin dəyərindən faiz əsasında tutulur. Kommersiya və hüquqi sənədlərə bu verginin ödənilməsini təsdiq edən xüsusi ştamp vurulur. Gerb yığımının dərəcəsi mülkiyyətinin dəyərinin 1%-i, qiymətli kağızlar üzrə isə onların alınmasına ödənilən qiymətin 0,5%-i təşkil edir.

**Böyük Britaniyanın yerli vergiləri.** Böyük Britaniyanın yerli vergilərinə əmlak və bələdiyyə vergisi aiddir.

Böyük Britaniyada yerli büdcələrin gəlirlərinin vergi daxilolmalarının əsas mənbəyini əmlak vergisi təşkil edir. O, daşınmaz əmlak-torpaq, yaşayış binaları, mağaza, zavod və fabrik mülkiyyətçilərindən və istifadəçilərindən tutulur. Həmin verginin ödəyicilərinin sırasına yaşayış binasını kirayə götürən və mənzil haqqı ödəyən şəxslər də aid edilir. Bundan əlavə, vergi orqanları istifadə olunmayan mülkiyyət sahiblərini də əmlak vergisinə cəlb edirlər. Kənd təsərrüfatı torpaqları və həmin torpaqlar üzərində yerləşən tikililər (yaşayış binaları istisna olmaqla), həmçinin, kilsələr vegitutmaya cəlb edilmir.

Vergitutma bazası əmlakın illik xalis dəyəri hesab edilir. Hər 10 ildə bir dəfə əmlakın dəyərinin yenidən qiymətləndirilməsi aparılır. Bu o məqsədlə edilir ki, əmlakın dəyəri real bazar dəyərinə uyğunlaşdırılmış olsun. Əmlak vergisinin dərəcəsi bələdiyyələrin maliyyə resurslarına olan tələbatı nəzərə alınmaqla tərtib olunur. Ona görə də onu kəmiyyəti Böyük Britaniyanın şəhərlər və qraflıqları üzrə bir-birindən əhəmiyyətli fərqlənir.

| Ümumi gəlirdən çıxılmalı olan xərclər |
|---|
| **İşgüzar xarakterli cari xərclər:**<br>- istehsal binalarının icarəsi;<br>- təmirin dəyəri;<br>- valyuta məzənnəsinin dəyişməsi nəticəsində valyuta borclarından itkilər.<br>**Özəl xarakterli cari xərclər:**<br>- yaşayış mənzilinin icarəsi;<br>- qeyri-istehsal xarakterli istənilən itkilər;<br>- binaların modernizasiyası üzrə xərclər. |
| - fəhlə və qulluqçuların işdən azad edilməsi zamanı kompensasiya ödəmələri;<br>- kadrların texniki və professional yenidən hazırlanma xərcləri;<br>- mükafat və hədiyyə növlü ödənişlər. |
| - şirkətin maliyyə məsələləri üzrə hüquqi məsləhət xərcləri |
| - lisenziya ödəmələri |
| - nümayəndəlik xərcləri |
| - şirkətin nümayəndələrinə ayrılan əyləncə xarakterli xərclər |
| - əməkdaşların əmək haqqı xərcləri ;<br>- su təchizatı, elektrik enerjisi, qaz və işıqlandırma xərcləri;<br>- poçt göndərişləri xərcləri;<br>- isitmə sistemi, telefon, dəftərxana ləvazimatı xərcləri. |
| - xeyriyyə fondlarına üzvlük haqlan və ianələr |
| - kommersiya və qeyri-kommersiya itkiləri |
| - ödəmə mənbəyində faiz, royalti, icarə və patent ödənişləri kimi gəlirlərdən tutulan gəlir vergisi |
| - hesabat dövrünə aid olan kommersiya xarakterli vaxtı keçmiş borclar |
| - elmi-tədqiqatlara çəkilən xərclər tam məbləğdə şirkətin ümumi gəlirlərindən çıxılır |

**Cədvəl 3.1. Ümumi gəlirdən çıxılan xərclər**

Vergi hər yarım ildə bir dəfə, rüblər üzrə, yaxud bərabər paylarla 10 dəfəyə tutulur. Aztəminatlılar üçün yerli vergilərin tutulması üzrə qanunla bir sıra güzəştlər (vergi dərəcəsinin 50% azaldılmasına əsaslanan vergi güzəşti) müəyyən edilmişdir. Xeyriyyə təşkilatları da güzəştlərdən istifadə edir.

Bələdiyyə vergisinin kəmiyyəti mülkiyyətin dəyəri nəzərə alınmaqla müəyyən edilir və bunun üçün yaşayış binasının (mənzilin) dəyərindən asılı olaraq verginin özünəməxsus şkalası tərtib olunur. Bu zaman hesablama hər evdə, yaxud mənzildə 2 nəfərin yaşaması nəzərə alınmaqla aparılır. Əgər mənzildə yaşayanların sayı 2 nəfərdən çox olarsa, bu nəzərə alınmır. Lakin mənzildə yalnız 1 nəfər yaşayarsa, onda ona 25% həcmində güzəşt edilir. Əmlak 8 mövcud qiymətləndirmə kateqoriyasından biri ilə təsnif edilir və sonra diferensasiyalı dərəcələr üzrə vergiyə cəlb olunur.

**Böyük Britaniyanın vergi islahatları.** Böyük Britaniyanın vergi sistemi XX əsrdə formalaşmış, lakin həmin dövrün gəlir vergitutmasının xüsusiyyətləri bu gün üçün də xarakterikdir. 1973-cü ilin vergi islahatları nəticəsində Böyük Britaniya vergi sisteminin strukturunda əhəmiyyətli dəyişikliklər edildi və onu Ümumi Bazar üzvü olan ölkələrin vergi sistemlərinin strukturuna yaxınlaşdırdı. Hazırda əksər dövlətlərin vergitutma sistemlərində bütün inkişaf etmiş ölkələr üçün xarakterik olan problemlərlə bağlı vacib dəyişikliklər edilir. Vergitutma sahəsində tədbirlər həm leyboristlərin, həm də konservatorların maliyyə-iqtisadi tədbirləri kompleksində vacib yeri tutur.

Ümumilikdə vergi qanunvericiliyinin islahatı vergi sisteminin mürəkkəb strukturu ilə bağlı olan problemlərin həlli edilməsinə, onun əsas prinsiplərinin təkmilləşdirilməsinə, əhalinin və şirkətlərin

birbaşa vergitutma sahəsində vergi bazasının genişləndirilməsinə xidmət edir. Ölkənin vergi islahatları sahəsində iki əsas istiqaməti fərqləndirmək mümkündür:

**1.** fərdi gəlir vergitutma sisteminin təkmilləşdirilməsi (planlaşdırılan tədbirlər 1987-ci ildə yekunlaşdırılmışdır);

**2.** şirkətlərin gəlir vergitutması sahəsində dəyişikliklər (1987-1988-ci illər göstərilən tədbirlər kompleksinin yekunlaşdırılması üçün keçid dövrü kimi müəyyən edilmişdi).

Böyük Britaniyada vergi islahatlarının əsasını təşkil edən tədbirlər aşağıdakılardır:

- fərdi gəlir vergisinin aşağı dərəcəsinin 27%-dən 20%-dək azaldılması;
- əhalinin gəlirlərinə münasibətdə tətbiq olunan proqressiv dərəcələrin çoxpilləli bölgüsünün aradan qaldırılması;
- ər və arvadın gəlirlərinin ayrı-ayrılıqda vergiyə cəlb edilməsi;
- fərdi vergi dərəcələrinin əhəmiyyətli dərəcədə artırılması [7, s. 168].

Gələcəkdə inkişaf etməkdə olan ölkələrə dərman vasitələrinin və daha ağır xəstəliklərə (QİÇS, malyariya, vərəm) qarşı vaksinlərin əvəzsiz olaraq verilməsi kimi xeyriyyə fəaliyyətinin vergiyə cəlb edilməsi qaydalarının təkmilləşdirilməsi nəzərdə tutulur.

Eyni zamanda, ölkə hökuməti ehtiyacı olan adamlara yardımın göstərilməsinə zəmanət verən tədbirlərin həyata keçirilməsini də zəruri hesab edir.

Böyük Britaniya iqtisadiyyatının səmərəliliyinin yüksəldilməsinə istiqamətləndirilmiş tədbir kimi hökumət islahatların, xüsusilə də kapital artımının vergiyə cəlb olunması sahəsində islahatın həyata keçirilməsini nəzərdə tutur. Kapitala sahib

olma dövrü 3 ildən artıq olarsa, kapital artımına verginin dərəcəsinin 40%-dən 22%-dək, 5 ildən çox olan müddətə isə 10%-dək endirilməsi nəzərdə tutulur. Müəssisələrin səhmlərinə 5 ildən az müddət ərzində sahib olan işçilərin kapital artımına görə gəlir vergisindən azad edilməsi təklif olunur.

## 3.4. Böyük Britaniyanın bank sistemi

**Plan:**
**1. Böyük Britaniyanın bank sisteminin mahiyyəti**
**2. Böyük Britaniyada bank idarələri**

**Böyük Britaniyanın bank sisteminin mahiyyəti.** Bank - fiziki və hüquqi şəxslərdən depozitlərin və ya digər qaytarılan vəsaitlərin cəlb edilməsi, öz adından və öz hesabına kreditlərin verilməsi, habelə müştərilərin tapşırığı ilə köçürmə və hesablaşma kassa əməliyyatlarını məcmu halda həyata keçirən hüquqi şəxsdir. Yəni, banklar iqtisadi vahidlərin məlum bir müddət xərcləmədikləri pulları əmanət formasında toplayaraq və başqa formalarda borc alaraq saxladıqları borcu verə bilər. Fondları kredit vermək, qiymətli kağızlar satın almaq, müxtəlif əməliyyatlarda iştirak etməklə işlədirlər. Pul yaradaraq iqtisadiyyatın pul tələbinin (likvid ehtiyacının) önəmli bir bölümünü ödəyir, ödəmələrə vasitəçi olmaq, pul həvalə etmək, sənəd qəbul etmək, kassa icarələmək kimi təklif edirlər.

Böyük Britaniyanın bank sistemi ən qədim bank sistemlərindən biridir. Konsentrasiya və ixtisaslaşmanın yüksək səviyyəsi, yaxşı inkişaf etmiş bank infrastrukturu, beynəlxalq kredit bazarı ilə sıx əlaqələr onu xarakterizə edən əsas xüsusiyyətlətdir. Bu

gün banklar aktivlərinin və kapitalının həcminə, regional əhatəsinə görə digər maliyyə vasitəçilərini dəfələrlə üstələyir.

Dünya maliyyə mərkəzi olan Londonda ingilis banklarından daha çox, əcnəbi banklar fəaliyyət göstərir. Bu hər şeydən öncə ABŞ və Yaponiya banklarıdır. İngiltərə banklarında əcnəbi valyuta depozitlərinin payı digər ölkələrdə olduğundan çox yüksəkdir.

İngiltərə bank sistemi ən geniş əcnəbi filiallar şəbəkəsinə sahibdir.

Dünya üzrə ən yeni müasir bankçılıq qanunu sayıla bilən Böyük Britaniyanın banklar haqqında qanununda bank əməliyyatları aşağıdakı kimi sıralanmışdır:

**1.** Əmanət olaraq pulların qəbulu (depozit qəbulu);

**2.** Başqalarına aid cari hesablar formasında nağdsız ödəmə işlərinin aparılması;

**3.** Kredit əməliyyatı;

**4.** Çek və veksellərin satın alınması, özəlliklə veksellərin diskontosu;

**5.** Valyuta əməliyyatları;

**6.** Qaranti əməliyyatı;

**7.** Qiymətli kağız əməliyyatları;

**8.** İnvestisiya əməliyyatı;

**9.** Faktorinq əməliyyatı.

Böyük Britaniya bank sistemi və üç səviyyəli struktura malikdir:

- **birinci səviyyədə**, İngiltərə Bankıdır. Onun əsas məqsədləri milli valyutanın məzənnəsinin dəstəklənməsi, maliyyə sisteminin sabitliyinin və rəqabət qabiliyyətinin təmin edilməsidir;

- **ikinci səviyyə**, həm rezidentlər, həm də qeyri-rezidentlər tərəfindən idarə olunan ixtisaslaşmış kommersiya bankları və qiymətli kağızların uçotu şirkətləri tərəfindən tutulur;

- **üçüncü səviyyə**, tikinti cəmiyyətləri və kredit ittifaqları ilə təmsil olunur [18, s. 245].

Hal-hazırda Böyük Britaniyada 344 bank fəaliyyət göstərir. Son illərdə onlayn və mobil bankçılıqda davamlı artım müşahidə olunub və bazarda yalnız onlayn fəaliyyət göstərən neobanklar da yaranıb.

Böyük Britaniyada yaşayan insanların təxminən üçdə ikisi onlayn bankçılıqdan və hər on nəfərdən dördü mobil bankçılıqdan istifadə edir. Bununla belə, fiziki banklar öz nüfuzunu saxlayır və Böyük Britaniyada hələ də təxminən 20 min filial var.

**Böyük Britaniyada bank idarələri.** Böyük Britaniyanın Mərkəzi (İngiltərə Bankı) Bankı parlamentin xüsusi aktı ilə yaradılıb. O 1694-cü ildə Fransa ilə səhmdar şirkət kimi müharibə aparılması üçün krala borc məbləğinin təqdim edilməsi məqsədilə təşkil edilib. Tərkibinə isə 1268 səhmdar daxildir.

Böyük Britaniyanın kredit sisteminin ikinci hissəsi **bank idarələridir.** Bank müəssisələri tarixən depozitlərin cəlb edilməsində ixtisaslaşdığına görə, bir çox hallarda depozit müəssisələr adlandırılır.

Kommersiya bankları depozit fəaliyyətlərini həyata keçirməkdən əlavə, qısamüddətli kreditlər verir, xarici ticarəti maliyyələşdirir. Həmçinin əmanətçilərin vəsaitlərini idarə edirlər. Depozit bankların müştəriləri müxtəlif cür həm iri müəssisələr və təşkilatlar, həm də şəxsi adamlar ola bilir. Ona görə də depozit bankları bəzən pərakəndə banklar adlandırırlar.

Klirinq banklar mühüm depozit banklara aid edilir. Bunlar klirinq (qarşılıqlı hesablama) öhdəliklərlə bağlı olan və London klirinq palatasına daxil olan ən böyük səhmdar banklardır.

Şotlandiyanın üç bankı və Şimali Irlandiyanın beş bankı da London klirinq palatasına daxildir. İngilis banklarının İngiltərədə oynadıqları rolu onlar orada yerinə yetirirlər. Bu banklar arasındakı ödəniş dövriyyəsi klirinq razılaşması çərçivəsində həyata keçir. Bu isə qarşılıqlı tələblərin hesablanması və saldonun köçürülməsi deməkdir.

Altı ingilis klirinq bankını fərqləndirirlər:

- “Barkleyz” (Barclays);
- “Neşnl Vestminster” (National Westminsner);
- “Midlend” (Midland);
- “Loyds” (Loyds);
- Williams & Glynes (“Uilyams and Qlayns”);
- “Kauts” (Coutts).

Birinci dörd bank “böyük dördlük” adlanan qrup yaratmışdır. 1960-cı illərin axırlarında iri bankların birləşməsi nəticəsində yaranan bu dördlük əməliyyatların 70%-nə qədərini həyata keçirir. Hal-hazırda Böyük Britaniyanın kommersiya banklarına qoyulan bütün əmanətlərin 92%-i “böyük dördlüyün”payına düşür [91].

Altı bankın son ikisi ölkənin maliyyə institutları sistemində daha az rol oynayır və digər banklar tərəfindən nəzarət olunur. “Williams & Glynes” bankı “Standard and Chartered” tərəfindən, “Coutts” bankı “National Westminsner” tərəfindən nəzarət olunur.

Sistem yaradıcı altı bankın İngiltərədə və Uelsdə 13 mindən çox şöbəsi vardır. Şotlandiyada və Şimali Irlandiyada iri ingilis banklarına filial açmaq qadağandır. Ona görə də onlar yerli depozit banklarında çoxsaylı iştiraklara malikdirlər ki, Şotlandiya və Şimali

İrlandiyadakı kommersiya banklarının siyasətlərinə təsir göstərə bilsinlər. Bütün depozit bankların əməliyyat həcminin təqribən 90%-i və Böyük Britaniyadakı bankların bütün sterlinq əmanətlərinin yarısı bu altı bankın payına düşür (onların törəmə şirkətləri də daxil olmaqla). Digər ölkələrdən fərqli olaraq, nəhəng İngilis bankları 1970-ci illərin əvvəllərində aparıcı mövqe tuturdu.

Bank kartelinin müdafiəsi altında olan bu banklar 1971-ci ilə kimi heç bir rəqabəti, demək olar ki, hiss etmirdilər. Bank karteli həm faiz dərəcələrinə, həm də bankların istismar şərtlərinə nəzarət edirdi. 1971-ci ildə rəqabət və nəzarət barədə qanunverici aktın qəbul edilməsindən və real rəqabətin bərpasından sonra bank karteli öz mövcudluğunu dayandırdı. 1980-ci illərin əvvəllərində iri bankların vəziyyəti bir qədər pisləşdi. 1996-cı ildə dünyanın aparıcı 100 şirkəti arasında Böyük Britaniyanın yalnız iki bankı var idi.

Son dövrdə klirinq bankların universallaşma tendensiyası aktiv şəkildə üzə çıxmağa başlamışdır. Onlar daha çox qeyri-bank xidmətlərini - sənayenin maliyyə əməliyyatlarına xidməti, ixracatın hazırlanmasını və maliyyələşdirilməsini və s. həyata keçirirlər. Klirinq bankları həyatın sığortalanmasında və səyahətlərin təşkilində aktiv şəkildə iştirak edirlər. Bütün bunlar klirinq banklarını maliyyə konqlomeratları kimi xarakterizə etməyə imkan verir. Onlar üçün bank əməliyyatları fəaliyyətin yalnız bir hissəsini təşkil edir.

Ətrafında çoxsaylı törəmə şirkətlərin qruplaşdığı “Barclays” bankı Böyük Britaniyanın iri bankıdır və bu xüsusiyyət digər iri banklar üçün də tipikdir. Bankın törəmə şirkətləri arasında fərqlənənlər aşağıdakılardır:

50 ölkədə 1650 filialı olan “Barclays Mercanet Ltd”, sığorta şirkəti kimi fəaliyyət göstərən “Barclays İnsurance Service Comrany Ltd, “Barclays Bank Trust Company” lizinq, ixracat maliyyələşməsi,

faktorinq əməliyyatlarını yerinə yetirən "Barclays Export and Finance Company Ltd" şirkəti, "National Westminsner", "Loyds" və "Midlend" şirkətləri kredit kartoçkaları ilə bağlı əməliyyatlarla məşğul olan "Excess UK Limited" səhmdar şirkətinin birgə sahibləridir.

"Barclays"in özünə məxsus olan "Barclaycard" şirkəti var. Klirinq bankları avtobankların (avtomat kassa aparatlarının) geniş şəbəkəsinə malikdirlər. Bu avtobanklar müştərilərə Böyük Britaniyanın istənilən nöqtəsində və günün istənilən vaxtında bir sıra əməliyyatlar həyata keçirmək imkanı verir: nağd pul almaq, hesabdakı qalığı öyrənmək, çek kitabçasını və hesabdan çıxarışı sifariş etmək.

**Maliyyə evləri də** depozit banklara şamil olunur. Onlara, hər şeydən əvvəl, istehlak krediti üzrə xüsusi banklar aiddir. Bu bankların aktiv əməliyyatlarının təqribən üçdə ikisi möhlətli istehlak kreditlərinin payına düşür. Onların da 60%-dən çoxu avtomobillərin alınması üçün verilir. İstehlak kreditinin rəsmiləşdirilməsi üçün müştəri applikasiya formasını doldurur. Bank oradakı məlumatları analiz edəndən sonra kreditin verilmə imkanı barədə qərar qəbul edir.

Lizinq əməliyyatları daha böyük əhəmiyyət kəsb edirlər. Maliyyə evləri, bir qayda olaraq, iri bankların və ya bu bankları öz vəsaitləri ilə müdafiə edən sığorta şirkətlərinin törəmə müəssisələridir. İri maliyyə evləri əmanətləri cəlb etmək və universal banklara transformasiya olunmaq imkanına malik olmaq üçün bank əməliyyatlarının əhatə dairəsini maksimal şəkildə genişləndirməyə çalışırlar.

Ticarət mərkəzlərindəki xüsusi bank məntəqələrini də maliyyə evlərinə aid etmək lazımdır (Money Shops). İlk belə şöbələr 1970-ci ildə yaranmışdır. Bunlar ABŞ-ın "First National City Bank

of Nyu-York" bankının filialları idi. Sonralar iri ingilis bankları da ticarət mərkəzlərində şöbələr açmağa başladılar. 1974-cü ilin sonunda onların sayı artıq 120 idi. Belə şöbələr banklarda hesabları olmayan insanlar üçün nəzərdə tutulmuşdur.

Hər şeydən əvvəl, şəxsi adamlar üçün nəzərdə tutulmuş çek və kredit kartoçkalarının istifadəsi ilə müşayiət olunan inkişaf etmiş çek dövriyyəsinə baxmayaraq, 1974-cü ildə yetkinlik yaşına çatmış britaniyalıların yalnız 35%-i, 1981-ci ildə isə 57%-i cari hesablara malik idi. Fərdi kreditlərin, yəni maddi təminatı demək olar ki, olmayan şəxsi adamlara kreditlərin təqdim edilməsi daha geniş yayılmışdır.

Lakin maliyyə evlərinin daha çox sayı, investisiya əməliyyatları da daxil olmaqla, adi bank əməliyyatlarını həyata keçirməyə başlayırlar. Maliyyə evləri bankların kreditləri, veksellərin uçotu hesabına, həmçinin iri sənaye və ticarət şirkətlərinin əmanətlərinin cəlb edilməsi yolu ilə pul əldə edirlər.

Böyük Britaniyanın kommersiya banklarının digər hissəsi **ticarət banklarıdır.** Onlar bank əməliyyatlarını tədriclə mənimsəmiş ticarət müəssisələrində yaranmışlar. Uzun müddət ticarət banklarının fəaliyyətinin əsasını  aksert əməliyyatlar təşkil etmişdir. Bu da ticarət banklarını aksept evlər sırasına aid etməyə imkan verir. Bəzi müasir ticarət bankları bank əməliyyatları ilə yanaşı sənaye və ticarət funkisyalarını da yerinə yetirirlər. Belə ki, ticarət bankları əsl bank əməliyyatları ilə yanaşı, sahibkarlara xidmət göstərir və qiymətli kağızlarla idarəetməni həyata keçirirlər.

Bütövlükdə, bu institutların fəaliyyəti çoxcəhətlidir. Onlar xarici ticarətin maliyyələşməsi, aksert biznesi ilə məşğul olur, korporativ borcalanları aktiv şəkildə kreditləşdirir, investisiyaları idarə edir, investisiya məsələləri üzrə məsləhətlər verir, maliyyə

konsorsiumları təşkil edir, təsisçilik fəaliyyətində, şirkətlərin birləşməsi və udulması kampaniyalarında iştirak edir və ya vasitəçi kimi çıxış edir, valyuta və qiymətli metallar bazarında əməliyyatlar keçirir, maliyyə əməliyyatlarının aparılması məsələləri üzrə məsləhətlər verirlər. Bundan başqa, onlar avadanlığın lizinqi üzrə, faktoriq üzrə əməliyyatları aktiv şəkildə genişləndirir, sığorta sferasına, möhlətli kreditləşməyə, gəmi və təyyarə fraxtı sahəsində vasitəçilik fəaliyyətinə daxil olur, o cümlədən mülkiyyətin idarəetməsi ilə məşğul olurlar.

Onların emissiya evləri qismində rolu daha nəzərə çarpandır. Bu rol qiymətli kağızların yerləşdirilməsində və təkrar bazar əməliyyatlarında vasitəçiliklə büruzə olunur. Ticarət bankları avroistiqrazlar bazarındakı əməliyyatlarda iştirak edir, sindikatlaşdırılmış konsorsiumların iştirakçıları olurlar.

“Rotshilds & sons”, “Barrings Brother”, “Lazard Brother & Co” və başqa ticarət banklarının 100-dən çox yaşı var. Bəzi iri kliringq bankları özlərinin xüsusi ticarət banklarına malik olur (məsələn, “Barclays” qrupu üçün tipik haldır), yaxud ənənəvi ticarət banklarında iştirak edirlər. Ticarət banklarını diferensiallaşdırmaq və kliringq banklarla müqayisə etmək çətindir. Çünki onlar kliringq banklarından çox kiçikdirlər.

**Birlikdə banklar** Britaniya imperiyasının keçmiş qüdrətinin simvolu olub, ölkənin dünya ticarətindəki tarixi rolunu təcəssüm etdirir. Bu bankların coğrafi yeri də onu bir daha sübut edir.

Birlik bankları öz fəaliyyətlərini əsasən keçmiş müstəmləkə imperiyasının ölkələrində həyata keçirirlər. Belə ki, “Barclays bank İnternational” əsasən CAR-da və Karib dənizi ölkələrində, “Loyds and Bolsa İnternational” kontinental Avropa ölkələrində və Cənubi Amerikada, “Rational and Grindlays Bank” Cənubi Asiyada, Şərqi

və Mərkəzi Afrikada fəaliyyət göstərirlər. Ümumilikdə, birgə bankların sayı 10-a yaxındır və onların baş kontorları Londonda yerləşir.

Bu bankların əksəriyyətinin kapitalı Britaniyanın maliyyə oliqarxiyasının əllərində mərkəzləşmişdir. İri "Standard Charted" bankının 1,4 min şöbəsi, qalan bankların isə 3,5 min şöbəsi var. Birgə banklar əsasən "pərakəndə" depozit – borc əməliyyatları ilə məşğul olurlar. İndiki zamanda onlar beynəlxalq banklara transformasiya olunmuşlar.

Böyük Britaniyanın kredit sisteminin inkişafında xarici banklar da mühüm rol oynayır. XX əsrin ikinci yarısında xarici bankların sayı sürətlə artmış, yüzilliyin sonunda 500-dən çox olmuşdur. Onların birgə aktivləri Birləşmiş Krallığın bütün banklarının aktivlərinin 60%-ni üstələyir. Xarici valyutada olan bütün depozitlərin təqribən 80%-i xarici bankların payına düşür. Böyük Britaniyadakı bankların əksəriyyəti ABŞ, Yaponiya, AFR və Fransanındir. Onların əsas funksiyaları xarici ticarətin maliyyələşdirilməsi, investisiyaların kreditləşdirilməsi, məsləhətlər və sairədir.

**Konsorsial banklar** – heç biri səhmlərin nəzarət paketinə malik olmayan ən azı iki ölkə bankının iştirakları ilə olan maliyyə-kredit institutlarıdır. Bunlar əsasən çoxmilli borcalanların xüsusi banklarıdır. Onlara hər şeydən əvvəl, transmilli və multimilli sənaye konsernləri aiddir. Bu növ iri banklara birtaniyalı, kanadalı və avstraliyalı tərəfdaşlarla işləyən "Midland and international bank Ltd", britaniyalı, amerikalı və yapon tərəfdaşlarla işləyən "Western American bank Europe Ltd", yaponiyalı, britaniyalı və amerikalı tərəfdaşlarla işləyən "İndustrial Commercial Barle" aiddir. Məsələ bundadır ki, bu banklar aparıcı ölkələrin banklarının pay iştirakı

əsasında yaradılmışdır, ona görə də onlar avrobazarda çox böyük vəsaitləri ən davamlı müddət üçün səfərbər etmək iqtidarındadırlar. Bankların heç bir başqa növü buna qadir deyil.

2020-ci ilin əvvəlindən Böyük Britaniyada "Open Banking" adlı yeni bankçılıq qaydaları qüvvəyə minib. Bu qaydalara əsasən, banklar müştərilərin icazəsi ilə üçüncü tərəfə informasiya ötürə bilərlər. Son nəticədə banklar texnologiya və yaxud pərakəndə satış şirkətlərinə müştərilərinə daha uyğun xidmətlər göstərməyə imkan yaradacaqdır [75].

"HSBC"i əlavəsində müştərilərə rəqəmsal xidmətlərin səviyyəsinin yüksəldilməsi məqsədilə istehlak xərclərini təhlil etməyə imkan verən funksiya olacaqdır.

Qeyd etmək lazımdır ki, son illər ölkə iqtisadiyyatının ümumən sağlamlaşması və əhalinin pul gəlirlərinin arttnası ilə yaranan müsbət meyl bank sistemində də belə meylərin güclənməsinə kömək etmişdir. Bankların məcmu aktivləri artmış, onların strukturu və keyfıyyəti təkmilləşmişdir. Kredit əməliyyatlarının həcmi xeyli artmış, kredit portfelinin keyfıyyəti yaxşılaşmışdır. Bankların nəzərəçaracaq dərəcədə genişlənmiş filial şəbəkəsinin regionların, kiçik və orta sahibkarlığın inkişafına köməyi güclənmişdir.

## 3.5. İngiltərə Bankının fəaliyyət istiqamətləri

**Plan:**

**1. İngiltərə Bankının fəaliyyətinin ümumi əsasları**

**2. İngiltərə Bankının təşkilatı strukturu**

**3. Böyük Britaniyanın pul siyasəti**

**İngiltərə Bankının fəaliyyətinin ümumi əsasları.** İngiltərə Bankı dünyanın qədim mərkəzi bankıdır. Bu bank dörd əsr bundan əvvəl, demək olar ki, müflisləşmiş hökumətlə maliyyəçilər - kreditorlar qrupu arasındakı sövdələşmə nəticəsində yaranmışdır.

XVII əsrin axırında İngiltərə maliyyə iflası həddində idi. Fransa ilə 50 il ərzində aramsız aparılan müharibə ölkənin iqtisadiyyatını çox zəiflətdi. O zaman hökumət məmurları hərbi kampaniyanın maliyyələşdirilməsinə pul almaq məqsədilə maliyyəçi-kreditorlarla danışıqlara girdilər. Şotland maliyyəçisi Vilyam Peterson özünün maliyyə qrupu adından hökumətə başqa plan təklif etdi və dövlət tərəfindən imtiyazların verilməsinin əvəzinə bank yaratmağı məsləhət gördü. Bu bank yeni banknotlar buraxmalı və kəsiri örtməli idi. İngiltərə Bankı 1694-cü il 27 iyul parlamentinin aktı ilə yaradılmışdır. Əvvəlcə orada 19 əməkdaş işləyirdi. Bankın kapitalı Böyük Britaniyanın ilk dövlət borcunu təmsil edirdi.

Bank 1268 səhmdarı birləşdirən səhmdar şirkət kimi fəaliyyət göstərirdi. O istənilən şəxsi bank kimi təsis olunduğu anda bazarda öz səhmlərini yerləşdirirdi. Adları heç zaman açıqlanmayan investorlar bir səhmə görə qızılla 1,3 mln. funt sterlinq ödəməli idilər [89].

Əslində, birinci haqq 1,2 min funt sterlinq təşkil etmiş, cəmi 70 min funt sterlinq ödənmişdir. Bu isə inflyasiya sıçrayışına gətirib çıxarmış, iki il ərzində Bank ödəniş qabiliyyətini tamamilə itirmişdir. Şəxsi zərgərlər bu vəziyyətdən müəyyən üstünlüklər qazanmışdılar.

İngiltərə Bankının banknotları dövr edən metal pullara sərbəst şəkildə mübadilə oluna bilirdi.

1699-cu ildə viqlər (siyasi partiya) aparıcı siyasi partiyasının maqnatları tərəfindən idarə olunan İngiltərə Bankı rəqabət təhlükəsi

ilə üzləşdi. Tori partiyası yeni National Land Bank təsis etməyə cəhd göstərdi. Lakin buna müvəffəq ola bilmədi.

İngiltərə Bankı dərhal tədbirlər gördü:

- 1697-ci ildə parlament İngiltərədə iri bankların təsis edilməsinə qadağa qoyan qanun qəbul etdi;

- İngiltərə Bankına London üzrə emissiya inhisar hüququ verdi. Bu qanuna müvafiq olaraq, İngiltərə banknotlarının saxtalaşdırılmasına görə ölüm hökmü kəsilirdi.

1708-ci ildə qanunvericilik daha da sərtləşdirildi. Adsız veksellər buraxmaq (bu hüquq yalnız İngiltərə Bankına verilmişdir), tərkibi altı nəfərdən (tərəfdaşdan) çox olan şirkətlər yaratmaq, həmçinin altı aya qədər qısamüddətli kreditlər təqdim etmək qanunsuz hesab olunurdu. Beləliklə, İngiltərə Bankının rəqibləri iştirakçılarının sayı yeddidən az olan kiçik banklar ola bilərdi.

Bu şərtlərə baxmayaraq, kraliça Annanın taxtda olduğu dövrdə İngiltərə Bankı tori (siyasi partiya) partiyası tərəfindən ciddi rəqiblərlə üzləşdi. 1711-ci ildə baş nazir Robert Harleyin rəhbərliyi ilə Cənub dənizi Şirkəti ("South Sea Company") yarandı. İngiltərə Bankının ciddi rəqibinə çevrilən bu şirkət doqquz ildən sonra müflisləşdi. Bu müflisləşmə İngiltərə Bankını əmanətçilərin həmlələrinə məruz etdi və Banka pul ödənişlərini dayandırmaq hüququ verildi.

Şotlandiyada Şahzadə Çarlinin taxta çıxdığı dövrdə də İngiltərə Bankı belə həmlələrə məruz qalmış və ödənişləri dayandırmışdır.

1734-cü ildə Bank Londonun mərkəzində Threadneedle Street küçəsində məxsusi onun üçün tikilmiş binaya köçürüldü. Sonralar həmin küçənin adına uyğun olaraq banka "Trednidl

küçəsindən qoca ledi" ("Old Lady of Threadneedle Street") ləqəbi verildi.

XVIII əsrin ikinci yarısında veksel buraxan şəxsi banklar meydana gəldi. 1793-cü ildə onların sayı 400-ə qədər idi.

Fransa ilə 1790-cı illərdə başlayan və onilliklər boyu davam edən müharibələrin maliyyələşdirilməsi nəticəsində 1793-cü ildə ölkənin hər üçüncü bankı tərəfindən, daha sonra isə İngiltərə Bankı tərəfindən də (1797-ci il) pul ödənişlərinin dayandırılması baş verdi. Sonralar qalan banklar da onlara qoşuldu. Bu fasilə Fransa ilə müharibənin sonuna qədər, 24 il davam etdi.

Həmin dövrdə və 1812-ci ilə kimi İngiltərə Bankının banknotları əsl pullar qismində xidmət edirdi (qanuniləşdirilmiş olmasa da), 1812-ci ildən 1821-ci ilə kimi isə qanuni ödəniş vasitəsi oldu. Gözlənildiyi kimi, bu dövrdə bir sıra etibarsız banklar yarandı.

1797-ci ildə İngiltərədə və Uelsdə təqribən 280 "country" (ölkə) bank var idisə, 1813-cü ildə onların sayı 900-ü keçmişdir.

1816-cı ildə banknotların ümumi sayı 24 mln. funt sterlinq təşkil etmiş, 1797-ci illə müqayisədə ikiqat artmışdır. Bütün bunlar İngiltərə Bankının fəaliyyətinə təsir göstərmiş və 1821-ci ildə ödənişlər bərpa ediləndən sonra Bankın səhmləri 16% düşmüşdür.

1826-cı ildə "Country Banker's Act of 1826" (1826-cı il Ölkə Bankları Aktı) adlanan akt qəbul olunmuşdur. Bu akt Londondan 65 mil radiusda yerləşən rayonlarda İngiltərə Bankının banknot buraxmaq inhisarını məhdudlaşdırmış və öz banknotlarını buraxa bilən digər bankların bu regiondan kənarda yaranmasına icazə vermişdir. Eyni zamanda akt banka İngiltərənin bütün rayonlarında öz filiallarını yaratmaq icazəsi də vermişdir.

1844-cü ildə ölkənin parlamenti qanun qəbul etdi (Robert Pil aktı). Bu qanun İngiltərə Bankı üzərində banknotların müstəsna emitent funksiyasını təsbit etdi.

1844-cü il qanunu İngiltərə Bankının seyfində saxlanan qızıl külçələr və ya qızıl pullarla təmin olunmayan pul kütləsinin banknotlarda ölçüsünü müəyyənləşdirdi. Məqsəd banknotların hədsiz, ifrat emissiyasının aradan qaldırılması və bununla da təsərrüfat sisteminin pul kütləsinə olan tələbatının adekvat təminatına kömək göstərmək idi.

Banknotların emissiyası Bankın kommersiya fəaliyyətindən ayrılmağa başladı (kreditlərin təqdim edilməsi). Bankın kommersiya fəaliyyəti tədriclə azalır və İngiltərə Bankı daha çox mərkəzi banka bənzəyirdi.

Hal-hazırda İngiltərə Bankının fəaliyyəti 1946-cı ildə qəbul edilmiş İngiltərə Bankı haqqında qanunla tənzimlənir. Bu qanuna əsasən, səhmdar kapital xəzinəyə verilmiş, onun keçmiş sahibləri isə dövlət istiqrazları şəklində yaxşı kompensasiya almışlar. Bu kompensasiya səhmlərin nominal dəyərini 4 dəfə üstələyirdi.

Beləliklə, Bank hökumət aparatının bir hissəsi olmasa da, bank rəhbərlərindən məlumat almaq və onlara tövsiyələr vermək səlahiyyətinə malik idi. İngiltərə Bankı öz tövsiyə və ya xahişlərinin yerinə yetirilməsini təmin etmək üçün xəzinənin sanksiyası ilə istənilən banka direktivlər verə bilərdi.

**İngiltərə Bankının fəaliyyəti. İngiltərə Bankının idarə heyətinin** təsdiq edilmə hüququ qanunla hökumətə verilmişdir. İdarə heyəti 5 illik müddətə təyin edilən müdir, onun müavini və 16 direktordan ibarətdir. Direktorlar dörd il müddətinə təyin edilir və hər il on altısından dördü dəyişilir. Dörd icraçı direktor Bankda daimi

əsaslarla işləyir, qalan 12-si isə kommersiya banklarını, sənayeni, elmi dairələri, həmkarlar ittifaqlarını təmsil edir.

1979-cu il aprelin 4-də ilk hərtərəfli ingilis bank qanunu kral tərəfindən təqdir edildi və 1979-cu ildə oktyabrın 1-də qüvvəyə mindi. Bu qanunla İngiltərə Bankının bank sisteminə nəzarət üzrə hüquq və öhdəlikləri təsbit edildi. 1979-cu il oktyabrın 1-dən başlayaraq, qanunun şamil edilə bildiyi depozit müəssisəsinin yaradılması üçün İngilis Bankının icazəsi zəruri idi. Bu halda depozitar müəssisənin fəaliyyəti haqqında ətraflı statistikanın təqdim edilməsi tələb olunur.

Məqsəd onun kriteriyalara uyğunluğu və onun tətbiqinə cavabdeh olanlar barədə məlumatı müəyyənləşdirməkdir. Əgər ərizəçi - müəssisə əsas fəaliyyətini Böyük Britaniyanın hüdudları xaricində həyata keçirirsə və depozitləri Birləşmiş Krallıqda şöbə vasitəsilə cəlb edirsə, İngiltərə Bankı nəzarət üzrə uyğun xarici idarədən təsdiq almalıdır ki, o, bankın idarəetməsindən və ümumi maliyyə dayanıqlığından məmnundur.

1987-ci ildə Ingiltərə Bankı bank fəaliyyətinə nəzarət üzrə əlavə hüquq və öhdəliklər aldı. Lakin on ildən sonra, 1997-ci ildə bank nəzarəti funksiyası yeni yaradılmış nəzarətedici orqana verildi.

İndiki zamanda İngiltərə Bankı öz fəaliyyətini üç prioritet **məqsəddən** çıxış edərək həyata keçirir:

- milli valyuta dəyərinin müdafiəsi;

- maliyyə sisteminin stabilliyinin təmin edilməsi;

- ölkə daxilində və beynəlxalq aləmdə maliyyə sisteminin effektivliyinin və rəqabətədavamlılığının təmin edilməsi və yüksəldilməsi.

İngiltərə Bankı aşağıdakı **funksiyaları** yerinə yetirir:

- kommersiya və digər mərkəzi banklar, həmçinin hökumət üçün bank rolunu oynayır;

- pul siyasətini reallaşdırır;

- banknotların emitenti olur və s. [23, s. 93].

Birinci funksiyanın yerinə yetirilməsi zamanı İngiltərə Bankı müştərilərin üç iri qrupuna xidmət edir.

**Birinci qrup** - kommersiya banklarıdır. Bütün klirinq bankların İngiltərə Bankında hesabları var. Klirinq əməliyyatlarda klirinq bankların İngiltərə Bankındakı hesablarından istifadə olunur. Banklar hesabda müəyyən məbləğə malik olmalı və onu aşmamalıdırlar. Fəaliyyətlərini Böyük Britaniyada həyata keçirən bütün banklar özlərinin bütün depozitlərinin cəminin 0,4%-ni İngiltərə Bankının hesabında (depozit) saxlayırlar. Ehtiyatların bu norması İngiltərə bankının əsas gəlir mənbəyidir.

**İkinci** qrup - digər ölkələrin mərkəzi banklarıdır. Xarici ölkələrin mərkəzi bankları Ingiltərə Bankında qızıl saxlayır və hesablara malik olur, Londondakı işləri Ingiltərə Bankı vasitəsilə apara bilirlər.

**Üçüncü qrup** - hökumətdir. Hökumətin İngiltərə Bankında hesabları olur. Beləliklə, büdcəyə gedən ödənişlər, vergilər və büdcədən sosial ehtiyaclara gələn ödənişlər İngiltərə Bankının hesabları vasitəsilə keçir.

**Böyük Britaniyanın pul siyasəti.** Böyük Britaniyanın pul siyasətinin əsas məqsədi qiymət stabilliyinin əldə edilməsidir. Qiymətlərin optimal səviyyəsinin saxlanması indiki zamanda iki istiqamətə malikdir:

- inflyasiya səviyyəsinin 2,5% və daha az olması;

- monetar siyasətin daha açıq (sərbəst) rejimi.

İngiltərənin pul siyasətinin mühüm aləti faiz dərəcələrinin səviyyəsinin tənzimlənməsidir.

Monetar siyasətin alətlərindən biri İngiltərə Bankının açıq bazardakı əməliyyatlarıdır. O ilk dəfə XX əsrdə 30-cu illərin əvvəllərində tətbiq olunmağa başlamış və İngiltərə Bankının uçot dərəcələrinin payını tədriclə azaltmışdır. Valyuta intervensiyaları kimi alətdən də aktiv şəkildə istifadə olunur. Lakin Böyük Britaniyada bu alət özünəməxsus spesifikliyə malikdir.

İngiltərə Bankı özünün bu tədbirlərdəki iştirakını geniş şəkildə işıqlandırır. Bu reklamın mahiyyəti valyuta bazarının digər iştirakçılarını Mərkəzi Bank üçün zəruri istiqamətdə fəaliyyət göstərməyə və bununla öz valyuta xərclərini azaltmağa inandırmaqdır. Bəzən mərkəzi bank bazarı "şifahi intervensiyalar" yolu ilə saxlamağa çalışır. Bu isə valyuta kursunun hərəkət tendensiyasına nəzərən özünün maraqlı olması barədə iştirakçıları məlumatlandırmaqdan ibarətdir.

İngiltərə Bankı ilə yanaşı xəzinə də Böyük Britaniyada monetar siyasəti həyata keçirir. Digər banklardan fərqli olaraq İngiltərə Bankı hökumətdən asılı olmadan fəaliyyət göstərə bilmir. İngiltərə Bankının 1946-cı ildə qəbul etdiyi akt xəzinəyə hüquq verir ki, o, İngiltərə Bankına göstəriş versin. Hərçənd xəzinə heç vaxt bu hüquqdan istifadə etməsə də, onlar arasındakı münasibətlər elə təşkil olunmuşdur ki, faiz dərəcələri ilə bağlı final qərarı maliyyə naziri qəbul edir. Bununla belə, İngiltərə Bankı qərarın qəbul edilməsində mühüm rol oynayır.

İngiltərə Bankı inflyasiya üzrə illik hesabatı (bu hesabatda məlumatın ətraflı analizi olur), həmçinin maliyyə naziri ilə Bank müdirinin faiz dərəcələri ilə bağlı görüşünün protokolunu (onların görüşündən altı həftə sonra nəşr olunur) nəşr etdirir. İnflyasiya və

faiz dərəcələri üzrə hesabatın hazırlanma prosesində İngiltərə Bankı daxili və xarici iqtisadi və pul faktorlarını - yaxın iki ildə inflyasiyaya təsir göstərə biləcək faktorları nəzərə alır.

Bankın faiz dərəcələri üzrə tövsiyələrində İngiltərənin müxtəlif rayonlarında sənaye və ticarətə təsir edən dəyişikliklər barədə məlumat olur. Bu məlumatlar İngiltərə Bankının agentləri tərəfindən təqdim edilir.

1997-ci ildə Mərkəzi Bankın dövlət borcunun idarəetməsi kimi funksiyası xəzinənin sərəncamına verilmişdir. Bu qərarın səbəbi dövlət borcunun idarəetmə funksiyası ilə faiz siyasətini ayırmaq cəhdi idi. Məqsəd daxili informasiyanın istifadəsi və maraqların toqquşmasından qaçmaq idi.

Artıq 300 ildir ki, İngiltərə Bankı öz banknotlarını buraxır. **Emissiya** böyük əmək xərclərini və çoxlu vəsait tələb edir. Banknotların dizaynı və istehsalı Esseksdəki Bank çap fabrikinin funksiyasıdır. Bank təkcə pulları çap etmir, həm də özünün beş şöbəsi vasitəsilə (Bristolda, Birminhemdə, Lidsdə, Mançesterdə və Nyukaslda) ölkədə olan kommersiya banklarını təmin edir, köhnə pulları dövriyyədən çıxarır.

5 funt sterlinq dəyərində olan pulun orta dövriyyə müddəti 1 il, 50 funt sterlinq dəyərində olan pulun orta dövriyyə müddəti isə 3-4 ildir.

Sonda bunu qeyd edək ki, İngiltərə Bankı hökumət bankıdır. Burada dövlət və hökumət qurumlarının hesabları var. Dövlətin bütün gəlirləri İngiltərə Bankının xəzinə hesablarına daxil edilir və bütün xərclər bu hesabdan ödənilir.

## 3.6. London Fond Birjası

**Plan:**

**1. London Fond Birjasının fəaliyyəti**

**2. London Beynəlxalq Maliyyə Fyuçersləri Birjasının fəaliyyəti**

**London Fond Birjasının fəaliyyəti.** Birja - xüsusi mülkiyyətə malik olan, birbaşa hüquqi məsuliyyət daşıyan, iştirakçıları qarşısında müvafiq hərəkətləri yerinə yetirmək səlahiyyəti verilən və müəyyənləşdirilmiş tələblərə cavab verən hüquqi şəxsdir. Tarixən birja əmtəə bazarlarını formalaşdıran klassik iqtisadi qurum kimi nəzərdən keçirilir. Onun fəaliyyətinin hüquqi, təşkilati və iqtisadi əsasları vardır. Fəaliyyətinin təşkil olunması baxımından birja, müvafiq avadanlıqla təchiz olunaraq, üzvlərinin istifadəsinə verilən "ticarət yeridir". İqtisadi baxımdan birja, qanunlar və digər nonnativ aktlar, öz qaydaları əsasında fəaliyyət göstərən, tələb və təklif nəticəsində yaranan qiymətlərlə məhsullar, qiymətli kağızlar, valyuta və s. ilə ticarət aparılan topdansatış bazarıdır.

London Fond Birjası (LSE - London Stock Exchange) 1773-cü ildə təşkil olunmuşdur. 1802-ci ildə qəbul olunan qaydalar 1986-cı ilə kimi, demək olar ki dəyişiklik aparılmadan qüvvədə olmuşdur. 1986-cı ilin noyabr ayında əvvəllər assosiasiya olmuş LFB özəl şirkətə çevrilmişdir. Onun səhmdarları hərəsinin 1 səsi olan broker-diler firmalarıdır.

II Dünya müharibəsindən sonra ingilis fond birjalarının inteqrasiyası prosesində onların hamısı LFB-nin regional bölmələrinə çevrilmişdir. 1986-cı ilədək London birjasının üzvləri qəti surətdə brokerlərə və cobberlərə bölünürdü. Birincilər əməliyyatları yalnız

komissiya haqqı müqabilində yerinə yetirir, ikincilər isə müştərilərin agent tapşırıqlarını yerinə yetirmək hüququ olmayan diler idi.

1990-cı illərin sonunda birjanın üzvlərinin sayı 1270-dən artıq olmuşdur.

Son 2 onillikdə baş verən, "böyük silkələnmə" adını almış mühüm dəyişikliklər nəticəsində qiymətli kağızlarla bağlanılan əqdlər üzrə komissiya haqlarının təsbit olunması, birja üzvlərinin broker və cobberlərə bölgüsü ləğv edilmişdir. Elektron sistem əsasında yeni ticarət sisteminə keçid son dərəcə mühüm hadisə olmuşdur. Bu dəyişikliklər birjada səs hüququnun təkamül yolu ilə fiziki şəxslərdən şirkətlərə keçməsini möhkəmləndirmişdir.

Hal-hazırda London Fond Birjasının tərkibinə firma və təşkilatların aşağıdakı qrupları daxildir:

- broker-diler fımraları. Onlar əqdləri öz hesabına icra etsələr də, qiymətli kağızların alqı-satqısı üzrə investorların tapşırıqlarını yerinə yetirirlər. Bu firmaların bəzisi yalnız bir, broker yaxud diler rolunda çıxış edir;
- market-meyker firmaları. Bu firmalar birjanın üzvüdür və iş günü ərzində müəyyən qiymətli kağızları kotirovka etməlidir; onlar birjada yerinə yetirilən bütün əməliyyatlarda mərkəzi yer tuturlar;
- broker-dilerlər. Onlar "giltlər" üzrə vasitəçi rolunda çıxış edir;
- fond birjasının pul brokerləri. Bunlar birjanın başqa üzvlərinə pul vəsaitlərini borca vennək hüququ olan birja üzvləridir.

Fond birjasında öz "taxçasına" malik olmaqla, onlar burada mühüm rol oynayır. Avropada səhmlərlə aparılan beynəlxalq əməliyyatların 90%-dən çoxunun London Fond Birjasının payına düşməsi faktı burada həyata keçirilən maliyyə əməliyyatlarının miqyası haqqında təsəvvür yaradır.

**London Beynəlxalq Maliyyə Fyuçersləri Birjasının fəaliyyəti.** London Beynəlxalq Maliyyə Fyuçersləri Birjası (LIFFE - London İnternational Financial Futures and Options Exchange) 1982-ci ildə yaradılmış və ABŞ ərazisində yerləşməyən ilk maliyyə fyuçersləri birjası olmuşdur. LBMFB-nin 215 üzvü arasında maliyyə və sənaye qruplarının nümayəndələri, habelə fiziki şəxslər - öz hesabına ticarət edən təcrübəli treyderlər vardır.

Bu birja tipik beynəlxalq birjadır: onun üzvlərinin 30%-i ingilis firmalarıdır (hal-hazırda isə (2022-ci ildə) 38%-i). 1990-cı illərin ortasında isə təqribən 60%-i Avropa, ABŞ və Yaponiya şirkətlərinin payına düşürdü. [3, s. 278].

Hazırda Qərbi Avropa firmalarının payı xeyli artmış, ABŞ firmalarının payı isə əvvəlki səviyyədə qalmışdır. 1998-ci ildə birjada hər gün təqribən 850 min müqavilə satılır, əsrimizin ilk onilliyində isə ticarətin həcmi hər il təxminən 50% artırdı.

Birjada ticarətin əsas metodu treyderlər və market-meykerlər arasında xüsusi "birja çalalarında" "səs" və əllə verilən standart işarələr vasitəsilə əqdlərin bağlanmasıdır. Hər bir "çalanın" yanında nizam-intizama riayət olunmasına nəzarət edən və mübahisə yarandığı halda münsif rolunu oynayan birja nümayəndəsi var. Opsionlarla ticarətdə market-meykerlər də iştirak edir və onlar cavabdeh olduqları opsionlara daimi nəzarət öhdəliyi götürürlər. Onlar bu opsionlar üzrə broker qismində, yəni komissiya haqqı əsasında iştirak edə bilməz. Başqa opsionlar üzrə isə onlar üçün qadağan yoxdur. Birjanın digər iştirakçıları əqdləri broker, diler qismində yerinə yetirə və opsionları müstəqil qiymətləndirə bilər.

## 3.7. Böyük Britaniyanın pul-kredit sistemi

**Plan:**

**1. Böyük Britaniyanın pul-kredit sisteminin mahiyyəti**

**2. Böyük Britaniya valyutasının tarixi**

**3. Böyük Britaniyanın monetar siyasəti**

**Böyük Britaniyanın pul-kredit sisteminin mahiyyəti.** Milyon il yaşı olan bəşər cəmiyyətində puldan təxminən 6-8 min ildir ki, istifadə olunur. Əmtəə mübadiləsinin tarixi inkişaf prosesində təbii və qanunauyğun hadisə eləcə də, bir iqtisadi vasitə kimi meydana çıxmış pul, hər kəsin maddi, sosial və mədəni maraqlarını əhatə edən elə bir məhsuldur. Onun vasitəsilə insanlar, xalqlar, ölkələr arasında iqtisadi və mədəni münasibətlər həyata keçirilir. Bu məşhurluq dünya ölkələrinin pul vahidlərinin öyrənilməsini şərtləndirir.

Böyük Britaniyanın funt sterlinq pul vahidinin Britaniya adalarında meydana gəlməsi mərkəzləşmiş dövlətin yaranmasından çox-çox əvvəl baş vermişdir. Hələ norman işğalından (1066-cı il) əvvəl yerli əhali gümüş penslərdən, yaxud sterlinqlərdən istifadə edirdi. Gümüşün bir funtundan 240 pens kəsilirdi. “Funt sterlinq” adı da məhz buradan yaranmışdır. Funt da öz növbəsində 20 şilinqə bölünürdü. Hər bir şillinq uyğun olaraq 12 pensə bərabər idi.

XIII əsrdə şillinqlər ilk dəfə pul şəklində kəsilmiş, artıq XIV əsrdə dövriyyədə qızıl funtlar peyda olmuşdur.

Pulların korlanması dövri olaraq pul dövriyyəsinin pozulmasına gətirib çıxarırdı. Məsələ bundadır ki, daha tam çəkili pullar ayrı-ayrı şəxslər tərəfindən dövriyyədən çıxarılır və sərvət şəklində toplanır, yəni tezavrasiya olunurdu. Pulların qiymətdən düşməsinə qarşı əhalinin bu təbii reaksiyası sonralar “Qreşem

qanunu" adını almışdır. Qreşem kraliça Yelizaveta dövründə hökumətin pul məsələləri üzrə məsləhətçisi idi.

1717-ci ildə sikkəxananın müdiri dahi fizik İsaak Nyuton funtun qızıl tərkibini müəyyənləşdirmişdir (7,3222382 q). Funtun bu tərkibi 1931-ci ilə kimi dəyişməz qalmışdır [23, s. 94].

Qızıl standartın rəsmi deklarasiyasına qədər Böyük Britaniya dünya birliyində dominant mövqe tuturdu. Müstəmləkə regionların iqtisadiyyatlarına yatırılan investisiyalar sayəsində və hazır məhsulların ixracatçısı, xammalın idxalçısı kimi müstəsna vəziyyətinə görə Böyük Britaniya bu mövqeyini saxlaya bilirdi. Bir çox ölkələr öz rəsmi ehtiyatlarını monetar qızıl formasında və ya London bankının depozitlərində saxlayırdılar. O dövrdə Londonda depozitlərdəki funt strelinqlər monetar qızıla bərabər tutulurdu.

Faktiki olaraq, müxtəlif ölkələrin valyuta kurslarının ingilis funtuna nəzərən sərt fiksasiyası mövcud idi. Əksər dövlətlərin monetar siyasəti Britaniyanın monetar siyasətindən asılı vəziyyətdə idi. Faiz dərəcələrinin Londondakı hər bir dəyişikliyi Bombeyin, Sinqapurun, Yoxannesburqun, Nyu-Yorkun valyuta və fond bazarlarında dəyişikliklər törədirdi. Böyük Britaniyanın valyuta sferasındakı üstünlüyü qızıl və gümüş istifadəsinin paralel şəkildə zəifləməsi, sönməsi ilə və gümüşün qızıl tərəfindən sıxışdırılması ilə müşayiət olunurdu.

**Böyük Britaniya valyutasının tarixi.** Dörd əsr ərzində mövcud olan bimetallik pul sistemi 1816-cı ilin qızıl standart qanunu ilə ləğv edildi. Lakin yeni sistemin fəaliyyətinin təmin edilməsi üçün metalın çatışmazlığı səbəbindən banknotların qızıla mübadiləsi və qızıl pulların kəsilməsi yalnız 1821-ci ildə həyata keçirilməyə başladı. 1821-ci ildən 1914-cü ilə kimi İngiltərədə qızıl standartın qızıl sikkə pul sistemi kimi forması fəaliyyət göstərirdi. Banknotların

emissiyası 1844-cü ildən başlayaraq, demək olar ki, 100% qızılla təmin olunurdu. Fidusiar, yəni təmin edilməmiş və etibara əsaslanmış emissiya həmin dövrdə illik 14 mln. funt sterlinqi aşmamalı idi.

Qızıl soveren (Böyük Britaniyanın qızıl pul sikkəsi), yaxud 20 şillinqlik sikkə 7,98805 qram ağırlığında idi və 0,9162/3 əyarına malik idi. 1914-cü ildə xəzinə soverenin əvəzinə 1 funt sterlinq və 10 şillinq dəyərində banknotlar buraxıldı [14, s. 389].

1928-ci ildə bu banknotların buraxılma funksiyasını İngiltərə Bankı öz üzərinə götürdü.

XX əsrin əvvəlində Britaniya iqtisadiyyatı üçün kapitalın böyük ixracı xarakterik idi. 1904-1913-cü illərdə kapitalın ixracatı demək olar ki, daxili kapital yatırımlarına bərabər idi. Britaniya imperiyasının ölkələri onun xarici investisiyalarının təqribən yarısını udurdu. Kapital yığımının xüsusiyyəti Böyük Britaniya iqtisadiyyatına daxili kapital yatırımlarının maliyyələşdirilməsində müstəmləkə və xammal şirkətlərinin aktiv iştirakı idi. 1910-1914-cü illərdə xarici investisiyalardan gələn təmiz gəlir ölkənin ÜDM-nin 8%-ni üstələyirdi [11, s. 254].

1914-ci ildə hökumət hərbi xərclərin ödənilməsi üçün banknotların qızıla mübadiləsini ləğv etdi. Qızıl pulları dövriyyədən çıxararaq, xəzinə biletlərini buraxmağa başladı. Hökumət öz hərbi xərclərinin maliyyələşdirilməsi üçün xəzinə biletlərinin emissiyasından aktiv şəkildə istifadə edirdi.

Müharibə dövründə bu emissiyanın ümumi məbləği 346 mln. funt sterlinq təşkil etmişdir. Bu, dövriyyədə olan bütün pul nişanlarının təqribən onda doqquz hissəsi idi. Kağız pulların artımı ilə birlikdə dövriyyənin kredit vəsaitlərinin kütləsi də artmışdır. Onun əsas mənbəyi hökumət istiqrazları idi. Elə bu səbəbdən də

İngiltərənin dövlət borcu 1914-cü ildən 1919-cu ilə kimi 11 dəfə artmışdır (0,7 mlrd. funt sterlinqdən 7,9 mlrd. funt sterlinqə qədər).

I Dünya müharibəsində İngiltərənin xarici iqtisadi mövqeləri çox zəiflədi. Buna səbəb digər ölkələr tərəfindən aktiv şəkildə həyata keçirilən "valyuta dempinqi" (dempinq – məhsulların daxili və xarici bazarda süni surətdə endirilmiş, orta pərakəndə qiymətlərdən aşağı, bəzən isə maya dəyərindən aşağı satılmasıdır) idi. Funt sterlinq kursunun ABŞ dollarına nəzərən düşməsi səbəbindən İngiltərənin kapital yatırımları qiymətdən düşürdü.

1919-cu ilin aprel ayında İngiltərə öz valyutasının qızıla mübadiləsini dayandıraraq onun "üzən" (üzmə sistemin mahiyyəti ondan ibarətdir ki, bütün valyuta vahidlərinin qızılla mübadilə olunma əlaqələri tamamilə aradan qalxır) kursunu tətbiq etmək məcburiyyətində qaldı.

"Üzmə" prosesində funt sterlinq dollara nəzərən orta hesabla 10% qiymətdən düşmüşdür. 1920-ci ildə gümüş pullarda təmiz gümüşün miqdarı 50%-ə qədər azalmışdır. Buna səbəb gümüşün qiymətinin yüksəlməsi idi. 1925-ci ildən 1931-ci ilə kimi qızıl külçə standartı mövcud olmuş və indiyə kimi fəaliyyət göstərən xırdalanmayan kredit pullar sistemi ilə əvəzlənmişdir.

1925-1928-ci illərdə pul islahatı keçirilmiş və bu islahat dövründə xəzinə biletləri dövriyyədən çıxarılmışdır. İngiltərə Bankına 260 mln. funt sterlinq həcmində banknotların fidusiar emissiya hüququ verilmişdir. Bu məbləğdən yuxarı həcm üçün parlamentin təsdiqi ilə xəzinənin icazəsi tələb olunurdu [5, s. 456].

1931-ci ildə Böyük Britaniya sterlinq blokuna rəhbərlik etdi. II Dünya müharibəsinin əvvəlində bu blok sterlinq zonasına - dünya ticarət dövriyyəsinin təqribən altıda birini əhatə edən iri valyuta zonasına çevrildi (dollar standartının tətbiqindən sonra 2-ci ehtiyat

valyutadan istifadə etmiş ölkə kimi mövqeyini itirən Böyük Britaniya 1970-ci illərin axırlarında sterlinq zonasının qəti iflasından sonra da beynəlxalq valyuta mühitində xüsusi yer tutmaqda davam edirdi).

1939-cu ilin sentyabr ayında İngiltərə Bankının qızıl ehtiyatı xəzinənin sərəncamına verilmiş və oradan da ingilis hərbi sifarişlərinin ödəniş hesabı ilə ABŞ-a göndərilmişdir. Nəticədə ölkədəki pul emissiyası qızılla əlaqəsini itirmiş və tamamilə fidusiar olmuşdur. Onun yeganə təminatı hökumətin öhdəlikləri idi. Ölçüləri isə ödəniş dövriyyəsinin və dövlətin monetar siyasətinin tələbləri ilə diktə edilməyə başlamışdır.

II Dünya müharibəsi dövründə İngiltərənin pul dövriyyəsi dövlətin hərbi xərclərinin maliyyələşmə tələblərinə uyğunlaşaraq çox artdı. Bununla belə, hərbi xərclərin maliyyələşməsində vergilərin yüksək payı (təqribən 40%) pul kütləsinin artımına ləngidici təsir göstərirdi. Bu dövrdə pul kütləsinin artımı I Dünya müharibəsi illəri ilə müqayisədə ümumilikdə daha az idi.

1939-cu ildən 1945-ci ilə kimi bank depozitlərinin ümumi məbləği 2,4 mlrd. funt sterlinqdən 4,6 mlrd. funt sterlinqə qədər, banknotların ümumi məbləği isə 0,5 mlrd. funt sterlinqdən 1,3 funt sterlinqə qədər artmışdır. Qiymətlərin artımı nisbətən mülayim (75%) idi. Bu isə qiymətlərə dövlət tərəfindən göstərilən nəzarət sayəsində mümkün olmuşdur.

1971-ci il 28 iyul tarixli qanuna müvafiq olaraq, əvvəllər buraxılan pullar – krona (kraun), ikiqat florin, florin, şillinq və altıpenslik – yenidən dövriyyəyə 25, 20, 10, 5, 2,5 yeni pens dəyərində buraxılmışdır.

1980-ci ildə altıpenslik, 1990-cı ildə isə 5 şillinq dəyərində pul dövriyyədən çıxarılmışdır. İngiltərə Bankı 5,10, 20 və 50 funt sterlinq dəyərində banknotlar buraxır. İngiltərə Bankının banknotları

İngiltərə və Uelsdə qanuni ödəniş vasitəsidir. Şotlandiya və Şimali İrlandiyanın bankları banknotları buraxmaq hüququnu saxlamışlar.

Böyük Britaniyanın iqtisadi sisteminin, o cümlədən pul və valyuta sistemlərinin dəyişdirilməsinin mühüm istiqaməti təsərrüfatın qeyri-tənzimlənməsi oldu. Böyük Britaniya ilə digər ölkələr arasında kapitalın hərəkətini məhdudlaşdıran valyuta nəzarəti 1979-cu ildə ləğv edildi.

1986-cı ilin oktyabr ayında London fond birjasının yenidən təşkili həyata keçdi və iqtisadi ədəbiyyatda "böyük partlayış" adını aldı. Minimal qeyd olunmuş komisyon haqları sadələşdirildi. Banklar və xarici müəssisələr üçün birjaya yol açıldı, birja üzvlərinə broker və cobber funksiyalarını birləşdirmək icazəsi verildi (yəni əməliyyatları öz hesabına aparmaq).

Qeyri-tənzimlənmə prosesi banklar tərəfindən göstərilən maliyyə xidmətlərinin artıq çoxdan bəri inkişaf edən diversifikasiya tendensiyasını və onların fəaliyyətlərinin universallaşdırılma tendensiyasını gücləndirdi. Nəticədə, Böyük Britaniya iqtisadiyyatı dünyanın ən qeyri-tənzimlənən iqtisadiyyatlarından biri oldu. Ölkə "azadlıq indeksi" adlı göstərici üzrə altıncı yerdədir (102 dövlətdən) (Sinqapur, Yeni Zelandiya, ABŞ, İsveçrə və Malayziyadan sonra gəlir.

**Böyük Britaniyanın monetar siyasəti** (monetar siyasət - zamanı iqtisadiyyat pul və onun alətləri vasitəsilə idarə edilir). 1980-ci illər ərzində Böyük Britaniya monetar siyasətin müəyyən formasını – pul kütləsinin targetingləşmə formasını həyata keçirirdi.

Pul targetinqinin (targetinq – reklam mexanizmi) digər formalardan əsas üstünlüyü aşağıdakılardır:

- mərkəzi bank tərəfindən milli prioritetlərin nəzərə alınması ilə monetar siyasəti təshih etmək imkanı;

- inflyasiyanın xaricilərdən fərqli olan məqsədli göstəricilərini müəyyənləşdirmək imkanı;
- xarici sarsıntılara qarşı durmaq qabiliyyəti.

Siyasət müəyyənləşdirilmiş pul aqreqatlarının dövri şəkildə elan edilməsi yolu ilə inflyasiya gözləmələrinə təsir göstərir və bununla da seçilmiş siyasəti həyata keçirməklə bağlı hakimiyyətin arzusunu və qabiliyyətini təkzib və ya təsdiq edir. Lakin 1990-cı illərin əvvəllərində hökumət əmin oldu ki, pul kütləsinin artımına nəzarəti həyata keçirmək çox çətindir.

İnflyasiya ilə mübarizənin yeni aləti kimi funtun mübadilə kursunun stabil alman markasına bağlılığı, yəni tarqetingləşmə seçilmişdir. Nəticədə Böyük Britaniya inflyasiyanın 1990-cı ildə 10%-dən 1992-ci ildə 3%-ə qədər aşağı salınmasına müvəffəq olmuşdur. Lakin Mübadilə kurslarının Avropa Mexanizminin (MKAM) böhranı səbəbindən Böyük Britaniya 1992-ci ildə mübadilə kursunun targetinq siyasətindən imtina etdi. Bu böhran britaniyalılar üçün yaxın gələcəkdə avronu tətbiq etmək imkanını aradan qaldırdı.

1990-cı ildə Almaniyanın birləşməsi və AB-nin bununla bağlı potensial xərcləri Avropa Birliyinin digər ölkələri üçün iki il ərzində maliyyə cəhətdən qeyri-stabillikdən xəbər vermirdi. Valyuta kurslarının tənzimlənmə sisteminin yaxınlaşacaq iflasından xəbər verən ilk əlamət (eyham) 1992-ci ildə "Bundesbank"ın prezidenti Şleyzinqerin çıxışı oldu. Şleyzinqer nüfuzlu iclasların birində bildirdi ki, investorlar vahid Avropa valyutasının stabilliyinin bərabər səviyyədə bütün Avropa valyutalarının zənbilindən asılı olmasını hesab edirlərsə, səhv edirlər. Bu eyham birinci növbədə həmin dövrdə pis vaxtlarını yaşayan italyan birjasına aid idi. Şleyzinqer əlavə etdi ki, əgər Avropa valyutası avro yox, marka olsa, bu daha yaxşı hesab edilər.

Dünyanın məşhur alverçisi və möhtəkiri Corc Soros bu bəyanata dərhal reaksiya verərək öz kapitallarını liranın zəifləməsinə yönəltdi. Sorosun hərəkətləri zəncirvari reaksiya yaratdı. Nəticədə İtalya hökuməti lira kursunu məqsədli MKAM zonası çərçivəsində saxlamaqdan imtina etdi.

MKAM-dakı vəziyyət həm də 1992-ci il 20 sentyabr üçün təyin edilmiş fransız referendumunun gözlənilən nəticələri ilə gərginləşmişdir. Maastrixt müqaviləsinin müdafiəsi ilə bağlı məsələnin səsvermə nəticələri mənfi olacağı halda AB-nin monetar inteqrasiyasının üstündən xətt çəkilərdi. Bu hadisənin əvvəlində AB-nin əsas lokomotivindən – alman markasından asılı olan funt avqustun 26-da Mübadilə kurslarının Avropa mexanizminin aşağı sərhədinə qədər düşdü.

Nəticə olaraq, Böyük Britaniya sərbəst möhtəkirçi kapitalların hücumu üçün obyekt rolunu oynamağa başladı. Funtun gücünü saxlamağa çalışan ingilis hökuməti dərəcələrin 2% qaldırılması barədə qərar çıxardı. Nəticədə möhtəkirlərin valyuta hücumu daha da gücləndi. Faiz dərəcələri günorta qaldırılmış, axşam isə ingilis funtu özünün MKAM-dakı üzvlüyünü dayandırmışdır. Sorosun ingilis funtu ilə həyata keçirdiyi əməliyyat ona iki gün ərzində 2 mlrd. dollar gətirdi. Bu əməliyyat Forex beynəlxalq valyuta bazarında ən böyük uğur hesab olunur.

1993-ci ildən başlayaraq, İngiltərə antiinflyasiya siyasətinin - qısamüddətli faiz dərəcələrinin dəyişdirmə siyasətinin digər elementindən istifadə etməyə başladı. Elə həmin ildə də İngiltərə Bankı yeni dərəcələrin tətbiq olunma vaxtını müəyyənləşdirmək imkanı əldə etdi, 1997-ci ildən başlayaraq isə faiz dərəcələrinin dəyişilməsi barədə müstəqil qərar çıxarmaq hüququ aldı.

ABŞ dollarına nəzərən funt sterlinq kursunun dinamikası funt sterlinqin mərhələli şəkildə düşməsini nümayiş etdirir. Belə ki, 1991-ci ildə 1 funt sterlinq 1,76 dollara bərabər idisə, 1998-ci ildə 1 funt sterlinqə görə 1,65 dollar verirdilər.

2001-ci ilin iyun ayında Böyük Britaniyada parlament seçkiləri ərəfəsində ingilis funt sterlinqinin kursu dollara və digər əsas valyutalara nəzərən kəskin şəkildə endi. London valyuta bazarının bağlanması zamanı 2001-ci ilin iyun ayında funtun kursu dollara nəzərən son 15 ildə ən aşağı səviyyəyə düşdü. Həmin dövrdə 1 funta 1,4 dollar verilirdi.

Hal-hazırda (2023-cü il) 1 funta 1,3 dollar nisbətindədir.

Beləliklə, yuxarıda qeyd edilənlərdən belə bir nəticəyə gəlmək olar ki, ölkədə iqtisadi artım sürətinin dayanıqlı olmasını təmin etməyin əsası ÜDM-nin pul kütləsinin həcminə uyğunluğunun tənzimlənməsindən ibarətdir. Odur ki, ölkədə pul kütləsinin tənzimlənməsi və dövlətin maliyyə-pul sisteminin təhlükəsizliyinin möhkəmləndirilməsi üçün pul tədavülünün normallaşdırılması, ölkədaxili qarşılıqlı ödəmələrin “bağlanması”, mərkəzdə və yerlərdə səmərəli və dayanıqlı fəaliyyət göstərən kredit - hesablaşma bazasının yaradılması və iqtisadiyyatın monetizasiyası (iqtisadiyyatın pulla təminatı səviyyəsini xarakterizə edən göstəriciləri özündə ehtiva edir) sahəsində tədbirlərin həyata keçirilməsi zəruridir.

# IV FƏSİL
# BÖYÜK BRİTANİYANIN SOSİAL-İQTİSADİ PROBLEMLƏRİ

## 4.1. Böyük Britaniyada demoqrafiya

**Plan:**

**1. Böyük Britaniyanın demoqrafik vəziyyətin ümumi xarakteristikası**

**2. Böyük Britaniya əhalisinin tərkibinin formalaşması**

**Böyük Britaniyanın demoqrafik vəziyyətin ümumi xarakteristikası.** Bəşəriyyət yarandığı gündən hər hansı bir regionda əhalinin məskunlaşma səviyyəsi, forması, onların kəmiyyət və keyfiyyət göstəriciləri, hər şeydən əvvəl, həmin ərazinin təbii-coğrafi mövqeyi ilə bağlı olmuşdur. Mənimsənilmə və yaşamaq üçün əlverişli iqlimi, torpağı, zəngin bitki və heyvanat aləmi olan ərazilər insanların daha çox toplandığı, məskunlaşdığı məkanlar sayılmışdır.

Əhalinin öyrənilməsi onların səmərəli məskunlaşması, şəhər və kənd məntəqələrinin inkişafı, səmərəli məşğulluğunun təmini, miqrasiyanın nizamlanması, regional inkişaf fərqlərinin azaldılması üçün vacibdir.

Böyük Britaniyada əhalinin sayı və tərkibinin müəyyən edilməsinə qədim zamanlardan təşəbbüs göstərilmiş və bəzən onun qeydiyyata alınmasına da cəhd edilmişdir. Əhalinin qeydiyyata alınması XVIII əsrdə daha ardıcıl və geniş miqyas almağa başlamışdır. Bu dövrdə dünyanın inkişaf etmiş bir sıra ölkələrində əhalinin demoqrafik baxımdan öyrənilməsinə maraq daha da güclənmişdir.

Böyük Britaniya adambaşına düşən gəlir, urbanizasiya, savad səviyyəsi və sosial təminata görə dünya ölkələri arasında ilk yerlərdən birini tutur. Başqa ölkələrdən Britaniya özünün inkişaf səviyyəsi və həddən artıq çətin kompleks quruluşu ilə fərqlənir.

Əhalinin böyük təbii və iqtisadi-coğrafi rayonlar üzrə yerləşməsi və məskunlaşması xüsusiyyətləri baxımından böyük əhəmiyyət kəsb edir.

Böyük Britaniyada demoqrafik siyasətdə iki istiqamət üstünlük təşkil edir:

**1.** Dövlət uşaqların tərbiyəsinin hansısa bir hissəsini öz öhdəsinə götürür. Milli gəlirin müəyyən hissəsi ailəyə kömək üçün ayrılır. Bu halda, maliyyə müavinətləri pulla, yaxud natural şəkildə ödənilir. Birinciyə ailəni birbaşa dəstəkləmək tədbirləri daxildir:

- sosial sığorta müavinətləri;
- mükafatlar;
- uşaqların saxlanmasına yönəldilmiş müxtəlif növ güzəştlər.

Güzəştlər və əlverişli şərtlərlə kredit almaq imkanı formasında olan kömək də buraya daxildir.

**2.** Ailəyə və onun vasitəsilə doğuma təsir göstərmək üçün nəzərdə tutulan siyasət xüsusilə seçilir. Bu siyasətin tədbirləri heç də həmişə əhali siyasətinin tərkib hissəsi olmur. Hər şey dövlətin qarşısına qoyduğu məqsəddən asılıdır.

**Böyük Britaniya əhalisinin tərkibinin formalaşması.** 2023-cü ildə Böyük Britaniya əhalisinin sayı 69,2 mln. nəfər olmuşdur.

Sürətli sosial-iqtisadi inkişaf istənilən ölkədə həmişə əhalinin artımına səbəb olur. Lakin əhalinin artması, eyni zamanda, qarşıya bir çox vacib məsələlər qoyur. Məsələn, əhali artdıqca yeni iş yerlərinin yaradılmasını, ərzaq, mənzil məsələlərinin uğurlu həllini və s. tələb edir. Böyük Britaniya bu məsələləri həmişə diqqət

mərkəzində saxlayır və həmin istiqamətdə öz məqsədyönlü tədbirlərini davam etdirir.

| İllər | Əhali sayı (mln. nəfər) | Əhalinin artım səviyyəsi (%-lə) |
|---|---|---|
| 2015 | 65,6 | 0,67 |
| 2016 | 66 | 0,67 |
| 2017 | 66,5 | 0,66 |
| 2018 | 66,9 | 0,63 |
| 2019 | 67,4 | 0,60 |
| 2020 | 67,7 | 0,55 |
| 2021 | 68,2 | 0,63 |
| 2022 | 68,9 | 0,63 |
| 2023 | 69,2 | 0,63 |

**Cədvəl 1.1. İllər üzrə əhali sayı**

Əhalinin 49,2%-i kişi, 50,8%-i qadındır.

Ölkədə əhali sıxlığı yüksəkdir. Hər kv.km-ə 274,5 nəfər düşür.

Son illər şəhər və kənd yerləri üzrə əhalinin təbii artımında fərqlər müşahidə olunmaqdadır. Şəhər əhalisi üzrə orta təbii artım göstəricisi hər 1000 nəfərə 11,2 olduğu halda, bu rəqəm kənddə 137,3-ə çatır. Şəhər yerlərində təbii artımın kəndə nisbətən az olmasının səbəbi sosial-iqtisadi amil deyil.

Əhalinin 17,3%-ni 0-15 yaşarası, 66,2%-ni 15-65 yaşarası, 16,5%-ni 65 və daha çox yaşarası olanlardır.

Əhalinin orta ömür müddəti kişilər üçün 78 il, qadınlar üçün isə 82,3 ildir. Son 20 ildə, xüsusilə də son 10 ildə Böyük Britaniyada uğurla həyata keçirilən sosial-iqtisadi islahatların nəticəsi olaraq,

ölkədə demoqrafik vəziyyətin və əhalinin orta illik artım göstəricilərinin yaxşılaşmasına, orta ömür müddətinin uzadılması və müsbət miqrasiya saldosuna nail olunmuşdur.

| İllər | Əhali sayı (mln. nəfər) | Əhalinin artım səviyyəsi (%-lə) |
|---|---|---|
| 2025 | 69,7 | 0,58 |
| 2030 | 70,6 | 2,18 |
| 2035 | 71,8 | 1,87 |
| 2040 | 73,1 | 1,71 |
| 2045 | 74,3 | 1,61 |
| 2050 | 75,4 | 1,45 |
| 2055 | 76,3 | 1,18 |
| 2060 | 76,9 | 0,92 |
| 2065 | 77,6 | 0,80 |
| 2070 | 78,2 | 0,80 |
| 2075 | 78,8 | 0,78 |
| 2080 | 79,4 | 0,69 |
| 2085 | 79,8 | 0,59 |
| 2090 | 80,2 | 0,53 |
| 2095 | 80,6 | 0,49 |
| 2100 | 80,9 | 0,41 |

**Cədvəl 1.2. Əhali sayının gələcək illər üzrə proqnozu**

Ölkədə savadlılıq səviyyəsi 99%-dır.

Onun milli tərkibində ingilislər 81,5%, şotlandlar 10%, irlandlar 4% xüsusi çəkiyə malikdir.

İngilislər İngiltərənin əhalisinin əsasını təşkil edən yerli xalqdır. Orta əsrlərdə Böyük Britaniya adalarında anqllar, sakslar,

frizlər, yutlar qədim german tayfaları və həmçinin onlar tərəfindən adaların assimilyasiya edilmiş kelt əhalisindən yaranıb.

Hal-hazırda özünü ingilis hesab edən 55 mln., ingilis əsilli isə 110 mln. nəfər vardır. Onlar əsasən ABŞ, Kanada, Avstraliya, Yeni Zelandiya və CAR-da yaşayırlar.

Birləşmiş Krallıqda hakim din xristianlığın müxtəlif formalarıdır. Əhalinin 71,1%-i xristian, 4,4%-i müsəlman, 21%-i ateist və digər dinlərə etiqad edənlərdir. Dövlət siyahıya almasının nəticələrinə görə, XX əsrin ortalarındandan bəri kilsəyə müntəzəm olaraq gələnlərin sayında kəskin azalma, immiqrasiya və demoqrafik dəyişikliklər nəticəsində başqa dinlərə sitayiş edənlərin sayının artmasına baxmayaraq, vətədaşların əksəriyyəti xristiandır.

Ölkə əhalisinin 89%-i şəhərlərdə yaşayır. Bu ilk növbədə immiqrasiya hesabına formalaşıb. II Dünya müharibəsindən sonra şəhərlərin böyüməsi daxili miqrasiya nəticəsində olmuşdur. Şəhər əhalisinin çox hissəsi iri şəhərlərdə, xüsusilə də liman şəhərlərində cəmləşmişdir.

Ağdərili olmayan vətəndaşların 45%-i Londonda yaşayır (qaradərili afrikalıların 78%-i, Karib dənizinin sakinlərinin 61%-i, Banqladeşlilərin 54%-i).

Əhalinin məşğulluq strukturunda kənd təsərrüfatı aparıcı yer tutsa da, son vaxtlar xidmət sahələri, eləcə də emal sənayesinin rolu artır, ixtisaslı kadrlardan istifadə edilməsi səviyyəsi yüksəlir.

Fəal əhalinin 28%-i maddi istehsalının aparıcı sahəsi hesab edilən sənayedə, 2%-i kənd təsərrüfatında, 70%-i isə xidmət sferasında çalışmaqdadır.

Ölkədə 34 mln. nəfər işləyən əhali vardır.

Böyük Britaniyada iqtisadi inkişaf, əhalinin sosial xidmətlərlə təmin olunması səviyyəsinin artması, maddi nigah göstəricilərin

yaxşılaşması səhiyyə və təhsil sahələrinə olan tələbi dəyişdirir. Bu proses aşağıdakı aspektləri özündə cəmləşdirir:

- təbii artımın azalması, orta ömür müddətinin artması və bununla əlaqədar olaraq qeyri-iqtisadi aktiv əhalinin əmək ehtiyatlarındakı payının yüksəlməsi müvafiq olaraq pensiya təminatı sistemində, səhiyyə sahəsində dövlət xərclərinin artırılmasını tələb edir;
- demoqrafik strukturun dəyişməsi ilə əlaqədar iqtisadi aktiv əhalinin də sayının artması əmək bazarında təklifin artmasına işsizliyin səviyyəsinin qalxması ehtimalını artırır;
- əmək haqqının və onun minimum səviyyəsinin qaldırılması istehsal xərclərinin artmasına bu isə işçi qüvvəsinə olan tələbin azaldılmasına təsir edir;
- iqtisadi inkişafda sosial amillərin rolunun artması davamlı insan inkişafı strategiyasında ekoloji faktorların rolunu artırır.

İngilis dili dövlət dili olmaqla dünyada 500 mln. insan bu dildə ünsiyyət saxlayır.

## 4.2. Böyük Britaniya əmək bazarının regional inkişafı

**Plan:**

**1. Böyük Britaniya əmək bazarının regional kəsişməsi**

**2. London və İngiltərənin Cənub-Şərqinin regional əmək bazarları**

**3. İngiltərənin şimalının regional əmək bazarları**

**4. Şotlandiyanın regional əmək bazarları**

**5. Uelsin regional əmək bazarları**

**Böyük Britaniya əmək bazarının regional kəsişməsi.** Regional problemlər, xüsusən də əmək bazarının vəziyyəti və işsizlik həmişə Böyük Britaniyanın həm Mühafizəkarlar, həm də Leyboristlər hökumətlərinin iqtisadi siyasətinin əsas məsələlərindən biri olmuşdur. Bu siyasət ya iqtisadi cəhətdən ən geridə qalmış rayonların vəziyyətini yüngülləşdirməyə, ya da dövlətin subsidiyaları hesabına yerli inkişafı stimullaşdırmağa yönəlmişdir. Böyük Britaniyanın regionlarının iqtisadi bərabərsizliyi XX əsrin 30-cu illərindən aydın şəkildə özünü göstərir. Hələ o vaxtlar Şimali İngiltərə, Şotlandiya, Uels və Şimali İrlandiya regionlarının bir hissəsinin bu regionlarda ənənəvi olaraq istehsal olunan məhsulların - kömür, toxuculuq və gəmilərin bazarlarının azalması səbəbindən kəskin inkişaf problemləri var idi.

Bir qayda olaraq, inkişaf etmiş ölkələrdə iri şəhər aqlomerasiyalarının yerləşdiyi regionlar yeni sənaye müəssisələri ilə müqayisədə daha tez iş yerlərini itirir və onları daha ləng yaradır.

Son 50 ildə Böyük Britaniyada geridə qalmış regionların coğrafi bölgüsündə əhəmiyyətli dəyişikliklər olmuşdur. Bu tendensiyanın bəzi istisnaları çox qısamüddətli idi. Hətta 1990-cı illərin əvvəllərində işsizliyin regional səviyyədə tənzimlənməsi tədricən dayandı və yerini məşğulluğun çoxdan müəyyən edilmiş coğrafi bölgüsünə verdi (1980-ci illərlə müqayisədə işsizlik nisbətlərində daha kiçik fərq olsa da).

Beləliklə, Britaniya hökumətinin əmək bazarının tənzimlənməsinə və sosial münaqişələrin qarşısının alınmasına

yönəlmiş fəaliyyəti ümumilikdə digər Qərb ölkələrindəki analoji proqramlara və BƏT-in (Beynəlxalq Əmək Təşkilatı) "Ədalətli qloballaşma" sənədinə uyğundur:

- peşə hazırlığı və məşğulluq sisteminin yaradılması;
- sosial xarakterli məlumatların toplanması və yayılması;
- əmək bazarında daimi tələb və təklif, işsizlikdən sığorta fondlarının yaradılması;
- sosial təminat sistemlərinin inkişafı.

Son illərdə hökumətin bu istiqamətdə səyləri artan praktiki məzmunla doldu. Bunlar əsasən aşağıdakılardır:

- xüsusi ictimai işlər üçün konkret proqramların hazırlanması;
- işçi qüvvəsinin planlaşdırılması;
- yeni iş yerlərinin yaradılması üçün texnologiyanın təkmilləşdirilməsi;
- periferiyanın inkişafı;
- peşə hazırlığı və yenidənhazırlanma sistemləri vasitəsilə qadınların, gənclərin, ahılların məşğulluğunun artırılmasına yardım.

Digər ölkələrlə yanaşı, Böyük Britaniya əmək haqqının daha çevik tənzimlənməsi, əmək qanunlarının təkmilləşdirilməsi, işsizlikdən sığorta fondlarının istehsalın stimullaşdırılmasına yönəldilməsi, işçi qüvvəsinin coğrafi mobilliyini təşviq etmək, işə qəbul və işdən azad edilmənin tənzimlənməsinin aradan qaldırılması və digər üsullarla işsizlik problemini kökündən həll etməyə çalışır.

BƏT-in "Ədalətli qloballaşma" hesabatında qeyd olunduğu kimi, əmək bazarında dəyişikliklərin idarə edilməsi üzrə dinamik strategiya qloballaşmanın yaratdığı sosial problemlərin həlli üzrə milli siyasətin mərkəzi elementidir.

Böyük Britaniya istisna olmaqla, bütün ölkələrdə iqtisadiyyat dövlət müdaxiləsini tələb edir. Bu da istehsalın texnologiyanın,

ticarət formalarının və daxili tələbin strukturunun dəyişməsinə struktur uyğunlaşması zərurəti, habelə sektoral artım templərindəki fərqlər səbəbindən yaranır. Bu amillər, öz növbəsində, qadınların əmək bazarında artan iştirakı və qeyri-rəsmi məşğulluğun artması ilə əlaqədar işçi qüvvəsinin strukturunda baş verən dəyişikliklərlə üst-üstə düşür. Dinamik əmək bazarı siyasəti ölkənin texnoloji pillələrdə irəliləmək imkanlarını gücləndirir, qlobal istehsal şəbəkəsində əlavə dəyərin milli payının artırılmasına və ixtisaslı işçi qüvvəsi üçün iş yerləri ilə təchiz edilmiş yeni rəqabətqabiliyyətli müəssisələrin yaradılmasına kömək edir.

## 4.6. Böyük Britaniyada işə götürmə bazarının xüsusiyyətləri

**Plan:**
**1. Böyük Britaniya əmək bazarının konfiqurasiyası**
**2. Böyük Britanıyanın işə qəbul agentlikləri**

**Böyük Britaniya əmək bazarının konfiqurasiyası.** Son zamanlar Britaniya əmək bazarının konfiqurasiyasının dəyişməsinə və onun qlobal əmək bazarına daha sıx inteqrasiyasına töhfə verən mühüm amillərdən biri ölkədə işə qəbul xidmətləri sektorunun sürətli inkişafı olmuşdur. Bu da cütləşməni optimallaşdırmağa imkan verir.

Böyük Britaniyada konsaltinq və işə götürmə şirkətləri uzun müddətdir ki, uğurla fəaliyyət göstərirlər. İlk agent-məsləhətçilər ölkədə iki əsr əvvəl, texniki inqilabdan əvvəl meydana çıxmışdır.

XX əsrin əvvəllərində isə Böyük Britaniya ABŞ ilə birlikdə indiki formada konsaltinqin vətəninə çevrildi. Bu gün Qərbi Avropada ən inkişaf etmiş və tələb olunan konsaltinq sahəsi işə qəbuldur. Lakin Britaniyada işə qəbulun öz xüsusiyyətləri vardır.

Britaniya sahibkarlarının dəyər sistemini və biznesin milli xüsusiyyətlərini başa düşərək, Böyük Britaniyada işə qəbulu nəzərdən keçirmək lazımdır. Böyük Britaniya müstəmləkəçi dövlət kimi uzun müddət öz müstəmləkələrinin təbii sərvətlərindən iqtisadi cəhətdən istifadəni davam etdirdi. Ölkənin özündə isə bir qayda olaraq istehsal texnologiyaları, idarəetmə texnologiyaları, idarəetmə texnologiyaları inkişaf etdi. Təsadüfi deyil ki, bu gün bütün qitələrdə filialları və fabrikləri olan bir çox transmilli şirkətlər London, Liverpul, Qlazqodakı ofislərdən idarə olunurlar. Bu baxımdan Britaniya əmək bazarında ixtisassız işçi qüvvəsinə tələbat azalır və idarəedici və mühəndis kadrlarına tələbat artır [15, s. 82].

Bu gün ölkə daxili, həm Avropa, həm də beynəlxalq bazarlarda işləməyə hazır olan ixtisaslı kadrlara kəskin ehtiyac duyur. Böyük Britaniya Avropa İttifaqını siyasi qurum kimi çox da fəal dəstəkləməsə də, uzun müddətdir ki, işə qəbul sahəsində Avropa ilə uğurla əməkdaşlıq edir. Böyük Britaniyanın işə qəbul siyasəti aşağıdakı əsas hökumət proqramlarına əsaslanır.

**1. New Deal - 24 yaşa qədər gənclər və 25-50 yaş arası işsizlər üçün peşəyə "giriş" üçün şərait yaradılmasını nəzərdə tutan məşğulluq proqramı:** Aydın tələblər, onların yerinə yetirilməməsi dövlət tərəfindən sosial yardımın əhəmiyyətli dərəcədə azalması və "Yeni sövdələşmə" proqramında iştirak edən şirkətlərə geniş maliyyə dəstəyi ilə nəticələnir. Britaniyada işsizlik Avropanın ən aşağı hədlərindən birində qalmağı bacarır. Bununla belə, bu proqramın görünən sərtliyinə baxmayaraq, Böyük Britaniyada orta iş həftəsinin 37,5 saat olduğunu qeyd etmək lazımdır. İşçilər həmçinin dörd həftəlik illik ödənişli məzuniyyət və güclü sosial müdafiə ilə təmin olunurlar;

**2. Work Trial - İngilis iqtisadçılarının ixtirası, sözdə "sınaq" işi:** Layihənin mahiyyəti ondan ibarətdir ki, işçi üç ay ərzində sürətini artıra, özünü sınaya bilər (yeni yer, sosial müavinətləri itirmədən (işə gediş-gəliş xərclərinin ödənilməsinə qədər)). Məşğulluğun bu növü işsizlərə işini, sosial faydalarını və özünə inamını itirmək riski olmadan öz güclü tərəflərini, biliklərini, bacarıqlarını qiymətləndirməyə bu və ya digər işin onların imkanlarına nə dərəcədə uyğun olduğunu müəyyən etməyə imkan verir. "Work Trial" layihəsi müəyyən bir peşədə kifayət qədər inamı olmayanlar üçün məşğulluq risklərini azaltmaq məqsədi daşıyır;

**3. Yüksək Bacarıqlı Miqrant Proqramı (YSMP) - bu gün ölkədə xüsusilə tələbat olan fəaliyyət sahələrində miqrantlar arasında yüksək səviyyəli mütəxəssislərin müəyyənləşdirilməsinə yönəlmiş xüsusi proqramdır:** Böyük Britaniyanın bu gün ehtiyac duyduğu şəxslər üçün yaşayış icazəsi, iş icazəsi və yaşayış icazəsi almaq üçün sadələşdirilmiş prosedur tətbiq edilir. 2002-ci ildə başlanmış bu proqramda iştirak xarici mütəxəssislərə Britaniya cəmiyyətinə inteqrasiyanın çətin yolunu və karyera yüksəlişini kəskin şəkildə qısaltmağa imkan verir. HSMP proqramı çərçivəsində işçi qüvvəsinin əsas istehlakçıları işə qəbul agentlikləri, onların simasında isə böyük beynəlxalq konsernlərdir;

**4. Jobcentre Plus:** dövlət əmək birjalarının, elektron birjaların, işə qəbul agentliklərinin və təhsil müəssisələrinin imkanlarını birləşdirən xüsusi işə qəbul mərkəzlərinin yaradılmasını nəzərdə tutan genişmiqyaslı inteqrasiya olunmuş layihədir. Bu layihə üzərində daha ətraflı dayanmağın mənası var.

Əslində, söhbət prinsipcə yeni, çevik işə qəbul sisteminin yaradılmasından gedir. Müxtəlif mənbələrdən toplanmış çoxlu məlumatların istifadəsi işə qəbul agentliklərinə əmək bazarındakı

bazar dəyişikliklərini tez bir zamanda idarə etməyə imkan verir. Bir çox işəgötürmə agentlikləri əmək bazarının geniş çeşidli mümkün sektorlarından əsas istiqamət seçərək diqqəti ümumi işə qəbuldan məqsədyönlü işə götürməyə çevirir.

**Böyük Britanıyanın işə qəbul agentlikləri.** Təhsil müəssisələrinin işə qəbul prosesinə qoşulması bizə konkret ixtisasın təklif bazarını təhlil etməyə və gənc mütəxəssislərin işlə təmin olunması ilə məqsədyönlü şəkildə məşğul olmağa imkan verir. Xaricdə iş təmin etmək istiqamətində işə qəbul Böyük Britaniya bazarı üçün yeni oldu. Avropa informasiya məkanına inteqrasiya müəyyən dar sahələrdə mütəxəssislərin işlə təmin olunması ilə bağlı problemlərin həlli üçün qonşu ölkələrin ehtiyatlarını birləşdirməyə imkan verir. Belə ki, əvvəllər Asiya, Afrika, Avropada törəmə şirkətləri olan Britaniyanın ana şirkətləri törəmə müəssisələrin kadr siyasətinə müdaxilə etmirdilərsə, bu gün kommunikasiyanın inkişafı, texnologiyaların unifikasiyası və bütün istehsal zəncirində xərclərə qənaət edilməsi zərurəti xüsusi təlim keçmiş mütəxəssislərə tələbləri artırır.

Əslində, Britaniyanın işə götürmə bazarı bu gün “sintez” və “parçalanma”nın eyni vaxtda baş verdiyi real canlı orqanizmə bənzəyir, yəni bir tərəfdən dövlət məşğulluq agentliklərinin, işə qəbul agentliklərinin, təhsil müəssisələrinin, məlumatların birləşməsi var. Digər tərəfdən, əmək bazarının subyektləri arasında funksiyaların getdikcə aydın şəkildə bölüşdürülməsi müşahidə olunur.

İşə qəbul agentlikləri artıq tam işə qəbul dövrü təmin etmirlər. Lakin getdikcə daha çox xüsusi ixtisaslaşdırılmış əməliyyatların peşəkar icrasına diqqət yetirirlər. Bəzi agentliklər, məsələn, öz fəaliyyətlərini internetdə namizədlərin axtarışına

yönəldiblər. Böyük konsaltinq xidmətləri xaricdə artıq yaradılmış kadr mərkəzləri şəbəkəsindən istifadə edərək, konsernlər və TMK-lar üçün kadr seçiminə arxalanmışdır.

Beləliklə, on ildən artıqdır ki, işə qəbulla məşğul olan “Hays Recruitment” bu gün dörd qitənin 25 ölkəsində yerləşən şaxələnmiş transmilli strukturdur. Bu şirkətin 370 kadr mərkəzində 8 minə yaxın insan çalışır. “Hays Recruitment” bu gün Böyük Britaniyanın İT, mühəndislik, əczaçılıq, maliyyə və memarlıq üzrə aparıcı işə götürmə agentliyidir. Bundan əlavə, 2007-ci ildən şirkət beynəlxalq menecment və marketinq üzrə mütəxəssislərin cəlb edilməsi sahəsində fəal işləyir.

Bu gün “Hays Recruitment” transmilli işə götürmə şəbəkəsi kadrların axtarışı, seçilməsi, təlimi, təkmilləşdirməsi və məşğulluğu sahəsində infrastruktur xidmətləri bazarında Böyük Britaniyanın ən böyük şirkətidir. “Renfield Consulting Group” və “Bluefire Consulting Ltd” ölkənin əsas şirkətlərindən biridir. İşə götürmə xidmətləri bazarında onlar nisbətən yenidirlər. Lakin artıq özlərini yaxşı sübut etməyi bacarıblar [65].

Skandinaviya təcrübəsini götürməyə başlayan Böyük Britaniya “liberal” Anqlo-Sakson modelindən bir qədər uzaqlaşaraq rifah dövlətlərinin tipologiyasında yeni mövqe tutmağa başladı. Bu yeni model “Skandinaviya” modelindən götürülmüş sosial müdafiənin bəzi elementləri ilə liberal sosial dövlətin iqtisadi göstəriciləri və çevikliyinin birləşməsidir. Böyük Britaniyanın sosial siyasətində ən əhəmiyyətli dəyişiklik diqqətin yoxsulluğun azaldılmasına yönəldilməsi olub və Skandinaviyada olduğu kimi eyni şərtlərlə: işsizlik müavinətləri işəgötürənlə müsahibə və ya potensial faydalananlar üçün yenidən hazırlıq təliminə məruz qalır.

Bu dəfə ABŞ-dan və əvvəlki mühafizəkar hökumətdən götürülmüş yeni vergi güzəştləri sistemi əhalini mümkün qədər uzun müddət işləməyə, məşğulluq və işsizlik arasındakı intervalları qısaltmağa sövq edir. Çünki işdən kənar qalma müddətində maliyyə itkiləri ola bilər. Bu tədbirlərin həyata keçirilməsi xəzinədarlıq üçün kifayət qədər baha başa gəlir. Lakin onlar Böyük Britaniya üçün xarakterik olan yüksək məşğulluq səviyyəsini saxlamaq üçün zəruridir. Bundan əlavə, onlar artıq yoxsulluğu və bərabərsizliyi azaldıblar.

Böyük Britaniyada aparılan islahatların ikinci və çox mühüm hissəsi əmək bazarının tənzimlənməsidir. Çevik əmək bazarı sosial siyasətin əsası olaraq qalır. Çünki o, məşğulluğu təmin edir və digər Avropa ölkələrinə nisbətən miqrantların assimilyasiyasını asanlaşdırır. Lakin bu, yoxsulluq və bərabərsizlik səviyyəsinin digər Aİ ölkələrinə nisbətən daha yüksək qalmasının əsas səbəbi olaraq qalır. Güclü həmkarlar ittifaqlarının olmaması müxtəlif kateqoriyalı işçilər arasında çox böyük maaş fərqləri ilə nəticələnir.

Yaxın illərdə Avropa ölkələri təkcə qloballaşmanın yaratdığı çətinliklərlə deyil, həm də artan seçki tələbləri, texnoloji, sosial və demoqrafik dəyişikliklərlə üzləşməli olacaqlar. Bu da öz hökumətlərinin qarşısına qoyduğu məqsədlərə nail olmağı çətinləşdirəcək. Və təbii ki, Leyboristlər Avropanın Böyük Britaniyanın təklif etdiyi yolla getməsini görmək istərdi.

Qloballaşmanın təsiri və Avropa ölkələrinin əmək bazarlarında vəziyyətin dəyişməsi nəticəsində son on il ərzində Böyük Britaniyanın sosial siyasətində baş verən dəyişikliklər, leyboristlərin fikrincə, məhz kurs olduğunu göstərdi. Onlar ölkənin ümumi iqtisadi göstəricilərinin yaxşılaşdırılmasına, işsizliyin

azaldılmasına və əhalinin ən yoxsul təbəqələrinin vəziyyətinin yaxşılaşdırılmasına töhfə verən səylər göstərirlər.

Hələ 1997-ci ildə Leyboristlər hökuməti sosial siyasətində dörd mühüm dəyişiklik etdi:

- **Birincisi,** ən mühümü əmək bazarında dövlətin əhalinin işlə təmin olunmasına köməklik göstərməyə yönəlmiş "aktiv siyasətinin" həyata keçirilməsi idi;

- **İkinci,** dəyişiklik uşaqlı ailələrə yardımın eyni vaxtda artırılması ilə vergi güzəştləri,

- **Üçüncüsü,** sosial yardım xərclərinin artırılması;

- **Dördüncüsü,** isə uşaqlara dəstək üçün etimad fondunun yaradılması.

Bu tədbirlər Böyük Britaniyanın artıq "liberal" rifah dövləti siyasətindən və klassik liberal modeldən uzaqlaşdığı anlamına gəlir. Əslində, yüksək məşğulluğu, iqtisadi dinamizmi, vergitutma yolu ilə sosial ehtiyacları maliyyələşdirən aktiv sosial dövlətin xüsusi "İngilis-sosial modeli"ndən danışmaq olar. Bu o deməkdir ki, Böyük Britaniya sosial sığorta sistemlərinin mövcud olduğu və həmkarlar ittifaqlarının böyük siyasi və iqtisadi rol oynamağa davam etdiyi, onu tənqid edən Fransa və AFR-dən daha yüksək sosial ədalət səviyyəsinə nail ola bilər.

Böyük Britaniya iqtisadiyyatı həmişə dünya iqtisadiyyatına yüksək dərəcədə inteqrasiya ilə səciyyələnir. Başqa ölkələrlə ticarət və investisiya əlaqələri buna həmişə böyük təsir göstərmişdir. Artan qloballaşma şəraitində bu iqtisadi əlaqələr daha da genişlənir və möhkəmlənir.

# VI FƏSİL
# DÜNYA İQTİSADİYYATINDA BÖYÜK BRİTANİYANIN YERİ VƏ ROLU

## 5.1. Böyük Britaniyanın dünya iqtisadiyyatında mövqeyi

**Plan:**

**1. Böyük Britaniyanın dünya təsərrüfatında tutduğu mövqe**

**2. Böyük Britaniyanın beynəlxalq və regional təşkilatlarda mövqeyi**

**Böyük Britaniyanın dünya təsərrüfatında tutduğu mövqe.** Böyük Britaniya dünya iqtisadiyyatında mühüm yer tutan və beynəlxalq münasibətlərdə böyük rol oynayan yüksək inkişaf etmiş sənaye ölkəsidir. Dünyada hansı hadisə baş verirsə, dünya ictimaiyyəti həmişə Londondan gələn məsləhətlərə qulaq asır.

Britaniya bazar iqtisadiyyatına malik olan "ən qədim" ölkələrdən biridir. O, burjua inqilabını edən və feodalizmdən inkişaf etmiş bazar münasibətlərinə keçən ilklərdən biridir. Kapitalist istehsal münasibətləri, beynəlxalq sığorta sistemi və ilk beynəlxalq şirkətlər orada yaranıb. Həmçinin XX əsrin ortalarına qədər ən böyük kapital ixracatçısı idi.

Bu gün Böyük Britaniya beynəlxalq iqtisadi və siyasi əlaqələrin inkişafına böyük təsir göstərən ən böyük dövlətlərdən biri olaraq qalır.

Böyük Britaniya ÜDM-in həcminə görə (3,1 trln. dollar) 8-ci yerdə olmaqla dünyanın ən inkişaf etmiş on ölkəsindən biridir. Dünya ÜDM-nin 3,8%-ni, dünya ticarətinin 5,6%-ni istehsal edir.

Güclü ÜDM artımı sayəsində 2022-ci ildə Böyük Britaniyanın dünya iqtisadiyyatdakı mövqeyi 2021-ci illə müqayisədə yaxşılaşıb. 2022-ci ildə ÜDM artımı illik müqayisədə 1,3% təşkil edib ki, bu da Avropa ölkələri arasında ən yüksək göstərici olub [88].

Həmçinin həmin il adambaşına düşən ÜDM 45,1 min dollar təşkil edib. Eyni zamanda onun əhalisi dünya əhalisinin 1%-dən də azını (69,2 mln.) təşkil edir.

Böyük Britaniyanın hərbi xərcləri dünyanın 3,9%-ni, silahlı qüvvələrin sayı - 1,0, nüvə potensialı - 1,1%-ni təşkil edir [87].

Bu rəqəmlər bu ölkənin dünya iqtisadiyyatı və siyasətində oynadığı mühüm roldan xəbər verir.

**Böyük Britaniyanın beynəlxalq və regional təşkilatlarda mövqeyi.** Böyük Britaniya – BMT-nin üzvü, onun Təhlükəsizlik Şurasının, NATO-nun, yeddilər qrupunun ("Böyük yeddilik"), iyirmilər qrupunun ("Böyük iyirmilik"), Britaniya İttifaqının (əksəriyyəti keçmişdə Böyük Britaniyanın idarəçiliyi altında olmuş 54 dövlətin könüllü assosiasiyası), Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının üzvüdür [35, s. 45].

Böyük Britaniya İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının, Ümumdünya Ticarət Təşkilatının, Beynəlxalq Valyuta Fondunun və Dünya Bankının, həmçinin, bir sıra yenidənqurma və inkişaf regional bankların (Afrika, Avropa, Karib hövzəsi ölkələri, Aşıya ), Avropa İnvestisiya Bankının, Paris və London kreditor klublarının üzvüdür.

Ölkə yuxarıda göstərilən beynəlxalq inteqrasiya birlikləri, iqtisadi və maliyyə təşkilatları və razılaşmaları çərçivəsində kollektiv qərarların qəbul edilməsində vacib rol oynayır.

Böyük Britaniya həmçinin 36 iştirakçı dövlətdən ibarət "çirkli pulların yuyulması" ilə (cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya mülkiyyətin leqllaşdırılması) mübarizənin maliyyə

tədbirlərinin işlənib hazırlanması Qrupunun (Financial Action Task Force on Money Laundering – FATF) və 54 iştirakçı dövlətin olduğu Egmont Group of Financial İntelligence Units fəaliyyətində fəal iştirak edir.

Həmçinin Atom enerjisi üzrə Beynəlxalq Agentliyin (MAGATE) üzvüdür və MAGATE-nin idarə Şurasına daxildir.

Böyük Britaniya özünün iqtisadi və maliyyə gücündən irəli gələrək ənənəvi olaraq "Böyük yeddilik" və "Böyük iyirmilik" üzvləri arasında lider mövqelərə malikdir [32, s. 359].

Böyük Britaniyada ÜTT ilə qarşılıqlı əlaqədə koordinasiya edici rolu Ümumdünya Ticarət Təşkilatı həyata keçirir. ÜTT çərçivəsində Britaniya hökumətinin siyasətinin prioritet istiqamətləri bunlardır:

- ticarət prosedurlarının sadələşdirilməsi;
- investisiyaların cəlb olunması üçün şəraitin yaradılması;
- əqli mülkiyyət hüquqlarının qorunması;
- ticarətin, xarici borcun və maliyyənin qarşılıqlı əlaqəsinin öyrənilməsi;
- texnologiyalarla ticarət və mübadilə;
- inkişaf etməkdə olan ölkələrin dünya ticarət sisteminə cəlb olunması problemi.

"Böyük iyirmilik" çərçivəsində Böyük Britaniya inkişaf etməkdə olan ölkələrə beynəlxalq ticarətə azad çıxışlarını əldə etmələrində kömək göstərilməsini dəstəkləyir. Çünki bu onların iqtisadi inkişafının, gəlirlərinin artması və yeni iş yerlərinin yaradılmasının stimullaşdırılması üçün mühüm vasitəsidir.

Hökumət idxal-ixrac əməliyyatlarını inkişaf etdirmək və regional inteqrasiyanı gücləndirmək məqsədi ilə, "Ticarətə yardım" proqramlarına xüsusi diqqət ayıraraq, inkişaf etməkdə olan ölkələrə

texniki yardımın ikitərəfli proqramlarının reallaşdırılmasını davam etdirir.

Böyük Britaniya İqtisadi Əməkdaşlıq və İnkişaf təşkilatının (İƏİT) üzvüdür. Ölkə onun işində fəal iştirakçıdır. Özünün təşkilatdakı nümayəndəliyi vasitəsilə iqtisadi və sosial siyasətin müzakirəsində, işlənib hazırlanması və təkmilləşdirilməsində iştirak edir.

## 5.2. Böyük Britaniyanın Avropada yeri və rolu

**Plan:**

**1. Böyük Britaniyanın Avropada mövqeyi**

**2. Qərbi Avropanın iqtisadi inkişafında Böyük Britaniyanın rolu**

**3. Breksitin Böyük Britaniya və Avropa İttifaqına inteqrasiya proseslərinə təsiri**

**Böyük Britaniyanın Avropada mövqeyi.** Çoxvektorlu proses kimi Avropa inteqrasiyasının problemi və Böyük Britaniyanın orada rolu son onilliklər ərzində alimlərin araşdırmalarının mövzusudur. Lakin bu mövzunun aktuallaşması 2016-cı ildə referendumun keçirilməsi və Böyük Britaniyanın Avropa İttifaqından çıxması tərəfdarlarının qələbəsindən sonra baş verdi. Bu hadisə fəal siyasi və elmi diskussiyanı şərtləndirdi ki, onun da inkişafına baza mənbələrinin intensiv genişlənməsi təsir edir.

Avropa inteqrasiyası üzrə İngiltərə siyasətinin məzmunu beynəlxalq müqavilə, razılaşma, hökumət və parlamentin sənədləri, seçkiqabağı manifestlər, siyasi liderlərin hesabatları, həmçinin London və Brüssel arasında rəsmi yazışmalarla nəzərə çatdırılmışdır.

Maraqlıdır ki, hazırki dövrdə tədqiqat məkanının tematik dəyişikliyi baş verir. Çünki Birləşmiş Krallıq və Avropa İqtisadi Birliyi və Avropa İttifaqı arasında qarşılıqlı münasibətlərin tarixinin müxtəlif aspektlərinə maraq artmışdır. Nəticə olaraq göstərilən dövrün bir çox hadisələrinin mahiyyətinin yenidən anlaşılması prosesi gedir.

Böyük Britaniyanın Avropa İqtisad Birliyinə daxil olması probleminə toxunaraq qeyd edək ki, 1960-cı illərdə ölkədə yeni vəziyyət yaranmışdır. Bu ondan ibarət idi ki, "böyük dövlətlərdən" biri "ikinci dərəcəli ölkəyə" çevrilmişdir. Bu da imperiya ambisiyalarını qızışdırmışdır. İdeya cəhətdən belə ambisiyalar ənənəvi liberalizm müddəalarının köməyi ilə ingilis konservatizmi doktrinasının transformasiyasında özünü büruzə vermişdir [56, s. 365].

Ölkənin liderləri yenilənmə zərurətini hiss etmişdilər. Böyük Britaniyada "yeni sağçılar" hərəkatının mərkəzi konservativ partiyası olmuşdur. Orada təkcə rəhbərlikdə deyil, həm də sıravi üzvlərdə neoliberal (neoliberalizm liberalizmdən fərqli olaraq iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsinə etiraz etmir) ideyalar məşhurluq qazanmışdır.

1970-ci illərin əvvəllərində konservatorların liderləri belə bir qənaətə gəldi ki, monetar nəzarətin tətbiq edilməsi və dövlət tənzimlənməsinin ləğvi iqtisadi durğunluqdan çıxmağa imkan verəcəkdir. Bu nəzəriyyə neokonservatizm adını aldı və ilkin olaraq dövlət tənzimlənməsinin zəiflədilməsinə, iri biznesin vergi yükünün azaldılmasına, həmçinin sahibkarlığın stimullaşdırılmasına və hakimiyyətin sosial funksiyasının azaldılmasına istiqamətlənmişdir.

Avro inteqrasiyanın ingilis variantının spesifikasını təhlil edərək nəzərə almaq vacibdir ki, AİB-nə daxil olmaq təcrübəsi

Britaniya neokonservatizminin formalaşmasının vacib xarici siyasət zəmini oldu. İlkin olaraq, Böyük Britaniya altı dövləti birləşdirən inteqrasiyada iştirakdan imtina etdi. İngiltərə hökuməti ABŞ-la xüsusi münasibətləri və Britaniya millətlər birliyinin nüfuzunu qoruyub saxlamağa can atırdı. Həmçinin ölkənin liderlərini aqrar sektorun vəziyyəti və Ümumi bazara ödənişin həcmi məsələsi narahat edirdi. 1960-cı ildə ingilislərin fəal iştirakı ilə yaradılan sərbəst ticarət assosiasiyası çox da səmərəli olmadı. Ona görə də Londonda Avropa İqtisadi Birliyinə daxil olmaq qərarına gəldilər.

İnteqrasiyanın uğurları və Böyük Britaniyada böhran fonunda qitədə iqtisadi yüksəliş 1961-ci ildə Q.Makmillan hökumətinə AİB-nə daxil olmaq üçün müraciət etməyə inandırdı. Lakin Ş.Qoll yeni üzvlərin qəbul edilməsinə veto qoydu. Çünki o, Böyük Britaniyaya amerikalıların "Troya atı" kimi baxırdı və AİB-nin nəhəng Atlantik ittifaqı tərəfindən ələ keçirilməsindən qorxurdu. Bu zaman istehsalın aşağı düşməsi şəraitində Britaniya rəhbərliyi ölkədə vəziyyətin stabilləşməsi imkanını yalnız Avropa iqtisadi inteqrasiyasında iştirak etmək yolunda görürdü [22, s. 67].

1967-ci ildə yeni Baş nazir Q.Vilson Avropa İqtisadi Birliyinə daxil olmaq üçün yenidən cəhd etdi. Lakin Şarl de Qoll (1959-1969-cu illərdə Fransa prezenti) ölkənin maliyyə qeyri-stabilliyini bəhanə edərək ikinci dəfə veto hüququndan istifadə etdi. Vəziyyət 1969-cu ildə Şarl de Qolu əvəz edən Jorc Pompidu (1969-1974 illərdə Fransa prezidenti) Böyük Britaniyada iqtisadi vəziyyətin yaxşılaşdığını qəbul edərək vetonu götürdükdən sonra dəyişdi.

1972-ci ildə Böyük Britaniya parlamenti tərəfindən Avropa ittifaqları haqqında qanun qəbul edildikdən sonra konservatorların lideri, yeni Baş nazir Edvard Hit ölkənin AİB-nə qoşulması üzrə danışıqların koordinasiyasına başladı [26, s. 38].

Böyük Britaniyada ÜDM-da aqrar sahənin xüsusi çəkisi AİB-in qalan digər üzvləri ilə müqayisədə aşağıdır. Çünki əhalinin çox az bir hissəsi aqrar sahə ilə məşğuldur. Lakin İqtisadi Birlik ölkələri sırasına daxil olmaq haqqında müqaviləyə uyğun olaraq, Böyük Britaniya dotasiyanı dayandırmağa söz vermişdir. Eyni vaxtda AİB üzv ölkələrindən ərzaq idxalına yenidən istiqamətlənmə prosesi baş vermişdir.

Adanın iqtisadiyyatının daha ciddi problemi olaraq tədavül balansının kəsiri qalırdı. Hərçənd bir çox maneələrin aradan qaldırılması istehsal xərclərinin azaldılmasına kömək göstərə bilərdi. Nəticədə üzvlüyün əhəmiyyətli xərcləri meydana çıxdı: Ümumi kənd təsərrüfatı siyasətinin qəbulu və vahid xarici tarifin qəbulu kənd təsərrüfatı məhsullarının qiymətlərinin qalxmasına gətirib çıxardı. Bu zaman Böyük Britaniyanın ticarət həcminin böyük olması onun Birliyin büdcəsinə qeyri-mütənasib yüksək üzvlük haqları ilə nəticələndi.

Böyük Britaniya ilə AİB arasında büdcə, ticarət və ərzaq ziddiyyətlərindən əlavə qarşılıqlı münasibətlərin əhəmiyyətli istiqaməti maliyyə sahəsi idi. “Geriyə çəkilmə” probleminə toxunaraq, qeyd edək ki, bu zaman, tərəfimizdən bir neçə baş nazirin Böyük Britaniyanın AİB-də üzvlüyü şərtlərinə dəyişikliklərin irəli sürülməsinə yönəlmiş fəaliyyəti başa düşüləndir.

Milli maraqların fəal şəkildə müdafiə olunmasının səbəbi inteqrasiyadan faydalanmanın artırılması və dövlət üçün mənfi nəticələrinin minimuma endirilməsi cəhdləridir. Bütün bu tədbirlər əsaslı şəkildə digərlərinin, ümumi bazar ölkələrinin - həm köhnə, həm də yeni üzvlərin siyasətindən əhəmiyyətli dərəcədə fərqlənirdi. Məhz onlar Böyük Britaniyanın “əlverişsiz iştirakçı” və ya “könülsüz tərəfdaş” reputasiyasını formalaşdırdılar. Danışıqlarda Britaniya

hökumətləri başçılarının sərt, praqmatik mövqeyi onunla şərtlənirdi ki, Avropa inteqrasiyasında iştirak daxili siyasətin mühüm amillərindən birinə çevrildi.

Qeyd etmək zəruridir ki, 1970-ci illərin ikinci yarısında Avropa inteqrasiyasına münasibətdə Böyük Britaniyanın siyasi kursuna Londonun Vaşinqtonla sıx münasibətləri də təsir edirdi. Bu münasibətlər Dumanlı Albionun (Albion - Britaniya adalarının (İrlandiya istisna olmaqla) qədim adı) (Britaniyanın "Dumanlı Albion" adlandırılmasının əsas səbəbi ilin əksər günlərində adanın dəniz səviyyəsindən aşağı hissəsinin dəniz dumanı ilə əhatə olunmasıdır) siyasi elitası tərəfindən ənənəvi olaraq beynəlxalq arenada aparıcı oyunçu qismində qlobal dünya problemlərinin həllində iştirak etmək imkanı kimi qəbul olunurdu. Lakin bu tez-tez Böyük Britaniyanın Brüsselə münasibətlərini çətinləşdirirdi. Çünki Atlantikanın müxtəlif tərəflərində yerləşən ölkələrin siyasi məqsəd və vəzifələri də müxtəlif idi. Həmçinin Böyük Britaniyanın Avropa siyasətində Avropa inteqrasiyasının lider ölkələri – Almaniya və Fransa ilə münasibətləri də mühüm rola malik idi. Avropada aparıcı mövqelərdə olmaq cəhdlərinin ziddiyyətliyi ilə yanaşı öz maraqlarının qorunması xeyli dərəcədə Böyük Britaniyanın birləşmiş Avropada mövqelərini zəiflətdi. [28, s. 367].

Böyük Britaniyanın mövqeyinin onun Avropa tərəfdaşlarının mövqeləri ilə müqayisədəki fərqlər Avropa Parlamentinin səlahiyyətləri, AİB büdcəsinin formalaşdırılması, vahid xarici siyasətin aparılması və vahid valyuta sisteminin yaradılması məsələlərində özünü göstərirdi. Nəticədə "iki tərəfli" Avropa yarandı ki, burada Böyük Britaniyanın özünün xüsusi mövqeyi var idi.

Rəsmi London Bonnun Avropa Parlamentinin rolunun artırılması və Avropolun yaradılması haqqında təkliflərini qəti

surətdə rədd etdi. Böyük Britaniya özü üçün sərfəli olmayan bir çox Birliyə üzvlük şərtlərinin yenidən nəzərdən keçirilməsinə nail oldu və onun uzunmüddətli perspektivlərin inkişafında maraqlı olduğunu göstərən təşəbbüslər irəli sürürdü. Bununla belə London və Brüsselin münasibətləri, Avropa İttifaqı haqqında müqavilə üzərində iş zamanı, gələcək inkişafin əsas istiqamətləri müzakirə olunarkən mürəkkəb olaraq qalırdı. Bu zaman Almaniya həm inteqrasiya proseslərinin dərinləşdirilməsinə, həm də ittifaqın Şərqə doğru genişləndirilməsinə can atırdı.

Almaniyanın gücünün artmasından narahat olan Fransa yeni üzvləri qəbul etmədən yalnız əməkdaşlığın dərinləşdirilməsini dəstəkləyirdi. C.Meycorun kabinetinin mövqeyi Fransanın mövqeyinin əksindən ibarət idi. O, həddən artıq sürətli inteqrasiyaya yol verməməyə cəhd edirdi. Lakin Avropa İttifaqının genişlənməsi ideyasını dəstəkləyirdi.

Qeyd edək ki, 1974-1992-ci illərdə Avropa İqtisadi Birliyinə münasibətdə Böyük Britaniyanın mövqeyi bir sıra xüsusiyyətləri ilə xarakterizə olunurdu.

**Birincisi**, Birləşmiş Krallıq valyuta-maliyyə ittifaqına inamsızlıq göstərirdi ki, bu da həm daxili siyasi səbəblərlə, həm də, vahid valyutanın tətbiq edilməsinin iqtisadi nəticələrinin qeyri müəyyənliyi ilə izah olunurdu.

**İkincisi**, Böyük Britaniya tərəfindən öz maraqlarının qorunması AİB daxilində münaqişələrə gətirib çıxarırdı və iqtisadi əməkdaşlığın dərinləşməsinə mane olurdu.

**Üçüncüsü**, Böyük Britaniyanın kontinental tərəfdaşları onun valyuta-maliyyə sahəsinin inteqrasiyasına əks təsirini məhdudlaşdırmağa can atırdılar.

**Qərbi Avropanın iqtisadi inkişafında Böyük Britaniyanın rolu.** Qərbi Avropanın iqtisadi inkişafında xüsusi rolu olan ölkələrdən biri Böyük Britaniyanıdır. Bu ölkədə 1979-cu ildə M.Tetçer hökumətinin iqtisadi reforması adlanan reforma həyata keçirilmiş və müsbət nəticələr əldə edilmişdir.

Reformanın əsas məqsədi iqtisadiyyatın liberallaşdırılması ideyasının həyata keçirilməsi və bu yolla iqtisadiyyatda dövlətin rolunun açaldılması və baçar mexaniçmlərinin gücləndirilməsi idi. Bu şəkildə həyata keçirilən iqtisadi reformaya səbəb isə leyboristlər hökumətinin apardığı iqtisadi siyasət nəticəsində dövlət sektorunun həddən artıq yüksəlməsi, bunun nəticəsində də ölkənin iqtisadiyyatında inflyasiyanın güclənməsi, dövlət müəssisələrində istehsal edilən məhsulların qiymətlərinin qeyribaçar üsulları ilə təyin edilməsi, istehsal həcminin açalması, işsızliyin artması, əhalinin yaşayış səviyyəsinin aşağı düşməsi, xarici borcun artması olmuşdu. Belə bir iqtisadi durumu olan Büyük Britaniyada 1979-cu ilin mayında konservatorlar partiyası hakimiyyətə gəldi ki, onun da başında M.Tetçer dururdu.

Hakimiyyətə gələn kimi M.Tetçer hükuməti iqtisadiyyatı canlandırmağa kömək göstərə bilən pul kütləsinə nəzarəti gücləndirən, vergi dərəcələrini aşağı salan, qiymətlərin və əmək haqqının səviyyələrinə qoyulan nəzarətlərin zəifləməsinə yünələn, xüsusi bölməyə dövlət subsidiyalarını və ümumiyyətlə, dövlət xərclərini açaltmağa yönələn istiqamətlərdə əməli tədbirlər həyata keçirməyə başladı.

Nəticədə 1982-1983-cü illərdə inflyasiyanın artım sürəti ildə 5% aşağı düşməyə başladı və sonralar sabitləşdi. M.Tetçerin iqtisadi reforması xüsusi təsərrüfatların və sahibkarların maraqlarını nəzərə alırdı. Onlara rentabelli işləyən dövlət müəssisələri satılırdı. Xüsusi

firmalara Şimal dəniçindəki çəngin neft yataqları, daş kömür şaxtaları, radioaktiv içotoplar istehsal edən çavodlar və s. aç fayda verən müəssisələr satılırdı.

Nəticədə dövlətin vəsaiti artır, kapital qoyuluşu isə açalırdı. Ən çox udan isə xüsusi sektor, İngiltərənin sahibkarları və əhalisi idi. Qeyd edək ki, dünya iqtisadiyyatında M.Tetçerin adı ilə adlanan və Böyük Britaniyada həyata keçirilən iqtisadi reformanın bütün Qərbi Avropa üçün böyük əhəmiyyəti var idi və sonda regionun iqtisadi inkişafına müsbət təsiri göstərirdi. Məhz bu reformanın nəticəsində Londonun dünyada bir maliyyə mərkəzi kimi mövqeyi xeyli möhkəmləndi.

**Breksitin Böyük Britaniya və Avropa İttifaqına inteqrasiya proseslərinə təsiri.** AİB aid olan bir çox məsələlər kəskin fikir müxtəlifliyinə səbəb olurdu. Çünki Böyük Britaniya üçün AİB ilə qarşılıqlı münasibətlər mövzusu birbaşa onun təhlükəsizliyinə və xarici siyasət prioritetlərinə: Avropa ilə və yaxud ABŞ ilə olmaq məsələsinə toxunurdu. Britaniya tədqiqatçılarının fikrincə "Avropa məsələsi" özündə suverenlik və mənsubiyyət problemlərini tamamilə yeni keyfiyyətdə siyasi iqtisad problemləri ilə birgə daşıyırdı [27, s. 125].

Breksit (Böyük Britaniyanın Avropa İttifaqından çıxışı) probleminə toxunaraq qeyd edək ki, 2010-cu ildə hakimiyyətin konservatorlara keçməsi və onların liderinin Devid Kemeronun Baş nazir təyin edilməsi 2008-ci ildə başlayan iqtisadi böhran dövründə baş verdi. 2010-2011-ci illər ərzində Avropa İttifaqında ən böyük büdcə kəsirinə və bununla bağlı sosial sahədə mənfi nəticələrə malik olaraq Böyük Britaniya ciddi çətinliklərlə üzləşdi.

Belə şəraitdə Aİ rəhbərliyinin inteqrasiyanın dərinləşdirilməsi üzrə növbəti təşəbbüslərindən sonra D.Kemeron referendumun

keçirilməsi ideyasını səsləndirdi və bu referendumda Birləşmiş Krallığın Avropa İttifaqında qalıb qalmaması məsələsini müzakirə etməyi təklif etdi. Avropa İttifaqından çıxmaq haqqında ictimai kompaniya 2011-ci ildə yüz mindən artıq imza toplamış petisiyanın (ərizə ( bir adam və ya birliyin düşüncə və şikayətlərini səlahiyyətli orqanlara (göndərilməsini təmin edən yazı)) qəbulundan başladı. Lakin Böyük Britaniya parlamenti onu vaxtsız hesab edərək bu məsələyə baxmaqdan imtina etdi. Bununla belə Aİ ilə daha sərfəli münasibətlər və ya onunla əlaqələrin qırılması barəsində geniş ictimai tələbin mövcudluğu ortaya çıxdı.

2012-2013-ci illərdə Devid Kemeron avro-skeptik (şübhə) əhval-ruhiyyəli parlament üzvlərinin (əksərən ingilis əsilli) təzyiqinə məruz qaldı və Avropa İttifaqı ilə yeni danışıqların təşəbbüskarına çevrildi oldu. Şəraitin inkişafına təsir edən son dərəcə vacib amil 2014-cü ildə Böyük Britaniya üçün qoyulmuş rekord məbləğ - 1,7 mlrd. funt sterlinq həcmdə üzvlük haqqı oldu [29, s. 279].

Avropa İttifaqından çıxmaq üzrə kompaniyanın təşkili təşəbbüsünü 2014-cü ilə Avropa Parlamentinə Britaniya seçkilərində qələbə qazanmış Birləşmiş Krallığın Britaniya avro-skeptik müstəqillik partiyası öz üzərinə götürdü. Bu partiyanın qələbəsi qanunauyğun idi. Çünki bu dövrdə Avropa İttifaqının digər ölkələrində də avro-skeptik tərəfdaşların məhşurluğunun yüksəlişi vaxtı idi. Referendumun keçirilməsinə və Böyük Britaniyanın Aİ-da üzvlüyünə yenidən baxılmasına bilavasitə hazırlıq 2015-ci ildə başlanıldı.

Devid Kemeron hökuməti Aİ ölkələrinin imzalaya biləcəyi gələcək razılaşmanın əsas prinsiplərini işləyib hazırladı. Avropa İttifaqının sədri Donald Tuskun adına yazılmış 10 oktyabr tarixli

məktubda qarşıdakı danışıqlarda Londonun əsas tələbləri öz əksini tapmışdır. Onun mahiyyəti aşağıdakılardan ibarət idi:

**1.** Avro zona ölkələrinin birtərəfli qərarlarından imtina;

**2.** Aİ ölkələri arasında rəqabətin gücləndirilməsi;

**3.** Aİ üzvlərinin gələcək siyasi və iqtisadi inteqrasiyada iştirak etməmək hüquqlarının qəbul edilməsi;

**4.** İşçi miqrantların Britaniya sosial sığorta sisteminə çıxışının məhdudlaşdırılması.

Bu səmərəli bir siyasət oldu. Onun yekunu olaraq Devid Kemeron və Donald Tuskun mövqeləri arasında kompromisin (qarşılıqlı güzəşt) nəticəsi kimi Böyük Britaniyanın Avropa İttifaqındakı Yeni Statusu haqqında 19 fevral 2016-cı il tarixdə müqavilə imzalandı. Mahiyyət etibarı ilə Avropa İttifaqında iqtisadi idarəetmənin yeni prinsipi qərarlaşdı. Əsas güzəştlər təkcə Böyük Britaniya bank sisteminin deyil, həmçinin avro zonaya daxil olmayan bütün ölkələrin milli banklarının və Avropa Bank İttifaqının AMB-dan (Avropa Mərkəzi Bankı) müstəqilliyinin, eləcə də iqtisadi böhrandan əziyyət çəkən avro zona ölkələrinə maliyyə yardımı göstərməmək hüququnun tanınmasından ibarət idi.

Bu zaman qəbul olunurdu ki, gələcək inkişaf üçün Avro zona ölkələrinin siyasi inteqrasiyasının davam etdirilməsi zəruridir. Ondan əlavə Böyük Britaniyanın miqrantların bölüşdürülməsinin Avropa sistemində iştirak etməməsi imkanı saxlanılırdı. Lakin vahid kənd təsərrüfatı siyasəti və balıqçılıq problemləri kimi məsələlərdə həll yolu tapılmamışdır.

Bütövlükdə, Böyük Britaniyanın tələblərinin əsas hissəsi qəbul edilmişdi və bunun sayəsində onun siyasi və iqtisadi muxtariyyətinin genişlənməsi baş verdi. Bunun müvəffəqiyyət olduğunu Devid Kemeronun kabineti də təsdiq edirdi. Lakin həmin

razılaşma əldə olunduqdan sonra da referendum ləğv olunmadı. Növbəti iqtisadi böhran şəraitində hazırlıq prosesi siyasi tribuna rolunu oynadı. Devid Kemeronun mövqeyi “remain” tərəfə - Böyük Britaniyanın Avropa İttifaqında üzvlüyünün saxlanılmasına dəyişildi.

Qeyd etməliyik ki, yeni Müqavilənin sərfəli şərtlərinə baxmayaraq, onlar konservatorların (köhnə fikir və qaydaların tərəfdarı olan) əksəriyyətini - Aİ-dan çıxmaq tərəfdarlarını və xüsusilə avroskeptikləri razı salmadı. Gözlənilənlərin əksinə olaraq, ölkənin Avropa İttifaqından çıxması üzrə ictimai kompaniya özlərinin faktiki liderlərini dəyişərək sürət yığmaqda davam edirdi. Bu zaman, London Sitinin əsas hissəsi ölkənin Aİ-dan çıxmağının əleyhinə idi. Lakin hedc-fondların (investisiya fondudur) əksər sahibləri qısa müddətli və orta müddətli perspektivdə bazarların daha döyük dəyişkənliyi sayəsində gəlirlərinin artacağına ümid edərək Aİ-dan çıxmaq kompaniyasına sərmayə qoyurdular.

Ekspertlərin fikrincə, “çıxmağın” təşkilatçıları ölkənin Aİ-da qalması tərəfdarlarına nisbətən seçki məntəqələrinə daha çox həmfikirlərini səfərbər edib gətirə bilmişdilər.

Siyasi amildən əlavə həmçinin demoqrafik amil də qeyd olunur; iri şəhərlərin gənc sakinlərinin iştirakı aşağı səviyyədə və etnik idi; referendumun aqibəti şotlandların, irlandların və Britaniya aqlomerasiyalarının çoxmillətli əhalisinin ziyanına ingilislər tərəfindən həll edilmişdi.

Breksit Birləşmiş Krallığın Avropa inteqrasiyasında iştirakının qanunauyğun və ya qaçılmaz nəticəsi deyildi. Çox güman ki, o, obyektiv və subyektiv amillərin qarşılıqlı təsirinin nəticəsində baş verdi. Onlara Böyük Britaniya da daxil olmaqla, bütün ölkələrdə vəziyyətin pisləşməsi aiddir və bunun nəticəsində iqtisadi böhran dövründə Avropa İttifaqında ziddiyyətlərin kəskinləşməsidir. Bu da

öz növbəsində Avropadakı güclü miqrasiya böhranı ilə üst-üstə düşdü.

Belə şəraitdə London inteqrasiyadan faydanı maksimallaşdırmaq üçün milli maraqların qorunması siyasətini yürütməkdə davam edirdi. Konservatorlar hökuməti Brüsselə Avropa İttifaqında üzvlüklə bağlı referenduma hazırlıq kimi belə təzyiq üsulundan ikinci dəfə istifadə etdi. Avropa İttifaqının rəhbərliyi real güzəştlərə getdi. Lakin vəziyyət Britaniya kabinetinin nəzarətindən çıxdı. Belə ki, sosial narazılığın və gərginliyin güclənməsi siyasi mübarizənin kəskinləşməsinə və Aİ-dan çıxmağa tərəfdar olan müxalifət qüvvələrin populyarlığının artmasına gətirib çıxardı.

Böyük Britaniyanın Avropa inteqrasiyasında iştirakı probleminin təhlili onu göstərdi ki, bu siyasətin nəzəri əsaslandırılması rolunda neokonservatizm konsepsiyası çıxış etdi. Spesifika ondan ibarət idi ki, başlanğıc mərhələdə Birləşmiş Krallıq Avropa inteqrasiyasında iştirak etmədi. Lakin 1960-cı illərdə hökumət başa düşdü ki, getdikcə uzaqlaşmaq siyasəti iqtisadi cəhətdən sərfəli və siyasi cəhətdən məqsədəuyğun deyildir.

Böyük Britaniyanın Avropa İttifaqına daxil olmaqda məqsədi təsərrüfat inteqrasiyasından maksimum fayda götürmək və qitədə öz təsirini bərpa etmək idi. “Geri çəkilmə” problemi və “narahat tərəfdaş” reputasiyasının formalaşması Böyük Britaniyanın Birlikdə qalması şərtlərinin periodik olaraq nəzərdən keçirilməsi, milli maraqların fəal şəkildə müdafiə edilməsi və xarici siyasət prioritetlərinin qorunub saxlanması ilə əlaqədardır. O da şübhə doğurmur ki, Avropa quruculuğunun Britaniya modelinin əsasında iqtisadi prioritet dururdu [83].

İnteqrasiyanın nəticəsi sonda “vahid mexanizm” yarada bilməyən tərəfdaş ölkələrin təsərrüfat komplekslərinin bir tərəfdən

güclənmələri, digər tərəfdən toqquşmaları olmuşdur. Bütövlükdə isə ana xətt - Brüsseldən siyasi və təsərrüfat müstəqillik saxlanılmaqla açıq sərhədlərin üstünlüyündən istifadə olunması - Birləşmiş Krallığın Avropa birliyində üzvlüyünün bütün 45 illik dövrü ərzində dəyişməz qalmışdır. Bununla yanaşı, əsaslı dərəcədə, məhz Avropa inteqrasiyasında iştirak Böyük Britaniyaya iqtisadi cəhətdən möhkəmlənərək və siyasi cəhətdən güclənərək, imperiyadan sonrakı modernləşmə dövrünü müvəffəqiyyətlə keçməyə imkan vermişdir.

Breksitin Azərbaycana birbaşa təsiri olmasa da, iqtisadi baxımdan dolaylı təsirlərə malikdir. Breksit nəticəsində funt sterlinqin dəyər itirməsi ilk növbədə aktivlərinin 5%-ə qədərini sterlinqdə saxlayan Azərbaycan iqtisadiyyatı üçün, həmçinin, Londonda əmlaka malik olan Dövlət Neft Fondu və əsasən də Londonda mülkü, biznesi olan Azərbaycan şirkətləri və vətəndaşları üçün mənfi nəticələrə malikdir. Siyasi baxımdan Breksitin Aİ-Azərbaycan əlaqələrinə birbaşa təsirləri olmasa da, dolayı yolla təsirlər hiss olunacaqdır. Birləşmiş Krallıq qlobal aktor olmaq iddiasında olduğundan Cənubi Qafqazda aktivləşəcəyi ehtimal oluna bilər.

## 5.3. Birləşmiş Krallığın Avropa İttifaqının genişlənmə və dərinləşmə siyasətində mövqeyi

**Plan:**

**1. Birləşmiş Krallığın Avropa İttifaqının siyasətində rolu**

**2. Böyük Britaniyanın müasir dövrdə genişlənmə siyasəti**

**Birləşmiş Krallığın Avropa İttifaqının siyasətində rolu.** Böyük Britaniya həmişə Avropa İttifaqının problemli üzvü kimi

xarakteristika edilir. Böyük Britaniya birlik daxilində "xüsusi" statusa malik olan ölkədir. Belə ki, Böyük Britaniya Avropa İttifaqında inteqrasiyanın dərinləşməsində iştirak etməyə bilərdi. Böyük Britaniya həmişə öz müstəqilliyini saxlamağa önəm vermiş, Şengen ərazisinə daxil olmamış, eyni zamanda avro yerinə öz milli valyutasından istifadə etmiş, Ticarət Birliyi Konqresinin (TUC) baş katibi Len Murrayın qeyd etdiyi kimi "Böyük Britaniyanın gələcəyi ilə bağlı ən vacib qərarlar yalnız Londonda alına bilər" prinsipi ilə üzvlüyə davam etmişdir [69].

Avropa İttifaqı ölkələrində avroskeptisizmin mərkəzi Böyük Britaniya hesab edilir. Britaniyalıları Avropada gedən inteqrasiya proseslərində oynadıqları rola görə "qəribə partnyor" adlandırırlar. Avropada inteqrasiyanın dərinləşməsində Maastrixt müqaviləsinin böyük rolu vardır. Bir qayda olaraq Birləşmiş Krallıq Avropada federal sistemin yaradılmasına dair hər hansı maddənin müqaviləyə daxil edilməsinə ciddi müqavimət göstərirdi.

Bütün bunlara baxmayaraq, Avropa İttifaqı barədə Müqavilə köklü dəyişikliklərə gətirib çıxardı. İttifaqın iki səviyyədə inkişaf etdirilməsi barədə razılaşma Britaniyanı qane edirdi. Razılaşmaya görə dövlətlərə istəmədikləri sahələr üzrə əməkdaşlıqdan kənarda qalmaq hüququ verilirdi. Məsələn, Sosial Xartiyaya qoşulmayan dövlət vahid bazar ilə əlaqədar məsələlərdə iştirak edə bilərdi. Beləliklə, Avropa İttifaqının strukturu da "üçpilləli sistem" yaratmaqla dövlətlərüstü qurumlar ilə dövlətlərarası qurumlar arasında heç də rəvan olmayan rəqabəti özündə əks etdirirdi. Dövlət suverenliyinin itirilməsindən narahat olan dövlətlər üçün bu böyük müvəffəqiyyət idi.

Avropa İttifaqı üçpilləli sistemə çevrilirdi və hər pillə, nəticədə dövlətlərüstü münasibətlərin hüdudlarını müəyyənləşdirmək hüququ qazanırdı.

**Birinci** pillə Avropa Kömür və Polad Birliyini, həmçinin, Avropa Atom-Enerji Birliyini birləşdirən Avropa Birliyindən ibarət idi.

Avropa İttifaqına geniş səlahiyyətlər verildi və həm müqavilələrdən, həm də Avropa Komissiyasının səlahiyyətlərindən doğan hüquqi aktlara görə, qərarların qəbul edilməsində Birlik metodu üstünlük təşkil etdi. Digər iki pillə isə qərar qəbuletmə prosesində dövlətlərarası yanaşmanı qoruyub saxlayacaqdı. Üzv dövlətlər üçün mühüm milli maraq kəsb edən sahələrdə dövlətlərin suverenliyinin qorunması şübhəsiz idi.

**İkinci** pillə İttifaqın xarici və təhlükəsizlik siyasətini əhatə edir. Bu sahələrdə İttifaq ümumi mövqedən çıxış etsə də, müdafiə məsələlərində dövlətlər tam suverenliyini qoruyub saxlayacaqdı. Bütün qərarların qəbul olunması üçün yekdilliklə səsvennə prinsipi tətbiq edilirdi.

**Üçüncü** pilləyə gəldikdə isə daxili işlər və ədliyyə sahələrində (o cümlədən, transmilli cinayətkarlığa qarşı mübarizə, qaçqınlara sığınacaq verilməsi sahələrində) əməkdaşlıq məsələlərində üzv dövlətlər öz suverenliklərini hələlik qoruyub saxlayırlar. Üçpilləli sistem İttifaq daxilində güc və səlahiyyətlərin kimdə olmasını aydın surətdə göstərir. Birinci pillədə Avropa Parlamenti və Avropa Komissiyası daha artıq rola malikdilər. Lakin ikinci və üçüncü pillələrdə səlahiyyətlərə nəzarət aydın surətdə Avropa İttifaqının Nazirlər Şurasında cəmləşir. Böyük Britaniyanın bəzi məsələlərdən kənarda qalmaq imkanı Avropa vətəndaşlarını xüsusilə narahat edirdi. Əsasən ona görə ki, inteqrasiya proseslərinə

ikitirəli yanaşma o anlama gəlirdi. Bu prosesin mühüm elementlərində Böyük Britaniya xüsusi seçim qazanırdı. Məsələn, sosial yönümlü sahələri əhatə edən məsələlərdən Britaniyanın kənarda qalması o demək idi ki, bu ölkə liberal bazar iqtisadiyyatı siyasətinin mənfi nəticələrini aradan qaldırmağa yönəlmiş siyasətdə iştirak etməkdən imtina edir [72].

Britaniya hökuməti tarixən Avropa İttifaqının genişlənməsinin güclü dəstəkçisi və hərəkətverici qüvvəsi olmuşdur. On illər boyu ardıcıl hökumətlər genişlənməni Birləşmiş Krallığın təhlükəsizlik, rifah kimi strateji faydaları əsasında təbliğ etmişdir. Britaniya ənənəvi olaraq Avropa Komissiyası ilə yaxından çalışmış və genişlənməyə pozitiv baxan üzv dövlətlərin dövlətlərə rəhbərlik etmişdir. Bu məqamda Birləşmiş Krallığın baş naziri Margaret Thatcherin sözlərini xatırlamaqda fayda var.

"Biz heç vaxt Dəmir Pərdənin şərqini unutmamalıyıq, o insanlar ki, Avropa mədəniyyətini, azadlığını və identifikasiyasını daşımaqdan həzz alır. Biz həmişə Varşaya, Praqa və Budapeştə əzəmətli Avropa şəhərləri kimi baxacağıq".

1990-97-ci illərdə Birləşmiş Krallığın baş naziri olmuş John Major 1995-ci ildə çıxışında hökumətin genişlənməyə olan yanaşmasını belə ifadə etmişdir.

"Mən inanıram ki, biz geniş Avropa boyunca stabillik və demokratiya yaymalıyıq. Şərqi və Mərkəzi Avropa əsrlər boyu mübarizə meydanı olmuşdur. Ancaq bizim indi onları vahid bazara və Qərbi Avropanın demokratik məkanına birləşdirmək kimi tarixi imkanımız var. Buna görə Avropa İttifaqının genişlənməsi həyati hədəf kimi qalmaqdadır".

2010-cu ilin mayında koalisiya anlaşmasında Birləşmiş Krallığın koalisiya hökuməti genişlənməyə dəstəyini təkrarladı:

"Biz Avropa İttifaqının irəlidəki genişlənməsini dəstəkləyirik".

**Böyük Britaniyanın müasir dövrdə genişlənmə siyasəti.** Birləşmiş Krallığın genişlənməyə olan dəstəyinin vurğusu zamanla dəyişdi. 1990 və 2000-ci illərdə Birləşmiş Krallıq genişlənməni Avropa İttifaqı siyasətinin əsas hədəfi kimi görürdü. Son illərdə 2004 və 2007-ci illərdə olan genişlənmədən dərslər götürən Birləşmiş Krallıq daha sərt, qəti ancaq ədalətli, şərtlərə əsaslanan yanaşma (conditions-based approach) qəbul etmişdir. O genişlənməyə olan güclü dəstəyini davam etdirsə də, bunu şərtlər əsasında etməyin tərəfdarıdır. Üzvlüyə qəbuldan əvvəl namizəd ölkələr tam hazır olmalı və bütün şərtləri (xüsusilə də qanunun aliliyi, mütəşəkkil cinayətlərlə və korrupsiya ilə mübarizə) açıqca qarşılamalıdır.

2014-cü ildə oktyabrında Birləşmiş Krallıq hökuməti Avropa Komissiyasının namizəd ölkələr haqqında yeni İnkişaf Hesabatlarını alqışladı. Həmin hesabatlar "ilk öncə təməllər" (fundamentals first) yanaşmasını dəstəkləmiş və dövlət idarəçiliyi islahatları, iqtisadi idarəetmə və rəqabətlilik, qanunun aliliyi (mütəşəkkil cinayətlərlə və korrupsiya ilə mübarizə də daxil olmaqla), təməl hüquqlar, yaxşı qonşuluq əlaqələri, ikitərəfli münaqişələrin həll edilməsi və regional əməkdaşlıq kimi məsələləri genişlənmə prosesinin əsas prioritetlərinə fokus olmuşdur. Həmçinin, orada üzvlüyə qəbul olma danışıqlarında işçilərin azad hərəkəti üzərində transmilli tədbirlər və ya qorucu mexanizmin yaradılması təsdiqlənmişdir.

| Avropa İttifaqı | Avropa İttifaqı və Birləşmiş Krallıq | Birləşmiş Krallıq |
|---|---|---|
| - Ticarət siyasətləri, tariff və digər ticarət tədbirləri daxil olmaqla;<br>- Aİ vahid bazarı qaydaları və standartları;<br>- Rəqabət qaydaları və dövlət yardımı;<br>- Aİ daxilində immiqrasiya;<br>- Balıqçılıq | - Ticarət müqavilələrinin ratifikasiyası;<br>- Enerji və iqlim siyasətləri;<br>- Ətraf mühit standartları;<br>- Kənd təsərrüfatı;<br>- Məşğulluq siyasəti;<br>- İstehlakçı müdafiəsi və nəqliyyat;<br>- Kriminal işlər üzrə Avropa əməkdaşlığı;<br>- Sığınma siyasəti;<br>- ƏDV;<br>- Xarici siyasət üzrə əməkdaşlıq | - Səhiyyə siyasəti;<br>- Təhsil;<br>- Maliyyə siyasəti və dövlət xərcləri;<br>- Pul siyasəti;<br>- Gəlir vergisi, korporativ vergi və kapital mənfəət vergisi;<br>- Qeyri-Aİ ölkələrindən immiqrasiya;<br>- Sərhəd nəzarəti və təhlükəsizlik;<br>- Pensiya və rifah;<br>- Xarici siyasət qərarları;<br>- Müdafiə;<br>- İnkişaf əməkdaşlığı - və humanitar yardım<br>- Yerli hökumətlər<br>- Milli polis və kriminal ədalət<br>- Media tənzimləməsi [18] |

Uğurlu biznes sahiblərinin gələcək uğuru və müştəri etibarını qurmalı olduqları üç əsas sütun aşağıdakılardır:

- məsuliyyət;
- rifah;
- sağlamlıq.

Gələcəkdə bu sahələrin səmərəli inkişafı üçün digər vacib amillər alıcıların tələblərinə uyğun olaraq məhsulların dəyişdirilməsi və rəqəmsal texnologiyaların inkişafıdır.

Böyük Britaniyada maliyyə xidmətləri sənayesi ölkə iqtisadiyyatına on milyardlarla funt-sterlinq gəlir gətirir və bunun 50%-i Londonun payına düşür. Eyni zamanda, heç şübhəsiz demək olar ki, inkişaf etmiş maliyyə sənayesi Britaniya iqtisadiyyatının böyüməsinə kömək etsə də, ölkənin ümumi rifahının asılı olduğu yeganə sənaye deyil. Maliyyə xidmətləri ölkənin ÜDM-nin cəmi 7%-

ni təşkil edir. Məsələn, İsveçrədə və ya Avstraliyada bu pay 9%, Lüksemburqda isə daha çox 27% təşkil edir [43, s. 152].

Böyük Britaniya innovativ istehsala görə dünyada 9-cu yerdədir. Böyük Britaniyanın istehsal sektorunun güclü tərəfləri kosmik və peyk, dəniz mühəndisliyi, müdafiə, birbaşa xarici investisiyalardır (BXİ).

Hökumət, 2030-cu ilə qədər kompozit istehsalı, həmçinin xidmət sənayesi, istehsal və avtomatlaşdırmanı 2 mlrd. funt-sterlinqdən 12 mlrd. funt-sterlinqə qədər artırmaq imkanını müəyyən edib.

İnvestisiya əsasən xidmət sektoruna (54%), sənayeyə (16%), tikintiyə (17%) və kənd təsərrüfatına (13%) yönəlibdir.

Beynəlxalq bazarda və qlobal iqtisadiyyatda davamlı dəyişikliklər fonunda Böyük Britaniya nə istədiyini bilənlər üçün ideal investisiya mühiti yaratmağa davam edir.

Böyük Britaniyada toplanmış xarici investisiyaların həcmi 2022-ci ildə 6,2 trln. funt sterlinq təşkil etmişdir [58].

2022-ci ildə xarici şirkətlərin investisiyaları ilə bağlı 1431 layihə həyata keçirilmişdir [58].

Layihələrin 600-ü (41,9%) yeni investisiyalar, 334-ü (23,3%) əvvəllər başlanmış layihələrin sonrakı icrası, 497-si (34,8%) birləşmə və satınalmalardır [58].

Hesabat dövründə Böyük Britaniyada xarici investisiyalar hesabına 36,5 mindən çox yeni iş yeri açılıb və əvvəllər yaradılmış 41 min iş yeri saxlanılıb.

Böyük Britaniyanın ən böyük investor ölkəsi olan ABŞ, ölkədə toplanan xarici investisiyaların 26,6%-ni, Aİ ölkələrinin ümumi payı isə 47,7%-ni təşkil edir. Aşağıdakı cədvəldə Böyük Britaniya iqtisadiyyatının əsas investor ölkələri göstərilmişdir.

| № | Ölkələr | Göstəricilər, %-lə |
|---|---|---|
| **1.** | ABŞ | 26,6 |
| **2.** | Niderland | 16 |
| **3.** | Fransa | 7,7 |
| **4.** | AFR | 6,4 |
| **5.** | Lyuksenburq | 6,3 |
| **6.** | Yaponiya | 4 |
| **7.** | Çin | 2,6 |
| **8.** | digər ölkələr | 30,4 |

**Cədvəl 6.1. Böyük Britaniya iqtisadiyyatının əsas investor ölkələri**

Xarici investisiyaların sektoral təhlili göstərir ki, Böyük Britaniyada xarici investisiyalar üçün ən cəlbedici sahələr proqram təminatının inkişafı (2021/2022-ci maliyyə ilində 274 layihə) və biznes xidmətləri üzrə layihələrdir (156 layihə).

Funksional baxımdan xarici investisiyalar əsasən xidmət sektoruna (582 layihə), istehsala (302 layihə) və elmi-tədqiqat işlərinə (137 layihə) yönəldilib.

Böyük Britaniya Kiçik Biznes Xidmətinə görə, biznesin dəstəklənməsi üçün Oksford yeniliklər formulası sözün əsl mənasında işə yarayır. Onların apardığı tədqiqatda göstərilir ki, Oksford yeniliklər mərkəzlərindən istifadə edən yeni bizneslərin müvəffəqiyyət əldə etmək şansları daha böyükdür. Ən zəruri ilk iki il ərzində onların fəaliyyət meydanında qalmaq şansları 89% təşkil edir. Bu isə Böyük Britaniya üzrə orta göstərici olan 78%-dən daha müsbət nəticədir.

Böyük Britaniyada investisiya layihələri dövlət dəstəyinə malikdir. Xarici vətəndaşları siyasi və maliyyə sabitliyi, xüsusi

mülkiyyətə ənənəvi hörmət və qanunların qüsursuz icrası da cəlb edir.

Bir qayda olaraq, xaricilər Böyük Britaniya ilə tanışlığa paytaxtdan başlayırlar. London qədim tarixi və müasir həyat ritmi ilə diqqəti cəlb edən heyrətamiz bir şəhərdir. Bu metropolda tarixi-mədəni yerlər, memarlıq abidələri, hər cür əyləncə obyektləri cəmləşib.

Lakin London dünyanın ən böyük maliyyə mərkəzidir, aparıcı bankların və dünya sənaye şirkət qərargahları və ofisləri burada cəmləşib. Bir çox xarici vətəndaş Böyük Britaniyada şirkətlər qeydiyyatdan keçirməyə və paytaxtda öz ofisini açmağa meyllidir. Belə bir addım düzgündür və müəssisənin biznesini əhəmiyyətli dərəcədə canlandıra bilər.

Böyük Britaniyada kommersiya və yaşayış daşınmaz əmlakına böyük tələbat var. Londonda daşınmaz əmlak likviddir, yüksək qiymətləndirilir, zaman keçdikcə dəyəri sürətlə artır. Amma ölkənin digər şəhərlərində daşınmaz əmlaka investisiya qoymaq da sərfəlidir.

Bu gün Böyük Britaniyada daşınmaz əmlak sahibi olmağın ən geniş yayılmış yolu hazır obyekt (mənzil, ev, bina) almaqdır. Bu, perspektivli sərmayədir. Çünki daşınmaz əmlakın qiyməti, xüsusən də böyük şəhərlərdə hər bir şəhərlə birlikdə bahalaşır. Problem ondadır ki, belə bir alış-veriş üçün əhəmiyyətli miqdarda pul xərcləmək lazımdır.

Növbəti ən məşhur investisiya variantı ipoteka ilə daşınmaz əmlak almaq və onu icarəyə verməkdir. İngiltərə banklarında belə əməliyyatlar üçün əlverişli şərait var, onlar xarici vətəndaşlarla işləməkdən imtina etmirlər.

Son zamanlar yeni tikintilərə pay töhfələri böyük tələbat almağa başlayıb. Şəhərlərin böyüməsi və yenidən qurulması fəal şəkildə davam edir, yeni meydanlar salınır, köhnə tikililər, o cümlədən mərkəzi rayonlarda olanlar sökülür, boş qalan ərazilərdə müasir binalar ucaldılır. Bünövrənin qoyulması mərhələsində əcnəbi vətəndaşlar da daxil olmaqla, geniş təbəqənin paylı tikintidə iştirak etmək hüququ var. Mühüm üstünlüklərə ilkin ödənişin 10%-dən çox olmaması daxildir.

MDB ölkələrinin vətəndaşları Böyük Britaniyada investisiya layihələrinə, xüsusilə daşınmaz əmlakın alınmasına maraq göstərirlər. Eyni zamanda, çoxları ortaq tikinti, öz evinin tikintisi və ya sıfırdan yaşayış/kommersiya obyektinin tikintisi ilə maraqlanır.

Tikinti işləri və ya daşınmaz əmlakın alınması və təmiri ilə bağlı layihənin uğurla həyata keçirilməsi üçün investorlar, bir qayda olaraq, ixtisaslı yardıma ehtiyac duyurlar.

## 5.7. Böyük Britaniyanın xarici iqtisadi əlaqələri

**Plan:**

**1. Böyük Britaniya iqtisadiyyatında xarici iqtisadi əlaqələrin rolu**

**2. Böyük Britaniyada aparılan xarici ticarət siyasətinin məqsədi**

**Böyük Britaniya iqtisadiyyatında xarici iqtisadi əlaqələrin rolu.** İlk insan kollektivlərinin tarix səhnəsinə çıxması, təkərin ixtira olunması, at, dəvə və s. heyvanlardan qoşqu vasitəsi kimi istifadə edilməsi, əmək bölgüsünün baş verməsi, son nəticədə, ticarətin və yolların meydana gəlməsinə və inkişafına güclü təkan vermişdir. İlk

sivilizasiyaların və dövlətlərin formalaşması ilə isə, beynəlxalq ticarətin əsası qoyulmuş, bu da, ticarət yollarının daha geniş çoğrafiyanı əhatə etməsinə və onların şaxələnməsinə səbəb olmuşdur.

Tarixi inkişafın bütün mərhələlərində ticarət əlaqələri, ticarət yolları və marşrutları xüsusi əhəmiyyət kəsb etmişdir. Onların bəziləri əsrlər boyu fəaliyyət göstərmiş və bununla da, ayrı-ayrı ölkələr və xalqlar arasında iqtisadi, siyasi və mədəni əlaqələrin inkişafına yardım etmiş, sivilizasiyalar və mədəniyyətlərin qovuşması və qarşılıqlı olaraq zənginləşməsi üçün imkanlar yaratmışdır.

İnkişaf etmiş ölkələrin dünya iqtisadiyyatındakı mövqeyini müəyyənləşdirən xarici iqtisadi əlaqələr onların inkişafında mühüm rol oynayır. Onların inkişaf profilləri yalnız digər alt sistemlərlə əlaqəni deyil, həm də daxili bazara təsir dərəcəsini göstərir.

Milli iqtisadiyyatın dünya iqtisadi sisteminə inteqrasiya olunması, ticari-iqtisadi münasibətlərdə baş verən müsbət keyfiyyət və kəmiyyət dəyişikliklərinə, ilk növbədə, tam hüquqi-iqtisadi, idarəçilik baxımından qanunvericilik aktlarının qəbul edilməsi, bazar infrastrukturlarının formalaşdırılması və onların çevik fəaliyyət mexanizminin yaradılması əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Böyük Britanıyanın ticarət əlaqələrinin genişləndirilməsində və dərinləşdirilməsində ölkənin bir çox beynəlxalq iqtisadi təşkilatlarda iştirakı, regional iqtisadi-ticarət əməkdaşlığa qoşulması və ayrı-ayrı ölkələrdə bağlanmış ticarət müqavilələri müstəsna əhəmiyyət kəsb edir.

Müasir şəraitdə Böyük Britaniyanın xarici ticarətinin öyrənilməsi dəyişikliklərin statikasını və ölkədə iqtisadi sabitliyin bərqərar olmasını izləməyə imkan verir. Böyük Britaniyanın xarici

ticarətini araşdırmaq ölkənin dünya iqtisadiyyatındakı payını, xarici ticarət dinamikasını, ixrac kvotalarını, xarici ticarət indekslərini, ixracat və idxalın əmtəə quruluşunu, həmçinin, ixrac və idxalın coğrafi istiqamətini təhlil etməyə kömək edir [42, s. 267].

Ölkə iqtisadiyyatında müşahidə edilən sürətli inkşaf prosesləri xarici-iqtisadi əlaqələrdə də təzahür olunur. Xarici-iqtisadi əlaqələrin əsas göstəricilərinin təhlili beynəlxalq iqtisadi inteqrasiya proseslərinin sürətləndiyini göstərir.

Böyük Britaniya ilə yeni sənayeləşmiş ölkələr arasında ticarət əlaqələri dünya iqtisadi münasibətlərin ən dinamik əlaqələrdən biridir.

Xarici ticarət Böyük Britaniya iqtisadiyyatı üçün çox vacib sahələrdən biridir. Çünki ölkə beynəlxalq bazarlarda müstəsna mövqe tutur. Böyük Britaniya dünya bazarının məhsul, xidmət və kapital ixracının böyük bir hissəsini təşkil edir.

Hazırda dünya məhsul ixracının 6,7%-ni, idxalının 4,2%-ni təşkil edir.

2022-ci ildə Böyük Britaniyanın ixrac həcmi 475 mlrd. dollar olmuşdur. 2021-ci illə müqayisədə 18,9% və ya 75 mlrd. dollar yüksəlmişdir.

Böyük Britaniyanın əsas ticarət tərəfdaşı ölkə ticarətinin 51%-ni təşkil edən Avropa ölkələridir. Avropa ölkələri arasında əsas ticarət tərəfdaşları AFR (ticarətin 12,5%-i), Hollandiya (7,4%) və Fransadır (6,1%). Digər regionlardan aparıcı tərəfdaşlar ABŞ (9,7%) və Çindir (7%).

Böyük Britaniyanın əsas ixrac tərəfdaşları ixracın 48%-ni təşkil etməklə Avropa ölkələridir. ABŞ 13%, Çin 5%, Honq-Konq 2,2%, Rusiya 1,3% və Kanada isə 1,3%-ni təşkil edir.

Böyük Britaniya digər ölkələrə əlvan metallar, kimya məhsulları, avtomobillər, avtomatik dəzgahlar, təyyarə mühərrikləri, kənd təsərrüfatı maşınları, aerokosmik məhsullar, elektron avadanlıqlar, neft məhsulları, əczaçılıq və toxuculuq məhsulları ixrac edir. Ölkə dünya alkoqollu içkilərin (şotland viskisi) ixracının demək olar ki, 1/5-ni təmin edir [38, s. 345].

2022-ci ildə Böyük Britaniyanın idxal həcmi 688 mlrd. dollar olmuşdur. 2021-ci illə müqayisədə 8,2% və ya 54 mlrd. dollar yüksəlmişdir.

Böyük Britaniyanın əsas idxal tərəfdaşları idxalın 53%-nı təşkil etməklə Avropa ölkələridir. Çin 8%, ABŞ 7,8%, Honq-Konq 1,6%, Rusiya 1,4% və Kanada isə 1,2%-ni təşkil edir. Ölkəyə böyük miqdarda maşın, avadanlıq və kimyəvi maddələr, o cümlədən təbii kauçuk, fosforitlər, əlvan və nadir metallar, dəmir filizi idxal olunur.

Böyük Britaniya və **AFR** arasında ticarət tərəfdaşlığı yaxşı inkişaf edib. AFR Britanıyanın ən əsas böyük ticarət tərəfdaşıdır. 2022-ci ildə Britaniya AFR-ə 44 mlrd. dollarlıq məhsul ixrac, 52,1 mlrd. dollarlıq məhsul idxal etmişdir etmişdir.

Böyük Britaniya və **Hollandiya** arasında ticarət tərəfdaşlığı yaxşı inkişaf edib. Hollandiya Britanıyanın 2-ci böyük ticarət tərəfdaşıdır. 2022-ci ildə Britaniya Hollandiyaya 36,4 mlrd. dollarlıq məhsul ixrac, 47,2 mlrd. dollarlıq məhsul idxal etmişdir etmişdir.

Böyük Britaniya və **Fransa** arasında ticarət tərəfdaşlığı yaxşı inkişaf edib. Fransa Britanıyanın 3-cü ən böyük ticarət tərəfdaşıdır. 2022-ci ildə Britaniya Fransaya 27,2 mlrd. dollarlıq məhsul ixrac, 38,8 mlrd. dollarlıq məhsul idxal etmişdir etmişdir.

Böyük Britaniya və **Amerika Birləşmiş Ştatları** tarix, dil, mədəniyyət, ticarət, demokratik dəyərlər və ümumi maraqlar baxımdan bir-birinə bağlıdır.

Birləşmiş Krallıq ilə ABŞ arasında oxşar tərəflər çoxdur. Məsələn, onların hər ikisi Şimali Atlantika Müqaviləsi Təşkilatının (NATO) üzvüdürlər.

Birləşmiş Krallıq və ABŞ yaxın hərbi müttəfiqlərdir Birləşmiş Krallıq ABŞ-dan "Tomahavk" adlı uzaq məsafəli raket və "Trident" adlı nüvə silahı kimi hərbi texnologiya avadanlıqları alır. ABŞ da öz növbəsində Britaniyadan "Harrier" qırıcı təyyarələri kimi silahlar alır. Amerika Birləşmiş Ştatları, həmçinin Birləşmiş Krallıqda böyük hərbi qüvvə saxlayır.

Biznes nöqtəyi nəzərdən onlar güclü ticarət tərəfdaşıdırlar. ABŞ Birləşmiş Krallığın 2-ci böyük ticarət tərəfdaşıdır. Təxminən Birləşmiş Krallıq ticarətində Avropa İttifaqından sonra (48%) təxminən 9,7% yerə sahibdir.

Birləşmiş Krallıq da ABŞ üçün Çin, Kanada, Meksika, AFR və Yaponiya ilə birlikdə əsas ticarət tərəfdaşlarından biridir. Hər iki ölkə dünyanın əsas maliyyə şəhərlərinə (Nyu York və London) ev sahibliyi edirlər.

2022-ci ildə ölkələr arasında ticarət dövriyyəsi 202 mlrd. dollar olmuşdur.

Hazırda Britaniyanın siyasəti ABŞ-la əlaqələri saxlamaqdır və bu da ikitərəfli əlaqələrin göstəricisidir.

Böyük Britaniya əsas ticarət tərfdaşlarından biri **Kanadadır**. Hər iki ölkəni tarix, Millətlər Birliyi, eynilə dövlət başçısı və monarxın olması kimi məqamlar birləşdirir. Hər 2 ölkə iki dünya müharibəsində, Koreya müharibəsində birgə mübarizə aparıblar və həmçinin Əfqanıstan müharibəsi zamanı koalisiyada əməkdaşlıq ediblər. Hər ikisi NATO-nun aparıcı üzvü və böyük 7-lik, böyük 8-liyin də üzvüdür.

Böyük Britaniya Kanadanın Avropadakı ən mühüm ticarət tərəfdaşıdır və ABŞ və Çindən sonra üçüncü yerdədir. 2022-ci ildə ölkələr arasında ticarət dövriyyəsi 26 mlrd. dollar olmuşdur.

İki ölkə arasında turizm əlaqələri də yaxşı inkişaf etmişdir. 2022-ci ildə 800 min Britaniya vətəndaşı Kanadaya səfər etmişdir. Həmin il Britaniya turistləri Kanadaya səfər etmək üçün təxminən 1 mlrd. Kanada dolları xərcləmişdilər. Həmçinin, həmin ildə 700 min kanadalı turist Böyük Britaniyaya səfər etmiş və 800 mln. Kanada dolları xərcləmişdir.

Böyük Britaniya və Fransanın müdafiə sahəsində əməkdaşlığı xüsusi əhəmiyyət daşıyır. Hər iki ölkə NATO-nun əsasını qoyan üzvlər və BMT Təhlükəsizlik Şurasının daimi üzvləridir. Hər iki ölkə regional və qlobal sülh və təhlükəsizlikdə əsas rol oynayırlar. Bu iki ölkənin müdafiə sənayeləri birlikdə Avropanın müdafiə ixracatının 40%-ni təşkil edir [81].

2022-ci ildə Böyük Britaniyada təxminən 350 min fransız, Fransada isə təxminən 400 min britaniyalı yaşayırdı.

**Böyük Britaniyada aparılan xarici ticarət siyasətinin məqsədi.** Ölkədə aparılan xarici ticarət siyasətinin məqsədini Böyük Britaniyanın dünya ölkələri ilə hərtərəfli iqtisadi əməkdaşlığının yaradılması və dünya iqtisadiyyatına səmərəli inteqrasiyası təşkil edir. Bu məqsəddən irəli gələrək ölkənin xarici ticarət siyasətinin başlıca vəzifələri kimi aşağıdakılar çıxış edir:

- ölkənin dünya əmtəə bazarında mövqeyinin möhkəmləndirilməsi;
- hazır məhsul və xidmətlərin ixracının genişləndirilməsi;
- yüksək texnoloji və elmtutumlu məhsulların ixracının dəstəklənməsi;

- idxalı əvəz edən yerli istehsalın inkişafı üçün əlverişli şəraitin yaradılması;

- idxalın əmtəə strukturunun təkmilləşdirilməsi, milli istehsalın genişləndirilməsi və rəqabət qabiliyyətinin yüksəldilməsi;

- səmərəli gömrük-tarif siyasətinin həyata keçirilməsi;

- malların idxalı və ixracı, valyuta gəlirlərinin və xərclərinin optimal nisbətinin təmin edilməsi.

Böyük Britaniya iqtisadiyyatının inkişafında xarici-iqtisadi əlaqələrin və xarici ticarət fəaliyyətinin əhəmiyyətini artıran bir qrup amillərə bunları aid etmək olar:

- milli iqtisadiyyat xarici ticarət vasitəsilə ilə dünya ölkələrinin sərhədlərini daha tez keçir və inteqrasiya kanallarına daxil olur;

- xarici-iqtisadi əlaqələr dövlətlərarası çoxşaxəli münasibətlər formalaşdırır, beynəlxalq əməkdaşlığın səmərəli modellərinin müəyyənləşdirilməsinə yardımçı olur;

- xarici ticarət fəaliyyəti ölkənin istehsal, təsərrüfat və idarəetmə sferalarına yeni texnologiyalar, müasir avadanlıqlar, mütərəqqi idarəetmə metodları gətirir;

- xarici iqtisadi əlaqələrin artması və coğrafiyasının genişlənməsi milli iqtisadiyyatın müxtəlif sahələrinə xarici investisiyaların cəlbini və bu sahələrə xarici investorların gəlməsini sürətləndirir;

- xarici ticarət fəaliyyəti üzrə rəqabətqabiliyyətli müəssisələrin şəbəkəsinin genişlənməsi milli iqtisadiyyatın fəallığını artırır, rəqabət mühitini gücləndirir, milli keyfiyyət standartlarının səviyyəsinə müsbət təsir göstərir;

- xarici ticarətin artımı ölkənin strateji iqtisadi siyasətinin qarşısında duran vəzifələrin yerinə yetirilməsinə real imkanlar

yaradır, ölkəyə valyuta resurslarının gətirilməsini və valyuta ehtiyatlarının artırılmasını təmin edir;

- ixrac təyinatlı məhsulların çeşidinin çoxalması daxili istehlak bazarının səviyyəsinin artmasını stimullaşdırır, ölkənin beynəlxalq aləmdə, dünya əmtəə bazarlarında imicini yüksəldir;

- ixrac potensialının yüksəlməsi milli iqtisadiyyatın müxtəlif sektorlarının dünya iqtisadiyyatında baş verən maliyyə və iqtisadi problemlərin fəsadlarına immunitetinin formalaşmasına əsaslı köməklik göstərir;

- ixrac potensialının artması milli iqtisadiyyatın çoxşaxələndirilməsinə imkan verir və s.

Birbaşa investisiya şəklində ən böyük kapital ixracatçılarından biri olaraq Böyük Britaniya xaricdəki şirkətləri üçün hərtərəfli dəstək, o cümlədən, hərbi təzyiq göstərmək üçün lazımi investisiya mühitini yaratmağa çalışır.

Birbaşa xarici investisiyaların həcminə görə Böyük Britaniya dünyada ABŞ və Yaponiyadan sonra üçüncü yerdədir.

## 5.8. Böyük Britaniya ilə Azərbaycan Respublikası arasında xarici iqtisadi əlaqələr

**Plan:**

**1. Böyük Britaniyanın Azərbaycan Respublikası ilə iqtisadi əlaqələrinin tarixi**

**2. Böyük Britaniyanın Azərbaycanla iqtisadi əməkdaşlığı**

**3. Böyük Britaniya və Azərbaycan arasında müxtəlif sahələr üzrə əlaqələr**

**Böyük Britaniyanın Azərbaycan Respublikası ilə iqtisadi əlaqələrinin tarixi.** Azərbaycan 32 il əvvəl Sovet İttifaqının dağılması ilə müstəqillik qazandıqdan sonra böyük bir yol qət etmişdir. O, səmərəli sosial-iqtisadi inkişaf və aktiv diplomatiya vasitəsilə özünü daxili qeyri-sabitlik, xarici münaqişə və böyük inkişaf problemləri vəziyyətindən aparıcı regional gücə transformasiya edə bilmişdir.

Böyük Britaniya tərəfindən Qafqaz və Xəzər regionunda etibarlı tərəfdaş kimi tanınıb. Digər tərəfdən, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Böyük Britaniyanın ötən illərdə ölkəmizin ərazi bütövlüyünə verdiyi dəstək Azərbaycanda yüksək qiymətləndirilib.

BMT Təhlükəsizlik Şurasında Ermənistan tərəfindən Azərbaycanın işğal edilən ərazilərinin boşaldılmasını tələb edən qətnamələrin qəbulunda da Böyük Britaniyanın böyük təsiri olub. Bu ölkə, həmçinin Azərbaycanın Avropa məkanına və strukturlarına inteqrasiyasına öz dəstəyini verib.

Sovet İttifaqı dağıldıqdan sonra Böyük Britaniya Azərbaycanın müstəqilliyini 1991-ci ilin dekabr ayında tanımışdır. Həmçinin Azərbaycanın Avropada Əməkdaşlıq və Təhlükəsizlik Konfransında (hazırda Təşkilat adlanır) iştirakını dəstəkləmişdir.

İki ölkə arasında diplomatik əlaqələr parlamentin üzvü, Britaniya Xarici İşlər Nazirliyinin Dövlət Naziri Hon Duqlas Hoqqun 1992-ci ilin mart ayında Bakıya səfərindən sonra yenidən qurulmuşdur. Brayn Fol Britaniyanın Azərbaycandakı ilk səfiri təyin edilmişdir. 1993-cu ildə təyin edilən Tom Yan isə Britaniyanın Azərbaycanda daimi nümayəndəliyində ilk səfir olmuşdur. Azərbaycanın Böyük Britaniyadakı səfirliyi isə 1994-cü ilin yanvar ayında açılmışdır [99].

Azərbaycan Respublikası ilə Böyük Britaniya arasında əlaqələr dinamik inkişaf edir. Hər iki ölkənin iqtisadiyyat, ticarət, investisiya, sənaye, enerji, kənd təsərrüfatı, rabitə və yüksək texnologiyalar, təhsil, mədəniyyət və turizm, gənclər və idman, ekologiya sahələrində mövcud əməkdaşlıq getdikcə möhkəmlənir. Azərbaycan bu ölkə ilə neft sektoru ilə yanaşı, qeyri-neft sahəsində də əlaqələrin genişləndirilməsində hər zaman maraqlı olub.

Böyük Britaniya BP-nin Azərbaycanın neft-qaz sektorunun inkişafı və modernləşdirilməsinə verdiyi mühüm töhfələr vasitəsilə enerji sənayesində Azərbaycanın əsas tərəfdaşıdır. Bu tərəfdaşlıq nəticəsində Böyük Britaniyadan gələn investisiyalar ölkədəki bütün xarici investisiyaların 50%-nə qədər olmaqla, Britaniya Azərbaycanda ən böyük xarici investor statusunu qorumaqdadır. Bakıda 4 minə yaxın Britaniya vətəndaşı yaşayır.

**Böyük Britaniyanın Azərbaycan Respublikası ilə iqtisadi əməkdaşlığı.** Azərbaycan-Böyük Britaniya iqtisadi münasibətlərinin yaranması və bütün sonrakı inkişafında neft amili həlledici rola malik olmuşdur. Bununla bərabər Britaniya tərəfi ölkəmizdə iqtisadiyyatın başqa sahələrinə (bank, sığorta, telekommunikasiya, tikinti, nəqliyyat və s.) maraq göstərir.

Hazırda Azərbaycanda ən böyük sərmayəçi olan Böyük Britaniya ilə Azərbaycan arasında iqtisadi əlaqələr aşağıdakı müqavilələrlə tənzimlənir:

- Energetika Sahəsində Əməkdaşlıq haqqında Memorandum;
- İkiqat Vergiqoymanın aradan qaldırılması haqqında Saziş;
- Azərbaycan-Britaniya Ticarət-Sənaye Şurasının yaradılmasına dair Qarşılıqlı Anlaşma haqqında Memorandum;
- İnvestisiyaların Təşviqi və Qarşılıqlı Qorunması haqqında Saziş;

- Hava Daşımaları Sahəsində Əməkdaşlıq Müqaviləsi;
- Rabitə Sahəsində Qarşılıqlı Anlaşma haqqında Memorandum [100].

Bunlardan başqa, iqtisadi əlaqələrdə Azərbaycan Prezidenti Heydər Əliyevin 1994-cü il aprelin 5-də "Azərbaycan Respublikasında xarici ticarətin liberallaşdırılması haqqında"; 1999-cu il yanvarın 7-də "Biznesin inkişafı üçün süni maneələrin aradan qaldırılmasına dair" fərmanları və 1996-cı ilin iyun ayında Böyük Britaniya hökumətinin Azərbaycana təminatlı ixrac kreditlərinin verilməsi haqqında qərarı da mühüm rol oynamışdır.

Xüsusilə, qeyd etmək lazımdır ki, Böyük Britaniya ilk Qərb dövlətidir ki, Azərbaycana qoyulacaq maliyyə vəsaitlərinə dövlət zəmanəti verir və hər cür investisiya qoyulmasını rəsmi alqışlayır. Britaniya hökumətinin 25 mln. dollar həcmində dövlət təminatına dair ilk qərarı 1996-cı ilin iyununda verilmişdir. Həmin məbləğin 16 mln. dolları Binə beynəlxalq hava limanı tikintisinin başa çatdırılması layihəsinə cəlb olunmuşdur. Britaniya hökumətinin 1998-ci ilin əvvəlində qəbul etdiyi qərarla Azərbaycana kreditlər üzrə təminatların həcmi 100 mln. dollardan yuxarı artırılmışdır ki, bu da Rusiyadan başqa digər MDB ölkələri üçün verilmiş kreditlərin həcmindən çoxdur. Əhalinin sayı nəzərə alındıqda isə, Azərbaycan 1-ci yeri tutur.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, Azərbaycanda Britaniya kapitalının iştirakı ilə neftçıxarma, tikinti, nəqliyyat, xidmət və digər sahələrdə 600 müəssisə qeydə alınmışdır. Onlardan 63 şirkət birgə müəssisə, 82 şirkət 100% Britaniya kapitalının iştirakı ilə və 162 şirkət filial və nümayəndəlik kimi fəaliyyət göstərir. Bunların sırasına "BP", "Ramco", "Shell", "Spearhead Exhibitions", "HSBC" (Yaxın Şərqin Britaniya Bankı), " British Airways"

(Britaniya hava yolları), "Morrison Construction", "AzEuroTel", "Braun end Rud", "Murphy İnternational" digər şirkətlər daxildir [101].

Ölkələrimiz arasında neft-qaz sahəsində əməkdaşlıq daha genişdir. Böyük Britaniyanın BP şirkətinin neft-qaz sektorunda 7 layihədə, eləcə də Bakı-Tbilisi-Ceyhan, Cənub Qaz Dəhlizi kimi layihələrdə fəal iştirakı bunun bariz ifadəsidir.

Bütün dünyada nəhəng infrastruktur, maliyyə və kadr ehtiyatlarına malik bir çox Britaniya şirkətlərinin Azərbaycan iqtisadiyyatının həm neft, həm də qeyri-neft sektorundakı iştirakı prosesindən bəhs etməzdən əvvəl, bu ölkənin respublikamızda fəaliyyət göstərən şirkətlərinin bir qismi haqqında müəyyən məlumatların verilməsi məqsədəuyğun olar.

Dünyada çox az saylı şirkətlər var ki, onların adı çəkiləndə əsas fəaliyyətləri haqqında fikir yürütmək mümkün olsun. Onlardan biri, Böyük Britaniyanın planetin 70-dən artıq ölkəsində - Qərbi Avropa, ABŞ, Cənubi və Şərqi Asiya, Avstraliya və Okeaniya, Afrika, habelə, ötən əsrin sonlarında dünya sosializm düşərgəsinin süqutundan sonra Şərqi Avropa regionunda fəaliyyət göstərən "British Petroleum" (BP) şirkətidir.

Mövcud olduğu 100 ilə yaxın dövr ərzində bu şirkət beynəlxalq aləmdə gedən kəskin rəqabətə davam gətirərək, ilbəil öz fəaliyyətini təkmilləşdirmiş, özünəməxsus təşkilati struktur formalaşdırmışdır. "British Petroleum Compani p.l.c.", qısa adı "BP" şirkəti bir neçə beynəlxalq miqyaslı şirkətdən ibarətdir: "BP Exploration", "BP Oil", "BP Chemicals", "BP Research", "BP Enginering", "BP Nutrition", "BP Roldair" və "BP Solar".

"British Petroleum"un Azərbaycandakı fəaliyyətinin çox maraqlı tarixi vardır. Bu münasibətlərin bünövrəsi ölkəmizin Sovet

İttifaqı tərkibində olduğu zaman qoyulmuşdur. Belə ki, 1987-ci ildə "SSRİ-nin birgə müəssisələr haqqında" qanununa edilmiş düzəliş xaricilərə sovet iqtisadiyyatına kapital qoymağa imkan vermişdir.

SSRİ neft-qaz sənayesinin və Azərbaycan hökumətinin tapşırığı ilə "Xəzər-dəniz-neft-qaz" İstehsalat Birliyi "Azəri" neft yatağının birgə işlənilməsi üçün 1991-ci ilin yanvarında tender elan etmişdir. Digər xarici şirkətlər kimi, "BP" də, hələ ötən əsrin son onilliyində ölkəmizdə fəaliyyət göstərmək, öz maraqlarını həyata keçirmək üçün bu tenderdə iştirak etmişdir.

Göründüyü kimi 1991-ci ildə qeyd edilən tenderdə "AMOKO", "UNOCAL", "Mac Dermott" şirkətləri ilə yanaşı, "British Petroleum/Statoil" alyansı da iştirak etmiş, "BP"nin nümayəndə heyətləri ölkəmizə səfərlər etmiş, "Azəri" yatağının işlənilməsinə, ümumiyyətlə, respublikanın sosial infrastrukturunun inkişafına dair təkliflərini təqdim etmişdir. Bəhs edilən tenderin nəticələrinə 1991-ci ilin iyun ayında yekun vurulmuş və ABŞ şirkəti "AMOKO"qalib elan edilmişdir. Bundan sonra "AMOKO" şirkətinin rəhbərliyi altında "BP/Statoil" alyansı, "Mac Dermott", "UNOCAL" və "Ramko" şirkətlərinin daxil olduğu konsorsium təşkil olunmuş və respublika hökuməti ilə aparılan danışıqlar nəticəsində müəyyən razılaşmalara nail olunmuşdur.

1992-ci ilin noyabrında "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının eyni təbiətə malik olduqlarını nəzərə alaraq, investisiya və istismar xərclərinə qənaət edilməsi məqsədi ilə "BP/Statoil" alyansının da təmsil olunduğu xarici neft şirkətləri ilə ARDNŞ arasında 5 müqavilə memorandumu imzalanmışdır. Bu proses 1993-cü il mayın 6-da bağlanmış 6-cı memorandumla başa çatmışdır.

1994-cü il sentyabrın 20-də Bakıda – "Gülüstan" Sarayında "Əsrin Müqaviləsi" imzalanmışdır. Müqavilədə "BP/Statoil"

alyansının iştirakçı payı 34,1%-dir və o, layihədə operator rolunu oynayır. Beləliklə, "Əsrin Müqaviləsi"nin imzalanması ilə "BP/Statoil" alyansının ölkəmizdəki fəaliyyətində yeni mərhələ başlanmışdır [102].

Azərbaycanda Britaniya istehsalı olan 29 adda dərman dövlət qeydiyyatından keçib və ölkəmizdə dərman preparatlarının, tibbi avadanlığın birgə istehsalı sahəsində bu ölkə ilə əməkdaşlığın genişləndirilməsi nəzərdə tutulub.

Son illərdə hər iki ölkənin dövlət baytarlıq orqanları arasında informasiya mübadiləsinin, kənd təsərrüfatı məhsulları ticarətinin aparılmasına da mühüm önəm verilib.

İki ölkə arasında ticarət və investisiya üçün daha yaxşı biznes mühitinin yaradılmasında əməkdaşlıq maraqları ifadə edilib. Sumqayıt kimya və Pirallahı sənaye parkları, dövlət-özəl tərəfdaşlığı layihələrinin reallaşdırılması isə əməkdaşlıq üçün yeni imkanlar müəyyənləşdirib.

Böyük Britaniya Azərbaycan iqtisadiyyatına ən çox investisiya yatıran ölkədir. Belə ki, indiyədək Azərbaycan iqtisadiyyatına Böyük Britaniya tərəfindən 30 mlrd. dollar investisiya yatırılıb. Bu vaxta qədər iki ölkə arasında 10-a yaxın biznes-forum və investisiya sammiti təşkil edilib.

2022-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi 1 mlrd. dollar olmuşdur. O cümlədən, ixracın həcmi 778 mln., idxal isə 222 mln. dollar olmuşdur.

Öz növbəsində, Azərbaycandan Böyük Britaniyaya neft tədarükü bütün ixracın 81,3%-ni təşkil edir. Bundan əlavə Böyük Britaniyaya elektrik generatorlarının tədarükü 27,4%, məişət texnikasının isə 4,3% olmuşdur.

Ümumilikdə Böyük Britaniyanın xarici ticarətində Azərbaycanın payı 0,1% təşkil edir.

Azərbaycanın xarici ticarətində Böyük Britaniyanın payı 10,4%-dır. Böyük Britaniyadan Azərbaycana əsas ixrac məhsulları texnologiya, mühəndis və neft-kimya avadanlığı, eləcə də tekstil məhsullarıdır.

Böyük Britaniyadan Azərbaycana əsas ixrac məhsulları texnologiya, mühəndis və neft-kimya avadanlığı, eləcə də tekstil məhsullarıdır.

Son illərdə ölkəmizdə aparılmış islahatların bir hissəsi bərpaolunan **enerji** istehsalı ilə bağlıdır ki, bu sahədə də bir sıra təşəbbüslər uğurla reallaşdırılıbdır. Bərpaolunan energetika sahəsi son dövrlərdə yaşıl iqtisadiyyatın inkişafında önəmli yer alıb. Azərbaycan bu sahədə zəngin təcrübəyə malik ölkələrlə əməkdaşlığı genişləndirmək xəttini tutur. Nəzərə alsaq ki, işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatı, bərpa olunan enerjinin və günəş enerjisinin inkişafı üçün imkanlar var və bu sahədə də Böyük Britaniyanın nümunəvi təcrübəsi mövcuddur. O zaman münasibətlərimizin yüksək səviyyədə olması Azərbaycana sözügedən ölkənin təcrübəsindən yararlanmaqda kömək edəcəkdir.

Artıq Britaniya şirkətlərindən biri işğaldan azad edilmiş ərazilərdə şəhərsalmaya, infrastrukturun inkişaf etdirilməsinə cəlb olunmuşdur. İşğaldan azad olunmuş Azərbaycan ərazilərində yaşıl enerji zonalarının yaradılması, həmçinin bu ərazilərdə bərpa olunan enerjidən istifadə işində Britaniya şirkətləri maraqlıdır.

**Böyük Britaniya və Azərbaycan arasında müxtəlif sahələr üzrə əlaqələr.** İki ölkə arasında müxtəlif sahələr üzrə əlaqələr mövcuddur.

Azərbaycan Böyük Britaniya arasında **təhsil** sahəsində də əməkdaşlıq yüksək səviyyədədir. Bu münasibətlərin əsası 1994-cü ilin fevral ayında Prezident Heydər Əliyevin Londona səfəri çərçivəsində iki ölkə arasında təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlığa dair Sazişin imzalanması ilə qoyulubdur. Britaniya universitetləri xarici ölkələrdə təhsil almağa yollanan Azərbaycanlı tələbələrin seçimləri arasında birincilik təşkil edir.

Azərbaycanlılara yalnız ingilis dilinin tədrisi ilə deyil, tədris vəsaitlərinin hazırlanması, peşəkar təhsil və digər sahələrdə Britaniya təcrübəsinin mübadiləsi istiqamətində iş aparılır. Britaniya Şurasının ən böyük təsir istiqamətlərindən biri bütün ölkə ərazisində fəaliyyət göstərən dövlət məktəblərində Təhsil Nazirliyinin ingilis dilinin tədrisi və praktiki tətbiqi sahəsində apardığı islahatlara öz əhəmiyyətli töhfəsini verməkdir.

İki ölkənin xalqları, **mədəniyyətləri** arasında da möhkəm əlaqələr mövcuddur. 2013-cü ildə Böyük Britaniyanın Oksford Universitetində Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzi və 2016-cı ildə Azərbaycanı və Qafqazı öyrənən Britaniya Fondu təsis edilmişdir. Bundan əlavə, Oksford Universitetinin Şərqşünaslıq İnstitutunun kitabxanasına Nizami Gəncəvinin adı verilmişdir ki, beləliklə də sözügedən qurumların təşəbbüsü ilə hər il Bakıda və Londonda çox sayda mədəni və elmi tədbirlər keçirilir. 2014-cü ildən etibarən ölkəmizin dəvət aldığı "Vindzor Kral Atçılıq Şousu"nda Qarabağ atlarının füsunkar gözəlliyinin nümayiş etdirilməsi xüsusi qeyd edilməlidir [102].

Böyük Britaniyanın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair rəsmi mövqeyi hər zaman beynəlxalq hüquq prinsiplərinə əsaslanmışdır.

Azərbaycan-Böyük Britaniya əlaqələrinin yüksək səviyyədə inkişafının nəticəsi 44 günlük müharibə dövründə də özünü aydın göstərmişdir. Belə ki, sentyabrın 27-də Azərbaycan və Ermənistan arasında müharibənin başlanmasından bir müddət sonra BMT-nin Təhlükəsizlik Şurasında bəzi dövlətlər Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qeyri-obyektiv, qərəzli mövqeni əks etdirən bəyanatın qəbul edilməsinə nail olmaq istəyərkən, məhz bir sıra tərəfdaşlarımızla bərabər, Britaniya da buna yol verməmişdir. O zaman bu ölkənin BMT TŞ-dəki (Təhlükəsizlik Şurası) daimi nümayəndəsi Barbara Vudvordun çevik və prinsipial mövqeyi ədalətin bərqərar olmasına kömək edir.

## İstifadə edilmiş ədəbiyyat siyahısı:

**Azərbaycan dilində:**

**1.** Abbasov İ.D. Azərbaycan və dünya ölkələrinin kənd təsərrüfatı. B., 2013. s. 293, 294.

**2.** Allahverdiyev H.B. və digərləri Milli iqtisadiyyatın dövlət tənzimlənməsi. B., 2007. s. 58.

**3.** Allahverdiyev H.B. İqtisadiyyatın hüquqi tənzimlənməsinin hüquqi əsasları. B., 2009. s. 278.

**4.** Balayev R.Ə. Urbanizasiya: şəhər iqtisadiyyatı və ərzaq problemi. B., 2007. s. 139.

**5.** Bulatov A.S. Mirovaya ekonomika. M., 2003. s. 456.

**6.** Hacızadə E.M. Dünya iqtisadiyyatı və Azərbaycan. B., 2018. s. 178.

**7.** Hacıyev Ş.H, Bayramov Ə.İ. Dünya iqtisadiyyatının tarixi. B., 2011. s. 168.

**8.** Qafarov Ş.Ş. Müasir iqtisadi sistem və qloballaşma. B., 2005. s. 96.

**9.** Qasımlı M., Fətəliyev M. Avropa və Amerika ölkələrinin müasir tarixi. II hissə, B., 2008. s. 189, 193, 197.

**10.** Quliyev N.R., Mahmudov M.M. Beynəlxalq maliyyə münasibətləri. B., 2011. s. 321.

**11.** Kaşiyeva F. Pul, kredit, banklar. B., 2011. s. 254.

**12.** Kərimov C., Orucov A. Dünya iqtisadiyyatı. B., 2007. s. 89.

**13.** Lomakin V. K. Dünya iqtisadiyyatı. B., 2013. s. 367, 368, 374.

**14.** Məhərrəmov A.M., Aslanov H.H. Məhərrəmov A.M. Xarici iqtisadi fəaliyyətin tənzimlənməsi. B., 2008, s. 389.

**15.** Məmmədov R.H. Dünya iqtisadi və sosial coğrafiyası. B., 2006. s. 78, 81, 82.

**16.** Məmmədov Z. Beynəlxalq valyuta-kredit münasibətləri və xaric ölkələrin pul-kredit sistemi. B., 2012. s. 178.

**17.** Məmmədov Z.F. Pul, Kredit, Banklar. B., 2010. s. 67.

**18.** Məmmədov Z.F. Bank fəaliyyətinin əsasları. B., 2013. s. 245.

**19.** Məmmədov C.A., Soltanova H.B., Rəhimov S.H. “Beynəlxalq turizmin coğrafiyası” B., 2002. s. 141, 145.

**20.** Mustafayeva S. ABŞ və Böyük Britaniyanın ən yeni tarixi. 1918-2007-ci illər. B., 2009. s.114, 167, 175.

**21.** Mustafayeva S. Avropa və Amerika ölkələrinin ən yeni tarixi. II hissə. B., 2010. s. 145, 147, 149.

**22.** İbadov R. Avropa İttifaqının əsasları. B., 2004. s. 67.

**23**. Rudiy K.V. Xarici ölkələrin maliyyə, pul və kredit sistemi. B., 2009. s. 93, 94.

**24.** Yeganlı S.T., Hacıyev E.M. “Turizm” B., 2006. s. 135.

**25.** Vəliyev D., Rəhimov M. Beynəlxalq Maliyyə. B., 2000. s. 365.

**Türk dilində:**

**26.** Tatoğlu E. Avrupa Birliğinin Tarihsel Gelişimi. A., 2006. s. 38.

**27.** Tatoğlu E. AB ülkelerinde Brexit rüzgarı. A., 2016. s. 125.

**28.** Örnek İ., Taş S., Yıldırım M. Geçiş Ekonomileri. Bursa: “Ekin” Yayınevi, 2008, s. 367.

**29.** Seyidoğlu H. Uluslararası İktisat: Teori, Politika ve Uygulama. İstanbul: 2009, s. 279.

**Rus dilində:**

**30.** Александров А.Ю. “География туризма” М., 2008. с. 253.

**31.** Артёмова Е.Н. Козлова В.А. Основы гостеприимства и туризма. Орёл, ГТУ, 2005, с. 52.

**32.** Богомолов О.Т. Мировая экономика в век глобализации. М.: “Экономика”, 2007, с. 359.

**33.** Великобритания. Эпоха реформ / под ред. Ал. А. Громыко. М., 2007. с. 39.

**34.** Вольский В.В. Социально-экономическая география зарубежного мира. М., 2001. с. 76.

**35.** Гладкий Ю.Н. Экономическая и социальная география мира. М., 2000. с. 45, 87, 88.

**36.** Грядовая О.В. О реорганизации деятельности коммерческих банков. М., 2000. с. 87.

**37.** Дилеммы Британии. Поиск путей развития/под ред. Ал. А. Громыко, Е. В. Ананьева. М., 2014. с. 189.

**38.** Домичев В.И. Международная торговля. М., 2000. с. 345.

**39.** Жуков Е.Ф. Деньги. Кредит. Банки. М., 1999. с. 112.

**40.** Колесов В.П. Мировая Экономика. М., 2001. с. 450.

**41.** Комаров М.П. Инфраструктура регионов мира. Учебник. СПб: Издательство “Михайлова В.А.”, 2000, с. 347.

**42.** Лавров С.Б., Каледина Н.В. Экономическая, социальная и политическая география мира. М., 2002. с. 267.

**43.** Ларин О.Н. Перспективы интеграциитранспортных систем Евразийского Экономического Союза // Проблемы национальной стратегии, 2017, №4(43), с. 152, 170.

**44.** Манаков А.Г. “Туристские регионы мира” М., 2011. с. 57.

**45.** Масленников В.В. Зарубежные банковские системы. М., 2000. с. 351.

**46.** Родионова И.А. Промышленность мира: территориальные сдвиги во второй половине XX века. М., 2002. с. 246.

**47.** Пищик В.Я. Перспективы вступления Великобритании в зону евро // Банковское дело. 2004, № 9. с. 12.

**İngilis dilində:**

**48.** Appleyard D.R., Field A.J. International Economics. McGraw-Hill, Irwin, 2001, p. 321.

**49.** Drucker Peter. Management during large changes. NY: Truman Taiiey Books, 1995, p. 654.

**50.** Frederick P. Stutz, “The World Economy: Geography, Business, Development (6th edition)” 2011, p. 488.

**51.** Kenen P.B. The International Economy. Cambridge University Press. 2008, p. 42.

**52.** Maddison A. The World Economy: A Millenial Perspective. OECD, Paris, 2002, p. 412.

**53.** Masuda Y. The information Society as Post-industrial Society. Washington: 1981, p. 286.

**54.** Mushfiq Atakishiyev. Doctor of economics, professor. New oil policy and economic development in Azerbaijan. Baku: “Aspoligraf”, 2007, p. 400.

**55.** Omaye Kenity. The The end of the national state. HY: Harper Collings. Publishers, 1994, p. 478.

**56.** Williams M., Brien R. O. Global Political Economy. Palgrave Macmillian, 2007, p. 365.

**İnternet resursları:**

**57.** A peaceful Europe – the beginnings of cooperation.
https://europa.eu/european-union/about-eu/history/1945-1959_en

**58.** A very special relationship. (2022).
https://www.nationalreview.com/magazine/2017/02/20/brexit-great-britain-united-states-and-european-union/

**59.** Ashcroft, M. (2016). How the United Kingdom voted on Thursday… and why.
http://lordashcroftpolls.com/2016/06/how-the-united-kingdom-voted-and-why/

**60.** Balfour R., Stratulat C. (2012). The enlargement of the European Union.
http://www.epc.eu/documents/uploads/pub_3176_enlargement_of_the_eu.pdf 73

**61.** The Netherlands and Brexit. (2017). Report by House of Representatives.
https://www.tweedekamer.nl/sites/default/files/atoms/files/the_netherlands_and_brexit.pdf

**62.** The history of the European Union.
https://europa.eu/european-union/abouteu/history_en

**63.** Treaty of Rome (EEC).
https://eurlex.europa.eu/legalcontent/EN/TXT/HTML/?uri=LEGISSUM:xy0023&from=EN

**64.** The history of the European Union – 1965.

https://europa.eu/europeanunion/about-eu/history/1960-1969/1965_en

**65.** The Single European Act.

https://eurlex.europa.eu/legalcontent/EN/TXT/HTML/?uri=LEGISSUM:xy0027&from=EN

**66.** Treaty on European Union.

https://europa.eu/europeanunion/sites/europaeu/files/docs/body/treaty_on_european_union_en.pdf

**67.** The European Constitution.

http://www.europarl.europa.eu/Europe 2004/textes/2005-01-10-brochure-constitution-en-v02.pdf

**68.** The Treaty of Lisbon.

http://www.europarl.europa.eu/atyourservice/en/displayFtu.html?ftuId=FTU_1.1.5.html

**69.** The 6 possible models for Theresa May's Brexit Britain. (2016).

http://uk.businessinsider.com/single-market-hard-brexit-possible-models-fortheresa-may-brexit-britain

**70.** The transatlantic meaning of Donald Trump: a US-EU Power Audit. (2017).

http://www.ecfr.eu/publications/summary/the_transatlantic_mea ning_of_donald_trump_a_us_eu_power_audit7229

**71.** Top 25 Trade Partners of UK. (2016).

https://www.uktrade info.com/Statistics/Pages/Monthly-Tables.aspx 78

**72.** UK's response to proposed EU constitution. (2003).

https://www.theguardian.com/politics/2003/sep/10/uk.eu

**73.** Williamson A. The Case for Brexit: Lessons from the 1960s and 1970s, History and Policy. (2015)

http://www.historyandpolicy.org/policypapers/papers/the-case-for-brexit-lessons-from-1960s-and-1970s

**74.** Wadsworth, J., & Dhingra, S., & Ottaviano, G., & Reenen, V. J. (2016) Brexit and the impact of immigration on the UK. | Center for Economic Performance.

http://cep.lse.ac.uk/pubs/download/brexit05.pdf

**75.** https://ru.euronews.com/2016/06/23/the-uk-and-the-eu-part-1-je-t-aime-moi-non-plus

**76.**https://www.rfi.fr/ru /европа/20210102-великобритания-вышла

**77.**https://gx.net.ua/blog/soyuz-velikobritanii-polshi-iukrainy-istoriko-politicheskij-likbez.html

**78.** https://www.eurointegration.com.ua/rus/news/2022/05/27

11. The year of Brexit decision. (2018).

http://www.dw.com/en/2018-theyear-of-brexit-decisions/a-41930811

**79.** Reasons China Fears Brexit. (2016). http://nationalinterest.org/feature/3- reasons-china-fears-brexit-16631

**80.** A new special relationship? Brexit Britain and Donald Trump embrace ‘shared vision’

https://www.express.co.uk/news/uk/843139/brexit-britainunited-states-donald-trump-theresa-may-special-relationship-trade-deal

**81.** A peaceful Europe – the beginnings of cooperation.

https://europa.eu/european-union/about-eu/history/1945-1959_en

**82.** A very special relationship. (2016).

https://www.nationalreview.com/magazine/2017/02/20/brexit-great-britain-united-states-and-european-union/

**83.** Allan D. Brexit Makes It Even More Difficult for the UK to Deal With Russia. (2017).

https://www.chathamhouse.org/expert/comment/brexitmakes-it-evenmore-difficult-uk-deal-russia#

**84.** Ashcroft, M. (2016). How the United Kingdom voted on Thursday… and why.

http://lordashcroftpolls.com/2016/06/how-the-united-kingdom-voted-and-why/

**85.** www.un.org - Birləşmiş Millətlər Təşkilatı

**86.** www.worldeconomy.ru - Kütləvi İnformasiya Vasitələri dünya iqtisadiyyatı haqqında

**87.**http://unctad.org/en/PublicationsLibrary/webdiaeia2012d4_en.pdf.

**88.**https://www.gov.uk/government/uploads/system/uploads/attachment_data/file/341601/UKTI_Inward_Investment_Report_2013-2014.pdf

**89.**http://www.dfat.gov.au/geo/united_kingdom/united_kingdom_brief.html.

**90.** https://www.cia.gov/library/publications/the-world-factbook/geos/uk.html.

**91.** http://elibrary.bsu.az/kitab/1125.pdf

**92.** https://www.tripadvisor.ru/Tourism-g186485-Scotland

**93.** http://tonkosti.ru/ Шотландия

**94.** http://www.anl.az/el_ru/a/aa_mt.pdf

**95.** http://www.econorus.org/repec/journl/2014-24-195-200r.pdf

**96.** http://guide.travel.ru/united_kingdom/england/

**97.**http://unctad.org/Sections/dite_fdistat/docs/webdiaeia2014d3_GBR.pdf.

**98.** http://www.parl.gc.ca/content/lop/researchpublications/2010-36-e.htm#a3.

**99.**https://www.globalcompliancenews.com/2021/12/17/united-kingdom-the-uks-roll-out-of-free-zones-official-designation-of-1st-free-zone-29112021/

**100.**https://washington.mfa.gov.az/az/content/72/azerbaycan-b.britaniya-iqtisadi-emekdasliq-elaqeleri

**101.** https://az.usembassy.gov/az/category/economic-affairs-az/

**102.**https://www.economy.gov.az/article/azerbaijan-united_kingdom.-discussed-economic-relations/27458

**103.**https://www.bbc.com/united_kingdom/azerbaijan/2022/01/120130_us_azerbaijan_relations_2012

**Şəfəq Hüseyn qızı Abdullayeva**

# BÖYÜK BRİTANİYA İQTİSADİYYATI
**(dərs vəsaiti)**

Naşir: Elnarə Abbasova
Texniki redaktor: Asim Səfərov
Dizayner: İradə Əhmədova
Operatorlar: Leyla Məmmədli, Ömər Qasımlı

---

Yığılmağa verilmişdir: 30.04.2025
Çapa imzalanmışdır: 30.04.2025
Format: 60×84 1/16; şərti çap vərəqi 21
Sifariş № 1007; tiraj 100 nüsxə
"Füyuzat" nəşriyyatında çap edilmişdir.
Ünvan: Bakı şəh., Z.Xəlilov küç., 26
Tel.: 055 850-98-69
e-mail: fuyuzat2020@gmail.com